

# AYƏTXAN ZİYAD (İsgəndərov)

# ÖMRÜM BİR YAŞIL YARPAQ, RƏNGLƏRİ MƏNİMKİDİ

İKSAD
Publishing House

AYƏTXAN
ZİYAD
(İsgəndərov)

Ömür-gün yoldaşım Zərnişan
(Akifə) xanımın adına bağışlayıram

# ÖMRÜM BİR YAŞIL YARPAQ, RƏNGLƏRİ MƏNİMKİDİ

*(hekayə, povest,
kino-ssenari, şeir)*

Copyright © 2019 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law. Institution Of Economic Development And Social Researches Publications®

(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
kongreiksad@gmail.com
www.iksad.net
www.iksad.org.tr
www.iksadkongre.org

It is responsibility of the author to abide by the publishing ethics rules.

Iksad Publications – 2019©
**ISBN: 978-605-80227-6-8**
October / 2019
Ankara / Turkey
Size = 14,8 x 21 cm

**Redaktorları:**

**Buludxan Xəlilov,**
Filologiya üzrə elmlər doktoru, professor;

**Təyyar Salamoğlu,**
Filologiya üzrə elmlər doktoru, professor;

**Əşrəf Hümmətov,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü.

**Rəyçilər:**

**Oqtay Rza.** Şair, Azərbaycan Yazıçılar birliyinin üzvü, «Qızıl qələm», «Araz», Mikayıl Müşfiq və Rəsul Rza mükafatları laureatı;

**Eldar Nəsibli.** Şair, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü.

**İSĞƏNDƏROV A.Z.**
**Ömrüm bir yaşıl yarpaq, rəngləri mənimkidi**
Azərbaycan dilində. Ankara, 2019, 460 səh.

Kitabda müəllifin ayrı-ayrı illərdə qələmə aldığı hekayə, povest, ssenari və şeirləri toplanmışdır. Təqdim olunanlar müəllifin mübhəm dünyasından bir yarpaq. Səhifələri yetərincə çevirin, Ayətxan Ziyadı oxuduqlarınızda görün. Ayətxan Ziyad dünyasının bu görümü təqdimatımızda.

*© Ayətxan Ziyad. 2019*

# I Fəsil

## HƏR HÖKMÜ ZAMAN VERİR
## (nəsr)



# HEKAYƏLƏR

## İTİRİLMİŞ BƏYAZLIQ

Bu hekayəti tələbə yoldaşım Möhübəli Əbilovun (Dövlət radiosunun operatoru Gülüstan onu «Möhübbətəli» çağırardı) adına bağlamışam. Hansı ki, hətta tələbəlikdən sonrakı ömrümün də müəyyən qolları bu adla (ADU-nun jurnalistika fakültəsini bitirmiş şəxslə) ünsiyyətdə olub. O kəslə ki, sayca elə də çox olmayan, ancaq ılıq, məhrəm pıçıltıları (insanın ruhunda oxunan şeirləri) indi də ürəyimdədi.

Saç-saqqal basmış, gözləri dərin quyuya düşmüş, neçə onillik bundan irəli redaktor işlədiyi Dövlət Filarmoniyasından maestro Niyazi onun anasını söydüyünə və o da cavab olaraq Niyazinin anasını söydüyünə görə işdən qovulandan, eləcə də atası tərəfindən atasına məxsus evdən çıxarılıb küçələrə atılandan sonra səfil ömrün sərgərdan axarına qovuşmuşdu. Ömrünün bu illərini ayağı salafan paketlərə bükülü, çirki qat kəsmiş cır-cındır geyimə möhtac, əl tutmaq istəyən tələbə yoldaşlarını da yaxına buraxmayan, «Azərbaycan» nəşriyyatından uzaqlaşdırılandan sonra, hətta qarlı-çovğunlu qış günlərində də ilk illər Politexnik İnstitutunun, sonra AMEA-nın bağında, 2005-ci ilin yayından isə Apelyasiya Məhkəməsinin həndəvərindəki həyətlərdən birində sərgərdan həyat sürən tələbə yoldaşımın 1980-ci illərin I yarısında yaşadığı ömürdən bir fraqmentdir Sizlərə təqdim etdiyim.

***

…Ağzında acılıq hiss etdi. Dodaqlarını bir də tamsılandırdı. Ömründə ilk dəfə idi ağzında belə talx təam hiss edirdi. Görəsən nədəndi? Mədəsində peyda olan qəfil boşluq vücudunu təntidəndə

xatirinə gəldi ki, obaşdannan ağzına sudan savayı bir zad dəyməyib. Və elə bil indicə acıdı…

Nəyi isə axtarırmıştək şalvarının torbalaşmış ciblərini eşələməyə başladı. Kaş ciblərinin künc-bucağından əlinə bir zad keçərdi. Laübalı-laübalı pencəyinin də ciblərinə əl gəzdirdi. Əvvəl yan ciblərinə, sonra döş ciblərinə. İtiyi düşmüş adamlarsayağı ciddi-cəhdlə axtarışda idi. Hamısında da Allahını çağırırdı ki, ciblərinin künc-bucağından ilişib qalmış nə isə tapılaydı. Heç olmazsa bir neçə quruş, ya bir siqaret pulu.

Əlinə bir zad keçmədi. Yaman dilxor olmuşdu. İndi neyləsin? Gecəni harada və nə sayaq yola versin? Gələnin qabağına qaçsınmı? Gedənin arxasınca boylana-boylana qalsınmı? Gözlərini qırpıb kimi isə axtarırmıştək yan-yörəsini bir də nəzərdən keçirtdi. Hövsələsi daralmışdı. Ayaqlarını götürüb-qoymaqdan özü də usanmışdı. Tuncəl isə gəlmək bilmirdi. Bəlkə unudub? Bəlkə yadından çıxıb? Axı, Tuncəlin qayğıları bir-iki deyil ki, Möhübbətəli də yadına düşə?

Əlləri şalvarının torbalaşmış ciblərində, gözləri ayaqlarının ucunda o başa-bu başa var-gəl etməyə başladı. «Sinif-sinif» oynayan uşaqlarsayağı sal döşəmə üstünə düşmüş saralmış yarpağı başladı hoppanıb düşməklə bir damadan o birinə ötürməyə. Son vaxtlar buna adətkərdə olmuşdu. İşi düz gətirməyəndə, yaxud bekarçılıqdan qarıxanda başlayardı dəqiqələri bu sayaq ötürməyə, ya da ciblərinin künc-bucağını eşələməyə: tütün tozunu, kağız qırıntılarını, qırıq-qırtıq kibrit çöplərini bir-bir çıxarıb atardı. Həmişə də ona elə gələrdi ki, axtardığını hələ tapmayıb, hələ çox axtaracaq itirdiyini.

Siqaretin əzilmiş kötüyünü dişləri arasında bir də sıxdı. Üz-gözünü turşutdu. Dilinin ucuna ilişib qalmış kağız tilişkəsinə hiddətlə tüpürdü. Hələ göydə ikən havanın sazağından büzüşmüş kağız qırıntısı uçub-uçub soyuqdan bomboz bozarmış mərmər döşəmə üzərinə düşdü. Və bir andaca yaprıxdı, sazaqdan domuşub qaldı.

Çox güman ki, gecə şaxta düşəcəkdi və bu tilişkə kağız sazaqdan qaxaca dönəcəkdi. Obaşdannan, hələ payız günəşinin üşüyən şəfəqləri gecənin sazağını bu böyük şəhərin küçələrindən qovub çıxartmamış və şaxtadan domuşmuş paytaxt küçələrinə azçox hərarət gətirməyə macal tapmamış küçə süpürgəçiləri gələcəkdilər, qaxaca dönmüş bu siqaret kağızını süpürgələrinin qabağına alıb atacaqdılar zibil qabına. Nə vaxtsa gərəkli olan bu kağız parçası beləcə unudulacaq, yaddan çıxacaqdı.

…Hər şey belədi. Hər şeyin öz ömür yaşantısı, canı var. Ta o yerəcən ki, kimin üçünsə, nə üçünsə gərəklidirsə, «yaşayır»sa. Elə ki bu imkan əlindən alındı, bir zad üçün daha gərək olmadı, deməli ömrünü başa çatdırıb, deməli ölümə məhkumdur. Və unudulur, biryolluq yaddaşlardan silinir.

Köksünü ötürdü: «Həyatdan yarımayanların hamısı belədir. Atılır, əzilib tapdalanır, kimsəyə gərək olmayan əşyaya çevrilir».

Qulaqlarına dolan pıçıltıdan özü də səksəndi: «Elə mənim kimi».

Eşiyə çıxdı. Başını qovzayıb qaralıb doluxsunmuş buludlara bir də göz gəzdirdi. Göy üzü damar-damar idi. Oxlov kimi uzanır, təzə şumu xatırladırdı. Qara buludlar fonunda işıqları sayrışan kino-teatrın üzərində yazılmış «Cəfər Cabbarlı» sözlərini azı mininci kərə oxudu. Nədəndi bilmədi, canına şirin bir istilik yayıldı.

Pencəyinin bozarmış surtukunu qaldırdı: «Yağış yağsa…» Gözləri qeyri-iradi sağ ayağının ucuna dikildi. Baş barmağını başmağının içində oynatmağa başladı. Ta baş barmağı başmağın içində ona doğma olan öz məhrəm yerini tutanacan. Döşəmənin sal daşları barmaqlarına buz kimi yapışdı. İliyə işləyən şaxtanı ciyərlərində hiss edən Möhübbətəlinin bir andaca kürəyi qovuşdu, əzələləri gizildədi. «Deməli belə, yağış yağsa…» Köksünü ötürdü. Himə bənd, dolmuş buludları zəndlə bir də seyr etdi: «Belə-ə…» Bayaqdan unutduğu saralmış yarpağı əcəl təzədən onun rüzgarına çıxartmışdı. Xəzəlləşmiş, sazaqdan üşüyüb domuşmuş yarpaq sağ ayağının qabağında idi. Möhübbətəli bayaqkı biganəliklə yenidən başladı dəstək uşaqlarsayağı kvadratşəkilli mərmər döşəmə

üzərində atılıb-düşərək «sinif-sinif» oynamağa. «Belə-ə… Bu da payızın axır günləri. Bir azdan qış, qar, çovğun…»

Görüşünə gəldiyi Tuncəl bəxtiyar şairlərdəndi. Yaşıdları arasında, hətta qismən yaşlılar arasında da özünə görə hörməti-izzəti var. Bəs necə? Neçə kitabın müəllifidir. Möhübbətəli nəhayət, ona müraciət etmək qərarına gəlmişdi. Fikirləşmişdi ki, bəlkə çap olunmasına həyan dura. Axı, bu da nə vaxtsa həyatda öz yerini tutmalıdı, ya yox? Belə olmayacaqsa, bəs onda o boyda kənd-kəsəklərini, kənddə Allahın umuduna buraxdığı nənəsini, hər cür rahatlığını atıb şəhərə niyə gəlmişdi? Sərgərdan-sərgərdan küçələri dolaşmaq üçünmü? Əlbət ki, yox! Hətta ilk addımları uğurlu alınmış, Dövlət Darülfünunda jurnalist diplomuna yiyələnmiş, Dövlət Filarmoniyasında redaktor kimi işə də başlamışdı. Ancaq… Heç özü də bilmədi necə oldu onda bu əqidə yarandı. Necə oldu başladı fikirləşməyə ki, «oxumaq, işləmək nəyimə gərəkdi. Yazıçının məktəbi həyatdı, yaradıcılıq emalatxanası insan taleyi. Ailə qursa, işləsə qayğılar başını qatacaq, yazısı-pozusu tökülüb qalacaq. Bir də baxacaq ömür-gün yarı olub. Odur ki, axşamları stol arxasından ayrılmırdı. Siqaretinin tüstüsü duman kimi yan-yörəni ağzına alır, burum-burum olub yayılırdı otağa, deyirdin tüstü ilə dovşan boğurlar.

Diqqət yetirən olsaydı görərdi ki, yuxuya dalmış bu paytaxt şəhərinin nisgilli gecələrinin bağrını bir zəif işartı dəlib keçir. Tənhalıqdan sıxılan otağın kimsəsizliyinə qarışmış bu zəif işartının soyuq işığında Möhübbətəli sabahı dirigözlü açardı. Çox vədə gecədən xeyli keçənəcən, hərdən lap sabahacan, ta günəş közərənə qədər. Bəzən bir əlində ağzı açıq butulka şüşəsi, külqabıda göynəyən yarımçıq siqaret elə stoldaca, başı qollarının üstündə sabaha çıxardı. Sabahı da saat 10-11-ə qədər, necə deyərlər, çul düşərdi. Sonra bütün günü əzgin, yarıyuxulu halda küçələri, çayxanaları, diskussiya məclislərini, ədəbi yığıncaqları dolaşar, Dövlət Filarmoniyasındakı işini saya salmazdı.

Araq butulkasından belə bərk yapışmağın insan orqanizminə hamıya bəlli bir sədəməsi var, tütün adamın içini ovub axırına çıxır, işsizlik isə biryolluq bədbəxt, səfil edir insanı.

Hələ o vədələr Möhübbətəli bütün bunlar barədə düşünməyə hazır deyildi. Elə hazır olmadığından da tutduğu yolun yanlış parıltısının adamın gözünü birdəfəlik tuta bilmək qorxusu hələ ki, onu narahat etmək iqtidarında deyildi. Odu, heç özü də bilmədi nə vaxtlarsa, «sən mənim canım, yüzcə qram» xahişi ilə başlamış içki aludəçiliyi sonradan qurtum-qurtum başına birnəfəsə çəkdiyi mey şüşələri ilə əvəzləndi, siqaret kötükləri külqabıda «aşdım-daşdım» olanacan dolmağa başladı… Bütün bunlar hələ onun üçün sirri-xuda, anlaşılmaz, inancına qatıla bilmədiyi bir dünya olaraq qalmaqda idi. Beləcə, günlərin birində Möhübbətəli bir də baxdı ki, kənddən gələndə, necə deyərlər vuranda dağı-daşı titrədən yumruqlarının daha heyi qalmayıb, lay divarı xatırladan çiyinləri daha şuxluğunu itirib. Və ev sahibəsi də yapışıb yaxasından kirayə haqqını tələb edir. Bu qədər borclu qalmaqla deyəsən həqiqətdə lap ağ etmişdi. İşlər doğrudan-doğruya deyəsən doğanağa düşmüşdü. Möhübbətəlinin kirayə haqqını əldə etmək ünvanı sonubilinməz əlyetməzlikdə, ünçatmazlıqda qərarsızdı. Göz işlədikcə uzanır, kimliyi, haralığı bəlli olmayan bir bəyazlığa qovuşurdu. Elə bir nöqtəyə ki, bu düyünü açmaq, bu sirrə vaqif olmaq, onu dərk etmək Möhübbətəli üçün həqiqətən mübhəm idi.

Niyə, nə üçün?

Bu yollardan birincisini üzünə atası ilə anası bağlamışdısa… Belə ki, atası Rusiyanın iri sənaye şəhərlərindən birində mənzili olan bir qadına kəbinini kəsdirib onun evinə yığışmış, anası isə nənəsinin dili ilə desək, o qədər qızışmışdı ki, heç bircə ay dözməyib getmişdi girmişdi bir cavanın qucağına. Beləcə, üççə ilin ailəsi – bir üzü qız-bir üzü gəlin anası, bir üzü oğlan-bir üzü kişi atası yeganə ciyərparələrini «qızışdıqlarından» (bunu da yenə nənəsi deyirdi) atıb özləri üçün eyş-işrətdə keçən ömür-gün sövdəsinə urcah olmuşdular.

…Bu yollardan ikincisini isə nənəsini unutqanlığı ilə özü öz üzünə bağlamışdı. Yaddan çıxartmışdı ki, Bakıdan çox-çox uzaqlarda, Azərbaycanın İran sərhədinə qovuşuğunda, əldən-ayaqdan uzaq bir kənddə yaşı ötmüş, qərib, kimsəsiz nənəsi qalıb. Günlərin birində bu nənənin qolları heydən qala, qılçaları kirrədən düşə bilər. Və bu nənə, yenə də günlərin birində o tənha daxmanın içində ayaqlarını uzadıb, qollarını sinəsində çarpazlaşdırıb, gözlərini yumub uzun bir tənhalıq yuxusuna gedə bilər.

Möhübbətəli hələ bunlar barəsində düşünmək gücündə-qüdrətində deyildi. Axı kim inciyərdi belə nənədən. Çünki görürdü ki, kənddən aybaay onun üçün para gəlir, deməli nənəsi salamatdır, deməli Allah-taala belə nənənin canın sağ etsin, uzun ömür bəxş etsin belə nənələrə. Həm də kəndə tez-tez gedib üz-gözünü camaata öyrəşdirmək, özünü onların gözündə adiləşdirmək də bir şey deyil. Kitabı çap olunandan sonra isə başqa məsələ. Belədə, onun kəndə getməkliyi əsl mərəkə olardı. Bəs necə? Mərziyyə arvadın nəvəsi alim olmuşdu, şair olmuşdu, kitab yazan olmuşdu, o boyda Bakının ən böyük adamlarından biri olmuşdu. Və Möhübbətəli də kəndin girəcəyindən tanıdı-tanımadı – hamıya təbəssüm bağışlaya-bağışlaya, başı ilə hamıya yüngülcə «salam» edə-edə, ara-sıra hətta bəziləri ilə əhval tuta-tuta (əlbət ki, beləsi ya bir, ya iki nəfər ola biləcəkdi) təşəxxüslə nənəsinin özütək qocalmış, necə illərdi daşına-suvağına kişi əli dəyməmiş, hər cür hərarətə həsrət, kişi nəfəsilə qızınmamış evinin (əslində daxmasının) kandarına çatacaqdı. Əvvəlcə bu həyət-bacanın, bu gülün-çiçəyin, bu torpağın-daşın ətrini çəkəcəkdi ciyərlərinə: «Oxxay!» Bu həyət-baca, bu dağlar, çəmənlər, yaz-payız bərəkət qoxuyan bu torpaq üçün yaman qəribsəmişdi. Sonra isə hələ mətbəə qoxusu çəkilməmiş kitabının ilk nüsxəsini qoyacaqdı nənəsinin qənşərinə ki, ay nənə, daha demə mənim Möhübbətəlim bu illəri papağını günə yandırıb. Deyəcəkdi ki, daha darıxmasın ondan yana, daha birdəfəlik gəlib nənəsinin yanına. Deyəcəkdi ki, bundan sonra kənddə yaşayacaq, kənddən, kəndin adamlarından, nənəsindən yazacaq. Qoymayacaq bundan sonra nənəsi əziyyət çəkə, özü dura-

caq nənəsinin qulluğunda, əl-ayağı təmiz-tarıx gəzəcək nənəsi bundan sonra.

Amma sən saydığını say, gör fələk nə sayır. Nənəsinin rəhmətə getməklik sorağını yalnız altı ay əvvəl bilmişdi. Altı ay öncə kənddən ona məktub göndərmişdilər ki, nənəsinin öldüyü düz iki ildir. Və bu da əvvəl-əvvəl çox pis olmuşdu. Ona elə gəlmişdi ki, daha heç yaşamaq mümkün olmaz onun üçün. Nənəsinin sağlığında dağlar qədər arxalı bilirdi özünü. Ən qərib anlarında, ən çətin dəqiqələrində bu dağları, meşəni, qışda aşıb-daşan, yayda quruyan bu çayı özünə dayaq bilir, dünyanın lap o biri üzündə yaşamış olsaydı belə, özünü kimsəsiz təsəvvür etmirdi. Ancaq bu arxa, dayaq, bu həyan nə vaxt ovulmuş, uçulub dağılmışdı, Möhübbətəli bilə bilməmişdi. Yəqin etdiyi bircə bu idi ki, bu arxa, dayaq daha yox idi, izsiz-soraqsız qəfil bir boşluğa uçulmuşdu Möhübbətəli.

Nənəsinin ölüm xəbərini alanda əvvəl-əvvəl ona elə gəldi ki, deyəsən əl-ayağı yerdən-göydən üzüldü. Öncə nənəsini, daha sonra nənəsi ilə bahəm özünə pənah bildiyi dağları, dərələri, meşəni, çayı… bilyolluq itirdiyini açıq-aşkar, bütün çılpaqlığı ilə dərk etdi. Və bunları bütün varlığı ilə duyduğundan ömründə ilk dəfə özünü bir belə gücsüz, taqətsiz, tabsız bildi. Bu iki ildə pulu göndərən isə sən demə nənəsinin kirəkeşi, gənc kadr kimi kəndə təyinatla göndərilən coğrafiya müəllimi imiş ki, nənəsinin evinin kirayə haqqını buna çatdırırmış. Və kirəkeş sonuncu mənzil haqqını poçta verəndə Möhübbətəliyə məktub da ünvanlamışdı ki, gəlsin evinə-eşiyinə sahib dursun. Kəndə elə həmin gün yollanmaq qərarına gəlsə də, nənəsinin iki il altı ay qabaq rəhmətə getdiyini xatırlayanda içinə dolan, hətta bu gün də özü üçün aydınlaşdıra bilmədiyi qəribə bir sıxıntı onu oturtmuşdu yerində. Elə o vaxtdan ayağını kənddən biryolluq kəsmək hökmü çıxartmışdı: kənd də elə bil ondan qisas alırdı – bilmərrə unutmuşdu onu.

…Bu düşüncələr içərisində eşitdiyi hənirtidən ürəyi yerindən oynadı: tik-tak, tik-tak, tik-tak… Sevincdimi, tələşdımı, elə bildi ayaqları yerdən-göydən üzüləcək və onu Tuncəlin bəxş etdiyi xoşbəxt dünyaya aparacaq: tik-tak, tik-tak, tik-tak… Arxaya döndü.

Pillələri ağır-ağır enən qara plaşlı xəzinədar qadının dikdaban tuflilərinin səsi idi. Küt baxışlarla qadının avazımağa macal tapmayan seluetini izlədi: «niyə axı məni öz dünyamdan ayırdın?!» Qadın küçənin o biri başınacan eyni ahənglə addımladı: tik-tak, tik-tak, tik-tak… Sonra gecənin zülmət qaranlığına qarışdı və sinəsi oxlov-oxlov qançırlamış gecə onu uddu.

Küçənin o tayından qol-qola, nəfəsləri bir-birini isindirib ovunduran iki cavan ötdü. Ürəyinə axan təkəm-seyrək gülüş səsləri döngədə itənəcən Möhübbətəli xiffətlə onların arxasınca baxdı. Yadına tələbəlik illərinin saxlancı Günay düşdü. Onunla darülfünunda təhsil aldığı xoşbəxt illəri xatırladı. Və bir anlığa ürəyindən keçdi ki, noolardı, Günay elə indicə böyürdən çıxardı, yapışardı onun əllərindən, onlar da beləcə nəfəsləri bir-birini isindirib ovundura-ovundura qoşa addımlayardılar.

…Arzularının şirinliyindən ürəyi gizildədi. Və elə həmin dəqiqə də, hər dəfə yadına düşəndə ürəyinə ağrı qoyan Günayını daha görmək istəmədi. Siqaret tutmaqdan rəngini dəyişmiş barmaqlarını, tütün qoxuyan göyərib yaprıxmış dodaqlarını, sarımtıl rəngə düşmüş bığlarını Günayına yaraşdırmadı. İstəmədi ki, kirayə haqqını ödəyə bilməməsi üzündən iki gündü sərgərdan qalıb yaxşı dostların yanında gecələdiyindən, sağ ayağının baş barmağından sal döşəmənin şaxtasının ciyərlərinə işləməsindən Günay xəbər tutsun, spirt iyi verən qıncıxmış tənbəki qoxulu nəfəsindən çimçəşsin.

Oxucu elə bilməsin ki, Möhübbətəli birdən-ikiyə guya Günayla görüşübmüş, ya onu evlərinə ötürübmüş, əsla! O, sadəcə Günayın dərsdən çıxdığı saatları bilirdi və həmin saatlarda ya darülfünunun qabağını kəsdirirdi, ya da qızgilin evlərinə dönən küçənin tinini. Həmin dönəcəkdəki elektrik lampasının korun-korun közərən alatoranlığında tində dayananın kimliyi ilə maraqlansaydın da, cəhdin əbəs idi.

Baş verməkdə olan bu təzəliyi – evlərinə dönən qaranlıq küçənin bir təzə «qonağı»nın peyda olduğunu Günay hələ ilk aylardan duymuşdu. Bu yad hənirti hətta bir neçə dəfə qəfilləyib ona yavuqlaşmışdı da. Bu zaman çaşqınlıqdan az qalmışdı dizləri

tutula, nəfəsi kəsilə qızcığazın. Elektrik qəndilindən evlərinə uzanan bu «bir addımlıq» yolu mümkün qədər tez, az qala qaça-qaça keçib getmişdi. Ancaq hiss edəndə ki, hər kəsdisə pis niyyətliyə oxşamır, bir az toxdaqlıq tapmış, onun kimliyi ilə maraqlanmağa başlamışdı. Bəzən addımlarını qəsdən ləngidərdi ki, həmin «kölgə» bəlkə onu ötüb keçmək istəyə və Günay onun üzünü görmək, onu tanımaq imkanı əldə edə. Bu isə mümkün deyildi. Çünki «kölgə» elə ustalıqla hərəkət edirdi ki, onun Günayı ötüb keçməsi, yaxud onların qarşılaşmaları üçün şərait yaranmırdı. Yalnız bircə dəfə, Möhübbətəli siqaret yandıranda kibritin şöləsi üzünə düşdü və Günay bu «yad» adamın üzünü zorla da olsa sezə bildi.

…«Sinif-sinif» oynaya-oynaya səkinin qırağına gəlib çıxmışdı. Bu dəfə sol ayağının ucu ilə saralmış yarpağı geri döndərdi və qəfil atılıb sağ ayağı ilə ona möhkəm bir təpik ilişdirdi: «Be-lə-ə!» Əllərini eşələnməkdən torbalaşmış ciblərindən çıxaranda gecə gözətçisinin foyeyə keçdiyini gördü. Deməli, seans bitmiş, kinoya gələnlər arxa qapıdan dağılışıb getmişdilər. Daha bir neçə dəqiqə keçəcəkdi, gözətçi bu qapıları da bağlayacaq, giriş qapısının üstündəki işığı yandırıb qeyrilərini söndürəcək və çəkiləcəkdi öz otağına. Ya yıxılıb yatacaqdı, ya da bəlkə daha bir neçə saat içini göynədə-göynədə, boğazını quruda-quruda gözləri acışanacan siqaretini tüstülədəcəkdi.

Sonra qəfil yadına düşdü ki, bu gecə çəkmək üçün bircə siqareti də yoxdur. Deməli, sabahı dirigözlü açacaqdı, qalacaqdı dan yeri ağaranacan yatağında çırpına-çırpına, milyon dəfələrlə otağı o baş-bu başa var-gəl edə-edə. Odu tez-tələsik gözətçiyə yaxınlaşdı və ondan bir siqaret xahiş etdi. Bu səs, bu nəfəs, bu baxışlar gözətçiyə yaxşı tanış idi. Ondan az siqaret istəməmişdi. Odu bu köhnə «tanışını» görəndə narazı halda başını buladısa da, «yox» da demədi. Laqeyd-laqeyd əlini cibinə salıb siqaret qutusunu çıxartdı və Möhübbətəliyə sarı uzatdı. Çünki bilirdi ki, birini götürəndən sonra gözlərinin içinə dik-dik baxacaq və «birini də olar?» deyib, «hə»-«yox» gözləmədən ikincisini də götürüb ikiyə bölüb bir para-

sını sağ qulağının arxasına keçirəcək («yaman günü üçün»), ikinci parasını sağ əlinə göturüb əyiləcəkdi gözətçiyə tərəf ki, indi də verdiyi siqareti zəhmət çəksin yandırsın.

Yenə də elə oldu. Yenə də həmişəki tək Möhübbətəli bir siqaret götürüb sağ əlindən sol əlinə ötürüb şalvarının yan cibinə qoydu. Sonra sağ əli siqaret qutusuna uzanılı vəziyyətdə gözətçinin gözlərinin içinə dik-dik baxıb:

– Birini də olar, – dedi.

Və həmişəki kimi yenə də cavab gözləmədən sağ əlini xüsusi ustalıqla siqaret qutusuna uzadıb məhz ona məxsus jestlə bir andaca ikinci siqareti də çəkdi. İkiyə bölüb, sağ əlinə götürüb keçirtdi sağ qulağının arxasına (bunlar da yaman günü üçün). Bunu ürəyində dedi. Və elə bunu deyə-deyə də sol əlində qalmış para siqareti sağ əlinə alıb, bayaqdan əlində yanılı kibrit çöpü xahişsiz-filansız ona müntəzir gözətçiyə tərəf əyildi. Siqaretini odlayıb bir dərin qullab vurub çəkdi ciyərlərinə və sözləri tüstüyə qarışdıra-qarışdıra tüstülü bir «sağ ol» söylədi. Sonra cavab gözləmədən yenə eşiyə, bayaqkı səkinin qırağına çıxdı.

Buludlar daha da sıxlaşıb qaralmış, ayın qabağına qara çətir çəkmişdi. Alnına düşən damcıdan səksəndi. Gözlərini qaldırıb calğaq-calğaq olub bir-birinə qarışmış buludlara boylandı. Heç özü də bilmədi niyə belə etdi – sağ ayağının baş barmağı bayaqkıtək sığallanıb-sığallanıb öz yerini tapdı və Möhübbətəli sal döşəmədən iliyinə işləyən şaxtanı bir andaca ciyərlərində hiss etdi…

Siqaretini çoxdan çəkib qurtarmışdı. Təkəm-seyrək düşən damcılardan başa düşdü ki, daha bundan belə Tuncəl gəlməz. Başı aşağı, əlləri ciblərində addımlayırdı. Hara getdiyini, nə üçün getdiyini özü də kəsdirə bilmədən üz alıb gedirdi. Mədəsində qəfil peyda olmuş boşluqdan özünü elə gücsüz, taqətsız, heysiz hiss etdi ki… Nədəndi bilmədi, arıqlayıb şallağa dönmüş əllərinə göz yetirdi. Bir vaxtlar bu əllər dolu idi, qüvvətli idi, dəydiyi yerdən, necə deyərlər «qan çıxardardı». İndi o əllər, o qüvvətli bədən, can-cəsəd keçmişdə – onillik bir zaman uzaqlığında qalmışdı. Elə bir zaman məsafəsində ki, o ömrün olaylarında 17 yaşında bir yeniyet-

mə var idi. Bu yeniyetmə arxası dağlar, yan-yörəsi meşə, aşağısı zirvələrdən aşıb-dolaşıb gələn çayların əhatəsində olan güllü-çiçəkli bir kənddə böyüyürdü. Bu yeniyetmənin didərgin, hər biri bir diyarda qərar tutmuş ata-anası var idi. Bu ata-ananın hər birinin bir özgə ocaqda böyüdüb qayğısını çəkdiyi övladlarından savayı, hər ikisinə məxsus bir ayrı oğulları da var idi ki, onu elə bəlkə 27 il idi bir qarının ümidinə tapşırıb özgələşdirmişdilər. Qarı da çağanı köynəyindən keçirib özünə oğul etmiş, «zibilindən-əskisindən» çıxarıb böyütmüş, sonra da ömrünün gethagedində tapşırmışdı Allahının ümidinə və çıxmışdı getmişdi. Varlı ilə qonşu olanın təknəsində urfa tapılmaz. İki atası, iki anası ola-ola Möhübbətəli o vaxtdan qalmışdı tənha, yalnız. Ayaqları yeganə pənahı olan torpaqda, əlləri bir olan Allahının ətəyində, gün-güzaranı da ki…

…Başı aşağı, əlləri torbalaşmış ciblərində heysiz-hissiz addımlayırdı. Yalnız ara-sıra sucağa düşən yağış damlaları onu səksəndirəndə hara getdiyinin fərqinə varmadığını, qərarsız bir ünvana məqsədsiz-məramsız üz tutduğunu dərk edirdi. Bu yolun harada sonuclanacağının onun üçün fərqi var idimi? Bildiyi bircə bu idi ki, gicələ-gicələ baş alıb-üz tutub dayaq nöqtəsi bəlli olmayan bir yolu əlinə dəstələyib.

Birdən xatirinə gəldi ki, sökülən məhəllədə boşalmış mənzillərdə qabaqlar gecələmiş olduğu bir yer var. Hələ deyəsən o gecədən bir yarımçıq içki şüşəsi də qalıb. Bilmək olmazdı, bəlkə siqaret də tapa bilərdi bu «iqamətgahda».

***

Zülmət qaranlıqda zor-güc, fəhmlə addımlayırdı. Elə fəhmlə axtara-axtara taxçanı da, yarımçıq qalmış içki şüşəsini də, siqaret kötüklərini də tapdı. Hər şey öz vaxtında olduğu kimi qalmışdı. Görünür, ondan bəri buralara kimsə ayaq basmamışdı.

İçki şüşəsini əlinə aldı. Yarımçıq söndürülmüş siqaretləri sol əlinə dəstələyib cibinə basdı. Bunları bir-birinə calayıb sabahı açacaqdı. Sonra o dəfəki yerində əyləşib, yenə də o dəfəki kimi başını divarın çat yerinə söykəyib gözlərini yumdu. Elə gözləri yumulu-yumulu da butulkanı dodaqlarına söykəyib bir-iki qurtum

sümürdü. Vücudunda bir təzəlik hiss etdi, gözləri işıqlandı – elə bil canına güc-qüvvət gəlmişdi. Sonra sol qulağının dibinə keçirtdiyi siqareti götürüb yarı bölüb birini qoydu damağına. Əlini döşəmədə fəhmlə gəzdirib bir kibrit dənəsi tapdı. Budunun qalın ətinin yerindən şalvarına bircə dəfə çəkməklə alışdırıb siqaretini odladı, sümürüb çəkdi ciyərlərinə: «Ox-xay!»

Hər şey elə şirin idi ki… Lap uşaq yaşlarının mürgülü təşnəsi kimi. Heyf deyil belə ömür? Adamı sevirlər, oxşayırlar, nazını çəkirlər, hər cür acısına dözürlər. Və birdən bu dəqiqələr üçün qəribsədi. İstədi onun da nazını çəkən, qayğısına qalan, onu da sevib-oxşayan tapılsın. Üz-gözündə bir ılıq nəfəs hiss edəndə istəklərinin çin olduğuna tam yəqinlik hasil etdi. Özündən asılı olmadan məmnunluqla həmin yad adamın əlinin altında rahatlanmağa başladı. Düşündü ki, hər kəsdisə, güman məhrəm adamdı, Allah-taala onu Möhübbətəlinin qayğısına qalmağa, onu oxşamağa, ovundurmağa göndərib. Sonra gördü ki, atası böyük bir çarhovuzun başında əyləşib, yanında da üç-dörd uşaq – çay içirlər. Gahdan birinə ılıq bir söz deyir, ikincisinə çox güman ki, lətifə danışıb qəşş edənə qədər güldürür, başqa birisinin başına sığal çəkir… Gördü ki, atasının gözlərinin dərinliyində qabaqlarda olduğu kimi, kimsənin görə bilməyəcəyi bir xiffət gizlənib. Və bu ağrının gizli bir parçası indi də atasının ara-sıra qaçan dodaqlarının ucundadır. Atasının dodaqlarının ucuna hopmuş o gizlin xiffət elə bil bir andaca dil açıb danışacaqdı. Möhübbətəli ögey bacı-qardaşlarının heç vədə görə bilməyəcəyi o gizli xiffəti gördü. Və bir də baxdı ki, çoxdan yadırğadığı naməlum bir duyğu ürəyindən dartınıb boğazına sarı axmağa başladı.

Möhübbətəli anasını da gördü. Özü də atasının yox, cavan, yad bir kişinin qolları arasında. Lüt ana-bülbül. Döşləri yad adamın dodaqlarında, başını sinəsinə sıxıb qollarını dolamışdı boynuna, boyun-boğazını duz kimi yalayırdı. Sonra gördü ki, nənəsi gileyli-gileyli qızına baxır. Nənəsinin bu sayaq baxmaqlığından Möhübbətəli utandı və istəməsə də, gözlərini anasının xumarlanmaqda olan yarıyumulu gözlərindən, ağappaq çiyinlərindən, boyun-

boğazından, yad cavanın dodaqlarına sıxılmış dolu döşlərindən, yupyumru və ortası dərin boşluğa düşən ağappaq göbəyindən tezcə çəkib ayaqlarının ucuna dikdi. Sonra uşaq vaxtlarında etdiyi kimi, ayaq barmaqlarının baş barmaqlarını yenə də ayaqqabının içində oynatmağa başladı. Ta baş barmağı ayaqqabının içində öz yerini tutanacan. Elə ki, baş barmağı sığallanıb-sığallanıb ayaqqabının içində öz yerini tapdı, döşəmənin iliyə işləyən sazağından Möhübbətəlinin kürəklərinin arası qovuşdu. Sonra qeyri-iradi xəfifcə anasına göz yetirdi ki, görsün onun bu halını anası da duydumu? Anasının iri döşlərinin körük kimi enib-qalxmasından dərk etdi ki, bu çılğınlığında o, oğlunun ciyərlərinə sazağın axdığını çətin ki görə bilə. Bundan özgə, anasını cavan, qüvvətli kişi qolları elə qucaqlamışdı ki, lap çovğun ola, qoymazdı anasına yavuq düşə. Sonra bu cavan qollar deyəsən anasına güc gəlməyə başladı. Neyçün ki, Möhübbətəli gördü ki, anasının, yad kişinin belini qucaqlamış qolları yavaş-yavaş boşalıb yanına düşdü. Daha sonra isə, anası yavaş-yavaş arxası üstə yıxıldı və… Möhübbətəli daha anasına baxa bilmədi. Bircə onu gördü ki, üşüməkliyi deyəsən yavaş-yavaş çəkilib gedir. Sonra anası o cavanın qucağından çıxıb elə lüt-üryan, buna tərəf qaçmağa başladı. Hər nədisə, sonra o cavan deyəsən birdən-birə yox oldu. Möhübbətəli bir də baxdı ki, bayaqdan buna tərəf yüyürməkdə olan qadın da deyəsən anası deyilmiş, amma elə anası kimi dik, dolu döşləri, şümal çiyinləri, incə beli, ağappaq dərin göbəyi olan bir qızdı. Və bu qız da anası o cavan, yad kişini bağrına basdığı sayaq Möhübbətəlini qucaqlayıb çağaya döş əmizdirirmiştək döşlərinin iri, qaramtıl gilələrini verdi onun dodaqlarına. Sonra da başladı Möhübbətəlinin bayaqdan buza dönmüş bədənini qarsalandıra-qarsalandıra əvvəlcə boynunu, sonra çiyinlərini duz kimi yalamağa. Hər dəfə də oxşadıqca həzin səslə yalvarır, «mənim Möhübbətəlim, gör kimsəsizlik səni nə günə qoydu, səni bu yerə gətirən o zaqqum araqla tütün oldu», – deyirdi. Bu nəfəs elə ılıqdı, həlimdi, istiydi ki… Sonra bu qız qollarını doladı Möhübbətəlinin belinə, nəfəsi yana-yana başladı bütün gücü ilə onu özünə sıxmağa, deyirdin bu saat Möhübbətəlinin beli qırı-

lacaq. Sonra deyəsən bu qız yavaş-yavaş Möhübbətəliyə güc gəldi. Çünki Möhübbətəli bir də gördü ki, arxası üstə döşəməyə uzanılıdı, bu qız da onun sinəsində, bədəni ilə onu qarsalandıra-qarsalandıra doymaq, yorulmaq-usanmaq bilmədən üz-gözünü, dodaqlarını, sinəsini öpüşlərə qərq edir.

…Lap nəfəsinin içində hənirti duyub gözlərini açdı. Bir qoca köpək onun üz-gözünü yalayırdı. Yerindən necə sıçradısa bu naqəfil hərəkətdən köpək də narahat oldu. Dişlərini qıcayıb narazı-narazı öz-özünə mırıldandı: «Çıx mənim evimdən». Möhübbətəli əllərini üz-gözündə gəzdirdi, barmaqlarının ucunda yad, nəm bir təam hiss etdiyindən çimçəşdi. «Köpəyin də yeri var…» Bunu o, ürəyində dedi.

Qapıya yaxınlaşdıqca döşəmədə yavaş-yavaş uzanmaqda olan bir kölgə gördü. Kölgə bir xeyli uzanıb-uzanıb əvvəl tavanı, sonra bütün divarı tutdu. Möhübbətəli ha illah elədi bu seluetin kimin olduğunu kəsdirə bilmədi. O qədər nazikdi, arıqdı, ordu-ordundan keçmişdi bu seluetin ki… Otaqdan çıxmaq istəyəndə ayağı bir şüşəyə toxundu. Səndirlədi. Dönüb baxanda, axşamkı araq şüşəsini gördü. Yanı üstə düşüb qalmışdı, böyründə də siqaret kötükləri.

Vücuduna dolan qəfil ağrıdan ürəyi gizildədi. Başını divarın nəm, soyuq daşlarına söykəyib için-için hönkürdü…

…Göy qurşağı qızarmaq istəyirdi. Nisgilli payız sabahının alatoranlığında hara getdiyi özünə də bəlli olmayan bir cavan tənha, başı aşağı, əlləri şalvarının torbalaşmış ciblərində şəhərin hələ ki, yiyəsiz-yeliksiz olan küçələri ilə sərgərdan-sərgərdan addımlayırdı…

…Yağış çoxdan kəsmişdi.

*May 1986-cı il*

# KİŞİLƏR AĞLAMAZ, AĞLAYANDA DA...

*(kiçik qızım Xanımın xatirəsinə)*

Qucağımda keçindi Xanım. Şəfqət bacısı dedi ki, götür apar, ay qardaş, hayıfdı, peyğəmbər quşudu, südəmər çağadı, qoyma bıçaq altına düşə.

Canım, əsəblərim hisslərimin əlində düyün-düyün olmuşdu. Ha illah edirdim özümü ələ alım, soyuqqanlı görünüm, bacarmırdım.

Udqundum. Ürəyimin düşündüklərini deməyə gücüm çatmadı. Şəfqət bacısı naqəfil dilləndiyi kimi, qəfil də susdu. Baxışları çilik-çilik olub döşəməyə, tavana, qapı-pəncərəyə, daşa-divara…bir də Xanımın taqətsiz düşdüyü yatacağın üstünə dağıldı. Matı-qutu qurumuş, donuxmuş halda baxa-baxa qaldı. Sonra həkimin göstərişilə bir kardiamın də vurdu çağaya. «İynə yeri də qalmayıb, - dedi, - hara vurum iynəni»?

- Nahaq incidirik çağanı, - Həkim də öz hökmünü verdi.

Araya adamüşüdən büz sükut çökdü.

- Yə`ni deyirik ki, - həkim sözünə düzəliş verməyə çalışdı, - dediyimiz budu ki, onsuz da gecdi. Bütün gecəni nə lazımdı etmişik. Yoldaşınızın xahişini nəzərə alıb iynə gücünə saxlamışıq uşağı. Dedik, uşağın vəziyyətini gəlib siz özünüz görəsiniz. Dedik, birdən düşünərsiniz ki, gəlində bir günah-zad olub. Yalvardı bizə, biz də...

Yenə araya buz sükut çökdü. Səssizlikdəndimi, bizi gözləyən hadisənin fəhmiydimi – hamını hissiz bir duyğu bürümüşdü…

İnsan bolluğu nə yaxşıymış? Beşinin dili qıfıllananda, biri araya çökmüş gərginliyi yumşalda bilər. Mən indi başa düşdüm ki, (hamıdan uzaq) ağır hadisələrə necə tab gətirmək olurmuş? Belə azlıqda isə… Otağı dondurmuş səssizliyin vahiməsi adamı üşəndirir, hamını bir-birindən gözükölgəli edir, ilk addımı atmaqdan çəkindirir, hamı sözlü-suçlu gizlicə bir-birinə göz qoyur.

Günahkarsayağı, utanırmış kimi, günahkarı arayırmıştək baxışlarını bir-birindən gizləməyə çalışırlar.

Ölümün adı ağırdır. Bu haqda düşünəndə adam paklaşır, müqəddəsləşir. Hər şey qeyri-adi tə`sir bağışlayır bu yerdə, hisslər, duyğular bir andaca ildırım sür`ətilə az qala dünyanı dolaşır. Hər şeydə bir mə`na, bir fəlsəfə axtarırsan.

Özüm də hiss etmədən dünən gecəki hadisələr – Xanıma «boksda» yer ayrılması, xahişimizə baxmayaraq növbətçi həkimin mənə uşağın yanında qalmağa icazə verməməsi, sonra yoldaşımın «boksda» xəstə uşaqla gecəni sabahacan dirigözlü açması, sübh ertə məni xəstəxanaya çağırmaları… Bütün bunlar bir andaca, ildırım sür`ətilə fikrimdə dolaşdı.

Nə biləydim axırının belə olacağını? Bilsəydim, qayıdardımmı evə? Heç gecəni arın-arxayın yatardımmı özümçün? Ürəyim də deyəsən axır vaxtlar aldatmağa başlayıb məni. Elə yuxuladım ki sabahacan, deyirdin heç xəstəm yoxdu. Elə bil gül kimi uşağını xəstəxananın küncündə qoyub gələn mən deyildim. Elə bil heç mənim həyat yoldaşım deyildi dörd divar umuduna qalan.

…Obaşdannandı. Subaşından gönürdüm. Həyət qapısı döyüldü. Qulaqlarıma inanmadım. Dedim bəlkə səs düşüb qulağıma, dedim bəlkə bizim qapı deyil döyülən… Bir də həmin səsi aldı qulağım.

- Kim lazımdı sizə?

- Bura Lala bacının evidi?

- Bəli.

- Siz burada kirayədə olursunuz?

…Biz Lala xalanın həyətində kirayəniş idik. Bəli, - dedim, - bizik Lala xalanın kirayənişi.

- Bilirsiniz, mənə indicə xəstəxanadan zəng etdilər. Gərək ki, sizin xəstəniz olmalıdı xəstəxanada, dedilər vəziyyəti ağırdı, dedilər mümkünsə xəbər çatdırım Sizə.

Ürəyim matdım-matdım qapının o üzünə boylandı. Elə bil bütün sinirlərim qırıldı: «Yə`qin ölüb uşaq».

Ölüb! Ölüb! Ölüb!..

Sabahın alatoranlığı bir andaca qara-qışqırıqla doldu vücuduma. «Ölüb! Ölüb!» deyən səslər üstümə yürüdü. Uşaqlı-böyüklü elə bil əllərini gözümə soxacaqdıdar: qolları irəli uzalı, barmaqlarının beşi də daraq-daraq, «ö..lü..üb» deyə qışqırışırdılar. Gözlərimi yumub başımı silkdim. Bir anlıq hər yan sakitləşdi, sabahın alatoranlığı yenə öz nizamına düşdü. Bütün məhəllə yenə sakitliyə büründü.

- Ölüb, hə, uşaq? – Bunu mən dedim.

- Yox, canımçün yox, balam ölsün yalan deyirəmsə. Elə şey yoxdu. Uşaq sadəcə xarabdı, ona görə çağırırlar, – Bunu da o dedi.

Başımı buladım, yə`ni ki, yoox, yanılda bilməzsən məni, ölüb uşaq!

- Yox, yox! Vallah yox! – Bunu yenə o dedi.

«Uşaq deyiləm ki… Niyə yanıltmağa çalışırsan? Ölüb-deginən ölüb də, tay yanıltmaq neyçün? Uşağam-zadam bəyəm qorxam? Bir gün yaranan, bir gün də öləsidi. Düzünü de, axı mən hazır getməliyəm xəstəxanaya, pal-paltar götürməliyəm gəlinçün».

- Düzünü deyin, xahiş edirəm! – Bərkdən dediyim ancaq bu oldu.

- Dedim ki, elə şey yoxdu. Vallah bir şey olmayıb uşağa, balamın canıyçün heç nə olmayıb. Sadəcə dedilər ki, vəziyyəti yaxşı deyil uşağın, vəssalam! – Bunu yenə o dedi.

(Sükut)

- Yaxşı! Çox sağ olun, minnətdaram!

Düşündüm: «Deməli, ölüb! Day gizlətmək neyçün, uşağam-zadam bəyəm qorxam?»

…Qapının o tayındakı səs hələ də deyirdi: - Yox, vallah uşaq ölməyib hələ, hələ ölməyib, sadəcə halı xarabdı uşağın. Gecə mənə zəng edəndə belə dedilər. Dedilər ki, yaxşı deyil uşağın vəziyyəti.

«Aha, deməli belə, deməli, uşaq ölüb. Daha gizlətmək neyçün? Uşağam-zadam qorxam? Atayam axı mən. Ata da bəyəm ölümdən, qandan qorxar? Ata oldun, deməli heç nədən qorxmamalısan, heç nədən qorxmaq ixtiyarın yoxdur ata olandan

sonra. Nə ölümdən, nə də qandan. Ata olandan sonra ölü yerinə də getməlisən, hüzür də verməlisən. Sənin də evin var axı? Sən də ailə yiyəsisən axı? Noolar cavan olanda, sənin də hüzürün düşə bilər. Ailə – ailədi, nə qocası, nə cavanı, Məhəmməd peyğəmbər (S.) də belə buyurub. Buyurub ki peyğəmbər əleyhüssəlam, hüzür verməyin ahılı-cahılı olmaz, ölünün böyüyü-kiçiyi yoxdu. «Ölü uşaqdı, bizə noolub? Biz ki uşaq deyilik». Bunu da bir ağsaqqal ixtiyar deyib. Lap Dədəm Qorqud yaşında bir kişi. Qocalar səhv etməzlər. Dünya dağıla Dədə Qorqudlar səhv etməzlər. Onlar dünyanın yarısını yaşayıblar. Yarısını görüb-götürüblər həyatın. Yaşayışın hər üzün görüblər. Bilirlər ölüm nədi, qan nədi? Bilirlər adam 150 il də yaşaya bilər. 25 yaşında gəlini gərdəkdə qala da bilər adamın. Hələ dörd aylığında da ölə bilər adam – elə mənim Xanımım kimi!.. Deməli, ölüb, hə, Xanım? Ölübsə, mənə de də. Ölümü gizlətməyin nə mənası axı?»

Qapının o tayındakı səs hələ də bunları deyirdi: «Yoox, vallah yoox! Elə şey yoxdu. Bir şey olmayıb hələ uşağa. Gecə zəng eləyəndə mənə dedilər xarabdı uşağın halı, atasına deyin gəlsin, deyin uşağın atası gəlsin».

«Gecə zəng eləyəndə». Deməli belə! Ay zəmanə! Ay insanlar, nə üzüdönük olubsunuz? Məndən ötdü sənə dəydi zamanəsiymiş? Bayaqdan and-aman edir ki, sağ-salamatdı uşaq. Amma… Deməli, ölübmüş uşaq, deməli, ölübmüş mənim Xanımım. Bu isə məndən gizlədirmiş. Tənbəl köpək oğlu, kəntöy köpək oğlu, tünbətün köpək oğlu, elə bil canı çıxardı gecə gəlib hasardan aşıb yataqdan durğuzsaydı məni. Bəlkə vaxtında çatsaydım, uşağı ölümdən qurtarardım… Bilsəydim öləcək, bu qədər yolu basa-basa heç gətirməzdim rayondan. Bu da işdi, a kişi? Sağçıllə uşağı öldürüb versinlər qucağına ki, iş bilmişəm? Buna dözmək olar?..

Necə yığdım gəlinin pal-paltarını, necə çıxdım küçəyə, Allah bilir.

Bu taksilər də yoxa çıxdı nədi? Bircəciyi görünmür. Eylik vaxt adamın gözünə dürtülərlər. Harda qaldılar bəs indi? Deməli, ölüb uşaq. Deməli, ölüb! Bəs indi necə aparacam onu rayona?

Nəynən aparacam? Maşınım yox-bir şey deyil. Başqası da deməzmi ki, meyit apara bilmərəm maşınımda? Heç deməsə də ürəyində Allah bilir nələr söylər, nə qədər yamanlar adamın dalınca. Yox, hamısı daşürəkli olmaz. Axır birinin ürəyi yumşalar, qoymaz məni əl-amanda. Aparmağa razı olmaz, yalvar-yaxar elərəm, başına dönüm-qadanı alım, deyərəm, əllisə yüz verərəm, deyərəm, yüzsə iki yüz alarsan, deyərəm. Və bir də, nə bilir sürücü köpək oğlu ki, ölüb uşaq? Açıb baxmışdı bəyəm qundağın içinə ki, ölüdü burdakı, ya diri?

Aha, bu da maşın. İndi bu saat çatarıq. Bax, belə. Ay sağ ol, qardaş! Ömrün uzun olsun, Allah balalarının canın saxlasın, bir az tez elə. Qorxma! Noolub belə döngələrdə yavaşıdırsan? İndi hərəkət var bəyəm küçələrdə? Bax, belə! Bu tini də burul görüm. Əhsən! Bunu da, bax, bu tini də. İndicə çatarıq… Aha, çatdıq. Bu da xəstəxana, qardaş, çox sağ ol. Ömrün uzun olsun, Allah qada-baladan uzaq etsin balalarını. Övlad dağı göstərməsin Allah sənə. Al, bu da sənin haqqın, sağ ol, sənin canınçün yox, lazım deyil nədi, «qonaq» evində olar adamın…

«Bax belə – bu tini də burul, bu pilləni də qalx, indicə çatacaqsan. Dayan görüm! Səbrin olsun, iradəli ol bir az, kişisən axı sən, dözümlü olmalıdı kişi xeylağı, onda ki ata olasan. Bax belə, bir az da təmkinli ol, qəhərini də ud görüm. Be-lə-ə… İndi içəri girə bilərsən. Düzdü, bir azca rəngin bozdu, ancaq eybi yoxdu, o cür də keçər. İndi əlini uzat qapıya, aç qapını, asta görüm, təmkinlə, elə yox, özünə sarı yox, içəri itələ qapını, səbrnən. Bax belə… İndi sağa dön, sağa dedim sənə. Yoldaşının yanında təmkinli ol ha, biganə aparmağa çalış özünü. Nəbadə doluxsunub eləyəsən. Özünü ələ al, iradəli ol. İradəli ol, dedim sənə…

***

Axırıncı çim torpağı da atdılar Xanımın üstünə. Belin sapıyla üstünü də hamarladılar. O daşı bəri eləyin, - dedi atam (başdaşı əvəzi olmalıydı Xanım balama).Sonra hamı necə dayanmışdısa, eləcə də dinməzcə durdu yerində. Gözlərini qəbirə zilləyib ürəklə-

rində nə isə pıçıldadılar. Sonra da elə bil qəbiristanlıqdakılara söz verildi.

- Bu dünyada bir gün görmədi, Allah o dünyasın versin, – dedi biri.

«Verəcək, arxayın ol». Bunu mən dedim ürəyimdə.

- O qədər gözəl idi ki ölmüş… Yaxşı ki, öldü. Yoxsa bəlalar çəkəcəkdi başı.

- Mağıl canı qurtardı dünyanın pis üzündən.

- Allah rəhmət eləsin, Allah o dunyasın versin.

- Nə rəhmət, ay qız, cənnət quşuydu, uçdu getdi. Rəhmət deməzlər körpəyə. Nə günahı olmuşdu ki dünyada, nə də rəhmət deyilə dalıncan.

Bunu deyəndə, xalam Lalaxanım gözlərini dolandırdı, məni görüb yanıma gəldi.

- Sən haçan gəldin, bala? Utanmadın atandan, qayınatandan, qayınanandan?

Dönüb getdi. Az sonra camaatın gözünü oğurlayıb sezilmədən təzədən yanıma qayıtdı. Əlini uzadıb yaxamı açdı, qəbirin üstündən götürdüyü bir ovuc torpağı bədənimə buraxdı.

- O nədi, neyləyirsən? - Qayınanam idi bunu soruşan.

- Deyirlər, atasının qoynuna torpaq tökəndə tez unudur ölünü.

- Yaxşı elədin. Anasıyçün də götür. Anasının da qoynuna atarsan balasının torpağından.

(Daha bu torpaq Xanımın idi. İndi o idi bu bir qom torpağın sahibi).

- Yox, olmaz! Deyirlər, torpaq atsanız ata-anasının qoynuna, onları həmişə yandıracaq. Bir ayaqları elə burada olacaq valideynlərinin. Lazım deyil, tök yerə.

Əmidostum idi bu. Xalamın ovcunu açıb yerə dağıtdı Xanımın torpağını.

«Qızına yiyə durmadım, ona görə, hə?» – Bunu da mən dedim ürəyimdə.

- Sən isə çıx get buradan, bir də gözüm görməsin səni burada. Biabır-biabır durub gəlmisən ki, iş bilmişəm. Sənin nə azarın var

burada. Gözünün yaşını sil, hələ bir ağlayır da, xəcalət çəkmirsən? Hıçqırtısına bax!

Bunu deyən xalam idi. Deyib, döndü adamların arasına. Vəzifəsinin icrasından sonra nə işi vardı yanımda.

- Ay Xatirə, he-ey, dayın qızı da gəldi yanına, başına dönüm, gül balam, he-ey.

Yenə xalam idi, qardaşı qızıyçün ağı deyirdi.

- İndi də gedim Çiçəyin qəbrini yoxlayım, - Bunu da xalam dedi, elə bil qəbirüstü günüydü, qəbirüstünə gəlmişdilər. Dayım da ona qoşuldu.

- Mən də gedim qardaşım oğlunun qəbrini ziyarət edim, – Bunu da qayınanam dedi.

- İndi gəlirəm, - Bunu söyləyən isə qayınatam idi.

Dörd nəfər qaldıq qəbirin üstündə: atam, qardaşım, bir də əmim. Kiçik əmim Təvəkkülü deyirəm. Böyük əmim isə gəlməmişdi, arvadını göndərmişdi yerinə. Əmidostum da o biri arvadlara qoşuldu ki, qəbirlərin bər-bəzəyinə baxsın, görsün kimin qəbiri yaxşı düzəldilib. Bir də görsün neçə yaşındadı ölənlər?

***

Atam qardaşına baxdı. Köksünü ötürdü: - Belləri götürün yığın maşina, gözləyək görək nə vaxt yorulub qayıdacaqlar.

Maşina sarı getdilər. Hamı uzaqlaşmışdı. Dağılışmışdılar qəbirlərin arasına.

Görən olmasın deyə maşının arxasından dolanıb qəbrin üstünə gəldim. Xanımın torpağından bir ovuc götürüb barmaqlarımın arasında xışmaladım. Torpaq dən-dən olub qəbrin üstünə töküldü. «Bu da sənin payın, – dedim, - bundan artıq kim nə aparır ki dünyadan, sən də nə aparasan?»

- Ay əmi, öz əllərinlə basdırdın gəlinini, özün qazdın gəlininin qəbirini, ay əmi, he-ey, qismət deyilmiş Xanım sənə.

Xalamın səsiydi, təzədən beynimdə havalandı. Uşaq basdırılandan sonra, camaat dağılışanda demişdi əmimə.

- Axır qəmün olsun, ay qardaş. Anasının, atasının canı sağ olsun.

«Anasının» dedi birinci. Qayınanan idi, atama deyirdi bunu...

Amma bircəciyi bir yol deməmişdi ki, filankəsin uşağıdı ölən. Əlimi sıxıb təskinlik verən olmamışdı ki, axır qəmin olsun. Bircə qayınanam acıqlanmışdı ki, qocalıb qarımamısınız ki, nə burnunu sallamısan, - zarafatla burnumun ucundan da qaldırmışdı yuxarı (adamlar harada oldu zarafat etməyə macal tapırlar).

- Kötük olan yerdə budaq sınar. Noolub ki, qocalıb qarımamısınız ki… Axmaq!

«Noolacaqdı, ay xala? Nə də olmalıdı ki, bundan sonra…

… O dağ - mən, bu dağ - mənəm.
O budaq-budaq mənəm.
Kökdüm, sındı budağım,
Sinəsi bu dağ-mənəm.

«Sınan budaqdı, təki kötük salamat olsun!» Kim idi bunu deyən, yadımda qalmadı.

«Hayıf, gözəl uşaq idi deyirlər». Bunu da bilmədim kim idi söyləyən.

«Ölüyə hayıf deməzlər. Cənnət quşuyudu, uçdu getdi. Nə hayıf, nə rəhmət körpə uşağa? Xeyrat da düşmür heç uşağa».

Bunusa hamı dedi. Kimi aşkarda - bərkdən, kimi yavaşdan - xısıntıyla, kimi də ürəyində dedi: - Hayıf deməzlər ölüyə!

Bilmirəm necə oldu, bu sözləri ürəyində deyənlərdən biri də mən oldum.

*Noyabr 1977- ci il*

# BİR NOVRUZ AXŞAMI

Qanlı Baldadaş!

Elə beləcə çağırırdılar onu. Necə deyərlər, kişinin özünə görə mahalda adı-sanı var idi. Görən tük salardı Qanlı Baldadaşdan. Soruşsaydın, Göyçəli Gülümsərin bir sürü qoyununu kim çıxartdı ağıldan? Deyərdilər, Qanlı Baldadaş! Balaqardaş kişinin harınlayıb-qızıb kənd əhlini buynuzuna götürən Aloş öküzünün o il köpünü yatırdan kim olub? – Qanlı Baldadaş! Qoyun Məmmədin səsi-sorağı elatı tutmuş yorğa kəhərini gecəykən qız oğurluğuna aparan kim idi? Yenə də Qanlı Baldadaş: oturublar məclis başında. Uşaqlıq dostu fısqırıq Əliağa taleyindən gileylənib ki, bəs Könül könlüm evini dağıdıb qoyub viran. Az qalıram adımı Qeys çağırıb baş götürüb düşəm çöllərə. Atası da deyir iti görüm, qurdu görüm, səni görməyim. Yolda oturan qara yolçuya qız verərəm, sənə yox. Söhbət bu yerə çatanda hövsələsini basa bilməyib Baldadaş, qayıdıb ki, «ə, ölməyib ki lələşin. Sənin o Könlünü anasının qoynundan elə çıxarım ki, özün də əhsən deyəsən».

Məclis dağılandan sonra himi qoyublar bir yerə: necə eləsinlər, qızı nə təhər qaçırsınlar? Ən əvvəl Qoyun Məmmədin yorğa kəhərilə göy atı yadlarına düşüb. Əllərində qoşalülə, özlərini veriblər pəyənin böyrünə. «Allah eləməsin duyuq düşə Qoyun Məmməd. Qoyunluğuna baxma, yaman köpək oğludu. Özünü güllə qabağına verər, yorğa kəhərin qaçırılmasına dözəmməz, aləmi qatar biri-birinə». Nə isə… Quş sayıqlığı ilə atları çəkiblər damın dalına, səyirdib özlərini veriblər Könülgilin kandarına. Qızı çıxartmaq o qədər də asan olmayıb, bir atışma-bir mərəkə düşüb ki, gəl görəsən. Gülsənəm xala saçını yola-yola qalıb, Həsən kişi başına döyə-döyə.

Hələ bunlar nəydi ki…

O qədər biri-birindən beş-bədtər macəraları olub ki Baldadaşın. Kəndin ortasında günün günorta çağı Zorba Daşdəmiri o dünyalıq etməyini demirəm hələ. Kişi nə var-nə var birinin yanında dilindən qaçırdıb ki, Baldadaşın adı qulağına dəyib, ona bir toy

tutaram, lap dədəsi Baladadaşın kiçik toyu yadına düşər. Qulağı sözü alar-almaz Qanlı Baldadaş qaynayıb-köprüyüb, qızmış nər kimi kəsib «Zorba»nın qənşərini, nə yemisən, turşulu toyuq əti, o ki var çırpıb mitilinə. Bununla əl çəksəydi yenə dərd yarıydı. Bilməyib, dilindən ağır söz çıxarıb «Zorba», bu gözünə döndüyüm də nərildəyib-kəhildəyib necə vurubsa yazığın sipər yerinə, kişi canını birdəfəlik tapşırıb. O vaxtdan gözünü kimə ağardıbsa, sözünün qabağına söz çıxardan olmayıb. «Xatalıdı bu kişi, - deyiblər, - adamı al qanına çalxalayar». Elə o çağdan Baldadaş kəlməsinin önünə bir söz də əlavə edilib, olub «Qanlı Baldadaş». Və onlar biri-birinə elə yapışıqlı, elə yönlü qaynayıb-qarışıblar ki, deyərdin lap doğuluşdan gərək belə olaymış. Quş qanadlı ömür beləcə adlayıb il-il, onu da məhək daşı kimi sınaqlara çəkib yumşaldıb eləyib «adam». Nöşün ki, deyən başa düşmüşdü bu yaşayışın puçluğunu, əməllərinin heçliyini. Başa düşmüşdü ki, bir vaxt qolları qüvvədən, qılçaları kürrədən düşə bilər və bu vaxt başqaları da onu incidə bilər. Yaşlaşanda beləsini it yerinə də saymırlar. Yaxın da durmurlar tabutuna. Heç bəlkə molla da gəlmir üstünə, gələndə də el gözünə, şəriətin illərdən bəri daşlaşmış qanun-qaydası naminə gəlir, boğazdan yuxarı gəlir. İkrahla basdırırlar beləsini, goruna söyə-söyə quylayırlar qara torpağa, elə onunla da yaddan çıxır, unudulur, yaxud da bir vaxt xatırlananda doyunca söyülür yaş yatağına. Odu ki, bəlkə elə bu səbəbdən dönüb olmuşdu «adam» – sakit, həlim, üzüyola. Ancaq əməlləri dəyişsə də, dəyişməyən bircə ləkəntəli adı qalmışdı: Qanlı Baldadaş!

Söz-sözü çəkəndə çoxları Qanlı Baldadaşın bir belə dəyişəcəyini gözləmədiyini söyləyirdi. Buna görə də ağsaqqallar çalışırdı onun barəsində ləqəbsiz danışsınlar. Fəqət, həm də bu, mümkün deyildi. Çünki söhbəti nə sayaq qursaydın, «hansı Baldadaş?» sorğusu meydana çıxacaqdı və onda da məcbur qalacaqdın deməyə ki: Qanlı Baldadaş!

Son on-on beş ildə yaman dəyişmişdi kişi, olmuşdu ipək-kələf. Kimsənin toyuğuna daş atmaz, kimsənin xatirinə dəyməzdi.

Kimsənin də onunla işi yox idi: Salam-əleykim! Vəssalam! Amma demə! Yenə istər-istəməz adamın ürəyinə xof dolurdu ki, bilmək olmaz dünyanın işini, birdən kişinin «cinnəməliyi» yenə tutar, yenə kəndi çaxnaşdırar biri-birinə.

Fəqət bu gün…

Novruz bayramı axşamıydı bu gün.

Şər qarışır, axşamın tor qaranlığı düşür, əl-ayaq həyət-bacadan çəkilirdi. Qoyun-qaranın obaya tökülən vaxtı idi. Bir azdan kəndin özünəməxsus hay-küylü həyatı başlanacaq, qoyun-quzu mələrtisi, anaların övladını küçə oyunlarından qaytaran çağırtısı kəndi başına götürəcəkdi.

Bir az da keçəcək, bayram yeməyindən sonra uşaqlar sol əllərinə balaca bir çit torba alıb sağ əllərində papaqları, düşəcəkdilər kəndin canına qurşaq payı yığmağa. Elə ki torbaları, cibləri ağzınacan şişdi, çəkiləcəkdilər transformatorun yanındakı elektrik qəndilinin qənşərinə, başlayacaqdılar qırmızı yumurtalarını döyüşdürməyə, qoz-fındıqlarını yeməyə. Elə ki qurtardı, təzədən daraşacaqdılar evlərin canına. Gəlinlik yaşına yetmiş qızların da çiçəyi çırtlayacaqdı bu axşam. Zarafat deyil, bu gecəni düz 365 gün idi gözləyirdilər. «Bəxti bağlanmış» belələrindən kimi qapı pusacaqdı, kimi uşaqlar üçün qurşaq payı bağlayacaqdı ki, bəlkə bu əliaçıqlığı xoş gedə Allah-taalaya, bəlkə zərrəcə hörmət qazana ulu tanrının yanında. Və o da bəlkə bəxtini aça, ürəyində məhəbbətini sirri-xuda elədiyi cavanı görüşünə göndərə bu axşam.

Görünür kənd əhlinin üzünə idi. Elə yumşaq, elə yönəmliydi ki havasət, duyumsuzların da ürəyini dilə gətirərdi…

…Baldadaş evə dönəndə çox ertədəndi bu gün. Yuyundu, darandı, uşaqların anasına tapşırdı ki, bayram süfrəsi hazırlığı görsün, «uşaqlarla» bir siqaret çəkib qayıdır. Adətləriydi, hər axşam üfüq al-qumaşa bürünəndə, günəş ətəklərini əlinə dəstələyib yerin o biri üzünə adlayanda təzədən-köhnədən bir söz eşitmək istəyən ağsaqqal-qarasaqqal yığışardı tindəki «qoca» söyüd kötü-

yünün başına. Başlayardılar gap eləməyə. Hərə gördüyündən, bildiyindən bir söhbət başlayardı.

Qanlı Baldadaş da gəldi «uşaqların» yanına. Bir siqaret çəkimi söhbətdən sonra onlarla bircə-bircə əl tutub halallaşdı ki, bəs «gedir ölməyə!» Hamıya çöçün gəldi onun bu deyimi. Biri zarafat bildi, ikincisi qulaqardına vurdu, üçüncüsü… Baldadaş bununla da kifayətlənmədi. Bə`zi-bə`zi evlərə getdi, bə`zi-bə`zi tay-tuşları ilə xüsusi görüşüb ayrıldı ki, «gedir ölməyə!» Yenə hərə bir cür yozdu bunu. Dedilər, kişi ahıl çağında yə`qin xərifləyib, ya da əllaməlik fikrinə düşüb. Qərəz, Baldadaş döndü evinə. Uşaq-köşəyini yığdı başına, başladılar şam yeməyinə. Yox, bu dəfə də adəti xilafına çıxmadı. Əvvəlcə körpəciyindən başladı, dizinin üstündə oturdub «atam, atam» deyə-deyə yedirtdi. Sonra o birilərinin də qarnını doyuzdurdu. Və axırda Gülbadama baxdı.

*«Hə, xalaqızı, indi gəl özümüz «obeddəyək». Bəlkə axırıncı dəfədi bir otururuq, bilmək olmaz dünyanın işini».*

*«Xərifləmə, a kişi, axşam-axşam ağzını xeyirliyə aç».*

*«Yaxşı, arvad, yaxşı. Vecinə də alma. Bir söz idi dedim də, qan düşmədi ki…»*

Beləcə, yeməklərini yedilər. Çay məqamı çatanda döndü ki: - gəlsənə çarhovuzun başında çaylayaq, arvad, nə bilmək olar dünyanın işini, bircə dəqiqənə e`tibar yoxdu. Qoy, gözü dolusu baxım Qarlı Baba dağına, əfsanəvi Çobançatladan qayasına, ürək dolusu çəkim bu dağın-daşın havasını ciyərlərimə. Dünyanın üzü bozdu, torpağın üzü soyuq, arvad. E`tibar yoxdu bu fani dünyaya. Süleymana qalmayan dünyadı bu dünya… Kefli İsgəndərə də qalmadı.

Çarhovuzun başında süfrə açıldı. «Atam-anam» deyə-deyə balacalarını yan-yörəsinə topladı. Birinin çayını soyutdu, ikincisinə özü çay içirtdi… Sonra da yüngülcə yambızlarına çəkdi ki, «gedin oynamağa». Və ər-arvad oturdular qabaq-qənşər «çaylamağa». Bir «Avrora» yandırıb qoydu damağına, sümürüb çəkdi ciyərlərinə: - Bu dünya gəlimli-gedimli dünyadı, arvad, Süleymana qalmayan dünyadı. Ürəyinə bir təhər gəlməsin, sən atanın goru, bir söhbətdi

edirik özümüzçün. Sözümü də kəsmə, sən istədiklərinin canı. Hə, bu dünya çox üzüdönük dünyadı, gəldi-gedər dünyadı, arvad. Deyirəm neçə ildi bir yastığa baş qoyuruq, Allah atanın o dünyasın versin, məndən nə acılıq-şirinlik görübsən, hamısını ona bağışla. Bir də, arvad, sandığın sol küncündəki divar ikilaylıdı. Bir az əmanət var orada, yaman günümüzçün saxlamışdım, məndən sonra bəlkə gərəyiniz oldu. Bir kəsdən alacağım-verəcəyim də yoxdur. Pis-yaxşı, neyləmişəmsə, hamısını halal elə. İndi dur yatacağımı aç üzü qibləyə, uşaqları qaçırt qardaşım gəlib çənəmi bağlasın, gözlərimi bassın. Tez elə, arvad, tez elə, belə şeyi yubatmaq dürüst deyil…

…18 yaşı ola-olmaya ər evinə düşmüşdü Gülbadam. Onda da rulda otururdu Baldadaş, sürücü idi. Gülbadamın işlədiyi idarəyə qum, sement daşıyırdı. Qızların qulağı alana görə, otuz beşi ötürməsinə baxmayaraq, bu oğlan hələ də subaylıq taxtından düşməmişdi. E`tirafına görə, bu çağacan gözünü tutan, könlünü oynadan bir «xalasıgöyçək» olmamışdı ki, evlənsin. Günahın çoxu özündən çox bəlkə də yaşındaydı. O həddə qədər ki evlənmək xooşundaydı, başı qarışmışdı cavanlığa, sonra da ürəyi atlanmamışdı kimsəni seçib-sonalamağa: birinin saçları gödək olmuşdu - könlünü vurmuşdu, ikincisinin baxışı gözünü tutmamışdı (yaman göz-qaş dəlisiydi), digərinin… Beləcə, ömrünün yarıdan çoxunu qatlamışdı üzü dünənə. Bə`zən həyatındakı yeknəsəklik usandırardı onu, bir də «nə olsun»lar: obaşdan durar, yuyunub-daranıb səhər xəbərlərinə qulaq asar, sonra evdən çıxıb gələrdi qaraja. Yol vərəqini yazdırar, maşını sürərdi ya daş, ya qum karxanasına, ya da palçıq götürməyə, oradan da bir baş obyektə. Son vaxtlar bu obyekti olmuşdu Gülbadamın işlədiyi tikinti sahəsi. Hər günü beləcə təkrarlanardı Baldadaşın: ev-qaraj-obyekt, obyekt-qaraj-ev, bir də… Eh, yenə «nə olsun ki»…

Kimsəsiz həyatı, səhər-günorta-axşam yeməyini çöldə etməsi, onu qızlara isnişdirmişdi. Qızlar çay dəmləyər, qızlar bu «sinli əmini» süfrəyə də`vət edər və günorta yeməyinə yetişməyəndə, yenə də qızlar onunçün qəribsəyərdilər.

«Körpə uşaqdırlar, boğazlarına ortaq eləyirlər məni», - düşünən Baldadaş gahdan ya özü ət, balıq və s. alıb gətirər, ya da yeməyə bir şey olmayanda, gahdan Gülbadam atılıb minərdi bu «subay, sinli» oğlanın maşınına, gedərdilər bazarlıq etməyə. Beləcə, yetim Gülbadam bir də baxdı ki, iş-işdən keçib, daha evə dönə bilməz, daha sonuncu ümid, pənah yeri olan nənəsinin gözünə görünə bilməz. Belədə bircə yol qalırdı. Bu «sinli oğlan» onu qəbul etməsəydi, özünə ömür-gün yoldaşı götürməsəydi, Gülbadam bu bircə yolu seçməyə məcbur olacaqdı: Özünə qəsd! Düz səhərəcən Gülbadam bu «qəsdlə» yaşadı. Sabahı isə… Bir də baxdı ki, ZAQS-ı kəsilib, ömrünə bircə dəqiqə qalsa belə ocağından ayrılmayacaq bildiyi nənəsini yalqız-yalnız qoyub özü öz ayağı ilə gəlib kəndə, Baldadaşın ata-baba yurduna, qanunla-şəriətlə olub onun halalca arvadı.

«Axırın xeyirliyə bağla, ay Allah! Təzə-təzə gün görməyə başlayırdıq. Yalan elə, yanlış eləmə bu yuxunu. Nə hökmün varsa, mənim başımda çatlaq, qıyma burnunun da qanamasına uşaqlarımın atasının, ona gələn qada-balanı mənə göndər, ömrümdən kəsib ömrünə cala onun, bir günümü onsuz eləmə».

Sübh obaşdannan yaman dığ-dığdaydı ürəyi. Fikirləri ürəyini yeyib-tökmüşdü. Açıb-ağartmamışdısa da, kişini işə yola salanda yalvarıb-yaxarmışdı ki, icazə alıb tez qayıtsın evə. Bəhanəsi uşaqlar olmuşdu. Bəhanəsi bayram qazanı asacağı sözü olmuşdu. Açıb deməmişdi ki, ayda-ildə bir yuxu görən mən başıdaşlının balası, bu gecə lap pis yuxu görmüşəm. Hana görmüşəm yuxuda. Görmüşəm, nə vaxtdandı qurulu qalıb oxda, əl yetirib toxuya bilmirəm. Fikirləşdim, bu gün bir az toxuyaram, kirgiti götürüb oturdum aşağı, elə bir əlçim keçməmişdim, bir həvə vurmamışdım, gördüm ərişin biri qırıldı. Elə birini bağladıqca o biri qırılırdı ki, uşağın səsinə yuxudan ayıldım. Sonra daha sabahacan gözümü yuma bilmədim. Deyirlər, pisdi yuxuda hana görmək.

Bayaqdan ürəyini deşirdi bu zəhirmara qalmış yuxu. Sirrini deməyə, ürəyini boşaltmağa bir quyu da yox idi ki, danışıb yüngülləşə. Bir də axı, yuxunu heç kəsə danışmazlar, yuxu yadda qalmaz,

deyirlər. Bəs elə isə, niyə yadından çıxmırdı yuxusu. Səhərdən ürəyində qaynadır, əldən-ayaqdan qorxacaq dəbərirdi ki, birdən bir şey çıxar işin içindən, bir şey olar uşaqlarına, ərinə, özünə.

İndi, əl-ayaq yığışan çağı ərinin belə söhbət başlaması, təkidlə öz istədiklərini həyata keçirməsi heç açmadı gəlini. Gözü nəmli, ürəyi yaşlı, ərinin yatağını aça-aça düşünürdü ki, sağ çillə kişiyə nə oldu belə qəfil? Bir kəslə vuruşmayıb, yıxılmayıb, əzilməyib… Belə olacağını bilirdisə, bəs niyə bayram payı hazırladırdı, niyə bayram yeməyi bişirtdirirdi və bir də niyə qurşaqpayına gələnlər üçün ayrıca pay-püşt hazırladırdı?

- Arvad, sən atanın goru, bir dəsmal ver mənə, deyən dodağımdan qan açılıb, kəsmək bilmir.

Dəqiqələri sanana-sanana ötürdü Gülbadam. Dəsmalını bir də dəyişdirdi Baldadaş, iki də… Deyəsən bu həna o hənadan deyildi. Ürəyinə xof doldu Gülbadamın. «Bu nə deməkdi görən? Hana olmasın bu, İlahi? Dodaqdan da bu qədər qan gələr?»

- Ay arvad, gəl qolumun qarısını boğ, bəlkə qanaxma dayandı, - dedi Baldadaş…

***

…Axşamın toranlığı qovuşmuşdu kəndə. Günəş çoxdan üfüqdə gizlənmiş, əl-ayaq həyət-bacadan çəkilmişdi. Bir azdan qurşaq payı yığmağa çıxacaqdı uşaqlar. Radioda konsert gedirdi.

«Haraylınam, getdim, gəl,
Harayına yetdim, gəl.
Sənli də sənsiz idim –
Sənsizlikdə itdim gəl».

Müğənni oxuyurdu. Ara-sıra elə guşələrdə gəzişir, elə boğazlar vururdu ki, handa daşürəklinin gözləri dolardı.

Birdən**…**

Novruz bayramının bu çılğınlığını bir hayqırtı parçaladı:

- Ay camaat, qoymayın evim yıxıldı, qoymayın, ay camaat, Baldadaş getdi, köməyə gəlin, ay camaat…

Bayıra atıldım. Elə ayaqyalın, başıaçıq… Qonşulardan da səsə çıxan olmuşdu. Balaca palat qapısından dürtülə-dürtülə özümü güclə içəri saldım …

…Yuxum çin oldu, - dedi Gülbadam, - köpək qızının toxuduğu köpək oğlunun hanası.

- Nə, nə dedin?

- Heç, - deyə yanıltdı, nəyisə gizlətdi, nəyisə pünhan saxladı Gülbadam.

Baldadaş uzanmışdı. Elə son vaxtlarkı təbiətincə - sakit, həlim. Elə bil heç nə olmayıbmış, elə bil elə-belə də olmalıymış. Gözləri yarıyumulu, ağzı açıla qalmışdı. Nəbzini tutduq, hiss olunmurdu. Qollarının, qılçalarının boğumunu açdıq. Göz qanaqları silkələndi. Üç dəfə içini çəkdi, rəngi əvvəlcə ağardı, sonra boğuldu və…

*1980-ci il*

# AY SƏNİ, DÜNYA

İndi də elə oldu. İndi də ərizəsinin üstünə dərkənar qoyulanda və göndəriləndə kadrlar şö`bəsinin rəisinə ki, baxılsın, müavinlərlə, şöbə müdirlərilə məsləhət edilsin – bədəni uçum-uçum uçundu. Elə bir ağırlıq çökdü qaşlarının üstünə ki, özünü saxlaya bilmədi: «Ay səni…» Və bir ağır söyüş dedi. Əlləri titrəyə-titrəyə siqaret yandırıb sümürdü ciyərlərinə. Düşündü ki, bəlkə əsəbiliyi bir az çovrula, sonra bu da rədd olub gedə xarabasına. Yoxsa indiki halında dönə bilməzdi evinə. Neyçün ki, axırıncı ərizəsindən sonra (bundan əvvəlkində) ömür-gün yoldaşı da elə bilmişdi beş-on günlükdü, daha işi düzəlib ərinin, əmri veriləsidi və əri keçib oturasıdı böyük bir stolun arxasında. Öz hüququ, imtiyazı, səlahiyyəti… Belə-belə söhbətlərdən sonra indi də dön evə ki, bəs üzağlıq edib əliboş qayıtmışam üstünə, gör onda nə həngamə qalxır. Belədə söz də gərək deyil, adicə bir bəhanə, ya kinayəli bir baxış kifayətdi ki, mərəkə qopsun. O üzünü bu yana tutsun, bu üzünü o yana – beləcə, qalsınlar bir evin içində küsülü, lal-dinməz oyunu oynaya-oynaya. Odu bunları yaxşı-yaxşı götür-qoy edən Elgün evinə dönmədi, yolüstu əyildi sahilə sarı. Özünü verdi «qocalar» guşəsinə. O yerə ki, təqaüdçülər dəstə-dəstə topalaşıb başlayırlar nərd atmağa, ya damino çırpmağa. Aralarında həyatdan, elmdən elə maraqlı söhbət edənlər də tapılır ki, deyirsən, cavan olan mən, oxuyub-qulaq asıb çatdıra bilmirəm, bu qoca haradan alır bu qədər informasiyanı. İndi də deyən Elgünün baxtınnandı, bir deyimlisi-danışımlısı çıxmışdı rastına ki, qulaq asdıqca yorulmaq bilmirdin. Əslində onun danışdıqlarında təzə bir zad yox idi. Qoca, sadəcə olaraq öz deyimi-görümü ilə köhnə bir tarixi həqiqəti təzələmiş, bu vaxtadək Elgünün ağlına gətirmədiyi bu hadisəni bu günlə bağlı tərzdə onunçün mə`nalandırmışdı. Və indi heç özü də bilmədi necə oldu ki, Avstriya taxt-tacının varisi Frans-Ferdinanda atılan güllələrə bəraət qazandırdı. Heyfsiləndiyi isə bircə buna idi ki, Birinci Cahanşümul müharibəsinə çınqı salan serbiyalı Qavrilo Prinsipin gülləsi gimnazisti tarixdə əbədiləşdirməkdənsə, eləcə, davanın qızışmasında adi bir bəhanə yeri olaraq qaldı.

Elə bu fikirlərlə Dənizkənarı parkdan çıxıb özünü evə yetirdi. Qapı-bacanı bağlayıb, nənəsindən miras sandığı eşələyib babasındanqalma ağır, iri nağanı çıxartdı. Səliqə-sahmanla söküb tökdü yerə. Başladı hissələrini bircə-bircə silib təzədən yığmağa. Elə ki, doldurdu tapançanı, pencəyinin döş cibinə qoyub üz aldı idarəyə. Niyyətindəydi bu axşamçağı direktoru da bir gülləyə qurban etsin, kadrlar şö`bəsinin rəisini də. Əzəl yazığı gəldi direktora. Düşündü ki, qoca kişidi, humanist adamdı, təmiz ad-san yiyəsidi, lap kristaldı deyilənə görə. Bəlkə həqiqətdə də belədir, bəlkə də yox, yainki camaatın gözünə kül üfürmək kimi şeydi direktorun üzdə görünən tərəfi, Elgün bunu deyə bilməzdi. Ancaq hər dəfə onu səbrlə, təmkinlə qarşılayıb ərizəsinə dərkənar qoymasına və «yə`qin ştat yoxdur, olsaydı N. müəllim çoxdan vermişdi onun işini» kəlmələrinə də haqq qazandırmaq mümkün deyildi. Deməli, burada nə isə vardı. Və güman, elə həmin «nə isə» idi Elgünün işini yubadan. Yoxsa qaşı-gözü artıq idimi, savadı ondan çox idimi işə götürülənlərin?

Bütün bunları götür-qoy edəndən sonra Elgün tətiyi ayağa çəkdi, qapıya iri bir təpik ilişdirib girdi içəri. Əvvəl-əvvəl kadrlar şö`bəsinin rəisini atdı. Neyçün ki, çox incitmişdi onu, çox yanıltmışdı və nəhayətdə, üzünə demişdi ki, bir də işdən yana onun yanına gəlməsin, narahat etməsin onu, çünki o, iş verən deyil, o kimdi ki, hər yoldan ötənə iş də verə.

Axırıncı dəfə belə deyitləşmişdilər. Odu birinci onu atdı, onun kəlləsinə çaxdı gülləni ki, babasının yadigarı ən əvvəl ən qatı düşməninin qanını töksün. «Ovuclayıb qurtum-qurtum içərəm qanını, köpək oğlu» söylədi ürəyində. Və hətta istədi doğrudan-doğruya irəli yeriyib ovuclayıb içsin «otdelkadrın» qanından, qorxdu. Qorxdu ki, gözlərini qan tutar, aləmi qırıb çatar. Qorxdu ki, «cəllad», «qaniçən» deyərlər adına. Odu, gözlərini çevirib yazıq-yazıq stula büzüşmüş direktoru da nişana götürəndə, ürəyinə qətrə də rəhm gəlmədi. Çünki bu qaniçən qocanın da qanı ona halal idi. Çünki su başdan bulanırmış demə. Belə olmasaydı, yə`qin çoxdan verilərdi Elgünün işi.

Direktoru da atandan sonra xalıya belə heyifsilənmədən döşəməyə «tfu» deyib tüpürdü, özündən razı, ötkəm halda qapını

çırpdı və… Bir də baxdı ki, həyət qapısı ağzınacan adamla doludu. Elə bil sirk tamaşaçılarıdı, səbrsizliklə «kloun»un gəlişini gözləyirlər. Ancaq elə ki, bu «kloun» həyətdə peyda oldu, hamı ağzına su almış kimi dinməzcə yana çəkilib yol verdi bu əlahiddə görkəmli «klouna» və həmin domuşmuş, buzlaşmış nəzərlər onu darvazayadək ötürdü. O yerəcən ki, qapıda bir polis maşını göründü, oradan əli silahlı adamlar tökülüşdülər yerə və hücum çəkdilər binaya sarı. «Kloun»un tamaşaçıları yalnız onda hərəkətə gəldilər, barmaqlar yalnız onda darvaza yönü uzandı və yalnız onda dilə gələnlər tapıldı ki, «tutun onu», «qoymayın, qaçdı», «öldürdü qaçdı» və s. Bu, elə və`də idi ki, Elgün artıq öndə gələn polisi üçüncü güllənin qurbanı edib atılmışdı bağın gurluğuna və burada elə qəfil yoxaldı ki, deyən yer yarıldı-göy uddu canini. Amma elə hey eşidirdi yanı-yönü qışqırışırlar ki, «tutun», «qoymayın qaça», «haradadı, buralardadı», «mümkün qədər dirisini yaxalayın». Və birdən gördü ki, kimdisə, onu adı ilə çağırır. «Vay, evin yıxılmasın, kimdisə deyən məni tanıyıb, evimi yıxacaq köpək oğlu».

Səs bir də eşidildi: - A kişi, dur ayağa, ay evi tikilmiş, nə bürümüsən başını». Baxdı ki, deyəsən məhrəm səsdi. Deyən görükmək olar bu səsə. Başını yorğanın altından çıxarıb bir o yönü çevrildi-bir bu yönü çevrildi, yenə gözləri açılmadı.

- Dur görüm, a kişi, gün günorta oldu, işə gecikərsən, tez qalx.

Bu – ömür-gün yoldaşının səsi idi, ərini haylayırdı. Səhər yeməyini stolun üstünə düzmüş, şirinçayını da qarışdırıb məhrəbanı çəkmişdi üstünə ki, kişisi durub vaxt itirmədən yeməyini yeyib qaçsın işə. Özü isə tələm-tələsik uşağı geyindirirdi ki, körpələr evinə tez yetirsin ki, işə ləngiməsin.

Axır ki, yuxusunu güclə də olsa kipriklərindən qova bildi. Gözlərini birsayaq açıb yan-yörəsinə nəzər yetirdi. Bir ömür-gün yoldaşıyla körpəsinin rəddi görünən astanaya, bir də özünə baxdı – dodaqlarına istehzalı bir təbəssüm yayıldı. Yuyunub-yaxalanıb keçdi yemək stolunun arxasına. Könülsüz bir-iki qismət alıb yenə də tələsmədən (adi qaydasınca) qapıya yönəldi. Bilirdi ki, bu məktubu qeydə al-o məktubu qeydə al, bu məktuba cavab yaz-o məktuba cavab yaz –

başı-beyini şişəcək axşamacan. Eyni iş, eyni yeknəsək əməl… Odu tələsmək hara, Elgün hara? Qoy nə qədər deyinirlər-deyinsinlər.

Qapıdan çıxhaçıxda çönüb bir də geriyə boylandı. Yataqdan qalxanda maykasının, yorğan-döşəyinin çim su içində olmaqlığı yadına gəldi. Və qeyri-iradi acı-acı gülümsədi: «Ay səni, dünya, gör ha?..»

*1972-ci il*

# MƏNİM NAĞILLI DÜNYAM

(Fəridə adında yaşantım üçün)

***Xəyalımda bir qızın nağılları dolaşır.***
***Mən o qıza bir nağıl danışmaq istəyirəm…***

Bu dünya lap nağıl imiş. Öz rəngləri, təbiəti və bir də İNSAN adlı övladı ilə nağıllaşarmış dünya. Bəlkə elə dünyanın qismətindəymiş ki, onun İNSAN adında övladı olmuş olsun. Və YER ÜZÜNÜ öz sirli əməllərilə heyrətləndirsin. Kim bilir, bəlkə insan olmasaydı, bəlkə yer üzünün nağılları da yaranmazdı və bu gün biz bu «nağıllara» heyrətlənə bilmək imkanı əldə edə bilməzdik.

***

Bəşər övladının yaratdığı nağıllar haqda fikirləşirdim ki, telefon səs saldı. Dəstəyi götürdüm:

- Bəli.

Səs gəlmədi.

- Eşidirəm.

Dillənmədilər. Ancaq hənirtidən hiss olunurdu ki, hər kəs-disə, danışmağa tərəddüd edir.

– Danışmaq istəmirsinizsə, dəstəyi qoyun zəhmət olmasa, – söyləyib, telefonun o başındakında cəsarət yaratmaq istədim. Deyəsən bu, alındı da.

- Kimdir ki, danışan.

Bu səs namə`lum müsahibimin idi.

- Kim lazımdı sizə?

- Adınızı deməyə qorxursunuz deyəsən. Eyb etməz, bilmir-siniz bu həftə «Retro» kino-zalında (Az.TV-də veriliş) nə göstəriləcək?

- Bilmirəm, amma öyrənmək olar. Bunun üçün kino-proqram redaksiyasına zəng etmək lazımdır.

- Axı, mən yalnız Sizin telefonu bilirəm.

***

… Olsun, bu dialoq uzun çəkib, deyək ki, lap bir saat. Odur ki, hamısını nəql edib sizi yormaq istəmirəm. Ancaq söhbətin qədərsiz uzandığını görüb bir bəhanə yeri tapdım və üzr istəyib, tələsik dəstəyi asdım.

- Nə vaxt zəng edim bir də?

Nə deyəydim. Ağlıma gələn məqamı söylədim:

- Sabah elə bu və`də.

Fikirləşirdim, bəlkə bir də telefon etməyə.

…Sabahı gün saat on ikidə telefon səs saldı. Dəstəyi qaldırdım:

- Eşidirəm.

Danışmadılar.

- Kim lazımdır Sizə?

Sorğum yenə cavabsız qaldı. Dəstəyi asdılar. Üçüncü zəngdən sonra qulaqcıqdan səs gəldi:

- Bilmirsiniz bu həftə «Retro»da nə göstərəcəklər?

- Hə, sizsiniz? Mənə demədiniz bu telefon nömrəsini sizə kim verib və nə məqsədlə?

- Sorğu kitabçasından götürmüşəm.

- Bəs telefon etməkdə qəsdiniz nədir?

- Elə-belə.

- Elə-belə də zəng olur?

- Bə`zən belə də olur.

Susdu. Az sonra yenə özü dilləndi:

- Sizdə olmur bəyəm belə şeylər?

Araya səssizlik çökdü. Hannan-hana dilləndim:

- Qəribədir.

- Nə?

- Telefon zəngini deyirəm.

- Nahaq, bə`zən belə də olur. Həyatda hər şeyə adi baxmağı bacarmaq lazımdır.

…Və sair, və ilaxır bu qəbildən lüzumsuz söhbətlər.

Daha bir neçə gün ötdü. İlk anlar mənə qəribə görünən bu telefon zənglərinə get-gedə alışmağa başladım. Elə bil elə-belə də

olmalıymış. Elə bil Fəridəni cəmi bu bir neçə gün deyil, lap çoxdan, bəlkə lap uşaqlıqdan tanıyırammış. Ancaq daha hövsələsizliyim özünü göstərməyə başlamışdı. Və bir də istəmirdim ki, telefon ünsiyyətimizdə istilik yarana, yaş fərqlərimiz isə bu istiliyi ciddiləşdirməyə yol verməyə və nəticə e`tibarı ilə hansımızınsa içində hansı isə ağrı qala. Bu səbəbdən də dəstəyi götürüb telefonu yığdım: - Fəridəni zəhmət olmasa.

Otaqda yayılan səs telefona düşdü:

- Fəridə, səni istəyirlər.

Görüş tə`yin etdim.

- Bəlkə başqa vaxta qalsın, - dedi.

Otağa yoldaşlardan daxil olduğundan açıq danışa bilmirdim: - Yox, danışdığımız və`dədə, - dedim və cavab gözləmədən dəstəyi asdım.

Görüşdük…

«Görürsünüz, mən hiss edirdim ki, yaşda Siz məndən çox böyüksünüz. Hələ bəlkə evlisiniz də».

Bunları onun baxışlarından oxuyurdum.

Dinmədim.

«Bəs niyə ailə qurmamısınız bu vaxtacan?»

Səbəblər çox idi. Hansını açıqlayaydım?

Üz-gözündə elə məs`um, məlahətli pərtlik dolaşırdı ki… Bu adi gözlər, bü çöhrə mənə nağılların sirli dünyasından gəlmiş kimi görünməyə başladı. Bəlkə də bu, bu bir neçə günün sehri, möcüzəsi idi, onun danışdıqlarından hopmuşdu ürəyimə. Buludlar arasından sıyrılıb çıxan ayı xatırladırdı pərtliyə bürünmüş bənizi. Və bir anlıq da olsa, bu bədirlənmiş ayın ilğımlığında isinmək sehri duydum içimdə.

Qəribədir insan dünyası. Hərdən lap körpə uşağa dönürük. Kiminsə istiliyinə, nəvazişinə aclıq hiss edirik, kiminsə nəfəsinin hərarətində ovunmaq arzusu oyanır ürəyimizdə. Bu, bəlkə həyatın əbədi ehtiyacıdı, qayğılarımızın çoxluğundandı bəlkə bu, kim bilir.

Hisslərimdən ayrılanda gözümə dəyən yenə o pərtlik oldu. Ürəyim gizildədi, onun axtardığı deyildim deyən, içimi ağrılar

götürdü. Əslində telefon söhbətlərindən fəhmlə də olsa hiss etmişdim ki, yaşlarımızın uyarsızlığı münasibətlərimizə haqq qazandırmaqda acizdir. Kimsənin içində lüzumsuz ağrıların peyda olmasına yol verməmək və bünövrəsi qoyulmamış münasibətlərimizə mümkün qədər tez aydınlıq gətirilməsi üçün daha tez bir məqamda görüşməyimiz vacib idi. Bu səbəbdən, düşündüklərimi birbaşa dedim:

- Pərt olmayın. Mən sizin yaşınızın azlığını təxmin etmişdim.

Məsumluqla:

- Bəs niyə gəldiniz?

- Bu nağılın sehrini qırmaq üçün.

- Nə nağıl?

- Bu dünya nağıl imiş.

Təbəssümləndi:

- Biz də onun qəhrəmanları, eləmi? Nağılı çox xoşlayırsınız?

- Kitablardakı nağılı yox, dünyanın nağıllarını.

Susduq. Nə danışaydıq?

- Eyb etməz, pərt olmayın, bə`zən belə də olur.

Bunu yenə mən dedim.

Çaşqınlıqla:

- Yox, nədən pərt olmalıyam ki?..

Yenə susduq. Danışmaq hər ikimiz üçün çətin idi. Əslində mən susmamışdım, ürəyimdə onunla danışır, söhbətləşirdim. Elə bu söhbətin mabədiydi ki, ürəyimdə onun bütün sorğularına verdiyim cavab aşkarda da eşidildi:

- Sonra sizin üçün əzablı olacaqdı, ona görə gəldim.

Bir-birimizə baxıb gözlərimizi gizlətdik. Elə bil kimdənsə, nədənsə çəkinirdik.

- Daha zəng etməyəcəksiniz, deyilmi?

Bunu ağrılı-acılı səsi ilə o dedi, - axı Siz niyə mənə cavab zəngi etdiniz? Bir də ki, mən nişanlıyam.

Barmağında üzük yox idi. Sol əlinə baxdığımı hiss etdiyindən, «yazda nişanlanacağıq, - dedi, - Novruz axşamı elçilər gələcək, istəyirsiniz oğlanın adını da söyləyə bilərəm.

- Yox, nəyə lazım. Xoşbəxt olun!

- Siz də!

Ağır, üzücü bir səssizlik içində idik. Kədərlə üzümə baxıb, «bə`zən belə də olur» dedi.

Dinmədim. Ürəyim isə pıçıldadı: «Belə də şey olar?» Qulağıma səsi gəldi: - Daha zəng etməyəcəksiniz, elə deyilmi?

Bilmirdim nə cavab verim.

«Bilmirəm».

Bunu mən dedim.

- Deyin ki, hə! Çox xahiş edirəm! (Bir ayağı qaçaq idi) deyin ki, hə! Xahiş edirəm!

Üzünə baxdım. Tə`nəmi hiss etdiyindən bir az da sıxıldı:

- İnciməyin, Siz Allah! Sizdə belə şey olmayıb bəyəm?

Yan-yörəsinə boylandı:

- Görən olar, mən gedim… Budur, müdirim də gəlir, mən onunla gedirəm.

Üzümə baxdı.

- Sağ olun, (pıçıldadı) inciməyin.

Qaçıb orta yaşlı bir kişinin qoluna girdi. Sol çiyninin üstündən dönüb mənə baxdı. Elə bil demək istəyirdi ki, «Bə`zən belə də olur. Sizdə belə şeylər olmur bəyəm?»

Mən də ona baxdım. «Bu dünyanın nağıllı günləri varmış». Bunu mən ürəyimdə dedim.

Tini burulanda bir də döndü baxdı: «Zəng etməyəcəksiniz, deyilmi»?

Bilmirdim. Adama bu yaşda çox şey tə`nəli görünür.

***

…Bu hadisə qış aylarında baş verib. Həmin gecəni şaxta düşdü. Elə bil ürəyimin qızınmağa macal tapmamış bu sahibsiz hisslərini dondurmaq idi istəyi.

Xəyalı gözlərimin qabağında idi.

*« - Qulağını gətir. Sənə sözüm var.*

*- De, eşidirəm!*

*- Yox, qulağına demək istəyirəm.*

*(Pauza)*

*- Yoxsa, zəng edərəm ha!*

*Qulağımı yaxınlaşdırdım. Dodaqlarını ustufca yanaqlarıma toxundurdu. Dodaqlarının hərarətindən səksəndim. Yanaqlarının odu əllərimi qarsalandırdı. Gözlərini ayaqlarının ucuna dikdi. Sonra qaçıb müdirinin qoluna girdi».*

Köks ötürüb yatağımda çevrildim.

Dünyanın nağıla bənzər günləri varmış…

*1980-ci il*

# ONLAR SƏMƏD VURĞUNU GÖRMÜŞLƏR

*(Xalq şairi Səməd Vurğunun 70 illik yubileyi qarşısında)*

## "MUĞANA CEYRAN"

Hacıqabul rayonunun Muğan qəsəbəsində yaşayan Lətif Şəmiyev həmin şeirin adını bircə yol «Ceyran» demədi. Muğana ceyran! Elə belə də adlandırdı şeiri.

Lətif kişi boy-buxunlu, necə deyərlər, qollu-budaqlı, şaqqalı adamdır. Sinni yetmiş olar. Baməzə söhbətləri ilə, deyəli-güləli danışıqları ilə çoxlarını özünə cəlb edib. Deyilənlərə görə, elə məzəli söhbətlərinə görə S.Vurğun onu xoşlayarmış. Ayağı Muğan stansiyasına düşəndə Lətifi görməmiş, onunla bir daraq turac ovuna çıxmamış geri qayıtmazmış.

- Ay oğul, indi o «Muğana ceyran» deyirlər ha, ağrın ürəyimə, onu Səməd rəhmətlik, indi deməsin, öz yanımda dedi. Əhəd əmiyə xatirə bağladı o şeiri. Kitablarda yazırlar ha, bəs, guya Muğan düzünə yazıb o şeiri, inanma. Mənəm o şeirin yaranmasının canlı şahidi. Axırıncı gəlişində demişdi həmin şeiri… Payızın soyuqdan qorxan günləri idi. Həyətdə gəzişirdim. Əhəd əmigilin balkonunda çal saçlı, gümrah bir adam kəndi seyr edirdi. Kənd sakininə oxşamırdı. Əlimi gözümün üstünə qoyub baxdım, baxdım… tanıyammadım.

- Noolub, ayə, Allah gözüyün şooxunu aparıb nədi, - sözünə ara verib gülümsədi, - Səmədəm də, tanımırsan?

Düzü, indi də özümə bağışlaya bilmirəm onu tanımadığımı. Eyvana yaxınlaşıb üzr istədim: - Neyləyim, ay şair Səməd, bu bir ildə yaman dəyişmisən, heyf, saçların tez ağardı.

- Bəs, ay rəhmətliyin oğlu, eşitməmisən, uca dağların başı həmişə qar olar? – Güldü.

- Yaxşı, Lətif, get, hazırlaş, ova gedəcəyik, Qarağaclıya, - deyə balkona çıxan Əhəd əmi dilləndi.

Evə döndüm. Patrondaşı, tüfəngi götürüb geri qayıtdım:

- Mən hazır!

Sürücü maşının arxasında nə iləsə qurdalanırdı. Boz «Pobeda»sına dirsəklənmiş şair isə öz dünyasında idi. İrəlidə, sahədə qızğın iş gedirdi. Bir dəstə qız-gəlin çiyinlərində güyüm traktorun yanına su daşıyırdılar.

- Əhəd, bərilərə gələndə şəhərdə yoldaşlardan neçəsi dedi ki, nə var boz düzəngahda, gedirsən. Neyləyim ki, onlar bu «boz düzəngahın» belə ceyran gözlü qızlarını görməyiblər. Əlləri gül-çiçək yetirən, əməlləri gül-çiçək bitirən bu çöllərin ceyran gözlü qızlarının nəyə qadir olduqlarını, heyf ki, bilmirlər.

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartınıb, ox kimi süzüb,
Yenə dəstəsini nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran!
Nə gözəl yaraşır Muğana ceyran!

Bir siqaret yandırıb damağına qoydu. Tüstünü yuxarı üfləyib ağır-ağır dilləndi. Və indi hamının əzbər bildiyi şeirin axırıncı misralarını dedi.

Əhəd, insaf elə, keçmə bu düzdən,
Bu el qızlarını ayırma bizdən,
Qoyma ağrı keçə ürəyimizdən,
Qıyma öz qanına boyana ceyran!
Nə gözəl yaraşır Muğana ceyran!

…İndi, oğul, şair adamdı, sonra necə çevirib, nə cür yazıb, deyə bilmərəm. Amma, mənim yanımda belə dedi. Həm də özündən söylədi, bədahətən dedi şeiri. Səsi indi də qulaqlarımdadı rəhmətliyin. Dedi ki, ay Əhəd, bu qızları ceyrana oxşadıb, sənə yadigarlıq eləyirəm bu şeiri. Məndən sonra deyərsən ki, Səməd mənə baxşeyiş yazıb bu şeiri… Hə, oğul, «Muğana ceyran»ın bünövrəsi belə qoyulub. Muğan deyəndə də bizim Muğan stansiyasını (o illərdə evlərin sayı az olduğundan, yaşayış məntəqəsi kimi qeydiyyatda deyildi) nəzərdə tutub, daha Muğan düzünü yox. Rəhmətliklə birinci tanışlığımız isə…

## YADİGAR

- Ayə, ay uşaq, Lətifə deyin, bir bizə tərəf fırlansın, işimiz var onunla.

Əhəd əmi – hamı onu bu adla çağırırdı, - Əhəd Eynullayev Qamış Zavodunun direktoru idi. Kəndimiz onda cəmi 20-30 evdən ibarət balaca bir stansiya idi. Zavod fəhlələri yaşayırdı bu evlərdə. Əhəd əmi yeniyetmələrə hay saldı:

- Becid olun, ayə, ayaqdan qıvraq olun!

… Getdim. Otaqda iki qonaq vardı. Öyrəndim ki, Səmədlə Rəsul Rzadı. Villisdə gəlmişdilər. Salman adında bir cavan sürürdü maşını. Qarasu stansiyasına, Şirin dayıgilə getdik. Stansiya ilə Padar arasındakı qamışlıqda bir turac vurub geri qayıtdıq…

Səməd tez-tez bizim tərəflərə turac ovuna gələrdi. Həmişə də bir geyimdə gələrdi ova. Əynində sarı köynək, eynilə də həmən rəngdə gödəkçə, ayaqlarında xrom çəkmə. Açığı, siftələr özümü sıxıntılı aparardım onun yanında, sən demə özgə cür zarafatcıl imiş.

***

…Sabah yenə ova gedəsiydik.

Sübhün oyanmasına bir boy qalmış, obadan çıxdıq. Sabirabad rayonunun «1 May» kolxozu deyib getdik birbaş Qüdrət Şirəliyevgilə. Ov üçün əlverişli yer qamışlığı seçdik. Bizim Muğandan o yandakı qamışlığı. Elə ki, qamışlığa çatdıq. Səməd: - Moskvaya gedəcəyəm, Mərkəzi Komitəyə. İstəyirəm elə şey aparım ki, Qafqazdan soraq versin. Turac aparmaqdı niyyətim, siz isə gedin, - deyib sürücü Salmanla məni sərbəst buraxdı, - axşam saat $6.^{00}$-da gəlib bizi götürərsiniz.

- Hə, Salman, necə bilirsən, gəlsənə biz də bekar qalmayaq. Görək nə düşür əlimizə, - deyib sürücünü şirnikləndirmək istədim. Demə, onun da canında az yox imiş, razılaşdı. Elə bir az aralanmışdıq, üfüqdə qaraltı göründü. Canavardır, - dedim və ağır-ağır irəliləməyə başladıq. Güllə boyu qalmış dayandıq. Quduz o qədər harınlamışdı ki, şinəyib üzümüzə durmuşdu, qorxub-hürkmürdü də. Tüfəngi üzümə qaldırıb tətiyi sıxdım. Güllənin açılması

ilə hardansa başqa bir canavar da götürüldü, elə bil yerin təkindən çıxdı. Onu da vurdum. O gün ovumuz uğurlu oldu. Axşama bir ceyran da tədarük elədik. Salman dedi ki, dərisini gizləyək. Səməd bilməsin. Yoxsa ceyran dalınca maşın qovmağımıza acığı tutar.

Lətif kişi köksünü ötürdü: - Eh, ay oğul, gördüyün bu ucu sınıq xəncər Səmədin yadigarıdı. Hər gözümə dəyəndə ürəyim göynək-göynək olur. Tüfəng də bağışlamışdı mənə. Qoşalüləydi. İndi gördüyün tüfənglərsayağı yanaşı döyüldü, üst-üstəydi luləsi.

Üzümə baxıb durdu. Köks ötürdü: - O qədər şirin söz-sovlar bilirəm ki, şair Səməd barədə, hansını deyəsən.

«İşıq» qəzeti
(Əlibayramlı Şəhər Partiya Komitəsinin orqanı).
29.02.1976-cı il

# KİÇİK POVESTLƏR

## ATA QARĞIŞI

Sevmək gözləməməkdi. Gözləmələrin sonlandığı bir ünvandı. Həsrət sürməli gözlərin ünvanlı-ünvansız yollara dikilərək təşnə ilə gözlədiyin, hər kəsdən mübhəm bildiyin sevgi yoluna boylanar. İnsanı yaşadan yalnız müqəddəsliyə qovuşmuş arzular deyil axı, yolunu həsrətlə gözlədiyin *SEVGİ* adında bir ünvan da var. Elə bir duyğu ki, haqqında söz açmaq həm çox asandı, həm də olduqca çətin. Sevgi bir nəhrdir, onun tufanı da qaçılmazdır, qasırğası da. Mübarizəsiz sevgi duzsuz yemək, fərq etməz. Acını bilməsən, şirinin qədrin bilə bilməzsən. Sevgi - dünyanın bəzəyi, sevənlərsə bu bəzəyi nəsil-nəsil nəql edənlər - ötürənlərdir. Bu, elə bir ünvandı ki, əlin əlinə yetdiyi məqamda dünya gözlərində dəyişər.

Kiminin sevgisinin nakam, kiminkinin qovuşmaqla sonlanması labüd. Amma bu həzzi hamı və hər kəs dadır. Bütün bu ecazkarlıqları qəlbimizə salan isə, bizi yoxdan var edən Xaliqimizdir. Bəlkə ürəyini sarsıdar, bəlkə məcrası bilinməz ömür boyu yaşanacaq  xoşbəxtlik bəxş edər sənə, bu da O-nun, Yaradanın sənin üçün yazdığı.

GÜNDƏLİK əsasında qələmə alınmış, keşməkeşli yol-lardan keçən, sevgisi daşlara dəyən, xəyanətin qurbanı olan məhəbbət haqqında **“ATA QARĞIŞI”** povesti mühakimənizdə.

ꕥ

Bu gün Ləmanın ad günüdür - 21 yaşı tamam olur. Tələbə yoldaşları, dostlar-tanışlar onu təbrik üçün toplaşıblar. Çox həyəcanlıdır, axı neçə vaxtdan bəri ünsiyyət tapdığı insanı bu gün anasına təqdim edəcəkdi.

...Sevmək və sevgisinə cavab olaraq sevilmək! İnsan üçün bundan böyük xoşbəxtlik varmı? Ləman özünü bu xoşbəxtliyin zirvəsində görməkdə haqq idi. Axı sevilməklə yanaşı həm də qəlbən, dəlicəsinə sevirdi və buna görə, özünü sonsuz dərəcədə xoşbəxt sanırdı.

Bəzən özünü olduqca yalqız, tənha hiss edirdi. Buna səbəb istəklisinin kimliyinin onun üçün qaranlıq qalması idi – narahat qaldığı bircə bu idi. Ləman düşünürdü ki, sevdiyi insanı öyrənmək onun haqqıdır. Lakin hər dəfə bu barədə söhbət açanda, Rafet nədənsə verəcəyi cavabdan yayınırdı.

Fəqət, bütün bunlara müqabil sevgisində xoşbəxt olacağına ürəyində gizli bir əminlik var idi. Və elə bu əminliyinə müqabil olaraq, sevdiyi həkim oğlanı bu dəfəki ad günündə anasına təqdim etmək niyyətində idi...

- Qızım, sənə nə olub, dostlarına niyə qaynayıb-qarışa bilmirsən, - deyə anası Aygün soruşdu.

- Ana, səninlə həmişə dost münasibətdə olmuşuq. Amma, indi utanıb sənə deyə bilmədiyim bir məqam var. Sevdiyim insanı bu gün səninlə tanış etmək istəyirəm. İxtisasca həkimdir.

- Sevmək nə günah, nə də cinayətdi. Əsası budur seçimində səhv etməyəsən. Necə tanış olduğunuzun fərqində deyiləm, amma səni incitməsinə qətiyyən yol vermə. Çünki bu yol keçilməsi olduqca çətin, daşlı-kəsəkli, tufanlı, qasırğalıdır.

Qapının zəngi söhbətlərini yarıda kəsdi. Özündən ixtiyarsız Aygünün içindən bir gizilti keçdi.

- İyi günler, bana Aygün hanım lazım, evi burasımı?

Qapını qonağın üzünə açan Aygün "Neynirdiniz Aygün xanımı, oğlum. Bəli, Aygün xanım burada yaşayır" deyib gələnin sorğusunu cavablandırdı.

Raufun səsinə qonaqlardan ayrılan Ləman qapıya yaxınlaşdı.

- Rafet, gəldin?

- Eviniz burasımı? - deyə gənc çaşqın halda soruşdu.

- Hə, bu xanım da mənim anamdı, - Aygünü göstərdi, - Ana, sənə haqqında dediyim həkim oğlan budu.

- Tanımadım, oğul, heç "Xoş gəldin!" də deyə bilmədim. Qapıda niyə durmusan, buyur içəri.

- Hayır, beni sokakda bekliyorlar, bana Aygün hanım lazım, onu görmem gerek. Rica ederim, konuşa bilirmiyim?

- Aygün mənəm, oğlum, neynirdin məni?

- Sizmisiniz? Olamaz! Həm də Lemanın annesi? Hayır, olamaz! Ben suç işmi yapmışım? İnanamıyorum.

- Oğul, sənə nə olub, nəyi günah etmisən?

- Benlə şaka yapıyorsunuz, öylemi?

- Yox, Rafet, nə zarafat.

- Ben Rafet deyilim, ismim Rauf. Kardeşiz, öylemi? Doğrusun söylermisiniz?

Qəhərdən boğulub uçunan Rauf başını qapıya söykədi.

Bir andaca varlığını unudan Aygün sustalmış halda yerə çökdü.

Bət-bənizi çirpək kimi ağarmış Ləman yıxılmamaq üçün qapının cəhəngindən yapışdı...

- Rauf, oğlum!

Ananın içindən püskürən bu nagahan səs qonaqları onlara sarı baxmağa məcbur etdi. Elə bil Aygünün boğazından yapışıb boğurdular.

- Annem, sənmisin? Beni neden atdınız? Söylermısınız?

Rauf ağlayırdı.

Karıxıb qalmış Ləman daş heykələ dönmüşdü. İnana bilmirdi ki, illərdi Allahına yalvarıb sorağında olduğu qardaşı neçə vaxtdan bəri onun sevdiyi oğlan imiş.

Anlaşılması çətin bir hadisə baş verdiyini təxmin edən qonaqlar, bir-bir məclisi tərk etməyə başlamışdılar. Aşağı mərtəbədə dayanıb gözləməkdən usanmış Qaliblə Zərifə daha səbr edə bilməyib Raufun ardınca yuxarı qalxdılar. Taqətsiz halda yerə çöküb dizlərini qucaqlamış Aygünü görən Qalib, Raufa müraciətlə:

- Oğlum, anan haqqında yanlış fikirdə olma. Bu olaylardan bir mənəm xəbərdar, bir də Allah şahiddir. Keçmişi bilmədən bu gün kimisə suçlamağa haqqın yox. Həqiqəti bilmək istəyirsənsə, mən danışım. Bu, sənin haqqındır.

***

Aygün Rəşidlə tanış olanda pedoqoji institutun IV kursunda təhsil alırdı. O da bütün qızlar kimi xoş xəyallarla yaşayır, gələcəyi haqda düşünür və özünü məhz buna inandırırdı ki, onun da xoşbəxt olmağa haqqı var və o, buna layiqdir. Xoşbəxtliyini isə yalnız öz yarısını tapmaqda, ona qovuşmaqda görürdü. Tələbəliyin ən gözəl günlərini yaşayırdı. Artıq sonuncu kursda idi, əlinə jurnal götürüb orta məktəb auditoriyalarına daxil olacağı günü səbrsizliklə gözləyirdi.

...Yağışlı bir payız günü idi. Marşruta gecikməsin deyə pillələri qaçaraq düşmüşdü, elə bil görüşə tələsirdi. Təzəcə əyləşmişdi ki, ayağını kim isə basdaladı.

- Gözünüz ayağınızın altını görmür? - deyib əsəbi halda çevriləndə, üzr istəmək əvəzinə bir cavanın yerindəcə donmuş halda gözlərini matdım-matdım ona zilləməsi, qızcığazı lap təbdən çıxartdı.

- Mədəniyyətsiz!

Özünü narahat hiss edərək yerini dəyişmək istəyirdi ki, çantası əlindən düşdü.

Gözəllik qarşısında özünü itirmiş cavan, günahını yumaq üçün bundan yaxşı məqam ola bilməyəcəyini yəqin etdiyindən, çantanı yerdən qaldırıb Aygünə şirin-şirin gülümsəyərək, "Tələbəsiniz" deyə soruşdu və sualına cavab almayacağını açıq-aşkar sezsə də, özünü o yerə qoymadan, "Deyəsən APİ-də oxuyursunuz, mən də tələbəyəm, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində sonuncu kursdayam" dedi.

- Qanun adamı olmaq istəyirsiniz, ancaq çalışın öncə öz davranışınıza fikir verəsiniz.

- Söz verirəm!.. Adınızı bilmək olarmı? Ürəyinizə özgə bir şey gəlməsin, sadəcə soruşuram, Sizin kimi bir dosta ehtiyacım var. Əlbəttə, əgər qəbul edərsinizsə.

- Küçə dostlarını qəbul etməyə ehtiyac duymuram.

- Sizə məxsus bir dünyanın sakini olmaq istəyərəmsə, onda necə?

- Sizə lap gülməyim gəldi, - deyə Aygün atmacalı cavab verdi.

- Gülmək üçün xoşbəxt olmağı düşünmək lazım deyil. Bəlkə də xoşbəxtlik sizin hər gülə biləcəyiniz bir şeylərdədir.

- Mənə sizinlə nə gələcək xoşbəxtlik, nə də gülüş gərək deyil, - deyən Aygün növbəti dayanacaqda düşüb doqquzmərtəbəli binanın girəcəyinə çatanda, arxadan kiminsə nəfəsinin elə bil ona toxunduğunu hiss etmiş kimi oldu. Kimsəni görməsə də, ürəyinin bu sayaq döyüntüsünün səbəbini heç cür anlaya bilmədi.

Nə evdə, nə də tələbə yoldaşlarının arasında özünə yer tapa bilməyən Aygün, sanki içindəki bu sıxıntının səbəbini səmada parlaq görüntü yaradan ulduzlardan öyrənmək istəyirdi. Anlamağa çətinlik çəkdiyi bu hissin təsirində hələ nə qədər qalacağından, hər zaman əhatəsində olduğu insanlardan qaçaraq təkliyə çəkildiyi günlərin sayının hələ nə qədər uzanacağından xəbərsizdi. Onun birdən-birə belə dəyişməsinin səbəbini tələbə yoldaşı Tural hiss etsə də, özü üçün tam aydınlaşdıra bilməmişdi. Bildiyi tək bir şey vardısa, o da Aygünün ona qarşı heç də tamamilə biganə olmadığını hiss etməsi idi. Zarafata salıb hər kəsin qarşısında əlini sinəsinə vuraraq,

*Demə ki, "sevmirəm, sevgi yalandı",*
*Bil ki, bu aşiqin ürəyi qandı*

söyləməsi, Aygünü çoxdan düşünməyə sövq etmiş olsa da, bu gün qarşılaşmış olduğu HADİSƏ gənc qızın düşüncələrini ha-çalamışdı.

Bəzən sevgini ağ çiçəklərin solğun ləçəyində axtarırsan. Daha çox sevə biləcəyini düşünür və xəyallara dalırsan. Bu sevdanın həyəcan təbili ruhunu lərzəyə gətirir. Ancaq nəfəs kəsən

bu "vəlvələnin" arxasında ümid dolu bir sevinc yaşadırsan. Qönçələnən bir sevgi canlanır gözlərinin önündə.

*"Mən səni sevirəm!"*

Aygün içində baş qaldıran bu düşüncələridən səksəndi. Aman Allah, doğrudanmı o da bu dəli sevdaya tuş gəlmişdi?! Anlamaqda çətinlik çəkdiyi, onu tənhalıqla hüşyar olmağa sövq edən, içini dağıdan bu hiss sevgi idimi? Məgər sevgi toxumları qəlbə səpildiyi zaman yaşamağın daha gözəl olduğunu aşılamırmı? Təsadüfi küçə "sərgərdanının" oyununa yanlış cavab olmazdımı bu duyduqları? Elə isə, Aygünün vücudunda baş qaldıran bu təlatüm nədir bəs?"

Ruhunu bürümüş burulğandan canını necə qurtaracağını, hər gün bu düşüncələrlə qərarlı-qərarsız baş-başa qalmağa necə tab gətirəcəyini düşünürdü. Fəqət, tab gətirə biləcəkdimi?

Məhəbbət - küləyin səmt gətirdiyi həzin meh kimidir. Hisslərinə toxunduğu zaman yeni bir ruhun cisminə necə daxil olduğunu aydınca hiss edirsən. Əvvəl yaşadır, sonra isə kimyəvi dərmanların öldürücü təsir gücünə bərabər hakimə çevrilir. Yaşamaqla ölüm arasında mövcudluq olan bu hiss, sanki asma körpünü xatırladır. Hər dəfə tərpənəndə həyəcan, təlatüm, bəzən də yenicə ayaq açan bir körpənin yıxılmaq təhlükəsini hiss edə bilmədiyi həddə bir şıltaqlıq.

***

...Seyidlər kəndi səfalı, gəzməklə-görməklə havasından, suyundan doyulmayan bir yurddur. Rəşid bu kənddə, bu dağ havasında dünyaya göz açmışdı. Sağlam düşüncəyə, təmiz ürəyə malik olan bu cavan yaxşı keyfiyyətlərinə görə hər kəsin diqqətini özünə cəlb edirdi. Orta məktəbi yüksək qiymətlərlə oxuduğu üçün müəllimləri ali məktəbə sənəd verməsini israrla tələb edirdilər. Bu yolda yeganə maneə atası idi. Bacısı Arzu isə Rəşiddən fikrində dönməz olmasını, arzularının ürəyində boğulmasına *(onun kimi)* yol verilməsinə qarşı barışmaz olmasını təkid edirdi. Səlim kişi Rəşidin ali təhsil almasına bir şərtlə razılıq verəcəyini bildirmişdi: "Mən deyən adamın qızı ilə evlənməyə razılıq verməlidir, oxumasına bu şərt daxilində razıyam".

Rəşid atasının sözünü kəsərək, "axı hələ mənim evlənmək yaşım deyil" demişdi.

- Kəs səsini, küçük. Sənə demirlər ki, bu gün evlən. Əvvəl nişanlanarsan, toyu sonra edərik. Qəbul edirsən et, etmirsən kənddə qalıb mal-heyvana baxarsan!

Səlim kişinin sözü ailədə qanun idi. Rəşidi zor-güc öz sinif yoldaşı Gülərə nişanladılar. Təhsil almaq xatirinə atılan bu addım olduqca riskli idi.

***

Rəşid paytaxta ayaq basdığı zaman ərzində özünə yaxşı bir dost qazanmışdı. Bu, sözün əsl mənasında onun uğuru idi. Amma qarşısına çıxan məhəbbətinin gənci hara sürükləyəcəyi, başına nələrin gələcəyi bir röya qədər onun üçün qaranlıq idi. Təsadüfən rastlaşdığı qıza doğrudan-doğruya bağlandığını hiss etsə də, atasının təzyiqi ilə üzləşmiş bu cavanın məhəbbətdə bəxtinin gətirəcəyinə heç inanmağı gəlmirdi. Qarşısına qoyulmuş amansız şərt və nişanlandığı qızın taleyi idi onu gecə-gündüz düşündürürdü. "Məsləhətli don gen olar". "Sirrini" dostu Qalibə açdı, başına gələnləri onunla bölüşüb məsləhətinə ehtiyacı olduğunu söylədi.

- Bilirsən, sənin yerinə olsaydım, öncə öz ürəyimin səsinə qulaq asardım. İkincisi, şəxsən mənim ürəyimcə olmayan evlilik... Yox, bu lap dəhşət olardı - ürəyində biri, yanında qeyrisi.

- Atamı tanısaydın, belə deməzdin. Nişanı pozsam, məni oxumağa qoymayacaq. Bu, yüz faizdi.

- Mən sənə həm mənəvi, həm də maddi cəhətdən kömək edə bilərəm. İşə düzəlib, özün öz başını saxlaya bilərsən. Mənim kimi.

Rəşidinsə atasının vermiş olduğu qərarı pozmağa cəsarəti çatmır, özünü dəmir qarmaqlıqlar arasında hiss edirdi. Müttəhimlər kürsüsündə əyləşənlərsayaq, elə bil hakim tərəfindən ona veriləcək cəzanı gözləyirdi.

Çətinliklərini biryolluq çözmək, eyni zamanda, orta məktəb yoldaşının taleyi ilə oynamamaq üçün həlledici addım atmaq, həm də bu addımı mümkün qədər tez və qəti olaraq atmaq vacib idi.

Belə də etdi, bayram günlərinin birində Seyidlər kəndinə, atasının görüşünə yollandı.

***

Qaliblə aralarında olan mükalimə kənddə olduğu günlər ərzində heç xəyalından çıxmırdı.

- Ay bala, sənə nə olub, yaman fikirli dolanırsan. Bəlkə bir çətinliyin var?

Bu, anası Zərifənin səsi idi, oğlunun düşüncələrinə məhrəm olmaq istədi.

- Ana, mən Güləri sevmədiyim halda, axı onunla necə ailə qura bilərəm? Buna görə də qərara gəlmişəm ki, nişanı pozam. Atamla danış, onu birtəhər yola gətir.

- Nə dediyini başa düşürsənmi, bala, mən...

- Dayan-dayan, nə dedin? Deyəsən böyümüsən, kişi olmusan?!. Bu evdə qərarları mən verirəm, - deyib, Rəşidin anası ilə danışığını eşitmiş Səlim kişi necə qeyzlə otağa daxil oldusa, Zərifə arvadın kəlmələri dodaqlarının ucunda qırıldı.

- Ata, axı mən də insanam, mənim də ürəyim var.

- Kəs səsini, küçük! Sənə dedik oxu adam ol, demədik ki, ata-ana, valideyn, böyük-kiçik sayma. Yazağzı toydur, başqa söhbət eşitmək istəmirəm.

- Yox, ata, mən də qərarımdan dönməyəcəyəm.

Rəşidin bu hökmdə danışığı Səlim kişini təntitmişdi. Özü özlüyündə "Mən ki, atama ağ olmamışdım, nədən qurban olduğum *(Allah!)* məni el içində üzüqara edə biləcək bir oğul qismət etdi mənə? Axı neçə illər həsrətlə yaşayıb çırağımı yandıracaq, düyünçəmə yiyə duracaq bir oğul gözləmişdim" deyib-düşünən Səlim kişi ucadan, "Rədd ol, bir də ayağın bu həndəvərə dolanmasın, mənim oğlum öldü, onu bil ki, ata-ana xeyir-duası sənə çox lazım olacaq" söyləyərək, ürəyinin ağrısını və göz yaşlarını görən olmasın deyə otağına keçdi.

"Ay oğul, fikrindən daşın, ata qarğışı yaman olur. Heç olmasa, mənə yazığın gəlsin, həsrətinə dözə bilmərəm".

Bu, anası Zərifə arvadın səsi idi, Rəşidi atasının qoyduğu yola çağırırdı.

- Bilirəm, atam məni heç vaxt bağışlamayacaq, barı sənsə məni bağışla, yoxsa tamam yetim qalaram, - dedi Rəşid.

Bacıları isə hər şeyin yaxşı olacağına, özünü bu qədər üzməsinə gərək qalmayacağına onu inadla inandırmağa çalışırdılar...

...Rəşid çiyinlərində ağır bir yük şəhərə dönürdü. Yol boyu evləri,ələlxüsus atası fikrindən çıxmırdı. Bundan özgə, ata yurduna dönmək hüququnun əlindən biryolluq alındığını xatırladıqca hövllənirdi. Gəlişi evdəkilərə sevinc gətirmiş olsa da, gedişi özündən sonra çox ağrılı, tükürpədici iz qoymuşdu.

*Taleyimə kötük oldu böyük bir qaya,*
*Mən özüm özümü saldım bəlaya.*

Yol arayır, bu bəladan necə çıxacağını bilmirdi. Bu düşüncələr içərisində şəhərə nə vaxt yetişdiyini hiss etmədi. Kənddəki olayları dostu Qaliblə bölüşmək istəsə də, onu evdə tapa bilmədi. Ürəyini sıxan bu fikirlərdən qurtulub qismən də olsa rahatlıq tapmaq üçün bir qədər gəzib dolanmaq istəyirdi ki, elə bil düşüncələrinə diqtə etdilər ki, bir dön arxaya bax. Və dönüb baxdı da. İlahi, bu bir qismətmi, ya nəyə isə işarətmi? Yerindəcə donub qalmışdı. Bu, həmin qız idi. Yağışlı bir payız günündə avtobusda təsadüfən ayağı basdalandığı üçün onu “mədəniyyətsiz” adlandırmış qız. Gördüklərinin təsirindən hətta kənddə baş verənləri belə bir andaca unutdu. Gözlərini bir nöqtədən ayırmayan bu qızın nə düşündüyünü kaş bilə biləydi. Onun üçün hələ ki bir mübhəm dünya olan, heyrətamiz bir cazibə qüvvəsi ilə onu özünə çəkən bu qızı addım-addım izləyərək, doqquzmərtəbəli binanın önündə məsum bir görkəmlə qarşısına keçdi. “Bağışlayın, sizinlə tanış olmaq olarmı?” kəlmələrini işlətməyəcəyəm, çünki biz artıq tanışıq. Sadəcə, sizə münasibətimi bilməyiniz üçün bir neçə dəqiqənizi almaq istəyirəm. Bilsəydiniz ki, sizi tanımaza-bilməzə, amma sizdən ötrü mən nələrimdən keçmişəm?.. Məhəbbətin nə olduğunu mən sizi görəndən sonra anladım və bildim ki, yaşamaq

üçün ürəyimi məhz sizinlə bölüşməliyəm. Susmağınızı razılıq kimi qəbul edərək, sizi hər gün oxuduğunuz məktəbin qarşısında gözləyəcəyəm. Adım Rəşiddi, bəs sizin adınız? – dedi. Və heç özü də bilmədi ki, bu kəlmələr necə oldu, nə sayaq oldu dilingən çıxdı.

Gözləmədiyi halda  qarşısında peyda olub həyatına girmək üçün dəridən-qabıqdan çıxan bu qəribə jestli cavanın hərəkətləri ürəyini titrətmiş olsa da, ona nə cavab verəcəyi, hansı addımı atacağı halı Aygünü çaşqın salmışdı. Dodaqlarından süzülüb gələn xoş pıçıltılı, təbəssüm ətirli kəlmələr yalnız Rəşidin deyil, Aygünün də həyatında yeni bir səhifə açmış ola bilərdı.

-Mənim adım Rəşiddi, bəs sizin?

-Aygün.

*(Kim deyə bilərdi ki, bu cütlük sevgi dolu dünyalarında birlikdə nə qədər ömür payı yaşayacaqlar, həyatın hansı dolanbac yollarından keçəcəklər).*

***

Fərəhindən sanki qanad taxıb uçurdu. Dostu Qalib həm işləyib-həm də oxuması üçün ona özköməkliyini göstərmişdi.

Hadisələrin belə sürətli inkişafı Rəşidin həyata baxışlarını daha inamlı etmişdi. Sevirdi və bu sevginin əbədi olacağına  özünü inandırmağa çalışırdı

Həyatını dəyişəcək qədər onu xoşbəxt edən, şirin nəğməyə çevrilən “Rəşid” adını hər dəfə özü özünə pıçıldadıqca, Aygün  bu adın ürəyinə sərin bulaq suyu kimi səpildiyini, bu təsadüfün onun ürəyində necə od-ocaq qaladığını aydınca hiss edirdi. Bu alovun həyatını bütünlüklə bürüməsini istəyir, inanmaq istəyirdi ki, bu hisslər onun ruhunu oxşayacaq, Allah-taalanın verdiyi ömür payını layiqincə  yaşaması üçün bir səbəb olacaqdı.

Artıq neçə vaxt idi ki, görüşürdülər. Bir-birilərinin həyatlarının bir parçasına çevrilmişdilər. Hər görüşdə quracaqları xoşbəxt ailə haqqında bir-birilərini əminliklə inandırırdılar.

Ali təhsilinin başa çatacağı vaxt-vədə azaldıqca isə Aygüngilin ailəsində vəziyyət gün-gün cavanların xeyrinə olmayan bir məcraya yürüməkdə idi - axırıncı imtahandan sonra Aygünə

nişan gələcəyi qıza bəyan edilmişdi. Anası Təhminənin təkidlərinə baxmayaraq, Aygün də fikrində qərarlı idi. Mübahisə, qardaşı Elmir Aygünün kiminləsə görüşdüyündən şübhəsini açıqlayanadək davam etmişdi. Sonda anası ikicə kəlmə ilə öz hökmünü vermişdi: "Unut onu!"

*(Hadisələrin bu məcrasını böyük Yaradanın Səlim kişinin hökmünün diqtəsinə razılığının ifadəsi kimi qəbul etmək lazım idimi? İndilikdə bu, nə bir yazar olaraq mənə, nə də hadisələrin məcrasının qurbanlarına (Rəşidlə Aygünə) aydın deyildi).*

Aygün üçün seçdikləri oğlan ailə dostlarından idi. Əslində İlham pis oğlan deyildi, amma neyləyəsən ki, Aygünün ürəyi qeyrisində idi. Məhəbbət məgər əyləncədir ki, bir günün içində həm sevib, həm də unutmağı bacarasan?

Həyatında bəlkə ilk dəfə idi ki, vücudunda belə bir ağrı hiss etdiyindən hönkür-hönkür ağladı. Naçar ayağa qalxıb başına gələnləri qələmə aldığı gündəliyini əlinə götürdü. Səhifələyərək ora, *"Sızlama, ürəyim, sən davamlı ol!"* kəlmələrini yazdı.

Bu kəlmələr Aygünün bütöv bir həyatının qəmli notlarla əhatələnəcəyindən soraqçı idimi? Bundan sonra bu gündəlikdə nələrin yazılacağından, nisgilli bir həyat yolunda çəkiləcək yaşantılarda nələrin qeyd olunacağından hələ ki, nə qələmin xəbəri var idi, nə də onu ağ vərəqlərə köçürəcək Aygünün...

***

...Bu gün Aygün iki imtahandan çıxasıydı. Bu gün onu həm oxuduğu ali məktəbin dövlət imtahanı gözləyirdi, həm də Rəşidlə görüşü var idi.

İnstituta yetişəndə, imtahanın başlamasına az qalırdı. İmtahan suallarını təkrarlayan kim, bir-biri ilə zarafatlaşan kim... Tələbə yoldaşı Tural instituta qəbul olunan gündən Aygünlə zarafatına bünövrə qoymuşdu. Və bu cəhət Turalda bugünün özündə də davam edirdi. Tələbə yoldaşlarının qulaqları Turalın zarafatlarına o qədər öyrəncəli olmuşdu ki, düz sözünü də hənək tərzində qəbul edirdilər.

Necə oldusa, Aygün Turalın hələ dörd il bundan irəliki bir zarafatını xatırladı.

*“ - Aygün, bilirsən... Necə deyim, utanıram da, vallah, deməyə. Amma deyəjəm biləsən ki mən səni çox sevirəm. Niyə gözünü bərəltmisən üstümə? Nədi bəyəm, inanmırsan?*

*- Yox! Ona görə ki, gözlərin əlli cür hava çalır. Düzünlə əyrin bilinmir.*

*- Qadan alım, qız, gəl daşı tök ətəyindən, yazılarımı yaz, nənə canı, məktəbi bitirən kimi səni alajam”.*

İndi bu söhbətdən düz dörd il ötmüşdü. Ancaq Tural hələ də öz baməzəliklərini yadırğamamışdı. Odur ki, gızlar Aygünü görər-görməz qara-qışqırıqla, “Ay qız, gəl çıx də, gözləməkdən Turalın gözünün ağı qarasına qarışıb”, - deyib biri birilərinə qarışdılar.

- Nədi, bir ağı qaradan ayıra bilmirsiniz?

- Əzizim, Aygün, bu gün bizim üçün çox önəmli bir gündür, axı məktəbi bitiririk. Düz dörd ildir bu günü gözləyirdim, axır ki, gəlib özünü yetirdi.

- Nədən danışırsan, Tural? - Aygün təəccüblə gözlərini döydü.

- Vəfasızı görürsünüz də, uşaqlar. Aygün, mən səni həqiqətən sevirəm, dədəmin canı düz deyirəm, mənə gələrsənmi?

- Tural, sənə nə olub?

- Axşam çox içmişəm, yəqin onnandı.

Bu vaxt qrup nümayəndəsi imtahanın başlandığını elan etdi. Sanki qurbağa gölünə daş atdılar - auditoriya lal sükuta qərq oldu. Elə bil bayaqdan səs-küyləri dünyanı başına götürən bunlar deyildilər.

...Bütün tələbələr imtahandan yüksək əhval-ruhiyyədə çıxmışdılar. Qrup nümayəndəsi Aqil, Turala zarafatla;

- Ə, bayaq hara gedirdiniz?

-Qardaş, ZAQS-a getmək istəyirik, amma məsələ çox qəlizləşib, qız naz eləyir. Bəlkə, sən yola gətirəsən?

- Turalım, canım-cigərim, sən artıq çox gecikibsən, məni gözləyənim var. Fəqət ciddi səhvə yol verdiyinlə barışmağa məcbursan, səndən yaxşı gülüş ustası çıxardı, sən gərək incəsənətə gedərdin. Ancaq yenə də sağ ol ki, bu dörd ildə öz zarafatlarınla bizim üzümüzdə təbəssüm yaratdın.

Aygünün sözlərindən özünü itirmiş Tural oturacaqdan yapışdı. Amma heç kim bilmədi ki, Tural gerçəkdənmi səndirlədi, yoxsa bu da bir zarafat idi.

Tural həqiqətən Aygünü sevirdi. Ancaq heç bir sərhəd gözləməyən zarafatları onun Aygünə olan səmimi hisslərini Aygünə yanlış "başa salmış", belə bir ciddi məsələdə mövqeyinin "bir üzü hənək-bir üzü dəyənək" təsiri bağışlaması duyğusu nəticə etibarı ilə Turalı zarafatlarının qurbanı etmişdi.

***

Aygün imtahandan yaxşı çıxmışdı deyən, çox sevinirdi. Qarşıda isə onu daha ağır "imtahan" gözləyirdi. *HƏYAT* adında təlatümlü bir dünyanın sınaqları, ilğımlı bir yaşam tərzi, onun üçün laübalı bəyazlığa bürünmüş, bəlkə də, qaranlıq bir dünya. Çox istəyirdi ki, hansı isə bir şairin nə vaxtsa demiş olduğu,

*"Nə xoşbəxt imişəm bir zaman, Allah!"*

misrasını heç vaxt ağrı-acı ilə dilinə gətirməsin.

Birdən kiminsə amiranə səsi onu düşüncələrdən ayırdı:

- Xanım qız, bilmirsiniz tək-tək gəzmək qadağandır?

Bu, Rəşid idi. Necə olmuşdu ki, Aygün Rəşidin gəlişini sezməmişdi. "İnstituta necə keçə bilibsən?" deyə Rəşiddən təəccüblə soruşdu.

- Əvvəla, salam, ikincisi, indiki halımda məni buraxmaya bilməzdilər. Üçüncüsü...

- Başa düşdüm, getmək lazımdır.

Xoşbəxtcəsinə əl-ələ verib Azadlıq meydanında gəzərək, öz azadlıqlarını nə zaman qeyd edəcəkləri günü düşünürdülər...

- Rəşid, imtahanlar qurtarandan sonra məni nişanlayacaqlar. Nə edəcəyimi, necə olacağımızı bilmirəm. Biri gün son imtahandı, yəqin ki, daha görüşə bilməyəcəyik.

Aygünün dilindən naqəfil çıxan bu kəlmələrdən Rəşidin nitqi tutuldu, bıçaq vursaydın qanı çıxmazdı. Heç özü də bilmədi Aygünü də sarsıda biləcək kəlmələr onun öz dilindən və nə sayaq oldu çıxdı: "Bağışla məni ki, səni də, özümü də çıxılmaz vəziyyətə salmışam. Nə elçi göndərmək, nə də toy etmək iqtidarında deyiləm. (Bir anlıq duruxub) gedək mənimlə, Aygün, kiçik bir damxada xoşbəxt ailə həyatımızı qurarıq. Qərar qəbul etmək üçün sənin hələ tam bir günün var. Hər qərarına hörmətlə yanaşacağıma söz verirəm" söylədi və sustalmış halda çöməlib skamyalardan birində əyləşdi.

***

Doğrudan da, bu geniş dünya sayı bilinməyəcək qəribəliklərlə doludur. Xəyallarında yaşatdığı xoşbəxtliyi və qəlbindən keçirdiklərini həyatda yaşamaq bəzən insanın nəsibi olmur. O, doğulur və doğulduğu zaman bəxtinə Tanrı tərəfindən yazılmış bir pay qismət düşür. Görünür, Aygünün taleyinə ağılagəlməyən mübhəmliklər yazılıbmış. O, Rəşidini bir ömür boyu və təmənnasız sevəcəyinə and içmişdi.

Aygün baş verəcəkləri gözləri önünə gətirib ağlayırdı. Axı o da başqa qızlar kimi ata evindən gəlinlik duvağı geyinərək vağzalı sədaları altında, ata-ana xeyir-duası ilə çıxmaq istəyirdi.

Çox düşünüb-daşındı, qərarı canından artıq istədiyi Rəşidinə qoşulub getmək oldu: arzularını sevdiyi insana ənam edəcək, ailəlik həyatlarını öz əlləri ilə quracaqdılar.

*"Görəsən, bu gecə səhərin açılmasını səbrsizliklə gözləyən daha nə qədər insan var? Görəsən insanı kədərləndirən gecədirmi? Ya insanlar özləri həsrət çəkmək üçün gecəni seçirlər?*

***Yalqızlıq - gecələrin, xəyal - naçarların, ümid - gözləyənlərindir.***

*Aygün də ümid dolu gözlərini açılacaq sabahlarına dikmişdi:"Mən sevgimi səmada sayrışan ulduzların arasından seçdim, onu belə asanlıqla itirmək niyyətində deyiləm!"*

Belə.

Bu səhər də açıldı. Aygün bir-iki dəst zəruri paltarını, ona əziz olan fotolar toplanmış albomunu əl çantasına yerləşdirdi. Gündəliyini götürmək istəyəndə, bir anlıq əl saxladı. Ürəyi titrək-titrək bu evdə keçirdiyi xoşbəxt günlərini gözləri önünə gətirdi.

*"Bu da son. Sınaqlarına atıldığım həyatın ilk imtahanı. Ata ocağımla son təması, qayğısız gənclik ömrümlə vidam. Həyatımın xoşbəxt anlarını bu evdə yaşadım. Hər kəs xüsusi, özünün bildiyi tərzdə qayğımı çəkdi. Amma indi mən vidalaşmadan, gizlicə, qaçaraq, küskün, kövrək hisslərlə onlardan ayrılıram".*

Hənirtilərini kimsəyə sezdirmədən ürəyində heç vədə sağalmayacaq və bağışlanmayacaq bir ağrı, gözlərində gilələnmiş yaş sonuncu dəfə hələ yuxuda olan atası evinə köks dolusu baxdı. Ustufca qapını çəkib, gözlərini silib, aşağıda onu gözləyən Rəşidinə tez yetişmək üçün pillələri qaçaraq endi.

Ömürdə son hədd sayılan belə bir addımı atmaq, gələcək ailəsinin təməlini sevgi üzərində qurmaq istəyi! Beləlləri xoşbəxt olmağa layiqdirlər.

Artıq fikirlərində tam qərarlı olan cavanlar bu addımı atmışdılar. Ömrün sabahlarında onları nələrin gözlədiyindən xəbərsiz, məhz bu anlardaca onları ağuşuna almış məhəbbətlərinin ilıq təmasında ovunaraq addımlayırdılar. Bütün gənc azərbaycanlı ailələr kimi çilçıraqlı, hər cür gəlin avadanlığı ilə dolu bir mənzilin yox, kirəkeş qismində sığınacaqları miskin, dar bir daxmanın onları gözlədiyindən xəbərli olduqları halda talelərinin bu yazısına boyun əyərək addımlayırdılar...

***

Valideyinlərinin inadlı olaraq barışıqdan imtina etmələri cavanlarda dərkedilməz hüzn yaratmışdı. Gənclərin bir ılıq qayğıya, yolgöstərənə, bir ağsaqqal duasına ehtiyacları var idi.

Aygün evdəki tənhalığından darıxmasın deyə, başını kitab oxumaqla qarışdırırdı.

Gözlənilməz qapı zəngi onu düşüncələrdən ayırdı. Çağırılmamış qonağın gəlişi gəlini həyəcanlandırmışdı. Qapıda tanımadığı bir qadının lal baxışlarla və heyranlıqla onu süzdüyünü gördü. Gələnin elə bil nitqi tutulmuşdu.

- Xala, sizə kim lazımdır, - deyə Aygün soruşdu.
- Gözəl qızım, mən Rəşidin anasıyam.
- Üzr istəyirəm... Bağışlayın, tanımadım.
- Bu, sənin günahın deyil, qızım, taleyin yazısıdı.

Aygün həm həyəcanlı, həm də sevincli idi. Ailələr arasında barışığın olmasını çox arzulayırdı. Axı o da özünkülər üçün darıxırdı. Bu möhnətin nə zamana qədər davam edəcəyini gözləməkdən isə təngə gəlmişdi. Qayınanasının naqəfil gəlişi gənclərin xoşbəxtliyə istiqamətlənən ömür yolunda mayak ola bilərdi. Ailə qurduğu bu neçə ay ərzində ilk dəfə idi ki, özünü həqiqi mənada gəlin, ev qadını kimi hiss etdi.

Gəlinlə qayınananın söhbəti onları bir-birinə elə bağlamışdı ki, Rəşidin gəldiyini hiss etməmişdilər.

Vücudunu təəccüb və sevinc bürümüş Rəşid özünü anasının üstünə atdı:

- Nə yaxşı gəldin, ana, səndən ötrü elə qəribsəmişəm ki... Qorxurdum, bir də səni görməyəm.

- Can bala, səni heç belə görməmişdim, anasından ayrı düşən körpə quzu kimisən. Evimin işığı, dirəyi balam, anası üçün darıxan balam.

Ana-bala illər həsrətlisi kimi sarmaşıqtək biri birinə sarılmışdılar.

Rəşid kənddən dönəndən bəri mütəmadi olaraq atası və nişanlandığı Gülər barədə düşünürdü. İnsafən, Gülər pis qız deyildi. On il bir partada əyləşmişdilər. Yaxşı xasiyyəti, gözəl

yoldaşlığı vardı. Amma Rəşid neyləsin ki, ürəyə hökm etmək olmur, ürəyi Aygünü sevib-seçmişdi. Bu da bir tale, bu da bir naxış idi.

Zərifə arvad oğlunun baxışlarında nəyin gizləndiyini bildiyindən, söhbəti birnəfəsə açdı. Sən demə, Gülər öz dayısı oğlu Rüstəmə qoşulub qaçıbmış. Amma atasının yenə inadkarlıq göstərib oğlunu qəbul etmək istəməməsi Rəşidi məyus etdi.

Anası kəndə yola düşəndə, "Özünü üzmə, bala, inşaallah, yavaş-yavaş hər iş qaydasına düşər, təki sən xoşbəxt ol. Bu gözəl gəlin balamdan isə muğayat ol, biri-birinizin qədrini bilin, biri birinizi qoruyun" kəlmələrilə oğlu və gəlini ilə vidalaşdı.

Rəşid bilsəydi ki, bu, anasının onunla son görüşü və onun üçün son duasıdı, bəlkə heç getməyə qoymazdı. Ancaq fələyin gərdişinin qarşısını kim ala bilər... Zərifə arvad bu gəlişi ilə oğlunu sonuncu dəfə görürmüş.

***

Anasının ölüm xəbərini ona əmisi oğlu rayondan telefon edib demişdi. Əvvəl-əvvəl Rəşidin bu xəbərə inanmağı gəlmədi. Axı insan heç vədə öz doğmasının ölümünü qəbul etmək istəmir. Rəşid Allahına yalvarırdı ki, eşitdiyi xəbər kaş yanlış ola, kaş onunla zarafat etmiş olaydılar. Atası evinə çatanda qulaqlarını deşən "şaxsey-vaxsey" sədalarından dizləri kirrədən qaldı, yerə çöküb hönkür-hönkür ağladı.

Səsə bacısı Mənzərlə atası Səlim çıxdılar.

"De görüm bu qapıya hansı üzlə gəlmisən? Səndən soruşuram, cavab ver? Ana qatilisən sən, onu sən öldürdün, sənin xiffətini çəkərək çürüdü. Çıx get, səni bir də bu qapıda görməyim".

Səlim kişini sakitləşdirmək mümkün deyildi. Əmisi oğlu, Rəşidi qucaqlayıb arada hüzur yaratmaq istəyilə: "Bizə gedək, başına dönüm, əmimin ki, xasiyyətinə bələdsən. Gözünə görünməsən yaxşıdır" deyib Rəşidi öz evlərinə apardı.

...Rəşid o gecəni ac-susuz, anasının qəbiri üstündə qalmışdı. Torpağı oxşayaraq, "Bağışla məni, ana, niyə məni yetim qoydun?

Həsrətin məni görmək imiş. Hardan biləydim sənin bu gəlişin mənim üçün son gəliş olacaq? Axı sən nəvə arzulayırdın, niyə səbr etmədin. Sənsiz necə yaşayacağam, ana?"

Rəşid anasının qəbiri başında yuxulayıb qalmışdı. Səhər qəbir üstünə gələn bacısı Mənzərin söylədiyi ağı səsinə başını qaldırdı.

***

Rəşid gedirdi, kənddən baş götürüb bir daha dönməmək üçün gedirdi. Ana nisgilini, ata qarğışını, bacı həsrətini köksünə doldurub, "ana qatili" damğasını "bağrına basıb" gedirdi. Sanki başına çəkiclə döyəcləyib deyirdilər, "Sən ana qatilisən, sən qatilsən, qatilsən, qatilsən..."

Son iki gündə elə dəyişilmişdi ki... Zarafatcıl, üzügülər, həmişə baməzə olan bu insandan əsər-əlamət qalmamışdı.

...Bütün baş verənlərdə Aygün özünü suçlayırdı. Düşünürdü ki, bəlkə O TƏSADÜF olmasaydı, ayağı basdalandığı üçün Aygün Rəşidə acıqlanmasaydı, bəlkə bu hadisələr də olmazdı. Hardan biləydi ki, fələyin təzəcə qaldırdığı bu qəm külləkləri gənc ailənin başı üzərində hələ aman vermədən çox illər əsəcək...

***

Aygün artıq ana olmuşdu. Gözəl bir oğul övladı dünyaya gətirmişdi. Fərəhindən yerə-göyə sığmırdı. Sevinirdi ki, daha bu evdə kədər, göz yaşı olmaz yəqin. Axı deyirlər, körpə evə səadət, ruzi-bərəkət, şadlıq gətirir. Ana ilki Raufun da ailəyə toxdaqlıq, sabitlik, xoş güzaran gətirəcəyinə inanmaq istəyirdi.

Rəşidinsə fikrindən nə anasının ölümü, nə də atasının ona etdiyi qarğışı heç cür çıxmırdı. Bütün günü əsəbi halda gərdiş edir, siqareti siqaretə calayırdı. Dostu Qalib ona nə sayaq kömək göstərəcəyində aciz qalmışdı. Anasının yoxluğunu unutdurmaq üçün arada bir-iki dəfə gecə barlarına da apardı. Amma hiss edirdi ki, bu da Rəşidə kömək etmir. Sonra düşündü ki, bəlkə bir müddət onu tək buraxsın, bəlkə belədə düşüncələrinin məngənəsindən çıxar?

Amma hadisələrin gedişi heç də Qalibin düşündüyü tərzdə olmadı. Rəşid iş saatlarından sonra bara gedib gecəyarısına qədər içir, körpəsinə gözünün ucu ilə belə baxmırdı. Bu dəhşətli həyat tərzi Aygünü cana doyurmuşdu. Suçu nədə idi ki, Tanrısı ona bir belə çəkdirirdi? Bəyəm onlar biri birilərini seçdikləri üçün hətta ata evini də tərk etməmişdilərmi?!

Ailəsi, övladı Rəşid üçün o qədər yadlaşmışdı ki, körpəsinin doğum günü olduğunu, övladının bu sevincli günündə bir balasının yanında olmağın vacibliyini də unutmuşdu. Rəşidin evinə gəlməməsi bir yana, evə edilən telefon zəngləri Aygünü daha çox narahat edirdi. Gücü yalnız göz yaşlarına çatırdı, bir də içindəki duyğularını, hisslərini ona qəmxar olan gündəliyinə qələmə almağa.

Körpə Rauf ata üzü görmədən, ata məhəbbətini, ata mehrini dadmadan böyüyürdü. Dıppır-dıppır addımlayıb yıxılır, səndirləyib yıxılmasından əsəbiləşərək hikkəsindən başına-başına döyəcləyirdi. Yaşlı adamlar belədə deyirlər ki, "Körpə Allahdan dil istəyir".

Aygün Raufunu sinəsinə sıxıb günlərlə pəncərə önündə dayanıb Rəşidin yolunu gözləyirdi...

...Qapının zəngi Aygünü fikirlərindən ayırdı: "Gələn Rəşid olmaya?"

Ağrı çəkməkdən yorulmuş vücudunda könəlgimiş, nurunu itirmiş işıq, qapını açdı.

- Bacı, Rəşidin yoldaşısınız?

Gələn adam Aygünün ona çaşqın nəzərlərlə baxdığını görüb: "Bağışlayın, salam verməyi də unutdum, mən Rəşidin əmisi oğlu Vahidəm", - dedi.

- Rəşid evdə deyil, keçin içəri.

- Ay bunu Allah saxlasın, - deyib, gələn adam Raufu qucağına götürüb kövrəldi, - səni görmək qisməti nə nənənə, nə də babana nəsib olmadı. Allah onların ömrünü sənə bağışlasın. Səlim əmim əmidostumun yoxluğuna dözə bilmədi, dünən onun "yeddi"-sini verdik. Kişinin gözləri qapıda qalmışdı. Ancaq nə qədər yalvardım ki, icazə versin Rəşidə xəbər edək gəlsin, razılaşmadı. Dedi, "Ölümün də üstünə gəlməsin, yoxsa qəbirim od tutub yanar".

- Bağışlayın, nə deyəcəyimi bilmirəm, Allah rəhmət eləsin, yeri behiştlik olsun.

- Gəlinsoltan, Rəşid evə nə vaxt gəlir? Deyirəm, tez gəlsəydi, gözləyərdim.

- Rəşid bir il doqquz aydır bu evi tərk edib. Başqa bir qadınla yaşayır, zənnimcə. Çünki belə olmasaydı, körpəsinin doğum günündəsə övladını görməyə gələrdi.

- Başa düşmədim nə danışırsınız. Rəşid sizi sevdiyi üçün atasına qarşı çıxıb kəndi tərk etdi, bu da sonu? Bu körpənin günahı nədir görəsən? (Bir az duruxub) bu gözəl balanın heç adını da soruşmadım, deyərək, - Raufun yaxasına "şirinlik" qoydu.

- Adı Raufdu. Adını qoyanda dedi ki, taleyi mənə oxşamasın. Amma...

- Pis günün ömrü az olar, gəlinsoltan, sağlıqla qalın...

***

...Aygün artıq yol gözləməkdən usanmışdı. Canından çox sevdiyi Rəşidi onu kimə dəyişmişdi?

Rəşid düz on gündən sonra evə gəldi. Aygün onun nə ürəyində, nə də simasında özünə qarşı bir mehr görmədi.

- Bilirsən nə var, dalımca xəbər-zad göndərmə, istədiyim vaxt gələcəm, istədiyim vaxt gedəcəm. Bunu birdəfəlik yadında saxla. Nə səni, nə də bu evi görmək istəmirəm, bunu da bil. Məni isə rahat burax!

- Rəşid, olanlarda məni niyə suçlandırırsan. Axı biz bir-birimizi xoşbəxt edəcəyimizə söz vermişdik. Olanlarda bu körpənin günahı nədir ki, başlı-başına buraxıb gedibsən. Nə öldüsündən xəbərin var, nə qaldısından. Heç düşünmürsən də ki, nə yeyib-içir, sağlamlığı nə yerdədir?! Susursan... Əmin oğlu Vahid gəlmişdi. Atan rəhmətə gedib, kəndə getməyin vacibdi.

"Artıq məni kəndə bağlayan tellər tamamilə qırıldı" düşünən Rəşid tələsik qapıdan çıxdı.

- Rəşid, bir də nə vaxt gələcəksən?

Ağlaya-ağlaya yerə çöküb dizlərini qucaqladı: "Gedəsi yerim olsaydı, sənə bir belə yalvarmazdım, Rəşid. Doğrudanmı sən məni heç sevməyibsən? Doğrudanmı o sözlər hədər deyilibmiş?.. İlahi, mən heç, bu körpəmə rəhmin gəlsin, qoyma onu atasız böyüyə".

***

Raufun iki yaşını qeyd etmək üçün gözəl bir süfrə açmışdı. Allahina yalvarırdı ki, kaş Rəşid bu gün əvvəlki həyat tərzinə dönərək qapıdan içəri daxil olaydı.

Telefon zəngi onu düşüncələrindən ayırdı.

- Alo, sizə kim lazımdır?

Telefon edən qadın idi, Rəşidi soruşurdu:

- Rəşid ki səninlədi, ay evdağıdan ləçər. Deyəsən, başqa kişilər ürəyini vurub, indi də Rəşidi ələ keçiribsən? Hərəkətlərindən...

Sözü ağzında qaldı. Qadın dəstəyi asmışdı.

Aygün süfrəyə göz gəzdirdi. Rəşidlə keçirdiyi xoşbəxt günlərini xatırladı. Heç vaxt özünə arzulamadığı şeir misrasını indi kövrək duyğularla dilinə gətirdi:

*"Nə xoşbəxt imişəm bir zaman, Allah!"*

Qəfil çırpılan qapı səsindən səksənib arxaya çevrildi. Gələn Rəşid idi, amma tək yox, o qadınla. Hiss olunurdu ki, Rəşid qadının havası ilə dolub evinə üz tutub. Ayağını içəri qoyar-qoymaz, Aygünü silləiəməyə başladı:

- Şələ-küləni də yığışdırıb cəhənnəm ol bu evdən, gözüm səni görməsin.

Bir andaca Aygünün ruhunda aşağıdakı kəlmələr dolaşdı:

*"Rəşid, yara kimi içimizdə inləyən yarımçıq qalmış nəğməmizdəmi Ruhunu heç titrətmir? O nəğməni yenidən sənin dodaqlarından eşitmək mənə həyat verərdi. Amma sən bir başqası üçün ailəni qurban verirsən. Yaşadığımız o günləri heç xəyalına gətirirsənmi? Ürəyimdə yeganə sən məskən saldın. Bu ürəkdə özgələr üçün yer yoxdur. İstəməzdim ömrüm boyu qəlbimdə bəslədiyim*

*alovlu duyğularım gözlərimdə qəmli göz yaşına dönsün. Bunu istəmirəm, Rəşid!"*

Ucadan dediyi isə bunlar oldu:

- Hara gedim, Rəşid, başının üstündə Allahı gör!

- Artıq səni bu evdə görmək istəmirəm, rədd ol!

Aygün naçar halda çamadanını hazırladı. İnana bilmirdi ki, körpəsini də qucağına verib onu gecə ikən küçəyə atan kəs bir vaxtlar onu bütün varlığı, canı qədər sevən Rəşididir.

Qapıdan çıxanda, üzünü Rəşidin yanındakına (Könülə) tutdu:

- Elə bilmə ki, sən gün görəcəksən, yox! Bu, sənə də qismət olmayacaq. Çünki səni ömrüm boyu lənətləyəcəyəm. Mənimki ata üzünə həsrət qalacaqsa, səninki də ana üzünə həsrət qalar, inşa-allah!

...Aygün sevilərək qədəm qoyduğu bu qapıdan döyülərək qovulurdu. Gecənin bir vədəsində hara üz tutacağını düşünürdü. Həm də axı heç gedə biləcəyi yeri də yox idi.

Naəlac ata ocağına üz tutdu. Fəqət, qapını açan qardaşı Elmirin: "Bu ev sənə yaddı, nə üzlə bu qapını açırsan?" kəlmələri ilə qarşılaşdı.

- Bilirəm, üzüm yoxdu, amma sənsə məni küçəyə atma, qardaş, əlacsızam.

- Sənə bu da azdı, - deyib, Elnur qapını Aygünün üzünə bağladı.

*"Qovdu fələk...*
*Hicranlarla*
*vücudumu yordu fələk.*
*Sevdiyimə həsrət qoyub*
*bu günümdən*
*hansı günə-güzərana*
*qovdu fələk.*
*Yordu məni –*
*Yaman yordu fələk".*

Əgər qardaşı da onun üzünə qapını bağlayırdısa, başqa bir qapı açan olacaqdımı? Həyatda etdiyi səhvləri indi başa düşürdü: *"Məhəbbət yer üzünü işıqlandıran Günəşi, gecələrimizi nurlandıran Ayı öz yerinə qoyaraq asimanı qaranlığa bürüyəcək qədər güclüdür. Mən bu məhəbbətimlə həyatımı əbədi zindana çevirmiş, ürəyimin səsini dinləyərək uçuruma yuvarlanmışdım. Baxmayaraq ki, bir ömür qədər yaşanacaq məhəbbətimi tapdığıma əmin idim. Sən demə, bizim sevgimiz qəfil gələn leysan, yaz yağışı imiş. Gəldi və yer üzünü çirkablardan təmizləyərək (hamıya qarşı çıxaraq), yeni bir aləm yaratmaq cəhdində oldu. Fəqət... Deyəsən, əminliklə yəqinlik arasındakı fərqi elə də anlamayaraq səhv etmişdim".*

Əlacsızsızlıqdan körpə Raufunu atılmış uşaqların taleyinin yazıldığı *Uşaq Evinə* verməyə məcbur qalmışdı. Taleyinin onu hara sürüklədiyini özü də bilmirdi. Qapı-qapı düşüb iş axtarır, bəzən tanıyıb-bilmədiyi adamlara yalvar-yapış edərək onu bu labirintdən çıxartmalarını xahiş edirdi. Elə bil bütün dünya Aygündən üz döndərmişdi. Ancaq yenə də Allahından əlini üzmürdü. Axı onun da başqaları kimi xoşbəxt olmağa, həyatın şirinliklərini dadmağa haqqı var idi...

Bakıda əli hər yerdən üzülən Aygün indi də Sumqayıta üz tutmuşdu. Qapısını döymədiyi idarə, məktəb qalmamışdı ki, iş soraq etməsin.

Ancaq "Hər qaranlıq gecənin bir işıqlı səhəri də var" deyiblər. Və o, bu işıqlı sabahların birində öz gələcək həyatını quracağına inanırdı. İnanırdı ki, insanı yoxdan var edən Xaliq bir gün onu da sıxıntılardan qurtuldar yəqin.

Bu da böyük Yaradanın diqtəsidir ki, gözləmədiyi halda Aygünü düşə biləcəyi ehtimal olunan hər hansı çirkabdan hifz edə biləcək birisini qarşısına çıxarmışdı. Bəlkə insanları dardan çıxardan Xızır peyğəmbər bu idi?!

Aygün Sumqayıt məktəblərinin birində laborant vəzifəsində çalışacaqdı. Bu işi tapmaqda yardımçısı olmuş Almas müəllimə onun yaşaması üçün öz yaxın qohumunun evində şərait də yaratmışdı. Tanımadığı insan tərəfindən bu qəyyumluğu görən Aygün

göz yaşlarını saxlaya bilmirdi: *"Nə yaxşı ki, yaxşılar da varmış. Hamı daşürəkli olsaydı, bəşəriyyət məhvə doğru sürüklənərdi"...*

***

Artıq bir il altı ay idi ki, Könül Rəşidin evinə yığışmışdı. Bu yeni ailəlik həyatında Rəşid özünü sanki dondurmuş, əslində Könül üçün dəmirdən düzəldilmiş robota çevrilmişdi: yalnız iş və Könülün əmrləri... Rəşidin bugünkü həyat tərzi qara qulun həyatını xatırladırdı. Amma deyəsən, gec də olsa qəflət yuxusundan ayılmağa başlayırdı. Neçə gün idi ki, anası Zərifə ilə atası Səlim kişi yuxusundan çıxmırdı... Əmisi oğlu Vahidlə son söhbətini isə heç unutmaq gücündə deyildi. Bu təsadüf Aygünün ər evindən qovulmasından təqribən il yarım sonra baş vermişdi. Belə ki, Aygünü evdə görməyəndə Vahid Rəşiddən Raufu soruşmuşdu:

- Hanı o gözəl oğlan? Ötən səfər də əliboş gəlmişdim.

Evdə başqa bir qadının "dolaşdığını" görmək isə Vahidi tamam çaşdırmışdı.

- Səndən soruşuram, Rauf bala hanı? Rəşid, niyə cavab vermirsən?

- Rauf başqa yerdə yaşayır, - deyə Rəşid etinasızcasına əmisi oğlunun sualını başından eləmək istədi, - anası da onunladır.

- O cür gözəl qızın yerinə bu ifritəyəoxşarı gətirmisən evinə?

- Həddini aşma, danışdığını bil!

- Heyf o başdan ki, sən gəzdirirsən, peşman olacaqsan, amma onda gec olacaq. Mənim Mənzərlə Arzuya yazığım gəlir. Qardaş deyən dilləri ləleykdir, qardaş isə gündə bir eşqə düşür, - deyib qapını çırpıb elə gecə ikən Rəşidin evindən çıxıb getmişdi...

Rəşidin bu son kəskin mövqeyi Qalibi də yerindən-yurdundan etmişdi - illərin dostları barışmaz-yovuşmaz olmuşdular...

...Rəşid anlamaqda gec qaldığını Aygünü və oğlu Raufu itirdiyi vaxtdan başa düşmüşdü. Bütün günü Könüldən gizli Aygünün foto-şəkillərini seyr edərək dərdini içində göynək-göynək çəkirdi: "Adını qəlbimdə bir gül butası kimi bəslədiyim Aygünüm, bilməzdim ki, adın qədər ucalıb məni həsrətdə qoyacaqsan. Hansı yerə

enəcəyimi əvvəldən bilsəydim, kəndə dönüb mal-heyvan otarardım... Bundan belə isə səni uzaqdan sevməyim, toxunmadan ruhunu hiss edərək qovuşmağım üçün səbr etməyi öyrənəcəyəm. Səni tapmayınca özümə rahatlıq verməyəcəyəm. Bizim bir-birimiz üçün yarandığımızı sənsiz günlərimdə tam dərk etdim".

Aygünsə bugünkü həyatından narazı deyildi. Ona görə ki, işləməyə işi, gecələməyə yeri var idi. Artıq altı il idi orta məktəb müəllimləsi idi. Diplomunu götürmək üçün təhsil aldığı instituta yollananda, çox həyəcan keçirmişdi. Tələbəlik illərinin şirin xatirəsi, Rəşidlə keçirdiyi xoşbəxt tələbəlik ömrü gözlərinin önündən keçmişdi.

*"Əlçatmaz-ünyetməz xatirələrdə yaşayan xoşbəxt günlərim, haradasınız? Özüm öz əllərimlə sizi hüznlü etdim".*

Adi iş günlərindən biri idi. Aygün həyəcanla ömrünün ən şirin illərini yaşamış olduğu institutun ona doğma dekanlığının qapısını açdı. İstəyirdi diplomunu götürməzdən əvvəl müəllimləri ilə də görüşsün. İçəridən "Gəl!" deyib, kimsə səsləndi. Aygün tərəddüdlə otağa daxil olub Maya müəllimənin qarşısında durdu.

- Sizə nə lazımdı, qızım?

Soruşan Maya müəllimənin səsi idi, Aygünü xatirələrdən ayırdı.

- Diplomumu götürmək üçün gəlmişəm, dedim, müəllimlərimlə də görüşüm.

- Sənin institutu bitirməyin çoxdanın söhbəti olmalıdır.

- Doqquz ildir.

Söhbətə Sənan müəllim qarışdı:

- Doqquz il? Bəs bu vaxt ərzində harada idin, qızım? Oxuyursunuz, diplomun ardınca isə yadınıza düşəndə gəlirsiniz. Belə olmaz axı.

- Adın nədir, qızım? – deyə Maya müəllimə soruşdu.

- Aygün Mehralıyeva.

- Necə-necə? Ola bilməz? Sən həmin Aygünsən? Ay qızım, nə yaman dəyişibsən? Sənan müəllim, bu, Aygündür, xatirinizə

gəlir, “xatım-xatun balam” deyərdim. Deyəsən, ailəlisən? Oğuldan-uşaqdan nəyin var?

- Bəli, aılə qurmuşdum, bir oğlum da var idi, üç ildir həyat yoldaşımdan aralanmışıq.

- Taleyin hökmündən qaçmaq olmaz, qızım, gərək fələyin gətirdiyi bütün ağrı-acılara sinəni sipər etməyi bacarasan. İnsan ömrü həyat romanının yazıldığı bir kitabdır. Biri o günü yaşayır, digərinin isə qismətinə ömrünə yazılan günləri sadəcə səhifələmək qalır. Sanma ki hər zaman parlayacaqsan, insanın qalxdığı kimi, endiyi vaxtlar da var. Sən enmə zolağına düşübsən, ucalacağın günü səbrsizliklə gözləməyi unutma. Şükür et ki, şükür Şahibi səni hər zaman hifz etsin.

...Maya müəllimənin şirin nəsihətlərindən sonra Aygün sanki yenidən dünyaya gəlmişdi. Bu yeni dünyada ən böyük arzusu oğlu Raufu vermiş olduğu Uşaq Evindən yaşadığı evə gətirmək istəyi oldu. Axı nə vaxta qədər ciyərparasını elə uzaqdanca, gizli-gizli seyr etməklə kifayətlənəcəkdi?!

On iki günlük tətildən istifadə edərək, Bakıya üz tutmuşdu. Fəqət... Həyatda sevgisindən, hər naz-nemətdən məhrum olmuş Aygün Tanrının bir özgə qədərinə də tuş gəlmiş, ciyərparası Raufundan da məhrum olmuşdu. Uşaq Evi müdirinin sözlərinə görə, Raufunu neçə ay bundan irəli digər bir neçə uşaqla Türkiyəyə oxumağa aparmışdılar. Gücü yalnız göz yaşlarına çatdı: “Bu nə cəzadır mənə çəkdirirsən, Allahım, bu kimsəsiz dünyamda məni niyə bir balamsız qoydun?”

Aygünün bu halını görən Uşaq Evinin müdiri Solmaz xanım ona övladlığa uşaq götürməyi məsləhət görmüşdü.

- Ümidini itirmə, qızım, tək sənin balan deyil ki... Raufla bərabər doqquz uşaq da aparılıb. Bu, Türkiyə dövlətinin təşəbbüsü ilə istedadlı şagirdlərin təhsil almaları üçün təşkil edilən xeyriyyə işidi. İndi ağlayırsan, amma oxuyub *böyük insan* olanda, sevinəcəksən.

- Bəs nə zaman geri dönəcəklər?

- Bax, bunu deyə bilmirəm, beş iləmi, on iləmi?.. Qızım, bir ölümə çarə yoxdur. Sən də Tanrı qarşısında savab iş gör, bir uşaq götürüb saxla ki, ruhun rahatlıq tapsın.

Aygün böyük ümidlə Uşaq Evindən təqribən beş yaşlarında olan bir qız uşağını övladlığa götürmüşdü. Mehr saldığı bu körpə atası tərəfindən məhz qız uşağı olduğu üçün Uşaq Evinə verilmişdi. İndi isə bu körpə yeni adla və böyük sevgi ilə yeni dünyaya qədəm qoyacaqdı: "Mustafayeva Ləman Rəşid qızı".

Rəşid isə ikinci həyat yoldaşı Könülü torpağa tapşırandan sonra övladları Zərifə ilə Azəri böyütmək "yükü" çiyinlərində yaşayırdı. Uşaqlara vaxt ayıra bilmədiyindən onları liseyə qoymuş, özü isə kədəri ilə birlikdə baş-başa qalmışdı. Yalnız illərlə ona ağrı verən tənhalığından ürəyində düyünlənmiş nisgilini, bir də bir ömür qədər sorağında olduğu sevgisini ağ cəhifələr üzərinə köçürməklə təskinlik tapırdı. Atalar demiş, "özü yıxılan ağlamaz". Rəşid də dərdini içində boğmağa çalışırdı. Həyat sanki onunçün kazino meydanı imiş və o, bu oyunda uduzmuşdu. Ağlını itirmiş-lərsayaq bəzən özü özü ilə danışır, nə edəcəyini heç cür qərar-laşdıra bilmirdi".

Ən şad, xürrəm dəqiqələri övladları ilə bir olanda idi. Qızı Zərifə evə gəldiyi zaman böyüklərə xas tərzdə evdarlıqla məşğul olur, atasının otağını xüsusi zövqlə səliqə-sahmana salırdı. Belə günlərin birində dolabı səliqəyə salarkən oradan sanki gizlədilərək qoyulmuş bir foto-albom əlinə keçdi. Maraqla açıb baxmağa başladı. Şəkillər cırılmış, sonra yenidən yapışdırılmışdı. Fotodakı qadının kimliyini bilməsə də, atasına çox yaxın və əziz bir insan olduğu qaçılmaz idi. Böyüklərə məxsus düşüncə tərzi ilə Zərifə bu fotonun digər fotolardan nə ilə fərqləndiyini öyrənmək istəyirdi. Qardaşı Azərin "atamız gəldi" kəlmələri onu bu araşdırmalarını dayandırmağa məcbur etdi.

- Deyin görüm mənim dovşanlarımın halı necədir? Kökdən, kələmdən bir şey çırpışdırıb yeyə bilibsinizmi? - deyib Rəşid soruşdu.

- Ata, bacımın ümidinə qalsaq, lap acından ölərik. Səhərdən sənin otağını təmizləyir deyən, məni də ac qoyub.

Rəşid Zərifədəki dəyişikliyi hiss edərək soruşdu:

- Zərifə, qızım, nə olub, səni kefsiz edən nədir? Xəstələnməmisən ki?

- Sualıma cavab versən, deyəcəyəm.

- Bu nə qəribə sorğu oldu? De görüm, nə olub?

Zərifə fotolar toplanmış albomu Rəşidin otağından gətirib, atasının bayaqdan ona qaranlıq qalan mətləblərə aydınlıq gətirməsini istədi.

- Bu albom haqda bir söz deyə bilərsənmi?

Rəşidin fikri çox uzaqlara getmişdi. Könül ilə ailə qurduğunun il yarımının tamam olduğu dövrə. Aygünün şəkillərini gizli olaraq seyr edən Rəşid unudaraq albomu açıqda qoyub işə getmişdi. Könül isə neçə vaxtdan bəri içini didən şübhələrdən qurtulmaq üçün evdəki bütün dolabları axtarmış, axtardığını yastığın altından tapanda bütün şəkilləri "uf" demədən, içində heç bir ağrı hiss etmədən dörd yerə bölmüşdü. Yorğun halda işdən dönüb şam etmək istəyən Rəşid, bu dəfə Könülün bu qalmaqalı ilə üz-üzə qalmışdı:

- Bəlkə sənin qulluqçunam? Bəlkə ayağını da yumalıyam? Yoxsa məni o gözəlçənə tay tutursan? Nə baxırsan üzümə?

- Deyəsən yadına barda etdiyin xozeyinlik düşüb? Kim olduğunu unutmamısansa, səni mən ev qadını etdim.

- Böyük iş görmüsən, gərək səni nazir qoyardılar. Unutma ki, səni də mən kişi etmişəm.

- Sən mənə kişi yox, oğraş adı gətiribsən. Sənə nifrət edirəm.

- Mən həm sənin özünün, həm də sənin gizli-gizli seyr etdiyin şəkillər ki var idi, onları böyük nifrət hissi ilə həzz ala-ala doğramışam.

Rəşid yuxudan qəfil ayılmış adam kimi "ola bilməz!" deyib, otağına keçmişdi. Gördüyü mənzərə onu necə dəhşətə gətirmişdisə, Könülə iki sillə vurmuşdu:

- Yapışdır bunları!

- Mən tüpürdüyümü yalayanlardan deyiləm. O şəkilləri böyük həzz ilə doğramamışam ki, təzədən də yapışdıram. Bu sillə isə sənə baha başa gələcək.

- Sən insanlıqdan kənar adamsan. Sən hardan biləsən ki, məhəbbət nədir. Yadında saxla ki, mən onu daim sevəcəyəm... Düz deyirsən, mən fərli kişi olsaydım, sənin kimi bar pozğununu ev qadını etməzdim. Səninlə yaşadığım illər üçün xəcalət çəkirəm.

Rəşid o gecəni yatmayıb ürəyində Aygünlə danışa-danışa foto-şəkilləri yapışdırmış, ötənləri xatırlayaraq yoruluncayadək ağlamışdı.

***

...Zərifə şəkillərə həyəcanla baxdığını görüb atasının boynunu qucaqladı.

- Qızım, olarmı sualına sən böyüyəndən sonra cavab verim?

- Bir şərtlə ki, bu albomu daha gizlətməyəcəksən.

- Şərtlər kəsildi, müqavilələr bağlandı, indi nə qaldı?

- Nahar etmək!

Zərifə atasının əhval-ruhiyyəsini yüksəltmək üçün bacardığı qədər şıltaqlıq edib məzəli lətifələr danışır, nisgilli ürəyini ovundurmağa çalışırdı.

Deyirlər, ürəkdən-ürəyə yollar var. O gecə Aygün də Rəşidi düşünürdü. İkisi də eyni əzabları yaşayaraq illəri yola verir, biri birindən xəbərsiz eyni həyat tərzi yaşayırdılar...

***

Aygün istirahət günlərində arada-bərədə Bakıya gələrək, sevdiyi insanların uzun illərin arxasında özü üçün yadigar kimi qoruyub-saxladığı ləpirlərini izləyib özündə bir rahatlıq tapırdı. Amma bir gün...

Eşitdiyi şirin səs onu düşüncələrdən ayırdı.

- Salam, Aygün bacı, necəsiniz?

- Bağışlayın, tanımadım.

Aygün qarşısında duran şəxsin şirin-şirin gülümsəyərək ona baxdığını görüb, “Kimsiniz, sizə nə lazımdır? - deyib təkrar soruşdu.

Aygünün getdikcə həyəcan keçirdiyini görən yad adam, həm-söhbət olmaq istədiyi şəxsin sualını cavablandırdı:

- Deyir, dağ dağa rast gəlməz, insan insana rast gələr. Rəşidin dostu Qalibəm. Haralardasınız?

- Sumqayıtda. Orta məktəbdə sinif müəlliməsiyəm. Yaxşı insanların sayəsində balaca bir koma da düzəltmişəm. Yaşayıram ki yerim boş qalmasın, desinlər ki bu adda, bu nəm-nişanda birisi də var idi.

- Ümidsiz olma. Bəs Rauf necədir? Yəqin indi böyümüş olar, bu gün-sabah gəlin gətirərsən, inşaallah!

- Bilirsənmi, Qalib, mən Raufu dostun Rəşidin sayəsində itirdim.

- Heç nə başa düşə bilmədim, necə yəni “itirdim”. Bir ətraflı danış görüm nə olub?

- Rəşid məni gecə ilə evdən çıxartdı. Həmin vaxt atam evi də məni qəbul etmədi. Körpə uşaqla qaldım küçələrdə. Raufu yetimlər evinə qoyub özümə iş axtarmağa başladım. Tez-tez görməyə gedirdim, amma yad adam kimi. Özümə gün-güzəran düzəldəndən sonra arxasınca getdim ki, birdəfəlik götürüb evə gətirəm, baxdım ki, artıq onu itirmişəm. Bilmirəm, ömür vəfa edəcəkmi ki övladımı bir də görəm, bağrıma basıb öpüb oxşayam?

- Raufun itməsinə səbəb nə oldu?

- Uşaq Evindən İstanbula daha yaxşı təhsil almaları üçün göndəriblər. Amma o zamandan bir xəbər yoxdur.

- Bu da onun taleyidir. Bəlkə bu, daha yaxşıdır. Yüzə dözmüsən, yüz birə də döz. İnşaallah, təhsilini başa çatdırıb bir gün evinə-eşiyinə dönər. Yenə yaxşı ki, işləyirsən başın qarışır, yoxsa təklik səni sıxardı.

- Tək deyiləm, bir qızım da var, Raufumun ətrini ondan alıram.

- Soruşmaq istəmirsən ki, Rəşid necədir, necə bir gün keçirir?

Bu sualı Aygünə Qalib ünvanladı. Aygün isə öz növbəsində Qalibin sözündən yayınaraq, "artıq gecdir, məndən Laləyə, uşaqlara salam söylə, məni gördüyünü isə O-na demə" söyləyib, ayrılmaq istədiyini hiss etdirdi.

***

Qaranlıq gecələrdə işığa ehtiyacın olduğu vaxt Tanrına pənah apar. Çünki Yaradandan qeyrisinə güvənən və ümid bağlayan kəs zavallıdır. Rəşid də Allaha pənah apararaq gecə-gündüz yalnız onun dərgahından istəyirdi sevdiyi insanları.

Qalib olanları Rəşidə danışmaqda israrlı idi. Axı iki əziz insan arasında uçurum həddində olan boşluğu götürmək Tanrı qarşısında bütün oruc və nafilə namazlarından da irəlidir. Qalib bilirdi ki, Rəşidin başağrılarının səbəbi məhz olmuş hadisələrin ona vurduğu zərbələrin nəticəsi və vicdan əzabıdır. Dostunun yaşadığı hadisələrdə özünü də günahkar hiss edən Qalibin bu gəlişində məqsədi hər vəchlə Rəşidin əzablarına son qoymaq idi. Bunu bacaracaqdımı?

Pillələri qalxa-qalxa söhbəti haradan və necə başlayacağını düşünürdü. Həyəcanla dolu olan bu qapı zəngi neçə insanın həyatını dəyişə bilərdi.

Qapını Rəşidin özünün açması Qalibi təəccübləndirdi.

- Axşamın xeyirli olsun, əziz dost, deyəsən evdə təksən. Uşaqlar hardadırlar?

- Gün aydın. Sualı suala az cala, ay Allah saxlamış, bir içəri keçsənə... Axşamın xeyir, uşaqlar kinoya gediblər. Səndən nə əcəb, yol-iriz azana oxşayırsan.

- Yenə nə olub başına buz qoymusan.

- Daha dözə bilmirəm, Qalib. Bir tərəfdən ürək, bir yandan da bu başağrıları, lap canımı boğazıma yığıb. Qəbul etmədiyim dərman qalmayıb.

- Rəşid, mənə elə gəlir ki, gətirdiyim xəbər sənin başağrılarına son qoyar.

- O nə xəbərdi elə?

- Aygünü gördüm, sizin sevərək əl-ələ tutub gəzdiyiniz bağda. Tamam düşüb, çox qocalıb.

Rəşid sanki bir anlığa dondu. Neçə illərdən bəri arzusunda olduğu insandan xəbər eşitməsi, bəlkə də, həyatında nələrin baş verəcəyindən bir xəbər idi. Aygünlə görüşmək, onun sevgisini yenidən qazanmaq... Bəlkə ailə qurub? Bəlkə məni tamam unudub? Sənə bu da azdı, çək cəzanı, Rəşid!

Qalib Rəşidi ona rahatlıq verməyən düşüncələrindən ayırdı:

- Soruşmaq istəmirsən ki necədir, günü-güzəranı nə yerdədir, oğlun Rauf indi hardadır?.. Niyə susmusan, Rəşid?

- Nə bilirsən hamısını danış, - deyə Rəşid kövrək halda dostunun söyləyəcəklərinə ehtiyacı olduğunu anlatdı.

- Bu illər ərzində başına nə gəlib, öyrənib-bildiyimin hamısını bircə-bircə sənə danışağacam.

Söhbətin şirin yerində qapının zəngi çalındı. Gələn Azərlə Zərifə idi. Qalibi görmələri uşaqları sevindirmiş olsa da, Rəşidin gözündəki yaş damlaları onları çaşdırdı.

- Ata, yenə ürəyin ağrıyır? - Zərifə narahatlıqla soruşdu.

- İndi yaxşıyam, qızım. Siz keçin otağınıza, əminlə söhbətim var.

Rəşidin içində bir sıxıntı, narahatlıq var idi. Deyir, gül budaqdan, sevgi qəlbdən qopanda solar. Rəşid isə ağrılardan öləzimiş duyğularının diqtəsi ilə illəri illərə calayaraq ümidlərinin bir gün doğrulacağının intizarında olmuşdu. Qalibi həyəcanla axıra qədər dinləyən Rəşid, indi həsrətlə Aygünü görəcəyi günün intizarında idi. İnanırdı ki, həmin gün çox da uzaqda deyil. Bu xoşbəxtliyin ona nəsib olacağı intizarı ilə Qalibi yola salandan sonra qızı Zərifənin ağladığını görəndə şaşırdı. Nəyin baş verdiyini soruşmaq istəyirdi ki, birdən, "Ata, daha yetər bizi uşaq bilib aldatdığın. Qalib əmi ilə söhbətinizi eşitdim. Bilirəm ki, anam yaşayır. Onun varlığını bizdən niyə gizlədirsən? Onu çox sevdiyini və bir qardaşımızın da olduğunu Qalib əmi danışanda başa düşdüm. Bizi daha neçə il aldada biləcəyini düşünürdün? Daha məndən heç nəyi gizlədə bilməyəcəksən. Axı sən yaxşı bilirsən ki, biz ana həsrəti

çəkirik. Axı mən də istəyirəm qeyri uşaqlar kimi anam başıma tumar çəksin, saçlarımı darayıb hörsün, şirin-şirin boynuna sarılım. Bunları bilə-bilə ana məhəbbətini bizdən niyə əsirgəmisən, ata?" - deyən Zərifənin aman vermədən yağdırdığı suallar əlində aciz qaldı.

- Sənə bütün həqiqətləri danışaram, qızım, amma ağlama. Sizin göz yaşlarınıza dözə bilmərəm. Söz ver ki, məni axıra kimi dinləməyə gücün çatacaq.

Rəşid naçar qalmışdı. Bu vaxta qədər gizlədə bildiyi halda, indi olmuş hər şeyi açıqlamaq məcburiyyəti ilə üzləşmişdi.

- Canım Azərim, gözüm Zərifəm, siz bu illər ərzində övladlarım olmaqdan savayı mənə həm də ata-ana, bacı-qardaş olubsunuz. Sizdən nəyi isə gizlətmişəmsə, bunu yalnız mənə aid olduğu üçün etmişəm. Amma bu gün hamısını danışacağam ki, ürəyinizdə mənə qarşı xılt qalmasın... Həyatım qəmli bir hekayətə bənzəyir. Deyirlər, məhəbbəti qorusan, onunla ucalarsan. Mən isə öz məhəbbətimi qoruya bilmədiyim üçün neçə illərdi bu ağrıları çəkirəm. Danışacağım hadisələr başıma gələndə, sizdən az böyük olardım...

Rəşid danışdıqca, hadisələr kino lenti kimi gözlərinin önündə canlanırdı. Aygünlə keçirdiyi sevgi dolu günlərindən göz yaşları ilə, Könülün ona vurduğu zərbələrdən isə ixtiyarsız olaraq əsəbi halda bəhs edirdi. Keçmişini səhifələdikcə, arayıb-axtarmadığı bacıları Mənzərlə Arzunu xatırlayıb köks ötürürdü.

...Rəşid həm sevincli, həm də həyəcanlı idi. İşdən icazə almaq üçün tələsirdi. Axı bu gün Aygünü tapmaq ümidi ilə Sumqayıta gedəcəkdi. Evdən çıxmaq istəyirdi ki, dostu Qalib telefon edib onun üçün üç günlük icazə aldığını bildirdi. Rəşid sonuncu dəfə nə vaxt belə fərəhləndiyini unutmuşdu. İlk məhəbbətinin sorağını alaraq gedirdi. Necə görüşəcəklərini düşünəndə, ürəyinin səsini eşidəcək dərəcədə həyəcanlanırdı. Niyə də çırpınmasın axı. Iyirmi bir ilin ayrılığından sonra ilk dəfə yenidən üz-üzə gələcəkdilər. Görəsən Aygün onu necə qarşılayacaqdı?

Düşüncələr içərisində Sumqayıta nə vaxt çatdığını hiss etmədi. Heç vaxt Sumqayıt məktəblərində olmadığından, hansı səmtə gedəcəyini dəqiqləşdirə bilmirdi. Axtardığı məktəbləri yol boyu gördüyü insanlardan, mindiyi avtobusların sürücülərindən soraq edib tapırdı.

Sonuncu məktəbin qarşısında dayanaraq ümid dolu nəzərlərini qapıya dikmişdi. İnam hissini içində öldürmək istəmir, bu qapıdan da naümid qayıtmaması üçün Tanrısına yalvarırdı. Bu zaman zəng çalındı. Rəşidin gözləri həyəcanla Aygünü arayırdı. Müəllimlərdən həya etdiyindən, şagirdlərdən birini səsləyib onların "Aygün" adında müəllimləri olub-olmadığını soruşdu:

- Əmi, hansı Aygün müəlliməni soruşursunuz?

- Sizdə neçə Aygün müəllimə var ki?...

- Üç. Ziniyətova, Mehralıyeva, biri isə Abdullayevadır.

Rəşid məktəbdə laborant işləyən bir qadından Aygün Mehralıyevanın kimliyini soruşduqda, "Qardaş, onun kimliyi sizə lazımdır, yoxsa özü?" deyərək, qadın Rəşidi xoflu nəzərlərlə süzüb şübhəli tərzdə soruşdu.

- Bağışlayın, deyəsən sualı düzgün qoymadım, mənə, təbii ki, özü lazımdır. O, harada yaşayır? Ünvanını verə bilərsinizmi?

- Sumqayıtda yaşayır. Binəvanın kimi var ki... Kirayədə qalır, doqquzuncu mikrorayon, bina 21, mərtəbə 3, mənzil 39. Siz Aygünün nəyisiniz?

- Bakıdan gəlmişəm, uzaq qohumlarındanam. Kömək etdiyiniz üçün sizə dərin minnətdarlığımı bildirirəm. Mənə çox yaxşılıq etdiniz, - deyib, tələsik uzaqlaşdı.

Getdikcə hövsələsi daralırdı. Yolun bir il qədər məsafəcə uzanması onu səbrsiz etmişdi. Nəhayət ki, axtardığı ünvanı tapdı. Qapının zənginə qonşu çıxdı.

Qadın elə bil cümlələri əzbərləmişdi. Qramofon valı kimi dilboğaza qoymurdu:

- Kimi istəyirsiz, qardaş? Qonşu evdə yoxdu, Bakıya gedib. Qızı isə tanımadığı adama qapını açmır.

- Bilmirsiniz nə zaman gələr?

- Axşam saat altı ilə yeddi arası. Aygünün qohumlarındansınız, yoxsa iş yoldaşı?

Rəşid qadının sualını cavabsız qoyub uzaqlaşdı.

***

Hər açılan səhərdə onun üçün yeni bir günün başlayacağına və həmin günün ona hökmən xoş güzaran gətirəcəyinə inam hissi ilə Aygün, artıq oxucuya da bəlli olduğu kimi, xatirəyə dönmüş günlərini təkrarən yaşamaq üçün hər istirahət günü Bakıya gedirdi. Vücudunda yenidən baş qaldırmış duyğuları onun yuxusuz və narahat qaranlıq gecələrini aydınladan bir nur olaraq həyatını yenidən rövnəqləndirməyə başlamışdı. Bu işığın kölgəsində isə 21 il üzünü görməyə həsrət qaldığı sevdiyi insanın varlığını unuda bilməməsi idi. Kaş zamanı geri qaytarmaq mümkün olaydı, onda sevdiyi insanları itirməzdi.

> *"Ömrümə nə qədər küləklər əsib, amma hər zaman ilk və son saralan yarpağım sən olubsan, Rəşid. Ömür yolları bizi ayırsa da, inanıram ki, qəlbimiz daim bir vurub. Məni yaşadan da, əslində içimdə gəzdirdiyim bu hisslərdir".*

Üzünü görməyə həsrət qaldığı bir insanın səsini nə vaxtsa eşidib-duya bilmək xiffəti ilə yaşadığı bu həyatda özünü bəzən hətta bəxtəvərlik qoynunda hiss edirdi. Çəkdiyi əzab-əziyyətləri, iztirabları yalnız ağ kağız üzərinə köçürməyə gücü yetmişdi. Keçmişini unutmaq üçün çox çalışmış olsa da, hansı isə bir qüvvənin təsirindənsə dünəninin xəyallarının gücü ilə vücudunda təkrarən rahatlıq tapdığını görürdü. Nə zamana qədər bu yolları ayaqlayacaqdı, bilmirdi.

Aygünü düşüncələrdən ona şirin gələn bir səsin sədası ayırdı. Bu səsi harada eşitmiş olardı? Zənni onu yanıltmamışdı. Bu, xoşbəxt günlərinin yadigarı, Aygünə olan məhəbbətini illərlə içində pünhan saxlayıb dilə gətirməyən tələbə yoldaşı Turalın səsinin sədası idi. Yenə öz şirin zarafatları ilə ətrafında olan insanların

könlünü oxşayırdı. Amma Tural deyən Aygünü ya heç görməmişdi, ya da tanımamışdı.

Tələbə yoldaşının ona diqqət yetirmədiyini görüb, ilk addımı Aygün atmaq qərarına gəldi:

- Tural deyilsən? Yoxsa mən səhv edirəm?

- Bəli, Turalam. Amma bağışlayın, sizi tanıya bilmədim.

- Tələbə vaxtı yazılarını yazmaqdan barmaqlarımin ucu qabar bağlamışdı, nə tez unutdun, ay etibarsız?

- Eh, Aygün, Aygün! Həyat səni nə yaman sıxıb?! Düşünürdüm, səni daha bir də görmərəm. Taleyin yazısına bax. O vaxt məni atıb getməsəydin...

- Heç zarafatlarından qalmırsan. Ağır günlərimdə sənin zarafatların dodaqlarımda daim təbəssüm oyadıb, məni yaşamağa ruhlandırıb. Necə də xoşbəxt günlər idi, Tural.

- Hə, amma xoşbəxt günləri sən öz əllərinlə dağıdıb məhv etdin. Dilim zarafat etsə də, ürəyimdə yeganə sən idin. Qızımın da adını Aygün qoyub səni içimdə yaşadıram. Deyəcəksən ki, indi niyə dil-dil ötürsən, gərək o zaman deyərdin. Demədim, ona görə ki, ürəyində olan həmən o kəsin özüm olduğumu düşünmüşdüm. Hissimdə yanıldığımı anlayanda isə, artıq gec idi... Səni gördüyüm üçün Tanrıma şükürlər edirəm. Bu günü illərlə həsrətlə axtarmışdım deyən, indi dil-boğaza qoymuram. De görüm hardasan, necə yaşayırsan? Işləyirsənmi? Uşaqların varmı?

- Ay Tural, bir imkan ver də... Heç dəyişməmisən. Gərək içindəki hisslərini zamanında açıqlayardın. Özümü çox pis hiss etdim. Bilməyərəkdən ürəyinlə oynamışam, buna görə məni bağışla!

- Mən səni çoxdan, Rəşidə qoşulub getdiyin gündən bağışlamışam. Çünki ürəyə hökm etmək olmaz. Mən Tanrının qoyduğu qədərə hər zaman qane olmuşam. Suallarımdan yan qaçmaq istəyirsənsə, yanılırsan (*yenə söhbətinə məzə qatdı*) mən sizi dinləyirəm, xanım qız, buyurun!

- Sumqayıtda yaşayıram, özüm də sinif müəllimməsiyəm. O ki qaldı ailə məsələsinə, o haqda danışmaq istəmirəm, məcbur etmə.

- Heç danışmağina ehtiyac da yoxdur. Hər şey üz-gözündən görünür, o gözəl çöhrəndən əsər-əlamət qalmayıb. Heyf səndən!

- Səni söhbətə tutub yolundan saxladım. Nə qədər xatirələrimiz təzələndi, üzümüz güldü. Çox sağ ol, Tural.

- İnsan özü gülməyi bacarmasa da, ətrafındakılarasa xoş ovqat bəxş etməyi bacarmalıdır. Bu günümüzü də yazaq taleyimizin yaddaşına. Sumqayıta gedirsənsə, gəl əyləş, - deyib, Tural Aygünü maşınına dəvət etdi.

Aygün özünü lap gənclik illərindəki kimi hiss edirdi: *“Nə gözəl günlər imiş, İlahi, mən doğrudan da onu öz əllərimlə məhv etmişəmmiş”.*

***

Mənzilinə yenicə daxil olmuşdu ki, qapının zəngi çalındı. Qapıda duran şəxsin kimliyini bilmədiyi üçün geri çəkilmək istədikdə, “Aygün, məni evə dəvət etmək istəmirsən? Biz ki, bir-birimiz üçün doğulmuşlardan idik. Xahiş edirəm, icazə ver içəri keçim. Bu günü illərlə, səbrsizliklə gözləmişəm, bunusa mənə çox görmə?” kəlmələri onu dayanmağa məcbur etdi.

Aygün ilk baxışda Rəşidi tanımasa da, səsini eşitdiyi an dili tutuldu. İçindən vulkan kimi püskürüb daşan göz yaşları onun bu illər ərzində nələr çəkdiyinin açıq-aydın göstəricisi idi. Hər gün Onu görəcəyi günlə yaşadığı halda, indi hər ikisi donmuş vəziyyətdə, susaraq durmuşdular.

Deyir, həyatda eləsini sev ki, sən onun üçün ölməyi düşünəndə, o, özünü sənin üçün artıq çoxdan öldürmüş olduğunu düşünsün. Aygün Rəşidin, Rəşid isə Aygünün vaxtsız qocaldığını görürdü. Biri birilərindən xəbərsiz sevgi yolunun yolçularına çevrilərək qocalmışdılar.

Ləman gələnin kimliyini bilməsə də, çay süfrəsi açaraq “xoş gəldin!” edib araya çökən sükutu aradan qaldırmışdı. Bu müəmmalı qonaq kim idi, niyə gəlmişdi?

Ləman bağlı qapı arxasında gedən söhbətə gizlicə qulaq asmağı mədəniyyətdənkənar bildiyi üçün qonağın getməsini gözləməyə məcbur idi.

Mümkün qədər hisslərini cilovlamağa çalışan Aygün özünü barışmaz göstərməyə çalışaraq soyuq bir səslə, "Rəşid, gəlişinin səbəbini açıqlaya bilərsənmi?" deyib soruşdu. Əslində isə Aygün Rəşidi danışdıraraq neçə illərdi həsrətində olduğu bu səsi doyunca dinləmək istəyirdi.

- İstərdim aramızdakı bu həsrət bitsin artıq. Səni tapdığım üçün özümü xoşbəxt hiss edirəm. Səni çox axtarmışam, amma ağlıma da gətirməzdim ki, gözlənilməz bir görüş bizi qovuşdurar. Məni sənə qovuşdurduğu üçün Qalibə minnətdaram. Başına gələnləri mənə O danışıb. Düzü, qarşında xəcalətliyəm. Həyatımda yeganə sevdiyim qadın sən olduğun halda, sənə çəkdirmədiyim qalmadı. Bilirəm ki, məni heç vaxt bağışlamayacaqsan.

- Taleyimiz belə imiş, Rəşid. Biz xeyir-duasız ailə qurmuşduq. Hələ atanın qarğışını demirəm. Ata qarğışı bağışlamağı bacarmır, adamı kəsir. Necə ki kəsdi də. Onu sındırmağa gücümüz yetmədi.

- Sənə əzab vermək üçün gəlməmişəm, Aygün, səni bircə dəfə görmək üçün ömrümü verərəm. Sənsiz nələr çəkdiyimi bilsəydin...

Rəşidi qəhər boğurdu:

- Oğlumuz Raufu mütləq axtarıb tapacam. Bunun üçün Tanrımdan ömür deyil, möhlət istəyirəm. İstəyirəm oğlumu bircə dəfə də olsa görüm, sonra köçüm bu dünyadan. Bir yerdə olmağımız üçünsə mənə möhlət ver, heç olmasa, bu yaşımızdasa həsrətimiz olmasın.

- Rəşid, oğlum Raufu görməyincə səninlə bir olmağı bacarmaram. Bilmirəm, indi Raufum nələr çəkir. Ata-anası sağ olduğu halda, Uşaq Evində yetim kimi böyüdü mənim balam. Bunlarda isə yeganə günahkar sənsən. Mənə də, balama da bu dəhşətli həyatı sən yaşatdın. Kimdən əskik idim? Mənim də arzularım vardı, hamısını ürəyimdə qoydun. Sən mənə cəmi bircə il xoşbəxt həyat verdin, Rəşid, bütün bədbəxtliyimə dözdüm, amma Raufumsuz yaşaya bilmirəm.

Acı günlərin xatirəsi içlərini yenidən göynətmişdi. Belə görüşləri yaratdığlarına bəxş etməklə həyat öz qurbanlarını bir az da əzir, sındırır. İyirimi bir il gözləri yollara soraqçı, səhvlərinin cəzası olaraq illərlə ayrılıq həsrətinə düçar olan gənclərin xoşbəxt olmağa haqları yox idimi?

Bu illəri daim içlərində bir-biri ilə danışdıqları halda, indi susub nə danışacaqlarını bilmirdilər. Rəşid hansı andasa bu xoşbəxt dəqiqələrin təmasından ayrı düşə biləcəyini ağlına gətirə bilmirdi. Axı neçə illərdən bəri soraqçı düşdüyü insandan indi necə ayrıla bilərdi?

- Elə bil vaxtilə bir-birini sevən insanlar olmamışıq. İndi küsülülərtək söz tapıb danışa da bilmirik. Səni dərd içində qoyub qocaltdığım üçün məni bağışla. Məni bağışla ki, ağrılarım bir az azalsın. Bir də, səni hərdənbir görməyimə icazə ver.

Aygünün başını yüngülcə tərpətməsi ilə Rəşidin qapıdan çıxması bir oldu.

Aygün elə bil öz ürəyini Rəşidin vücudunda yerləşdirmişdi. Onun xəyal kimi görünüb, xəyal kimi də bir andaca yox olması ilə içində anlaşılmaz bir boşluq hiss etdi, ürəyini sanki məngənə ilə sıxırdılar. Ləman isə bu zaman başının üstünü kəsdirərək, suallarını yağdırırdı.

- Deyə bilərsənmi gələn kişi kim idi, niyə gəlmişdi? Axı nə hadisə baş verir, ana? Unutma ki, daha uşaq deyiləm. Bu vaxta qədər uşaq olduğumçün susurdun, indi niyə susursan? Sənin başına gələnlərdən mənim də xəbərdar olmağa haqqım yoxdurmu?

- Biz bəndələr xoşbəxt günlərimizdə çox naşükür oluruq. Sullarınla məni yorma. Acı xatirələr insan qəlbinin çəkə biləcəyi bir yükdür, mən bu yükü tək çəkməyə öyrəşmişəm. Başqaları səni anlamaz deyə özünə qapılıb qalır, zamanla taleyinin bu ağır yükünü çəkməyə məcbur olursan. Dünya səndən üz çevirəndə, tapınacağın yeganə pənah yalnız ulu Tanrın olur.

- Yenə də heç nə başa düşə bilmədim. Axı həyatında baş verənləri mənə danışmağa niyə ürək etmirsən? Mən ki sənə yad deyiləm, dərdini yüngülləşdirə bilmərəmmi? Sən içini mənimlə

bölüş ki, mən də həyatımı səninlə bölüşməkdən çəkinməyim. Biz rəfiqə deyilikmi, ana?

Naçar qalan Aygün hər şeyi danışmalı idi. İllərdən bəri ürəyindən çıxarıb atmağı bacarmadığı sevgisini, canı qədər çox sevdiyi Rəşidinin kimliyini və yola saldığı son 21 ildə ona yaşadılanları qızı Ləman üçün açıqlamalı idi. Amma necə edəydi ki, tikə bilməyəcəyi (*Ləmana onun doğma qızı olmadığını bildirməyə məcbur qaldığı*) təqdirdə bir ürəyi qırmağa məhkum olmasın.

Həyatında olan hər kəsdən pünhan qoruduğu, bu günə qədər təbərrük kimi saxladığı gündəliyini götürüb ürək ağrısı ilə Ləmanın otağına yaxınlaşdı. İçindəki həyəcanı, ürək döyüntülərinin səsini hiss etdirməmək üçün gündəliyi sinəsinə sıxaraq qapıya söykənmiş halda durmuşdu.

- Ana, sənə nə olub, niyə orada durmusan?

Ləmanın təlaş dolu sualı Aygünü daha da gərginləşdirmişdi. Qızının boynunu qucaqlayraq ağladı:

- Səni çox istəyirəm, qızım, lap çox. Mənim səndən başqa bir kimsəm yoxdur, bunu yaxşı bilirsən.

- Yox, ana, sənin Rauf kimi bir oğlun da var. İnan ki, onun gəlişini mən səndən də çox və səbrsizliklə gözləyirəm. Ümid sonda ölür, ana, sənin bir belə ümidsizliyə qapılmağa haqqın yoxdur.

- Bu dəftəri sənə gətirmişəm, əlyazmamdı, oxu və fikrini bildir.

Aygünün gücü bircə buna çatdı ki, qərar tutduğu yerdən aralanmaqla varlığını sarımış həyəcanı qızından gizlədə bilsin.

> *“Yaz yağışının gətirdiyi xoş rayihə məni sənə tuş etmişdisə, bil ki, indinin özündə də ətrinin həsrətindəyəm. Uzat əllərini, bəlkə əlim əllərinə çata və bu həsrət kösövünü söndürməyə yağış damlalarının gücü yetə”.*

Ötən 21 ildə közərə-közərə içini göynək-göynək edən yanğısını söndürməyə gücü yetməsə də, onu həyatda yaşamağa sövq edən qızının da küskünlüyə qapılmasına yol verə bilməzdi.

***

...Artıq üç gün idi ki, Ləman gündəliyi oxuyurdu. Gözlərindəki qızartılar yazını çox diqqətlə və həssaslıqla oxuduğuna işarət idi.

Oxuduqca əsərin qəhrəmanı olan qızın çəkdiyi iztirabları qəlbən yaşayaraq için-için ağrıyırdı. Həyatda O QIZ qədər əzab çəkəcək bir insanın var olduğuna inanmaq Ləman üçün mümkünsüzdü: "Böyük sevginin əzablarla dolu keşməkeşli yolları, doğrudanmı bir gün məni də ağuşuna ala bilər? Yox, bu, bədii əsərdir, sadəcə insan düşüncələrinin məhsuludur. Həyatda belə hadisələrin yaşanmasına inanmaq çox çətindir. Yəni sevgi insan ömrünə bərabər olmaqla yanaşı, o ömrü yarıda qoymağa da qadir ola bilər?"

Ləman bu düşüncələrlə gündəlik də əlində, mətbəxdə yemək hazırlayan anasına yaxınlaşdı:

- Ana, bu əlyazma səndə haradan?

- Görürəm sənin suallarından qaçmaq mümkün deyil. Əvvəlcə de görüm oxuduğun bu yazını, yəni orada olan insanları necə dəyərləndirdin? Qınadığın bir kəs var oldumu? Əsərin qəhrəmanı sən olsaydın, neylərdin?

- İstəməzdim insan həyatında belə hadisələr baş versin. Mən əsərdə olanları öz həyatım olaraq yaşadım. Və yaşadıqca, həmin insanları çox dəyərləndirərək qınaq hissindən özümü uzaq tutdum. O həyatı insan övladının yaşaması bilirsən necə dəhşətlidir? O ki qaldı əsərin qəhrəmanının yerində olmaq, mən bacarmayaraq intihar edərdim. Bəlkə mən iradəsizəm, ona görə olanlarla mübarizəyə tab gətirməyib ölüm yolunu asan hesab edirəm. Bu anlaq mənim üçün olduqca çətin... Həyatda belə hadisələrin var ola biləcəyinə isə inanmağım gəlmir.

- Bu dəftəri sənə kim verib, ana?

- Olanları danışmaq mənə ağır olduğu üçün dəftəri sənə verdim. Qələmə alıb ağ kağıza köçürtdüyüm və sənin insan həyatı üçün yaşanılmaz dediyin mənim öz həyatımdır. O dəhşətləri yaşayan insan qarşında durub və sənin ona canlı olaraq qiymət verməyini gözləyir.

- Sənin qiymətini sevdiyin insan verməlidir, ana, mən o mərtəbəyə layiq deyiləm. Sən mənim üçün əbədi olaraq ən dəyərli varlıq mövqeyində qalacaqsan. Oxuduqlarımdan isə bunu da anladım ki, mən sənin doğma qızın deyiləm. Ancaq mən buna çox da təəssüflənmirəm. Varlıqları bilinməyən doğmalarım məni yetimlər evinə atdıqları halda, sən məni götürüb xoşbəxtliyin zirvəsinə ucaltmısan. Mən sənə qarşı necə naşükür ola bilərəm, ana? Bəyəm, valideynlik hüququ insana yalnız dünyaya övlad gətirdiyi üçün verilir? Məncə, şəhvani hissin nəticəsi olan materiya heç də insana valideynlik hüququ verməməlidir. Bu, məsələnin yalnız bir tərəfidir. Valideyn olan kəs nəfəs verdiyini böyütməli, həyata hazırlamalı, cəmiyyət üçün dəyərli bir şəxsiyyətə çevirməyə borclu olduğunu dərk etməlidir. Yalnız bu haqqı yerinə yetirməyə səy göstərənlər *valideyn* adlandırıla bilərlər, daha şəhvani hisslərinin nəticəsi olaraq dünyaya övlad gətirənlər yox!

- Sənin kimi bir qızım olduğu ilə fəxr edirəm. Məhəbbətini məndən heç vaxt əsirgəmə. Raufumdan sonra sən Tanrımın mənə verdiyi bir paysan. Şükürlər olsun Tanrıma ki, mənə layiqli pay verib.

- Ana, soruşmaq olarmı O, səni neçə illərdən sonra və necə tapıb?

- Təsadüfən şəhərdə O-nun yaxın dostu, həmdəmi olan Qaliblə rastlaşmışdım. Harada işlədiyimi demişdim. Rəşid Qalibin sözünün ucuyla məni axtarıb tapıb.

...Aygün keçmişi üçün yaman qəribsəmişdi.

***

...Günlər ayları əvəz etdikcə, Rəşidin ürək ağrıları güclənirdi. Neçə ay idi ki, Türkiyə səfirliyinə göndərdiyi məktubundan xəbərətər yox idi. Həsrət çəkən gözləri yenə yollarda qalmışdı.

Ancaq günlərin birində mənzilinə təzəcə daxil olanda oğlu Azərin ona səfirliyin məktubunu təqdim etməsi, ürəyində yenidən ümid ilğımları oyatdı. Bu ümid çırağının nurundan ürəyinə işıq

düşən Rəşid otağına keçib məktubun məzmunu ilə tanış olduqda, Raufun artıq Türkiyədə olmadığı, bir həkim olaraq öz vətəninə qayıtdığı, ancaq harada yaşayıb-işləməsindən səfirlikdə informasiya olmadığı haqda məlumatlandı. Çox düşünüb-daşınandan sonra Türkiyədən gəlib Azərbaycanda qeydiyyata düşənlərin siyahısını əldə etmək qərarına gəldi. Son zamanlar bu istiqamətdə gərgin axtarışları, keçirdiyi həyəcanlar ürəyinin vəziyyətini bir az da qəlizləşdirmişdi. Liftin işləməməsi üzündən pillələri çətinliklə qalxan Rəşid mənzilinin qapısına az qalmış ürəyinin ağrısından yerə çökdü. Bir anlıq gözlərinin önünə Aygünü gətirərək kövrəldi. Axı Raufu tapıb gətirəcəyini ona söz vermişdi.

Bu zaman pillələri kiminsə qalxdığını hiss etdi. Gələn qonşu mərtəbədə yaşayan Rafet adında bir cavan həkim idi. Rəşidin bu gəncə münasibəti olduqca yaxşı idi. Qızı Zərifəyə dərslərində kömək etməklə yanaşı, xəstəliklərin sirlərini də öyrədirdi. Axı Zərifə də tibb institutunda oxumağa hazırlaşırdı. Bu arzusu atasının daim xəstə olması ilə əlaqədar idi.

- Efendim, yinemi kalbiniz tutmuş? - deyə Rafet şirin türk ləhcəsi ilə soruşdu.

- Daha aman vermir, oğul, deyəsən ərizəmi yazmalı olacağam.

- Böyle olamaz, efendim, izn verseniz tedavi edəyim. Ben sizleri çok sevdim. Siz bana bir babam gibisiniz. Lütfen, izn verin sizinle ilgileneyim.

- Sağ ol, oğlum. Tanış olduğumuz bu bir neçə ayda qızıma çoxköməklik etmisən.

- Ne demek, efendim, biz artık arkadaşız. Ben çok isterdim böyle bir ablam olsun. Kabul ederseniz, size “baba” deyə bilirim?

- Oğul, sənin atan, anan Türkiyənin hansı bolgəsindəndir?

- Hayır, ben cocuq iken annemden, babamdan öksüz kalmışım. Kendim de azeri türküyüm, yani bu toprakın evladıyım, kimim-kimsem yok, çox yalnızım.

Rafet kövrəlmişdi.

- Daha sən tək deyilsən, oğlum, sənin üçün biz varıq, bu qapım üzünə hər zaman açıqdı, bunu unutma.

- İyi ki sizlere rastladım. İyiliyinizi heç bir zaman unutmam.

***

Artıq bir ay idi ki, Rafet Rəşidin müalicəsinə başlamışdı. Onlara hamılıqla elə isinişmişdi ki, sanki bir ailənin üzvi idilər. Hər şeylə maraqlanan Zərifə, Rafetin keçmişini öyrənməyə çalışırdı.

- Rafet, xahiş edirəm, uşaq yaşlarından danış.

- Ne konuşacağım, acı hatıramımı? Beni annem çocuq ikən kimsəsiz çocuqlar evinə vermiş. Ne babamı, ne annemi hiç birini hatırlamiyorum. Ben Bakuda doğulmuşum. Kimliyimde böyle yazılmış. Her zaman “anne” deye ağlıyordum. Türkiyede oxurken, hocam beni hey avutuyor, “ben sənin həm annen, həm də babanım” diye söylerdi. Sonra liseyi bitirib doktor olmaya karar verdim. Kimsesiz hasta çocuklara yardım etmek için...

Qapı zənginə hər ikisi söhbəti kəsdi. Gələn Rəşid idi. Aldığı xəbər ürəyinin ağrılarını yenə təzələmişdi.

Zərifə narahat halda atasının qolundan tutdu.

- Ata, axı sənə nə olub? Yenə ürəyindi?

- Baba, senin için böyle çalışmak çox zor, bir kaç gün sakin yerdə olsanız olmazmı? Kendinize kast ediyorsunuz, olmaz böyle.

- Mən yaxşıyam, qızım, sən narahat olma. Bizə çay gətir, bir az dərdləşək.

Rəşiddəki dəyişikliyin heç də ürəyi ilə bağlı olmadığını duyan Rafet, nə baş verdiyini soruşmaq üçün Zərifənin otaqdan çıxmasını gözlədi.

- Baba, bir şeymi olmuş? Karib halin var kibisin?

- Bilmirəm hardan başlayım ki, fikrimi sənə çatdıra bilim. Sənin Türkiyədə yaşadığın evdə Rauf adlı bir oğlan da qalıb. Yəni, Raufun Türkiyədə qeydiyyatda durduğu məkan olaraq o ünvan göstərilib. Dedim, bəlkə tanıyarsan?

Rəşid çox həyəcanlı görünürdü. Bunu aydın sezən Rafet:

- Çok merak etdim. Rauf isimli çocuk sizin neyiniz oluyor?

- O mənim hər şeyimdi.

Rəşid çətinliklə də olsa ayağa qalxıb pəncərə önünə gəldi. Gözləri dolmuşdu.

Rafetin "Size açıklama vermek zorundayım, çünkü aradığınız insan benim. Aslen ismim Raufdu, amma beni "Rafet" deye seslerdiler, o zamandan ismim böyle kalmış. Beni neyçin arıyordunuz?" deməsi ilə Rəşidin ürəyini tutub yıxılması bir oldu. Rafet qorxu içində Rəşidi yatağa uzadıb Zərifəni səslədi:

- Abla, Allah aşkına söylermisiniz, Rauf isimli çocuku babanız niyçin arıyor? Siz biliyormusunuz?

- Atam onun fikrini çəkməkdən xəstə düşüb. O mənim ata bir-ana ayrı qardaşımdır.

- Hiç bir şey anlamıyorum. Aranan Rauf benim? Yani ben seninle kardeşmiyim?

- İnana bilmirəm, Rafet, sən Allahın bir qismətinə bax. İndi sənin həm anan, həm də atan var, daha yetim, kimsəsiz deyilsən.

- Şükür olsun Allahıma, beni babamla kovuşdurdu. Annem nerede yaşıyor, abla?

Rafet şaşırmış halda sual dolu gözlərini Zərifəyə zilləyib durmuşdu...

***

...Yataq xəstəsi düşmüş Rəşidin başına gələnlərdən hələ ki xəbərsiz olan Qalib hekayətini tamamlayıb Raufla (Rafetlə) Zərifəyə baxdı. Yəni ki, getməyin zamanıdı, ancaq təəssüf ki, gəlişimizlə Ləmanın ad gününü-şad gününü pozmuş olduq.

Aygünlə Ləman varlıqlarını bürümüş sarsıntıdan yerlərindəcə donmuşdular…

***

...Rəşid özünə gələndə gözləri ilə Raufu aradı. Ürəyi sıxılan anda Raufun dərman verib onu uzatdığı yataqdan qalxmaq istəyirdi ki, Azərin, "Ata, həkim sakitliyə ehtiyacın olduğunu söylədi" kəlmələri onu tibbin qanunlarına riayət etməyə məcbur etdi.

- Rafet haradadır?

- Qalib əmi ilə getdilər, Zərifə də onlarladı.

Rəşid köks dolusu nəfəs alaraq, Aygünün indiki halını gözləri önünə gətirdi. Oğlu Raufu görəndə onun hansı hisslər keçirəcəyini düşündüyündən dodaqlarına yalnız özünün sezə biləcəyi xəfif, ılıq bir təbəssüm qondu: "Yuxudan oyanınca insanı oyandığına peşman edən, geri dönmək istəyib amma dönməyincə çarəsizlikdən havalanan, həyatda bircə dəfə görülə bilən şirin yuxum oldun, Aygünüm. Səni sevməkdən və gözləməkdən heç usanmadım. Səni qəlbimdə müqəddəs varlığın nuru kimi bəslədim ki, daim yolumu nurlandırasan. Yağışı unutmuş torpağın dolmuş qara buludlara həsrətli yalvarışı kimi səssizcə, xəfif-xəfif, amma ürəkdən darıxdım sənin üçün. Gülü solunca, səni isə ölüncəyə qədər sevəcəyəm. Həsrətinin yanğısı siqaretimin tüstüsütək vücudumu bürüyüb. Əlim sənə qovuşmasa da, möhnətim başa çatdı. İndi bu fani dünyadan rahat köçə bilərəm. Məni bağışla ki, səndən razı gedə bilim. Son dəfə gözlərinə baxa bilmirəm deyə, yenə də həsrətinin yanğısı ilə səndən ayrılıram, Aygünüm".

Bir gün yaranan, bir gün də dünyadan köçəcək. Bu, haqdı. Ancaq ömrünün gənclik yaşından indiki ölərki dəqiqələrinə qədər Tanrısının Rəşidə çəkdirdikləri nə idi, hansı üzdən idi görən? Ata xeyirduasının olmamasımı, ata qarğışımı?

Bir anlıq zorla toxdadlıq tapıb nəfəsini cəmləyən Rəşid, "Yanına gəlirəm, ata, heç olmasa indiki anımdasa məni bağışlayarsanmı? Axı mən bu addımı sənə qarşı dönüklük, nankorluq zəminində yox, istədiyimlə xoşbəxtliyim naminə atmışdım. Hansı ki, BU GÜNÜ mənə qıymadın".

Və elə dodaqlarında bu pıçıltılar gözlərini yumdu.

***

## *Sonda oxucuma deyəcəklərim*

Sevgi pislik görəndə sozalmayan, yaxşılıq görəndə sabitliyini qoruyan bir hissdir. Onu ətrafındakılardan hifz edib saxlamaq hər kəsə nəsib olmur. Rəşidin oğlunu tapması ilə bu fərəhin gücünə tab gətirməyib həyatı ilə vidalaşması Aygünü nə qədər sarsıtmışdısa,

öz qardaşlığı ilə məhəbbət macərası yaşaması da Ləmanın heç cür sakitləşdirə bilmirdi. Bir ömür qədər yaşanacaq sevgiyə ehtiyacı olduğu halda, bu nə ağrı idi Tanrısı onun qismətinə yazmışdı?! Uca göylərin bu əmələsindən heç baş açmaq olmur. Yaratdığı mövcudluğun bir gözünü güldürəndə, o biri gözünü ağlatmaqdan O-damı həzz alır?

Rauf anasını tapması ilə illərin həsrətinə son qoymuşdusa, atasını tapması və elə həmin anda da itirməsi, həmçinin paralel olaraq hisslərini, duyğularını bağrına basıb ovundurduğu Ləmanını da bircə anda itirə bilmək qorxusu Raufa kimsəsiz günlərində yaşadığı ağrı-acıları təkrarən yaşadırdı. Onların taleyi necə olacaqdı? Nə olsun ki, nə atadan, nə də anadan bir bacı-qardaş deyillər, Ləman ki bu halla barışa bilmir, yataq xəstəsi düşüb, özünə qəsd edəcəyi fikri ilə yaşayır. Raufun bir həkim olaraq ona psixoloji təsir gücü də Ləmanın iradəsi önündə zəiflik nümayiş etdirirdi. Ümid yalnız Aygünə, bir də elimizin-obamızın əsrlər boyunca yerləşib-yataqlaşmış qanunlarına Ləmanın inanc tapıb boyun əyməsinə qalmışdı.

Atasının dəfnindən sonra nəyi və necə edəcəyi fikri idi Raufu düşündürən. Anası daha ona qahmar durmuş birisinin evində yaşaya bilməzdi. Rauf anası ilə bahəm Ləmanı da Rəşidin evinə yığışmağa razı salmalıydı. Onun bu fikri Zərifə ilə Azərin, həmçinin Qalibin də ürəyincə idi. Axı indiki yaşlarında Zərifəylə Azərin bir yolgöstərənə, ağsaqqal-ağbirçək məsləhətinə, gələcəklərini istiqamətləndirmək təfəkküründə olan birisinə daha çox ehtiyacları var. Bu şəxs isə yalnız Aygün ola bilərdi. Yeganə oğlunu tapması ilə birdən-birə iki qız, həm də iki oğul anası olmuş Aygün müəllimə.

*"Həyatımdakı üzüntülər şahid ki, ayaq izləritək keçici xoşbəxtliklərimin mərmər daşlara yazılmış yazılar qədərində qalıcı sənsizliyindən qorxmuram, Ləmanım, səni milyonlarca yağış damlası ilə bölüşməkdən qorxuram. Sənin çiçək olub açmandan qorxmuram, bir gün gəlib səni qoparacaqlarından qorxuram. Bilsəm ki, bu gedişinlə bir gün geri dönəcəksən, döndüyün günə qədər yollarına soraqçı olar, gözlərimi kor edib bir özgə gözə baxmaram".*

Hər şey zamana möhtac. Bütün bağlı qapıların açarı səbr, dözüm, iradə və bir də inam. Sonuncu ölən ümidlərdir.

Rauf bu fikirlər qoynunda əllərini başının arxasında çataqlayıb bundan sonrakı yaşamlarının nizama salınmasında anası Aygünlə Tanrısının ona *əmi* qismində pay yetirdiyi Qalibin köməyinə özündə güclü inam hissi içində gözlərini yumdu. Hələ Mənzərlə Arzunun – bibilərinin onu necə qəbul edəcəkləri də Rauf üçün müəmma idi...

# ALIN YAZIMIZ TANRININ

Dərin kədər içindəydi. İçini çulğayan ağrı-acılardan, iztirablardan çıxış yolu görmürdü. Əllərinin hər yerdən üzüldüyünü dərk edib özü özünə sual edirdi:

*"Bu məşəqqətlərin sonu yoxmu bir görən?"*

Kədəri sevincini üstələmiş taleyinakam birisi idi. Məhəbbəti yalquzaq ilana dönüb onu çirkablara yuvarlatmışdı. Ancaq bu halı ilə yenə Onu arzulayır, taleyindən asılı günlərini ömründən silmək istədiyi an kədəri sevincini üstələyib içindəki ilğımlı şölələri dumana çevirirdi. Özünün var olduğuna artıq özü də şübhə ilə yanaşmağa başlamışdı:

*"Çalış bu çirkabın ağuşuna düşməyəsən, düşdünmü, gözünü açanda artıq gec olur".*

Acı düşüncələr burulğanında çabalayırdı. Həyatın amansız reallıqları qoynunda çırpınır, dəlicəsinə sevdiyi insanı, ona saflığı öyrətdiyi halda hazırda çirkablar içində boğulmasına rəvac vermiş insanı, ulu Tanrısından, heç olmazsa bircə yol qarşısına çıxarmasını arzulayırdı.

Bu da qapı-qapı gəzərək axtardığı xoşbəxtliyinin axırı. Bu nemətdən doyunca dadmaq qismətində deyilmiş.

Yaşamağın nə qədər zor olduğunu indi daha aydın dərk edirdi.

***

Anasının vəfatından, atasının ikinci dəfə ailə qurmasından sonra atasının ailəsi məqam-məqam dağılmağa üz qoymuşdu. Körpə bacısı ilə qardaşının ölümü isə onu hər şeydən çox sarsıtmışdı.

> *"Onların vəfatından sonra özümü daha çox tənha hiss edirdim. Analığım yerli-yersiz məni döyür, həyəti bəlkə on dəfə süpürtdürürdü. Ən dəhşətlisi isə bu idi ki, analığım həqiqi ögey ana obrazını yaradaraq, bacımla qardaşımı*

*anbara salıb axşamadək orada ac-susuz saxlayırdı. Atam evə dönəndə isə hər dəfə məni təqsirli çıxarıb vəziyyəti daha da qəlizləşdirməyə çalışır, atamın yanında yerimi anan və çox ustalıqla acı etməyə səy edirdi. Ancaq təəssüf ki, onun məni qədərsiz təhqirləri önündə atam susub köks ötürür, doğma balasını müdafiə etməyə cürəti çatmırdı. Hiss edirdim ki, bu izdivacı qurduğuna görə atam çox peşmandır. Lakin bircə kəlmə də olsun dillənə bilmir, əsəbindən güçü yalnız daşı-divarı yumruqlamağa çatırdı.*

*Faciə də elə həmin günlərin birində baş vermişdi. Bir tərəfdən qorxu, həyəcan, digər tərəfdənsə aclıq güc gələrək körpə bacımla qardaşımın ölümünə səbəb olmuşdu. Ayazla Kəmalə analığımın onları cəzalandırdığı anbardaca keçinmişdilər. Ən dəhşətlisi budur ki, atam bu olayı da sükutla qarşılamışdı".*

***

...Dəryanur ağlına gətirə bilməzdi ki, bir gün o da kimi isə sevə bilər. Və bu məhəbbəti onun həyatını bütünlüklə məhv edə bilər.

Bu "məhvetmə" isə baş verdi.

*"Həyatıma yazılan ən gözəl günlərdən biri oktyabr ayının on beşi oldu. Özümü çox dərəcə xoşbəxt hiss edirdim. Axı artıq tək deyildim. Məni də əzizləyib oxşayan, nazımı çəkən birisi var idi. Sevinirdim ki, analığımın amansız tənələrindən canımı qurtarıb xoşbəxt günlərimə qovuşacağam. Mən onu qeyri-adi bir bağlılıqla sevirdim. Bəlkə də oxucuların arasında mənə lağ edib gülənlər də tapıla, ansaq mən onu ondan gələn öz ətri ilə, göründüyü, olduğu kimi, necə vardısa eləcə sevirdim. Danışdığı hər kəlməsi içimdəki dərd-səri yuyub aparırdı. İnsanın ürəyini yerindən oynadan qıyğacı baxışları vardı. Şirin pıçıltılı danışıqları indi də qulaqlarımdadır.*

Tanışlığımızın ilk günü “aramızda heç vaxt yalan olmasın” - demişdi, - ”Səni şəhərin ən gözəl, ən böyük nüfuz sahibi olan ailəsinin qızına dəyişmərəm”.

*Bu kəlmələri ilə məni Tanrıya qədər ucaltdığını hiss edirdimi? Həyatım boyu həsrətində olub eşitmək istədiyim ən gözəl kəlmələr indi mənim idi. Çəkdiyim acılıqlara baxmayaraq, onu gördüyüm an bütün göynəklərimi unudurdum. Kədərli anlarımda şirin pıçıltıları qolumda gücüm, varlığımda qəmxarım idi:*

“Şəhərin ən gözəl, ən böyük nüfuz sahibi olan ailəsinin qızına səni dəyişmərəm”.

*Özümü necə də xoşbəxt hiss edirdim. İlahi, bu istəyi mənə bəxş etdiyin üçün sənə şükr edirəm. O, öz məhəbbəti ilə mənə saflığı, həyatda mübariz olmağı öyrədirdi. Bəzən saatlarla biri birimizin gözlərinə baxaraq susar, yalnız baxışlarımız danışardı. Mən bu dəqiqələri həyatımın ən xoşbəxt günləri sanırdım... Dəlicəsinə sevdiyimi, necə sevildiyimi özüm də açıq-aşkar görürdüm. Bu xoşbəxtliyim üçün Allahıma, atamın uzaq qohumlarından olan, ancaq bizim ailəyə hər kəsdən çox doğmalıq göstərən Şirinbəyim nənəyə, bir də onun nəvəsi Almasa borclu idim. Axı bu xoşbəxtliyi Tanrım mənə Almasın əli ilə yetirmişdi.*

*Xəyallarımda onunla qurduğumuz gözəl ailə həyatını, xoşbəxt evlilik günlərimizi görürdüm. Real həyatım isə usandırıcı, cansıxıcı idi. Analığım tez-tez təkrarladığı “Sən bu evdə qalıb ya qulluqçuluq edəcək, ya da qayıtmamaq şərti ilə biryolluq çıxıb gedəcəksən” kimi təhdidedici kəlmələrilə məni təkrar-təkrar aşağılamağa çalışır, “həyat” adlı dadlı bir neməti yaşamaqdan usandırırdı. Naəlac oturub nə edəcəyim barədə düşünür, haçalanmış əriş-arğac fikirlərin çalpaşıqlığından yol arayıb bir yerə çıxa bilmirdim. “Ölüm” arzulayırdım, amma bu da çıxış yolu deyildi. İnanırdım ki, bir gün bir Ağatlı oğlan gəlib məni kabus dolu bu girdabdan çıxaracaq, Allah-taalanın öz yaratdıqları üçün bəxş etdiklərinə*

*məni də qovuşduracaq. O Ağatlı oğlanın məhz Rafiq olacağına içimdəki bu inam, inanc hardan idi məndə? Özümə də anlaşılmaz, özümə də qaranlıq bir sirri-xuda. Hər görüş günümüzü elə səbrsizliklə gözləyirdim ki... Günün biri bir il qədərincə uzaqlıqda görünürdü mənə.*

*Vədə günümüzün olub-olmamasının fərqinə varmadan (bir növ vərdişkarlarsayağı) görüş yerimizə gəlib saatlarla dayanar, sonra çıxıb gedərdim. Körpə uşaq ətrafındakıların hərəkətlərindən ürkək quzu kimi anasına qısılantək, mən də atamın ailəsində baş verənləri görməmək üçün qaçıb Rafiqimə sığınmaq istəyirdim. Yeganə rahatlığım, təsəlli ünvanım o idi.*

***

*Bu görüş günümüzdə həm də tanışlığımızın üç ayı tamam olurdu. Yanvar ayının on dördü, qarlı bir qış günü idi. Çox həyəcanlıydım. Gözaltı ətrafa nəzər salırdım. Kimi işə tələsir, kimi də ərzaq alıb evinə getmək üçün dayanacaqda marşrut gözləyirdi.*

*İçimdə onunla şirin-şirin söhbətləşərkən, "Dəryam" deyən doğma, məhrəm bir səs məni ağuşuna aldı. Bu mənim Rafiqim idi.*

*- Nə bildin ki, mənəm. Bu qədər insanın içində məni necə seçə bildin?*

- Duruşundan. Milyon adamın içində səni yerişindən tanıyaram. Sən mənimçün qeyri-adi bir qızsan, Dəryam, səni kiminləsə müqayisə etmək istəmirəm. Çünki, sən müqayisə olunmazsan. Bilmirəm bu tanışlığımızçün kimə minnətdar olmalıyam. Ancaq öncə, sözsüz ki, Tanrıma.

*"Dostumu axtardım, sevgili tapdım,*
*Bəlkə də özümü bəlayə saldım"*

*misralarını söyləməklə Dəryanur bu qisməti (yəni tanışlıqlarını) Böyük Yaradanın onlara Şirinbəyim nənənin nəvəsi Almasın əli ilə yetirmiş olduğunu xatırlatmaq istədi.*

- Şairəliyin da varmış.

*- Yox, canım, nə şairbazlıqdır. Hərdən az-az uydurmağım olursa, bu, o demək deyil ki, şairəyəm. Şair sözüdür, şair olan ya dahidi, ya dəli. Mən isə sənin divanənəm. Səninlə danışanda elə bilirəm həyatda heç bir dərdim-sərim yoxdur, dünya mənimdir. Məni yaşadan yeganə insan sənsən, Rafiq. Səninlə hər görüşüm mənim xoşbəxt günümdü, Tanrım bunusa mənə çox görməsin.*

- Səni xoşbəxt edəcəyimə söz verirəm, canım Dəryam. Səninçün indidən darıxmağa başladım. Hər darıxanda bura gəlib sənin xatirələrinlə başbaşa qalır, bu sayaq rahatlıq tapıram... Bir də nə vaxt görüşəcəyik?

*- Qabaqcadan necə deyim. Bilirsən ki, evdən çox çətinliklə çıxıram, imkan olandan-olana. Bu isə görüş günümüzə düşməyə də bilər.*

- Deyəsən, bizim avtobusların marşrutunu dəyişəcəklər. Bakı-Qazax marşrutuna keçirəm. Odu, Bakıda hansı gün ola biləcəyimi indidən deyə bilmirəm. Amma özümüz üçün hər hansı bir günü dəqiqləşdirməliyik. Sən təxmini olaraq hansı günü məsləhət bilirsən?

*- Deyək ki... Təxminən qoy olsun, fevralın iyirmi yeddisi.*

- Olsun! Sən doğrudanmı məni çox sevirsən? – deyən Rafiq Dəryanurun gözlərinin dərinliyinə zəndlə, nüfuzedici nəzərlərlə baxdı. O, bununla nə demək istəyirdi, nələr vardı bu baxışlarda? Bunlar Dəryanura da, Siz oxucularımıza da, elə yazar olaraq mənim özünə də, hələ ki, qaranlıq.

Ağır, nüfuzedici baxışların altında əriyən qızcığaz kövrəldiyini hiss etdirməməkçün, başını yana əydi.

- Dəryacan, niyə kövrəldin?
*Görmək istəməzdim göz yaşlarını,*
*Axdı vücuduma, yandırdı məni.*
*Kövrək hisslərinlə yaxdın qəlbimi,*
*Mən indi inandım, sevirsən məni.*

***

"Həyatından küsübsənsə də, insanlar səni usandırıbsa da, içində Allahına inamını itirmə. Vücudunda ümid işığı yandır ki, yaşamağa inamın əskilməsin. Unutma ki, həyat insanın düşündüyündən qat-qat ağırdır. İçindəki hiss və duyğularını, dərdini qarşındakına anlada bilmirsənsə, deməli... İçini yalnızlıq, tənhalıq, kimsəsizlik alarsa, axtarsan belə həyatdan zövq ala, məna tapa bilməyəcəksən.

Gələcəyimin laübalı bir bəyazlığa büründüyünü çoxdan hiss etmişdim. İnadcıllıqla ümidimi, dayanacaq ünvanı bəlli olmayan sabahlara bağlamışdım. Görüş gününün intizarını ruhuma hopdura-hopdura fevral ayının 27-sini gözləyir, hər şeyin yaxşı olacağına özümü inandırmağa çalışırdım".

***

Dəryanur sübh obaşdan yatağından qalxıb evdə səliqə-sahman yaratmış, həyət-bacanı silib-süpürmuşdü. Ancaq bunu da bilirdi ki, analığı gördüyü işi bəyənməyib onu yenidən həyəti təmizləməyə məcbur edəcək. Rafiqlə görüş vədəsinə isə lap az qalırdı. Evdən necə çıxacağını düşünürdü. Əynini dəyişib, analığının qarğış yağışının müşayiəti ilə həyətdən çıxdı. Addımladığı səki, bir-birini əvəzləyən küçələr onun üçün bir il məsafəsincə uzanırdı. Özü də bilmirdi nədəndi, həyəcanı azalmaq bilmirdi. Rafiqlə bir yerdə olacağı şirin dəqiqələri düşünüb olanları unudur, bütün ağrı-acısını yaddan çıxarıb xoşbəxt sabahını gözünün qabağında canlandırırdı.

Görüş yeri! Ola bilsin bu ünvan insanı xoşbəxtliyə də aparsın, yaşantısı ağrı-acıya bürünmüş özgə bir həyata da. Ancaq Dəryanur üçün bu yer müqəddəsləşmişdi. Bu dəfə də hər zamankı kimi skamyalardan birində əyləşib gözləməyə başladı.

Zaman otdükcə içini özünə də mübhəm bir narahatlıq çulğayırdı: nədənsə Rafiq gəlib çıxmaq bilmirdi.

Yaxın skamyaların birində əyləşmiş qadından saatı soruşdu:

- Xanım, saatı deməzsiniz?

Qadın, vücudunu həyəcan bürümüş bu qızcığazı xüsusi maraqla süzərək, “Saat $9^{00}$-un tamamıdır, bala, mən nəvəmi gözləyirəm, sən kimi gözləyirsən? Heç özündə deyilsən”, - deyib soruşdu.

Dəryanuru, doğrudan da, həyəcan təntitmişdi. Bir yandan Rafiqin belə nagahan, sakit-səssiz ləngiməsi, bir tərəfdən də evdə onu gözləyən danlaq, dava-dalaş...

Evə dönməyin zamanı idi.

Və döndü də. Rafiqi görmədən, ürəyində Rafiqin “gəlmədi” ağrı-acısı, analığının onu gözləyən hərəsi bir batman ağırlığında təhqirləri, dava-dalaşları...

***

Rafiq çarəsizlik içində çabalayırdı: oğlunun Dəryanurla ailə qurmasını pisləyən anası onu mümkünsüz seçim qarşısında qoymuşdu.

“O qızla ailə qursan, südümü sənə halal etmərəm. O qızdan sənə arvad, mənə isə gəlin olmaz. Qadın sarmaşıq kimi bir şeydir, sarılmaq üçün daim özünə dayaq axtarar. Əslini-nəslini bilmədiyin, tanımadığın bir qız üçün bu qədər düşünməyinə dəyməz. Səni Əzizə xalanın qızı Sevdaya evləndirəcəyəm, gül parçası kimi uşaqdır, peşman olmazsan”.

Bu sözləri Gövhər arvad söyləmişdi, sonra da əlavə etmişdi: “Sabah səhər kəndə gedib Sevdaya üzük aparacağam”.

Rafiq çıxılmaz vəziyyətdə qalmışdı. Nə anasından, nə də Dəryanurdan keçə bilmirdi. Anasına deyə bilmirdi ki, məni belə sərt seçim qarşısında qoyma, axı mən hər ikinizi çox sevirəm.

Rafiq nə qədər çalışsa da, anasını yola gətirə bilmədi. Qarşısına qoyulan şərtlər, bəlkə də həyatında ən müşkül çətinliklərdən biri idi. Söylədiyi isə bunlar oldu: “Qoy sən deyən olsun, ana, mən xoşbəxt olmasam da olar, təki sənin könlün xoş olsun”.

*“İlahi, insan necə acizləşə, yazıqlaşa bilərmiş. Mənə ümidlə könül bağlamış gözüyaşlı qoyduğum Dəryam necə olsun bəs? Deyirlər, sevmək gözəldi, ancaq qovuşmaq qisməti olan yerdə. Bəs ölmək necə? Deyirlər, ölüm də gözəldi, sənə ağlayanın olduğu zaman. Şirvan bölgəsində*

*nahaqdan demirlər ki, ölüsünə ağlamayan, ölüsünü urvatsız edər. Ana isə hər şeydən keçilməzdi. Bu mümkünsüz addımı atmaqla mən həyatda canımdan çox sevdiyim insanı anama qurban etmişdim. Bundan sonra yaşamağımın mənim üçün nə dərəcədə mənalı-məzmunlu olub-olmayacağının fərqində deyiləm. Bildiyim tək bircə budu ki, xoşbəxtlik qapımı bir daha döyməyəcək. Şair sözüdü:*

*Bundan sonra qorxum yoxdu ölümdən,*
*Tale mənə nə verdi ki, nə alsın.*

*İndi hardasan, Dəryam? Bu gün səni məndən ayırdılar. Bundan belə yanımda olmayacaqsansa da, nəfəsinin ətri, içimə yığdığım xatirələrin həmişə mənimlə olacaq. Gecənin qaranlığında göy üzünü bəzəyən seçim etdiyimiz yeddiqardaş ulduzlar sənsiz qaldığımı xatırlatdı mənə. Xatırlayırsanmı, hər ikimiz ulduzları seyr etməyi xoşladığımız üçün bir gün bu gözəlliyi yaşamağı qərarlaşdırmışdıq. Hər birimiz "ən parlaq ulduz mənimdir" deyə mübahisə etmiş, sonda əl-ələ tutaraq yeddi qardaş ulduz kimi heç bir zaman ayrılmayacağımıza söz vermişdik. Amma sevgimiz heç də ulduzlar qədər parlaq və uzunömürlü olmadı. Həyatıma, sənsiz yaşanacaq günlərimə sığınıb bundan belə möhnətli ömür sürməyə məhkumam, Dəryam".*

***

...Deyir, sən saydığını say, gör fələk nə sayır.

Həyat öz amansız qamçısını hələ körpə yaşlarından ondan əskik etməmişdi. Ana nəvazişinin, ana qayğısının həzzini doyunca dadmağa macal tapmamış anasını itirmişdi. Ən dəhşətlisi isə bu vəziyyətində birdən-birə atasını da itirməsi oldu.

Atası Ceyhun ölüm yatağında Dəryanuru çağırıb son kərə əllərini onun üz-gözündə gəzdirərək, həyatını belə bir məcraya yönəltdiyi üçün qızından dönə-dönə üzr istəmişdi: "Bağışla məni, gözəl balam, anan öz gedişi ilə ailəmizi yaman günə qoydu, mən isə evimizə yad qadın gətirməyimlə səni bədbəxt etdim. Orada - gor dünyasında səni məndən soruşanda ona nə cavab verəcəyəm,

necə cavab verəcəyəm? Bundan sonrakı həyatını necə quracaqsan? Yaxud ümumiyyətlə, qura biləcəksənmi? Səni kimin ümidinə qoyub getdiyimi düşünəndə, məni o gor dünyasının da qəbul etməyəcəyi fikri ağrıdır. İnsan da bu qədər zalım, qəddar ola bilərmi? Düşünürdüm ki, zaman keçər, analığın yanlış mövqe tutduğunu, bəlkə, özü başa düşər... Hansı dərəcədə səhvə yol verdiyimi Allahım da yəqin mənə bağışlamaz...”

Fikirləri bu yerdə qırılmışdı. Deyə bilmədiklərini və demək istədiyi bir çox daha nələri isə çox sirlər-soraqlar kimi atası özü ilə aparmışdı.

Analığı layiqincə ehsan vermək barədə heç düşünmək belə istəməmişdi: “Nə qoyub gedib ki, nədən də ehsan verəm?” deyib, bu gün Ceyhunun övladının qayğısına qala biləcək, bu ailəyə yeganə simsar insan olan Şirinbəyim nənəni heç zaman göynəyi sozalmayacaq bir ağrı-acıya mübtəla qoymuşdu. Elə bir sağalmaz dərdin ağuşunda ki...

***

Atasından sonra tamam kimsəsiz qalan Dəryanur hara üz tutacağını, nə edəcəyini kəsdirə bilmirdi. Tale onunla oyun oynayırdımı? Artıq nə qayğısını çəkəcək valideynləri, nə də onu xoşbəxt edə biləcək istəklisi var idı. Çəkdiyi əziyyətlərə, acılara sinə gərərək, analığı tərəfindən evdən qovulub küçəyə atılmış Dəryanur seçim qarşısında qalmışdı: ya özünü öldürüb əzablı həyatına son qoymalı, ya da içində yaşamaq eşqini gücləndirib, bu acılıqları ona unutdurub xoşbəxt günlər vəd edəcək birisinə qoşulub getməli.

Analığının ona qarşı bu mövqeyindən sonra üz tutub gedəcəyi, ümid, pənah yeri bilib sığınacaq tapdığı yeganə ünvan Dəryanurun həmişə özünə nənə bildiyi Şirinbəyimin onların evi müqayisədə Bakının içərilərinə daha yaxın yerləşmiş kasıb, qocalıq pensiyası ilə dolanan daxması (*gecəqondusu*) olmuşdu. Uzaq qohumlarından olan Şirinbəyim nənə onu öz evinə aparıb, olanları unutdurmağa çalışırdı.

Ancaq analığından çəkdiyi ağri-acılar Dəryanura bu həyatı da unutdura bilmirdi. Tez-tez qapıya baxır, hər an Onun gələcəyini

gözləyir, sabahlarını dirigözlü, səksəkə içində açırdı. Şirinbəyim nənənin nəvəsi Almas, çəkdiklərini unutdurmaq üçün Dəryanuru Fəvvarələr meydanına, Dağüstü parka, şəhərin digər gəzməli-görməli yerlərinə aparır, məzəli lətifələr danışıb eynini açmağa, güldürməyə çalışırdı. Amma Almaz da hiss edirdi ki, Dəryanurun təbəssümü, gülüşü heç də içdən deyil.

Bir dəfə isə...

Almas yenə adətincə hansı isə məzəli lətifəni danışıb özü də gülüb Dəryanuru da güldürməyə səy göstərəndə, Dəryanurun öncə ucadan qəhqəhə çəkib, sonra isə qəflətən hönkürtü ilə ağlamağa başladığını gördü.

- Sənə nə oldu, Dəryacan? deyə Almaz həyəcanla soruşdu.

- İstədim ürəkdən güləm, bacarmadım. Hansı günümə gülürəm, Almas? Axı olanları unutmaq mümkün deyil. Kəmalə ilə Ayazın naləsi hələ də qulaqlarımdadı. Övladının qatili ilə bir dam altda yaşamağa atam necə dözə bilirdi, başa düşmürəm. Başımı qarışdırmaqla özümü aldadıram. Bu gəzintilər, bəhanə dolu bütün məqamlar nə illah edirəm ürəyimi açmır.

- İnanıram, bir gün bunları yuxu sanacaqsan. Yeni bir həyata qədəm qoyduğun zaman hər şeyi unudacaqsan. Sənin kimi gözəl bir qızın bu cür həyat tərzinin özü bir haqsızlıqdı, - deyib Almas Dəryanuru qucaqladı.

***

Hər gün yeni düşüncə, yeni fikirlərlə sabahlarını açırdı. Qorxu və təlaş içində açdığı səhərlərin sayını da itirmişdi: sevib sığındığı, pənah apardığı insan isə artıq yox idi. Ağlamaqdan gözlərinin də işığı solmuşdu. Kaş bu görüş, bu tanışlıq, yaralı könlünü yerindən-yurdundan edən o xoşbəxt dəqiqələr heç olmayardı.

...İndi Dəryanur yalnız keçmiş xatirələri ilə qidalanırdı. Rafiqin ona bəxş etdiyi üç ay davam edən məhəbbətli günlərinin şirinliyini on ildən artıq idi ki, vücudunda gəzdirirdi. Ötən illər ümidini qırmış olsa da, yenə də gözləyirdi. Aradan illər ötməsinə baxmayaraq inanırdı ki, bu Ağatlı oğlan hökmən günlərin birində gəlib onu əzabların cəngindən qurtaracaq. Anası Zivərin ölümün-

dən sonra analığının onun başına gətirdiklərinə seyrçi gözü ilə baxan atasından acı həqiqətləri köksündə ağır bir yük kimi gəzdirərək gizlətmişdi. Düşüncələri keçmişə söykənərək qaysaq bağlamış yaralarını yorulub-usanmaq bilmədən hey təzələyirdi.

*"Ola bilsin həyatda mənim kimilərinə çox rast gəlsin, ancaq görəsən mənim qabağıma Rafiq kimisi çıxacaqmı? Bu həsrətin bir sonu olacaqmı görən?"*

Suallar əlində naçar qalmışdı.

*"Bu illəri onsuz necə yaşamışam bilmirəm, amma bundan sonrakı həyatımı onsuz təsəvvür etməyim mümkün deyil. Hər zaman gözlərim yolda, ürəyim səksəkədə idi. Bu sevdalı günlərimdən mənə qalan yalnız həsrətim olmalıdırmı? Məni yaşadacağını vəd edən insan indi məni dərdə salmışdı. Noolardı, Allahım məni dərdlərə yol yoldaşı edən illəri taleyimə yazmayardı. Onun ürəyimdə qurduğu yuvanı uçurmaq mənimçün olümdən bədtərdir. Ola da bilsin elə zaman gələ ki, həyatımda var olmuş sevgi, məhəbbət adında duyğularımın şirinliyi də, əzabı da sozala, ovuna, adiləşə. Ancaq onun mənə bəxş etmiş olduğu saf məhəbbət çiçəyi ömrümün sonunadək mənimlə qalacaq. O, mənə çoxlarının yaşamadığı təmiz, pak duyğularla yaşamağı öyrətdi. Mənə sevginin ucalığını, şirinliyini öz təmiz hissləri ilə anlatdı. Əvəzində mən də onu heç kimin sevə bilməyəcəyi bir ömür qədərincə sevdim. Elə dəlicəsinə ki... Hər kəlməsi mənim yaşamağım idi. Mənə and içirdi, mənsiz dözə bilmədiyini, yuxularında da mənimlə yaşadığını, məni xoşbəxt etdiyini söyləyirdi. Qəlbimin qırıq olduğunu bildiyi halda, bu qəfil gedişi nədən oldu görən? Bir daha dönməməkdə, fələklə dilbir olub qəsdimə durmaqda niyyəti nədir? Hər şeyi zamanın axarına buraxmaqda qarşısına hansı qəsdi qoyub? Bu həzin ağrılarım, ona bəslədiklərim doğrudanmı "bir görüşün salamına dəymədi?"*

*Bizi üç ay ağuşunda yaşatmış onlu-mənli günlərimiz nə onun, nə də mənim günahım. Bu, bizim taleyimiz, alın yazımız. Biz ayrılmadıq, bir-birimizi binadan doğulmamış mövcudluq kimi itirdik. Kaş dalaşardıq, sözlərimiz çapləşib bir-birimizin boğazında qurşun olardı, məhəbbətimiz hikkəyə, nifrətə çevrilərdi. Belədə, sənsizliyin ağrıları bu qədər dözülməzlik həddində olmaz, yollara bu qədər soraqçı da durmazdım yəqin. Nə yazıqlar ki, səni unutmaq mümkünsüz, sənsiz yaşamaq sənsizlikdən daha dözülməzdir, Rafiqim. Sənsizliyin mənimçün nə demək olduğunu dərk etmək kimsənin gücündə yox, bunun dərəcəsi bir özümə bəlli, bir də bu yolda mənə qəmxar olan dərdlərimə".*

***

Onun üçün Rafiqin ətrini qoruyub-saxlamış bu bağı, bir vaxtlar əzizləyib-oxşayıb əyləşdikləri bu skamyanı neçə illərdi özünküləşdirmişdi. İllah da isti aylarda Rafiqi görəcəyi ümidi ilə hər gün bura gələrdi. İndi yalnız Tanrıdan bir möcüzə göstərməsini arzulayırdı. Elə bir möcüzə ki...

*"Bu, qibləgahım olan Allahımın ürəyimin pıçıltılarını eşidə biləcəyi möcüzə olardı. İçimi çulğayanları ancaq onunla bölüşə bilərdim. Məni yalnız o başa düşə bilərdi. Bu ağrılar özgələr üçün naməhrəmdir. Mənim ağrılarıma uyğunsuz nəzərlərlə baxa da bilərlər. Həyat mənə elə dəhşətli qırmanclar çəkib ki... Hər səhifəsini vərəqlədikcə, içimdəki göynərtilər ömrümdən bir neçə ili yanlış düşmüş yazı kimi pozmağa başlayır. Gənc yaşımda çürümüş ağaca bənzərim var. İnnən belə daha heç kimə lazım olmayan, atılmış, gərəksiz əşyaya çevrilmişdim. Bəzən saatlarla donmuş lal vəziyyətdə qalır, özümü həyatdan təcrid olunmuş hiss edirəm. Deyirlər, insanın düşüncələri okeanlar qədər sonsuz olur. Mənim düşüncələrimsə elə qarışıb ki, həyata niyə gəldiyimi, yaşamağımın səbəbini də artıq anlaya bilmirəm. Lazımsız əşyaya çevrilməkdən, həyatda tənha qalmaqdan qorxmağımın səbəbini indi-indi başa düşürəm. Qorxduğum başıma gəl-*

*mişdi. Mənim üçün dəyərli olan varlıqların həyatımdan getməsi, düşüncələrimlə yanaşı həyatımı da qatılaşdırmışdı. Xoşbəxtliyimi öz əllərimlə küləyin əlinə əmanət etdiyim zaman, sən demə, bir ömür boyu sorağında olduğum* ***xoşbəxtlik*** *məni sağalmaz dərdə salacaqmış. Uşaq ikən anamın himayəsində böyüdüyüm illərin qədrini bilmədiyimə indi təəssüflənirdim. Uşaq vaxtı gələcəyimizin film qəhrəmanlarıtək xoşbəxt sonluqla bitəcəyini zənn edirik. İndi isə "lakin", "kaş" sözləri dilimizdə əzbərlənmiş bir şeir parçasıtək bizi daim geridə buraxdığımız xoşbəxt günləri xatırlatmağa sövq edir".*

"Istərdinmi qəlbin rahatlıq tapsın?" deyə kiminsə ona sual verdiyini zənn edərək arxaya çevrilsə də, bir kimsəni görmədi. Gələn səsə qulaq kəsilməyə başladı:

"Qəlbinin rahatlıq tapması üçün, kiçik bir torpaq sahəsi götürərək sevdiyin çiçəkləri ora ək, hər gün böyük məhəbbət və sevgi ilə ona qulluq et. Əkdinmi?

- Əkdim.

- Cücərdimi?

- Artıq cücərməyə başlayır, - deyə ikinci səs sevincək cavab verir.

- Deməк, bu gündən o, sənə yoldaşdı. Dərdini, nisgilini, başına gələnləri ona danış... O artıq gül açır, eləmi?

- İnanılmaz bir hal. Mən bunu bacardım.

- Bu gündən o sənin sevdiyin, həsrətini çəkdiyin, əzabla ayrılıq gününü xatırladığın öz sevgindir. Nəvazişini ondan əskik etmə... Yarpaqları töküldümü?

- Eh, bu nədən belə oldu?

- Sən bu gündən real həyatdan uzaq, xəyalların qoynundasan.

- Axı xəyal həyat deyil.

- Bu, artıq sənin həyatındı. Bunu yaşamağa məhkumsan. Xəyallarında da xoşbəxt olmağı bacarmaq lazımdır".

Yazılmamış, ancaq hər kəsin boyun əyməyə məcbur qaldığı qanunlar və talelər. Dəryanurun eşitdiyi bu dialoq, sanki onun öz taleyi idi. Taledən qaçmaq isə mümkünsüz.

*“İnsanları qəlbən daha asan anladığım halda, məni başa düşmək onlar üçün niyə belə çətin olub? Mən burulğanda boğulduğum an çarə axtarırkən, həmin insanlar mənən özlərini unudub mənə qarşı qərəzli mövqe tutmuş olsalar da, mən bu halımla yenə onları başa düşür, qınamıram. Axı, insanlar bəzən praktiki görüntülərdən çox, nəzəri əsaslara söykənirlər”.*

***

...Bəlkə də, yaşından bəri bugünkü qədər sevinməmişdi. Başqa cür ola da bilməz. Axı illərlə sevincini, kədərini, nisgilini, içindəki ən xoş və ən acı həsrətlərini paylaşdığı rəfiqəsi Almas ailə həyatı qururdu, Almasın xoşbəxtliyi elə onun da xoşbəxtliyi demək deyildimi?!

Dəryanur bir anlıq Rafiqin ona söylədiklərini xatırladı: “Dəryacan, sabah bacım Könülün toy günüdür. Arzu edirəm, bu gündən bizim də nəsibimiz olsun. Səni ömrüm boyu sevəcəyəm, bunu unutma. Sən hər şeyin ən yaxşısına layiqsən”.

Qəfil qopan hayqırtı Dəryanurun vücudunu silkələdi. Bu, Almasın naləsi idi

Xoşbəxt gündə bədbəxt hadisənin baş verməsi həqiqətən dəhşətdir. Şirinbəyim nənə nəvəsi Almasın bu mübarək günündə həyatdan köçməsi ilə Dəryanuru da sarsıtmış, sabahını sonrası naməlum yaşantılara mübtəla etmişdi. Hansı ki, bundan Almas da, elə Dəryanurun özü də hələ çox-çox sonralar xəbərdar olacaqdılar.

*“Mən hələ anamın, atamın, bacı-qardaşımın itkisinin acısını unuda bilməmişəm. Bu halımda mənə arxa, dayaq olmaq istəyən yeganə insan həyatdan niyə köçməlidir, axı?.. Şirinbəyim nənədən sonra deyirdim, dəli olaram, ölərəm yəqin. Hər şeyin zamana ehtiyacı olduğu kimi, bizlər də ömrümüzü təhdid edən bütün acılıqlara dözmək məcburiyyə-*

*tindəyikmiş. Zaman özü bizləri ovundurur, döyə-döyə, əzə-əzə hər şeyə öyrəncəli edir. "İnsanın üzü daş, torpağınsa üzü soyuq". Haqmış bu deyim".*

***

Günlər bir-birini əvəzləyir, Rafiqdənsə xəbər-ətər çıxmırdı. Dəryanur kədərini içində boğmağa çalışırdı. Şirinbəyim nənədən sonra bu evdə özünü artıq hiss etməyə başlaması da bir yandan. Bu düşüncəni Dəryanurda Almasın həyat yoldaşının ona qarşı namünasib davranışları yaratmışdı. Pənah gətirdiyi yeganə bu ünvandan uzaqlaşmaqda niyyəti Almasın ailə həyatını qorumaqdı. Olanlardan rəfiqəsinin xəbəri olmasa da, bu addımı atmaqda qərarlı oldu.

Alatoranlıqdan evdən çıxıb Bakı metropoliteninin "Elmlər Akademiyası" stansiyasından keçərək Nərimanov prospekti ilə (*indiki Hüseyn Cavid*) başaşağı irəli-geri var-gəl etməyə başladı. Axşama doğru irəliləyən günün onun üçün necə sonlanacağını və həyatının bundan sonrakı dönəmlərində baş verəcəklərin hansı sonluqla başa çatacağını, taleyinin ona vuracağı zərbələrin səmtini müəyyənləşdirirdi elə bil. Bir-birinin ardınca özünə ünvanladığı suallara cavab axtarırdı. Havanın an-an qatılaşması içindəki qorxunu bir az da vahimələndirirdi. Vücudunu bürümüş sarsıntı dolu xof... Qaranlıq küçələr... Dəryanurun bu andaca duyduqlarını yaşamağın özü bir dəhşətdir. Axı üz tutub gedə biləcəyi bütün ünvanları taleyinin yazısı onun üzünə çoxdan bağlamışdı. Gözdən uzaq skamyaların birində büzüşüb oturmuş olduğu halda, Tanrısının ona bəxş etdiyi bu acılığı, içini qovuran bu ağrını nagahan bir pıçıltının xoş rayihəsi bürüdü: *"Sən həsrətin nə olduğunu bilirsənmi? Hardan biləsən? İnsan qəlbini parça-parça edib həsrətdən qovrula-qovrula açılmış qızılgülün ləçəklərini görməyibsənsə, bunu necə dərk edə bilərsən".*

Çevriləndə, qarşısında 40-50 yaşlarında bir kişini durduğunu gördü. Gözlərini çöhrəsinə zilləyərək, elə bil ona ünvanlamış olduğu sualına cavab gözləyirdi.

*"- Həsrət mənim gözlərimdən ürəyimə yol açıb. Kitab kimi vərəqləyib oxuduğunuz mənim qəlbimdi. Lap qızılgül*

*ləçəkləri tək, pardaxlamış. Bəs siz necə? Bahar yağışının islatdığı tər çiçəkləri görmüsünüzmü? O çiçəkləri ki, soyuq qış günlərində özünə sığınacaq axtaran bir kimsəsizi xatırladır. Bir sevgi yaşadım qızılgülə bənzər. Ləçəklərində məhəbbət işığı, yarpaqlarında məhəbbətə uzanan bir yol. Elə bir sevgi yaşadım ki, o da vüsala həsrət.*

*- Bağışlayın, deyəsən sizi bu günə sevgi qovub. Səhv etmədiyimi təsdiqləyə bilərsinizmi?*

*- Nə bir kimsəm var, nə də bir özgə sığınacağım. Bunda kimisə qınamağa haqqım da yox. Bu, mənim taleyimdir.*

*- Sizin kimi gözəl xanımın bu sayaq danışmağa haqqı çatmır. Gedək mənimlə, həyatın real üzünü sənə göstərim".*

İçinin bu anlaşılmaz pıçıltıları qoynunda aldadıcı rahatlıq tapan Dəryanurun bu sarsıntılı anlarında Allahından dilədiyi bir qarın çörək və hüzur idi. Qaranlıq sabahlarında ümid işığının yanacağını qarşısına çıxan hər hansı bir kəsin ona qəyyumluq edəcəyində görən Dəryanurun tanımadığı, yad bir kişinin arxasınca belə rahatlıqla addımlaması, güman, bu düşündüklərinin təsirindəndi. Hara və neyçün getdiyini qədərincə dərk etməyə indiki halında anlaqsız idi.

Bu, taleyinin onunla təzə bir oyunu, alın yazısı idi...

***

Artıq on gün idi tanımadığı, amma ona arxa, dayaq olmaq istəyən İlqar adlı bir kişinin evində idi. Həyatını bütövlüklə danışaraq ondan kömək diləmişdi.

- Doğrudan da taleyin hökmünü bilmək olmur. Deyirdim, onsuz yaşaya bilmərəm, ölərəm, amma görürsünüz, hələ ki yaşayıram, üstəlik sizə yük də olmuşam. Onu tapmaqda mənə yardımçı olsanız, ömrüm boyu sizə minnətdar olaram.

- Nə danışırsınız, mən nə etmişəm ki... Bir də, həyatınızın ən gözəl çağları hələ qabaqdadır.

Dəryanur üçün Rafiqi tapmaq bir xəyal idi. Amma ümidini itirmək də istəmirdi.

*"Bir gün gündüzü parlaq edən Günəş kimi həyatıma girib, bir gecənin qaranlığında da yox oldun. Gecənin qaranlığında istəklisi Günəşi bütün zamanlar boyu addım-addım izləyib, əslində nəticə etibarı ilə kainatı aydınladan Ayın nurunda sənin kölgəni axtardım, Rafiqim. Uzanılı əllərinə baxdım, məsum görkəmin kölgəndə daha aydın görünürdü. Mən də əllərimi uzatdım, amma qara buludlar yeri aydınladan Ayın çöhrəsinin qabağını tutduğundan mən səni itirdim. Həsrətlə hər ötüb-keçən gecələrimdə səni görmək ümidilə gözlərimi yumur, bir gün düşüncələrimdən silinərək xəyallarından da gedəcəyindən qorxuram.*

*Sənsiz yaşadığım gecələrimin qaranlığında səni düşünürəm səndən xəbərsiz. Həyat yollarımı bu sevdaya bağladım və illərlə gözlərim yollarına soraqçı oldu. İçimi yandırıb-yaxan bu sevgi tonqalını söndürməkdə çarəsizəm. Soyuq fevral günlərində səni itirərkən, özümü də mənəvi cəhətdən itirdiyimi anladım. Amma mən qayıtdım. Səni düşüncələrimdə yaşadaraq, o günlərin xatirələrini əbədi qoruyub saxlamaq üçün gör havaxtdandı soraqçınam. Dilimizin susub, gözlərimizin dil açıb söhbətləşdiyi dəqiqələrdə biri birimizi itirəcəyimizdən xəbərdar olmuş olsaydıq, görəsən yenədəmi susardıq?*

*...Mən yaşından asılı olmayaraq, Tanrının xəlq etdiyi hər kəsə təmiz məhəbbətlə döyünən bir ürək arzulayırdım. Necə deyərlər,*

*Bir sevgi istərəm daim var olsun,*
*Bütün sevənlərə qoy qismət olsun.*

*Onlar isə mənimlə gör nə sayaq davrandılar. Əgər bir zamanlar gərginlikdən boğulma həddimdə nəfəs tapdığım, içimdəki hayqırtılarımı ləpələrinə danışdığım təskinlik ünvanım mavi gözlü Xəzər idisə, tanıyıb-bilmədiyim birisinin ünvanına daxil olmaqla həm bunlar, həm də Rafiqi soraqlayıb*

*axtarmaq imkanlarım əlimdən alınmışdı. Hər gün məni yeni bir ümidlə bu evdə saxlayan mənə yad kişinin apardığı araşdırmalarından da xəbərsiz idim. Həftələri aylarla əvəzlənən bu ünvanda şübhələr içimi dağıtsa da, ağrıdan susayan ürəyimə az da olsa sərinlik, toxdaqlıq gətirən yenə də nə vaxtsa Rafiqi görmək ümidim idi. Yaşamaq istəməyərək özünü sahilə atan balıqlarsayaq mən də bu mənzildə yaşamağımdan usanıb, hərdən özümü müvəqqəti qərar tutduğum doqquzmərtəbəli binanın eyvanından atmaq istəyirdim".*

Qapının zənginə yerindən qalxdı. Gələn İlqar idi. Üzündə onun özünü məmnun edən hansı isə bir sirli xəbərin nişanələri dolaşırdı.

- Salam, Dərya xanım, axır ki, səni sevindirən xəbəri gətirmişəm.

Həyəcanından Dəryanurun ayaqları tutularaq yerə çökdü. Sevincinin qəflətən yox olmaq qorxusu simasından açıq-aydın görünürdü.

- Eh, məhəbbət, məhəbbət! Sən nə qədər ürəkləri parçalayıbsan... Bu halında sizi görüşdürə bilmərəm. Əvvəlcə dostumun evinə gedək, sonra görüş barədə fikirləşərik.

Bu görüş üçün illərini vermiş Dəryanur sizcə indiki halında necə ola bilərdi?!

***

...Rafiq həyatın dolanbac yollarında özünü zamanın axarına buraxmaqda özünü qınamışdı. Amma qınaq üçün artıq gec qalmışdı. Çünki, anasının istəyi müqabilincə Sevda ilə ailə qurmuş, bir gözəl qızı da dünyaya gəlmişdi. Körpəyə ad qoyulmaq məsələsi meydana çıxanda, anası Gövhər arvad yenə daş atıb başını tutdu.

- Köhnə peyinliyi qurdalama, bala, iy verər. Artıq ailən, öz yurd-yuvan var.

- Onu məndən ayıranda oğlunun həyatı üçün ürəyin heç sızlamadı, göynəmədi, ana. Kaş şikəst olardım, mənə rəhmin gəlib bəlkə arzularımı ürəyimdə qoymazdın. İndi də qızıma onun adını

qoymağımdan qorxursan? Sənin qorxduğun oğlunun həyatı üçün deyil, ana, birdən gəlinin küsüb gedər, sənin qorxun bu üzdəndi. Mən xoşbəxtliyimi sənə qurban etdim. Amma sən yad bir insan imiş kimi mənə olan zalımlığından indi də geri durmursan. Verdiyin xeyir-dua belə mənə kömək olmadı. Artıq yetər, innən belə mən öz bildiyim kimi yaşayacağam. Uşağın adı məsələsinə isə, kimsə qarışmasın, uşağın adını özüm yazdıracağam: Dəryanur! Qoy onun kimi gözəl, səmimi, saf olsun, qarşısına mənim kimi bir əclaf çıxmasın. Söhbət burada bitdi, ana!

*"Dəryam, səni məndən ayırdılar, amma qəlbimdən biryolluq silməklərinə yol vermərəm. Bəlkə anam sənə olan sevgimi uşaqların gizlənpaç oyununa bənzətmişdi? Axı ürəyimə möhürü vurulmuş məhəbbətimin dəniz qədər sonsuz olduğunu haradan biləydi? Sənə elə sənin özün qədər sevgi bəsləməyin özü bir məsuliyyət imiş. Mənsə anamı itirəcəyimdən qorxaraq həyatımı cəhənnəmə çevirdim. Neçə illərdir bu camurluqdayam, quyunun dibində nəfəs almadan, sənsizlikdən boğularaq yaşayıram. Hər şeyim var ikən yoxa dönmüş, cavan yaşımda saç-saqqalımı ağartmışam. Sənin ətrini alacağım bir varlıq var ki, o da bundan sonra mənim körpəm, Dəryanurumdur.*

*Məhəbbət bulud kimidi, gözlənilmədən gələr və qəflətən də yağışını yağdırar. Həyat da onu kimidi. Kimi itirir, kimi qazanır. İnsan həyatı mürəkkəb bir cümlədən ibarətdir. Öyrənmək üçün mübtədasını, xəbərini, təyinini tapmaq gərəkdir. Buna isə hər kəs müyəssər olmir. Həyatımdan bunları ummaq ümidini itirmiş mən yaşamağı sənə, ölməyi isə özümə arzulamaqla səni axır nəfəsimə qədər sevməkdə davam edəcəyimə qərar vermişəm. Ruhum bədənimdən ayrılana qədər sən mənim ürəyimdə yaşayacaqsan, Dəryanurum. Adını ürəyimə yazmışam, ürəyimdə ömürlük qalsın deyə. Adını dodaqlarıma hopdurmuşam, dodaqlarımı təravətləndirsin deyə. Adını gözlərimə yığmışam, səni usanmadan arasın, gəzsin deyə. Əgər sevgi xatırlamaqsa, yanmaqsa – gözlərimi*

*yumaraq bütün ruhum göynəməkdə ikən səni hiss edə bilirəm. Fərqi tək bircə burasındadır ki, sən yanımda deyilsən...*

*Biz taleyin oyununa düşdük. Qəbul etməkdə çətinlik çəkdiyim böyük sevgilərin sonunun görünmədiyi, kiçik sevgilərinsə ər-arvad savaşı ilə bitdiyi həqiqət imiş. Mən bunu anlamaqda gec qalmışdım. İndi isə nə həyatım, nə də sevgim qalmayıb. Dəryanurumu itirəndən sonra səmada qanad çalıb uçuşları ilə ilk baxışda qayğısız təsiri bağışlayan quşlara belə həsəd aparmağa başlamışam. Bu olanlardan sonradamı həyatımı düzənə qoymaqda acizlik göstərməliydim? Anam öz arzusuna görə üç cavanın həyatını puç etmişdi. Mən buna görə anamı qınaya bilmirdim, çünki o, mənim anamdır. Bu evə gəlin olmaq arzusu ilə qədəm qoyan Sevdaya da yazığım gəlirdi. Axı o daha yaxşı bir ailəyə və sevilərək daxil ola bilərdi. İndiki halımızda isə ayrılmaq ən əlverişli yol idi. Sevdanın bundan da artıq bədbəxtliyə düçar olmasını istəmirdim".*

***

Məhəbbət yerin təkindən qəfil hayqıran vulkana bənzəyir, öz gəlişilə rastına çıxacaq hər kəsi yandırmaq gücündə olan vulkana.

Ayrılmaq fikrini Sevdaya söyləməkdə çətinlik çəksə də, niyyətində qərarlı idi.

Gövhər arvad da özlüyündə artıq bu evliliyin oğlunun həyatını alt-üst etdiyini görür, ciyərparəsinin xoşbəxt güzəranını özünün hədd bilməyən "şıltaq" tələblərinə qurban verdiyinə görə özünü qınayırdı.

...Rafiq körpəsi Dəryanurun səsinə fikirdən ayrıldı. Ürkək baxışlarla Sevdaya tərəf döndü.

- Nə olub, mənə niyə qəribə tərzdə, suçlu-suçlu baxırsan? - deyə Sevda soruşdu.

- Mən sənə xoşbəxt həyat vermədim, Sevda, sən yalnız anamın arzusu oldun. Ancaq daha bacarmıram. Bilmirəm necə deyim ki, səni qırmayım. Gəl, ayrılaq, qızım mənimlə qalsın, sənsə öz yuvanı yenidən qurmağa çalış. Bəlkə bu dəfə bəxtin üzünə gülə, xoş-

bəxtliyini tapasan. Bundan artığını edə bilmirəm, Sevda. Həyatımı yalnız qızıma həsr etmək istəyirəm.

- O, mənim də qızımdır. Onu məndən necə qopara bilərsən. Ağzının nə dediyini qulaqların eşidirmi? Evlənib-boşanmağı oyuncağa çevirmisiz. Ananın arzusu idi - aldın, sən istəmirsən - boşayırsan. Əla! Qərarları yalnız siz verirsiniz, mən kiməm ki, dilsiz-ağızsız heyvan.

- Haqlısan, yaşadığımız bu iki ildə mənimlə fərli keçirdiyin bir günün olmayıb. Bəlkə qurduğumuz soyuq münasibətdən zövq almısan? Ancaq bil ki, bu evliliyi axıradək sürdürmək bizə ağrıdan savayı heç nə verməyəcək. Nə canımız, nə də xoşbəxtliyimiz olmayacaq. Bunu düşünübsənmi? Bunu yalnız özümə görə demirəm, Sevda.

- Qeyrətin o qədər aşıb-daşır ki, arvadını satmağa da utanmazsan. Gəzdiyin küçə qızının adını əbədiləşdirməyi də unutmadın... Düz deyirsən ki, mənim daha burada qalmağıma lüzum yoxdur.

- Bir var ömrün boyu zülm çəkəsən, bir də var ziyanın yarısından dönmək. Ürəyini boşaltmaqçün söylədiklərinin hamısını təbii qəbul edirəm. Ancaq sənin burada qalıb ömrünün sonuna qədər bədbəxt həyat sürməyinə də razı ola bilmirəm. Sən bu zülmə layiq deyilsən, Sevda.

***

Dəryanur qanadsız quşa bənzəyirdi. Gah ağlayır, gah da özündən gedənəcən qəşş edib gülürdü. İçində tüğyan edən hisslərinin qədəri-qəsəmi yox idi. Rafiqlə görüşünün necə keçəcəyi idi onu düşündürən. Rafiq onu bu halında tanıya biləcəkdimi?

Yol uzandıqca, səbri də tükənirdi. Ürəyinin döyüntüsünü eşidən olmasın deyə, əllərini sinəsində sıxmışdı. Maşın üçmərtəbəli, böyük bir mülkün qarşısında dayandı.

- Budur, gəlib çatdıq. Mənə elə gəlir ki, bu gün çox gözəl bir gün olacaq, - deyə İlqar qəribə tərzdə Dəryanuru süzdü.

- Sizə necə təşəkkür edəcəyimi bilmirəm.

- Minnətdarlığa ehtiyac yoxdur, get, o, səni gözləyir.

Dəryanur qapıya yaxınlaşanda, nədəndi bilmədi, vücudunda qəribə bir sıxıntı hiss etdi. Zəngi basaraq gözləməyə başladı. Amma onu qarşılayan Rafiq yox, tamamilə özgə birisi idi. Çaşqınlıq içində geriyə dönmək istədikdə,

- Nə oldu? İlk gündən qaçmaq fikrinə düşübsən? -soyləyən, qapını açan adam, kobud halda qolundan yapışıb onu içəri saldı.

- Özünü ağıllı, utancaq aparmağı tapşırıblar yoxsa?

- Sizi başa düşmədim. İlqar məni sevdiyim insanla görüşdürmək üçün gətirib.

- Deyəsən, hara gəldiyindən, doğrudan da, xəbərin yoxdur. Sənin bura düşməyinçün bir ətək pul vermişəm. Tanımadığın insana bu qədər etibar etmək, gülünclük deyilmi?

Bəli, budur sonu bilinməyən həyat. Əgər mənəviyyatının öldüyünü hiss edib, amma hələ də yaşamağında davam edirsənsə, onda səni ölülərdən yalnız cismindir fərqləndirən. Rafiqlə görüşmək adı ilə aldadılıb bu ünvana gətirildiyi yeddi ayda Dəryanur bu dəfə bu həyatın tale yükünü çiyinlərinə götürmüşdü: yalvarışlarına, göz yaşlarına məhəl qoyan kim idi. Etirazları hər gün döyülərək işgəncələrə məruz qalması ilə sonlanır, gündüzləri kimi gecələri də məcburi tərzdə neçələrinin nəfsini söndürəcək vasitə olurdu. Bu aylar ərzində hansı üzləri görməmüş, kimlərin əyləncəsinə çevrilməmişdi?! Vaxtsız ağarmış saçları həyatın ona vurduğu zərbələrin nəticəsi idi. Ürəyinin səsi isə qulaqlarına "Bu sənin alın yazındı" deyib pıçıldamaqla, düşünmək qabiliyyətini də əlindən almışdı...

...Bir gün Dəryanurun zavallı görkəminə diqqət yetirən daimi müştərilərdən biri:

- Bu həyat tərzi səni həm güldürüb, həm də ağladacaq. Buna nə vaxta qədər dayana biləcəksən?

- Həyatın məzmunu həm güldürüb, həm də ağlatmaqdı. Allahın hökmü ilə buna da səbr edəcəyəm. Son nəfəsimə qədər çarpışacam ki, ürəyimdə olan arzuma çatım.

- Sənə həsəd aparıram. Tanrı sənə nə böyüklükdə səbr, dözüm, iradə veribmiş. Niyyətin hara, mənzilin də ora olar, inşaallah!

- Mənə burdan çıxmağa kömək etsəniz, sizə minnətdar olaram. Gedəsi yerim olmasa da, küçədə yaşamaq burdan yaxşıdır.

- Bu, mənim Allah qarşısında etdiyim ən savab iş olardı, - dedi həmin adam.

*“Ümidli yollarda sevgi qoymuşdum. Dənizlər belə mənim sevgim qədər sonsuz ola bilməz. Rafiqimin hər şirin kəlməsinin, ılıq nəfəsinin, dərin, mənalı baxışlarının həsrətində idim. İllərin qəlbimdəki coşqunu yuyub aparmağa, vücudumdan silib atmağa gücü çatmadı. Əlim əllərinə çatmadısa da, hər zaman səni canımdan artıq sevdim, Rafiqim. Kaş zamanı geri qaytarmaq mümkün olaydı, onda mən də səni itirmiş olmazdım. Səni bir başqası bir ömür boyu sevəcək olarsa da, heç vədə mənim bir anlıq sevgimin qədərincə sevə bilməyəcək”.*

Dəryanur gənc yaşında qocalmış, taqətdən qalmışdı. Bir tərəfdən küləkli Bakının qışı, digər tərəfdən aclıq, yuxusuzluq və canındakı ağrılar... Bir qarın çörək üçün saatlarla yalvarmalı olurdu. İnsanların onu ikrahla süzərək, onsuz da sınmış qəlbini yenidən sındırmaqdan həzz aldıqlarını aydınca görürdü. Bəzən aclığını Rafiqin tez-tez qulaqlarımda səslənən şirin pıçıltılarıydı ona unutduran: *“Dünya var olduqca, sən yaşadıqca, inan ki, bu ürək daim səni sevəcək, Dəryacan”.*

Dəryanuru yalnız bu acıları görmüş, dadmış birisi anlaya bilərdi. Gənc yaşında beli bükülmüş, saçları ağarmış, gözəlliyindən bir əlamət qalmayan bu qızcığaz talesizliyinin, kimsəsizliyinin qurbanı olmuşdu. Yalquzaq küçələrdə qan qusmasından (*vərəm xəstəliyi tapmışdı – red.*) xəbərsiz insanlar ona yaxın düşmək barədə belə düşünmürdülər. O isə xəcalətindən əriyə-əriyə bir qarın çörək üçün dilənməyə məcbur olduğu halında da Tanrısına şükür

edirdi. Görən bir gün bu günahkar bəndəsinə bir gün ağlayacaqdımı Tanrısı?

Soyuq külək qarı sovurub, üzünü qarsıtdı. Taqətsiz halda yerə çöküb hönkür-hönkür ağlayaraq, əllərini göyə qaldırdı: "Ey gözəl Allahım, mənə rəhm et, mərhəmətini məndən əsirgəmə, daha qüvvəm tükənib, mənə bircə dəfə uzaqdan da olsa Rafiqimi görməyimi qismət elə".

Artıq onun üçün həyat sönmüş, arzuları əlçatmaz-ünyetməzlikdə qalmışdı. Dəryanur ilk öncə Rafiqin aciz xislətinin, sonra isə insanların vəhşi təbiətinin nəticəsi olaraq puç edilmiş həyatı ilə barışmağa məcbur olmuşdu.

Ana nəvazişindən məhrum olub ögey anasından qazandığı tənələr dolu günlərinəmi, itirilmiş məhəbbətinin ona bəxş etdiyi acılaramı, zaman-zaman qucaqdan-qucağa düşməsinəmi, küçələrdə qan qusaraq kimsəsiz keçirdiyi günlərinəmi, yoxsa qisməti olmayan bəyaz gəlinlik duvağınamı öyünüb xoşbəxt-xoşbəxt fərəhlənəcəkdi?!

Həyatı boyu ən kədərli anlar yaşamış olsa da, "asağılanmaq haqqım deyil" deyə bütün ağrı-acılara sinə gərirdi. Həyatının geridə qalan hissəsinə dönüb baxanda, itkilərindən savayı bir şey görmürdü. İllərlə ümidlə fələyin onun üçün qurduğu "oyun"un sonluğunu (nəticəsini) gözləmişdi.

*"Sənli dünyama dönmək istərəm,*
*Səsini bircə an duymaq istərəm.*
*Köçüb bu dünyadan ölmək istərəm*
*Nə olar, bir anlıq qayıt ömrümə.*

*Görən mənim parçalanmış bədənimin onun məhəbbətinin vücudunda dincəlməyə haqqı varmı? Bu vaxta qədər tökdüyüm göz yaşlarımdan bəlkə keçilməz bir çay yaranardı, amma daha ağlaya da bilmirəm. Təsəllimi göz yaşlarımdan tapdığım halda, susuz səhraya dərman olacaq bir damlaya həsrətəm. Buna isə həyat demək olmaz. Həyatda ən düzgün seçim iki pisdən ən az yaman olanını və iki yaxşıdan ən çox*

*yaxşı olanını götürməkdi. Mən isə artıq seçim imkanlarımı tamamilə itirmişəm. Sən göydəki Ayım idin, Rafiq, yolumu daim nurlandırırdın. Səni tapacağıma olan ümidin ürəyimi doldurduğu bu işıq idi, hansı ki, məndə səni nə vaxtsa görə biləcəyimə yəqinlik yaratmışdı. Fəqət..."*

***

İfrat halsızlıq, qədərsiz yorğunluq və Günəşin ılıq şəfəqləri, bir də qulaqlarında Rafiqin *"Kaş səni xoşbəxt etmiş olaydım, Dəryacan, indi yeganə arzum budur"* pıçıltıları ruhunda qəribə, xoş bir təmas oyatmışdı. Heç özü də bilmədi bu duyğuların ağuşunda onu nə vaxt yuxu apardı: *"Kaş səni xoşbəxt etmiş olaydım, Dəryacan..."*

Gördüyü röyanın təsirində ikən, hisslərini ovunduracaq qədər nəvazişli bir səsdən səksəndi:

- Dəryanur, daha gecdir, gəl gedək!

*"Dəryanur? Azərbaycanın şəxs adları sıralanmasında adda-budda eşidilən bu adın daşıyıcısı kim idi görəsən?"*

Səs sahibi qonşu skamyada əyləşmiş, görünüşündən cavan olduğu sezilən, amma zamanın gərdişi saçlarını vədəsindən qabaq çallaşdırdığı bir kişi idi.

Özü də bilmədi necə oldu, hansı hissin gücü iləsə qonşu skamyada əyləşmiş həmin yad kişidən soruşdu:

- Kimi çağırdınız?

Qonşu skamyada əyləşmiş yad adam tanımadığı bu yad qadını soyuq, etinasız nəzərlərlə süzüb, körpəsini bir də səslədi:

- Dəryanur, daha gecdir, gəl gedək!

***

...Bu, Rafiq idi.

# Racu Şıxlı
# "ATA QARĞIŞI".
## Ayətxan Ziyadın eyni adlı povestinin motivləri əsasında
*(kino-ssenari)*

Panorama. Qaranlıq bir otaq. Bir tək pəncərədən düşən alatoranlıq otağı yarı işıqlandırır.

Yazı masası. Lampa işıqlanır. İşıq masanın üstünə qoyulmuş qalın üzlü gündəliyin üzərində gurlaşır. Dəftərin yan tərəfində qələm, eynək görünür. Az sonra işıq nürani, saçlarına dən düşmüş, alnında qırışlar kölgə salmış bir ananın üzündə gurlaşır.

Görüntü zəhmətkeş, qocalmış əli işıqlandırır. Ana (*Aygün*) eynəyi gözünə taxaraq qələmi barmaqlarının arasında sıxır. Yazmağa başlayır. Arada bir ayağa durur, qələmi yerə qoyur, barmaqlarını çənəsinin altına dayaq edir. İşıq ananın dərin boşluqda zəif işıldayan mənalı gözlərində gurlaşır.

Həzin musiqi. Ana eynəyini gözünə taxıb, qələmi barmaqları arasında sıxır, yazmağına davam edir. Fonda qayibanə səs ruhu riqqətləndirir.

Fon (*Aygünün səsi*): - Sevmək gözləməməkdir. Gözləmələrin sonlandığı bir ünvandır. Həsrət sürməli gözlərin ünvanlı-ünvansız yollara dikilərək təşnə ilə gözlədiyin, hər kəsdən mübhəm bildiyin sevgi yoluna boylanar. Kiminin sevgisinin nakam, kiminin qovuşmaqla sonlanması labüd. Bəlkə ürəyini sarsıdar, bəlkə məcrası bilinməz ömür boyu yaşanacaq xoşbəxtlik bəxş edər sənə. Bu da onun - Yaradanının sənin üçün yazdığı yazıdır...

Fonda musiqi güclənir. Lampa işığının düşən nöqtəsində gündəliyin tən orta səhifəsində gurlaşır. Otağın digər tərəfi qaralır.

(Kom.qrafiki) Yazılır

# ATA QARĞIŞI

*Alın yazımızı Tanrı yazır,*
*başımıza gələnlər onun diktəsi*

**01**

Başqa bir musiqi. Qara fon. Titrlər. Film başlayır.

Panorama. Sadə bəzədilmiş otaq. Süfrə bəzədilir. Kimi masaya boşqabları düzür, kimisi su bardaqlarını. Aygün göz oxşayan al-qırmızı gül topasını masanın tən ortasında qərar tutmuş güldana qoyub onu şövqlə oxşayır, sonra pəncərə önündə müəmmalı bir həyəcanla gözləri bayıra dikilən Ləmanın arxadan çiyinlərini sıxır. Ləman arxaya dönmədən yağmurlu həyətə baxmağında davam edir.

Görüntü Aygünün simasında dayanır. Aygün xoş simasında azacıq təbəssüm oyadaraq, daxili səsində danışmağa başlayır.

Aygün (*daxili səs*): - Bu gün qızım Ləmanın ad günüdür. 21 yaşı tamam olur *(Aygün aram-aram daxilində danışır, kamera otaqdakı qələbəliyi, dost-tanışların hərəkətlərini görüntüləyir)* Qızımın rəfiqələri, tələbə yoldaşları, dost-tanışları onu təbrik üçün toplaşıblar.

Ləman çox həyəcanlıdır.

Görüntü. Ləmanın gözləri pəncərə önünə dikilib. Arabir rəfiqələri ona yaxınlaşır. Ləman onların üzünə azacıq gülümsəyib, yenidən bayıra baxır.

Aygün (*daxili səs*): - Qızım neçə vaxtdan bəri ünsiyyət tapdığı insanı bu gün mənimlə tanış edəcək. Sevmək və sevgisinə cavab olaraq sevilmək! İnsan üçün bundan böyük səadət varmı? Hiss edirəm ki, qızım dəlicəsinə sevir və inanır da ki, bu sevgisində haqlıdır.

Görüntü. Aygün ustufca Ləmana toxunur. Ləman yuxudan ayılmış kimi səksənir. Aygün Ləmanı pəncərənin önündən ayıraraq masanın ətrafına gətirir.

Aygün (*daxili səs*): - Ləman düşünürdü ki, sevdiyi insanı öyrənmək onun haqqıdır. Fəqət, bütün bunlara müqabil sevgisində xoşbəxt olacağına ürəyində gizli bir əminlik var idi.

**02**

Görüntü. Ləman anasına və dostlarına xoş olsun deyə onların üzünə gülümsəyib, tələsik pəncərəyə tərəf yönəlir. Pərdəni aralayıb bayıra boylanır.

Aygün (*daxili səs*): - Elə bu əminliyinə müqabil olaraq da qızım sevdiyi həkim oğlanı bu ad günündə mənə təqdim etmək niyyətindədir.

Görüntü. Aygün ahəstə addımlarla Ləmana yaxınlaşır.

Fonda musiqinin səsi azalır. Aygünün daxili səsi Ləmanla dialoqa girir.

Aygün (*daxili dialoq, həzin səs tonunda*): - Qızım, sənə nə olub? Dostlarına niyə qaynayıb-qarışmırsan?

(*Daxili dialoq).* Ləman susur. Sonra əlilə anasının telinə düzəliş verərək (*həyəcanlı*): - Ana, səninlə həmişə bir dost kimi olmuşuq. Amma indi utanıb sənə deyə bilmədiyim bir məqam var. Sevdiyim insanı bu gün səninlə tanış etmək istəyirəm. (*Qısa sükut*) İxtisasca həkimdir.

(*Daxili dialoq).* Aygün əminliklə gülümsəyir. Ləmanın başına sığal çəkir.

(*Daxili dialoq).* Ləman (*həyəcanlı*): - Sevmək nə günah, nə də cinayətdir. Əsası budu seçimində səhv etməyəsən. Necə tanış olduğunuzun fərqində deyiləm, amma səni incitməsinə qətiyyən yol vermə. Çünki keçilməsi olduqca çətin, daşlı-kəsəkli, tufanlı, qasırğalıdır bu yol.

Bu ara qapının zəngi çalınır. Ləmanın rəfiqələrindən biri qapını açır. Kamera aşağıdan yuxarı ekran boyunca Raufu görüntüləyir.

Rauf: - İyi günler. Bana Aygün hanım lazım. Evi burasımı?

Aygün yan otaqdan ahəstə-ahəstə dəhlizə çıxır.

Aygün: - Neynirsiniz Aygün xanımı, oğlum? Bəli, Aygün xanım burada yaşayır.

Ləman cəld özünü dəhlizə atır.

**03**

Ləman: - Rafət, gəldin?

Raufla Ləman bir-birilə baxışırlar.

Rauf (*ona əhəmiyyət verməyərək*): - Eviniz burasımı? (*yan tərəfə boylanır*).

Ləman (*biixtiyar sevincək halda*): - Hə! Bu xanım isə mənim anamdır (*işarə ilə Aygünü göstərir*). Ana, haqqında sənə danışdığım oğlan budur.

Aygün: - Tanımadım oğul, bağışla. Qapıda niyə durubsan, buyur içəri.

Rauf: - Hayır, beni sokakda bekliyorlar. Bana Aygün hanım lazım, onu görmem gerek. Rica ederim. Konuşa bilirmiyim?

Sükut. (*Aygün Raufun üz-gözünə diqqətlə baxır. Asta səs tonunda*): -Aygün mənəm, oğlum!

Rauf diqqətlə Aygünə baxır. Başını əlləri arasına alıb sıxır.

Rauf: - Sizmisiniz? Olamaz! Nasıl yani. Lemanın annesimi? Olamaz! Ben suç işmi yapmışım? İnanamıyorum.

Dəhlizə toplaşmış adamlar susqun halda bir-birilərinə baxırlar.

Aygün (*həyəcanlı*): - Oğlum, sənə nə olub? Nəyi günah etmisən?

Rauf: - Benle şaka yapıyorsunuz, öylemi?

Görüntü. Ləman Raufun qoluna girərək...

Ləman: - Yox. Rafət, nə zarafat.

Rauf (*əsəbi halda Ləmanın qolundan dartınıb çıxır*): - Ben Rafet diyilim, ismim Rauf. Kardeşiz, öylemi?! Doğrusun söylərmisiniz!

Kamera əsəbdən titrəyən Raufun başını qapıya söykədiyini görüntüləyir.

**04**

Görüntü. Aygünün gözləri təəccübdən böyüyüb. Titrək səslə: - Rauf, oğlum!

Kamera Ləmanın anası ilə Raufun başına hərlənir. Ləmanı, yıxılmaq istədiyi və rəfiqələrinin onu tutmaq cəhdini görüntüləyir.

Rauf: - Annem sizmisiz?! Beni neden çocuk bakım evine atdınız? Neden? (*ağlayır*).

Görüntü. Aygün asta addımlarla Raufa yaxınlaşır. Onun boynunu qucaqlayaraq bağrına basır. Ləman donmuş halda yerindəcə quruyub.

Sükut. Hamının diqqəti Ləmandadır. Ləman son dərəcə hiddətdən böyümüş gözlərini anasına zilləyib.

Kamera Aygünün yaşla dolan gözlərinin qarasında tamamlanır. Ekran qaralır. Həzin musiqi. Hadisələrin cərəyanı başlayır.

***

Panorama Azərbaycan Dövlət Pedaqoji Univeristetini görüntü edir. Yağmurlu hava.

Kamera dayanacağı görüntüləyir. İncə, zərif bir qızın yalnız ayaqları görüntülənir. Avtobus gəlir. Qız avtobusa minir. Incə ayaqlar yenicə oturmuşdu ki, qara klassik kişi ayaqqabısı incə qız ayaqqabısını tapdayır.

Kamera tədricən yuxarı qalxaraq incə ayaqqabı sahibinin üzünü görüntüləyir. Bu gənc, univeristetin sonuncu kurs tələbəsi Aygündir.

Aygün (*acıqlı*): - Gözünüz ayağınızın altını görmür?

Kamera digər kadra keçərək qara klassik kişi ayaqqabısı sahibinin - yağışdan saçları islanmış, yağış damlaları qaşlarından kipriklərinə süzülən yaraşıqlı bir oğlanın üzündə görüntülənir. Bu, sonuncu kurs tələbəsi Rəşiddir.

**05**

Rəşid Aygünün acıqlı səsi qarşılığında susur. Bu hal Aygünü qəzəbləndirir.

Aygün: - Mədəniyyətsiz!

Aygün əsəbindən cəld əyləşdiyi oturacaqdan qalxaraq arxa oturacağa keçmək istəyərkən, qoltuğundakı kitablar yerə dağılır. Hər iki gənc eyni anda əyilib yerə dağılmış kitabları yığışdırmaq istəyirlər. Kamera Rəşidin əllərinin Aygünün əllərinə toxunduğu məqamı görüntüləyir. Aygün cəld əlini çəkib dikəlir. Kitabları topalayıb Rəşid də dikəlir. Kamera Aygünlə Rəşidin gözlərini görüntüləyir.

Rəşid (*titrək səslə*): - Tələbəsiniz?

Aygün dillənmir. Kitabları Rəşidin cəld əlindən alır:

Rəşid: - Deyəsən APİ-də oxuyursunuz? Mən də tələbəyəm. Azərbaycan Dövlət Univeristetində oxuyuram. Hüquq fakültəsində. Sonuncu kursdayam.

Aygün (*yarı sakit tərzdə*): - Qanun adamı olmaq istəyirsiniz. Ancaq çalışın öncə öz davranışınıza fikir verəsiniz.

Avtobus dayanır. Aygün enir. Ardınca Rəşid də enir.

Panorama. Bir tərəfi yaşıllıqlarla örtülmlüş ağaclar, digər tərəfi alçaq damlı evlər. Kəndi xatırladan qəsəbə yolu görüntülənir. Aygün iri addımlarla gedir. Rəşid tələsik addımlarla yeriyib özünü ona çatdırır.

Rəşid: - Adınızı bilmək olar? Ürəyinizə özgə şey gəlməsin. Sadəcə soruşuram. Sizin kimi bir dosta ehtiyacım var (*qısa ara verir*). Əgər qəbul edərsinizsə...

Aygün (*arxaya çevrilmədən*): - Küçə dostlarını qəbul etməyə ehtiyac duymuram.

Rəşid (*cəld Aygünün qarşısına keçib onu yolundan saxlayır*): - Sizə məxsus bir dünyanın sakini olmaq istəyirəmsə, onda necə?

Aygün (*gülür*): - Sizə lap gülməyim gəldi.

**06**

Rəşid: - Gülmək üçün xoşbəxt olmağı düşünmək lazım deyil. Bəlkə də xoşbəxtlik sizin hər gülə biləcəyiniz bir şeylərdədir.

Aygün (*susur və tələsik addımlarla yoluna davam edir*): - Mənə nə sizinlə gələcək xoşbəxtlik, nə də gülüş gərək.

Panorama doqquzmərtəbəli binanı görüntüləyir. Aygün tələsik addımlarla binanın girəcəyinə girərək gözdən itir.

Kamera Rəşidi görüntüləyir. Rəşid bir az binanın girişinə boylanır, oradan kiminsə çıxmadığını yəqin edir. Başını qaldıraraq göyün üzünə baxır. Yağmurlu hava azacıq mülayimləşmişdi.

Panorama göyün üzündəki topa buludları görüntüləyir.

Yeni bir sabah.

Panorama APİ-nin binasını görüntüləyir. Auditoriya. Aygün düşüncəli halda parta arxasında əyləşib. Tələbələr yer-yerdən danışıb-gülüşür, öz səs-küylü aləmlərini yaşayırlar.

Aygün əlini çənəsinə dayaq edib nə isə yazır. Qarşısındakı kitabı vərəqləyir (və s).

Fonda Aygünün səsi eşidilir.

Fon (*Aygünün səsi*): - Nə evdə, nə də tələbə yoldaşlarımın arasında özümə yer tapa bilmirəm. İçimdəki bir sıxıntının səbəbini, sanki səmada dəvə karvanıtək harasa tələsən topa buludlardan öyrənmək istəyirəm.

Görüntü. Tural adlı tələbə lövhə qarşısında dayanmış qız tələbə yoldaşının qarşısında diz çökərək kağızdan düzətdiyi gülü qıza uzadıb. Qız isə nazlanır.

Aygün bu səhnəyə baxıb gülümsəyir.

Fonda Aygünün səsi davam edir.

Fon (*Aygünün səsi. Qayibanə*): - Anlamağa çətinlik çəkdiyim bu hissin təsirində hələ nə qədər qalacağımdan, hər zaman ətrafımda olduğum insanlardan qaçaraq tənhalığa çəkildiyim günlərin sayının hələ daha nə qədər uzanacağından xəbərsiz idim.

Görüntü. Tural qızları ətrafında toplayıb əlindəki kağız parçasından nəyi isə oxuyur. Qızlar gülüşüb əl çalırlar.

**07**

Tural hərdənbir aktyor kimi əl-qol jestləri edərək qızları daha da coşdurur.

Bu səhnələr, fikirli də olsa, Aygünün dodaqlarında təbəssüm oyadır.

Fon. Aygünün səsi davam edir: - Bildiyim tək bir şey varsa, o da Turalın ona qarşı heç də tamamilə biganə olmadığımı hiss etməsi idi.

Fonda Aygünün səsi yığılır.

Tural Aygünə yaxınlaşaraq qarşı partanın üstündə yarımoturaq vəziyyətdə əyləşir. Əlini sinəsinə qoyaraq şairanə:

Demə ki sevmirəm, sevgi yalandı,
Bil ki bu aşiqin ürəyi qandı!

Auditoriya gülüşməyə başlayır. Bu ara otağın qapısı açılır. Müəllim görünür. Auditoriyaya tam sakitlik çökür.

Müəllim: - Kitabları qatlayın. Bugünkü mövzumuz “sevgidə anlayış” məfhumu olacaq. Diqqətlə qulaq asın.

Müəllim danışmağa başlayır.

Kamera yenidən Aygünün gözlərində görüntülənir.

Aygünün yenidən daxili monoloqu başlayır.

Fon (*Aygünün səsi*): - Bəzən sevgini ağ çiçəklərin solğun ləçəyində axtarırsan. Daha çox sevə biləcəyini düşünür və xəyallara dalırsan. Bu sevdanın həyəcan təbili (*kamera lövhə qarşısında aramsız var-gəl edən müəllimin çıxışını görüntüləyir. Fonda Aygünün səsi davam edir*) ruhunu lərzəyə gətirir. (*Kamera Aygünün parta yoldaşının əli üzərində cəmlənir. Qız vərəqdə çəkdiyi iki ürək şəklini və onların həmin şəklin içində böyük hərflərlə yazılmış sözü Aygünə göstərir. Aygün rəsmə diqqətlə baxır. Fonda səsi davam edir*). Ancaq nəfəs kəsən bu vəlvələnin arxasında ümid dolu bir sevinc yaşadırsan. Qönçələnən bir sevgi canlanır gözlərinin önündə: “Mən səni sevirəm” kəlmələri. (*Bu ara Aygünü bir səs ayıldır. Fondakı səs yığılır. Bu səs Aygünün parta yoldaşının səsidir*): - Aygün, dərs qurtarıb.

**08**

Aygün auditoriyaya göz gəzdirir. Tam boşluqdur. Cəld qalxır. Paltosunu geyinib auditoriyadan çıxır. Pillələri qaçaraq düşür. Başını yerə dikərək küçəni sürətlə getməyə başlayır.

Yol uzunu Aygün yenə daxilində danışır.

Fon (*Aygünün səsi*): - Aman Allah, doğrudanmı o da bu dəli sevdaya tuş gəlmişdir? Anlamaqda çətinlik çəkdiyim, məni tənhalıqla hüşyar olmağa sövq edən, içimi dağıdan bu hiss sevgidirmi? (*Dayanacaqda durmuş avtobusa daxil olub əyləşir. Avtobus yerindən tərpənir. Aygün avtobusun pəncərəsindən yol uzunu səmada onunla birgə gedən qara buludlara baxır. Fondakı səs davam edir*). Məgər sevgi toxumları qəlbə səpildiyi zaman yaşamağın daha gözəl olduğunu aşılamırmı? Ruhumu bürümüş burulğandan canımı necə qurtaracağımı, hər gün bu düşüncələrlə qərarlı-qərarsız baş-başa qalmağa necə tab gətirəcəyimi düşünürəm. Fəqət, tab gətirəcəyəmmi?..

Panorama. Səfalı bir kənd. Kamera sübh tezdən üfüqdən şəfəqin solğun doğuşunu görüntüləyir. Yamyaşıl ağacların arasında gizlənən birmərtəbəli evlər. Itlərin hürüşməsi, xoruzların banlaması... Bir sözlə, öətraf aləm bu kəndin necə səfalı və qədim kənd olduğunu yansıdır.

Panorama kəndi görüntüləyərkən, fonda yenə Aygünün səsi eşidilir.

Fon (*Aygünün səsi*): - Gəzməklə havasından, içməklə suyundan doyulmayan bu yurdun dağ havasında Rəşid adlı bir oğlan dünyaya gəlmişdi.

Görüntü. Səlim kişi damağında qəlyan divanda əyləşib qəzet oxuyur. Bu ara Rəşid asta addımlarla otağa daxil olur. Masanın arxasına keçir. Masanın üzərinə qoyulmuş su bardağıyla oynamağa başlayır.

Fonda səs yenə davam edir: - Rəşid orta məktəbi yüksək qiymətlərlə oxuduğu üçün müəllimləri ali məktəbə sənəd verməsini israrla istəyirdilər.

**09**

Görüntü. Otağın qapısı açılır. Rəşidin bacısı Arzu əlində albom Rəşidə yaxınlaşır. Birgə albomdakı fotolara baxıb qımışırlar.

Fondakı səs davam edir: - Bu yolda yeganə maneə atası idi. Bacısı Arzu isə Rəşiddən fikrində dönməz olmasını, arzularının ürəyində boğulmasına yol verilməsinə qarşı barışmaz olmağı təkid edirdi.

Fonda səs yığılır.

Arzunun səsi Səlim kişinin diqqətini qəzetdən ayırır.

Arzu: - Ata, biz sənin fikrini gözləyirik. Rəşid ali təhsil almaq üçün Bakıya gedəcəkmi?

Səlim (*qəzetdən gözünü çəkmədən*): - Mən dediyim adamın qızı ilə evlənməyə razılıq versə, "Hə!" Oxumasına bu şərt daxilində razıyam. Bir də...

Rəşid (*onun sözünü kəsərək ayağa qalxır*): - Axı hələ mənim evlənmək yaşım deyil.

Səlim kişi əsəbləşib qəzeti kənara tullayır. Qışqıran səsi ilə əsəbi tonda...

Səlim: - Kəs, küçük! Sənə demirlər ki bu gün evlən. Əvvəl nişanlanarsan, toyu sonra edərik.

Qısa ara. Səlim kişi qəfil qalxır. Onun ayağa durmasıyla Arzu da cəld ayağa qalxır: - Qəbul edirsən et, etmirsənsə, kənddə qalıb mal-qaraya baxarsan.

Qapını çırpıb otağı tərk edir. Rəşidlə Arzu donuxmuş halda bir-birilərinə baxaraq qalırlar.

Panorama kənddə digər bir evi görüntüləyir. Səlim kişi həyat yoldaşı ilə qonşuya gedirlər. Ev sahiblərilə görüşüb söhbətə əyləşirlər.

Fonda yenidən Aygünün səsi eşidilir.

Fon (*Aygünün səsi*): - Səlim kişinin sözü ailədə qanun idi. Rəşidi zor-güc sinif yoldaşı Gülərə nişanladılar. Təhsil almaq xatirinə atılan bu addım gələcək sevginin nələrlə qarşılaşacağından xəbərsiz idi.

Görüntü. Səlim kişi ilə qonşu kişi bir-birlərinin əlini sıxıb çay içirlər.

Görüntü. Rəşid düşüncəli-düşüncəli öz otağında bikef oturub.

**10**

Fonda yenə Aygün səslənir.

Fon (*Aygünün səsi*): - Qarşısına qoyulmuş amansız şərt və nişanlandığı qızın taleyi idi Rəşidi gecə-gündüz düşündürürdü.

Görüntü. Bu ara qapı azacıq aralanır. Dostu Qalib görünür. Rəşid qalxıb dostunu qucaqlayır.

Kamera Rəşidlə Qalibin ciddi söhbətlərini görüntüləyir. Fondakı səs isə davam etməkdədir.

Fon (*Aygünün səsi*): - Rəşid sirrini - qarşılaşdığı bu amansız məcburiyyəti bir tək dostu Qalibə danışdı və onun məsləhətinə ehtiyacı olduğunu söylədi.

Fonda səs yığılır.

Qalib: - Bilirsən, sənin yerinə olsaydım, öncə öz ürəyimin səsinə qulaq asardım. İkincisi, şəxsən mənim ürəyimcə olmayan evlilik?.. Yox, bu lap dəhşət olardı. (*Qısa aradan sonra*) Ürəyində biri, yanında qeyrisi?

Rəşid: - Atamı tanısaydın belə deməzdin. Nişanı pozsam, məni ali təhsil almağa buraxmayacaq. Bu yüz faizdi.

Qalib (*ayağa qalxıb əlini divanda oturmuş Rəşidin çiyninə toxunduraraq*): - Mən sənə həm mənəvi, həm də maddi cəhətdən kömək edə bilərəm. İşə düzəlib, özün öz başını saxlaya bilərsən. Mənim kimi (*sakit tərzdə gülümsünür*).

Görüntü. Rəşid ümüdsüz halda Qalibə baxır. Qalibsə əl-qolunu ölçə-ölçə Rəşidə nəyi isə başa salmağa çalışır.

Fonda Aygünün səsi yenidən eşidilir.

Fon (*Aygünün səsi*): - Rəşidin isə atasının vermiş olduğu qərarı pozmağa cəsarəti çatmırdı. Özünü dəmir barmaqlıqlar arasında hiss edirdi. Çətinlikləri biryolluq çözmək, eyni zamanda, nişanlandığı sinif yoldaşı Gülərin taleyi ilə oynamamaq üçün həlledici addım atmaq, həm də bu addımı mümkün qədər tez və qəti olaraq atmaq vacib idi.

**11**

Növbəti gün.

Panorama evin dəhlizində qoyulmuş masanın üzərində tüstülənən samovarı, qabda qoyulmuş kərə yağını, qatıq və şəkər tozunu, təndir çörəyini (və s.-ni) görüntüləyir.

Yeni kadr. Rəşidin bikef halda masa arxasında büzüşmüş vəziyyətdə oturub, qarşısındakı boş stəkanla "oynadığı" görüntülənir.

Bu ara Rəşıdın anası Zərifə əlində parçaya bükülmüş lavaş masaya yaxınlaşır.

Zərifə: - Ay bala, sənə nə olub? Yaman fikirli görünürsən. Bəlkə bir çətinliyin var?

Rəşid: - Ana, mən Güləri sevmədiyim halda onunla necə ailə qura bilərəm? Buna görə də qərara gəlmişəm ki, nişanı pozam. Atamla danış, onu birtəhər yola gətir.

Zərifə: - Nə dediyini başa düşürsənmi, bala. Mən...

Görüntü. Səlim kişi əlində qəzet əsəbi halda yan otaqdan dəhlizə çıxır. Rəşid atasını görcək cəld ayağa qalxır.

Səlim kişi (*olduqca hikkəli halda*); - Dayan-dayan, nə dedin? Deyəsən böyümüsən?! Kişi olmusan?!. Bu evdə qərarları mən verirəm, bunu bil!

Rəşid (*asta ahənglə*): -Ata, axı mən də insanam, mənim də ürəyim var.

Səlim kişi daha da qəzəblənir. Rəşidə yaxınlaşıb ona karlı bir sillə vurur.

Səlim: - Kəs səsini, küçük! Sənə dedim oxu adam ol, demədim ki, ata-ana, valideyn, böyük-kiçik sayma (*qısa aradan sonra*), yazağzı toydur, başqa söhbət eşitmək istəmirəm.

Rəşid (*əsəbindən titrəyərək səsinin ahəngini qaldırır*): - Yox, ata, qərarımdan dönməyəcəyəm.

Gedir. Atası Səlimlə anası Zərifə matdım-matdım bir-birilərinə baxırlar.

**12**

Görüntü. Zərifə ana qorxa-qorxa divanda büzüşüb, Səlim kişi isə damağında qəlyan tüstülədə-tüstülədə otağın ortasında əsəbi halda var-gəl edərək yüksək tonda danışır.

Səlim kişi: - Mən ki atama ağ olmamışdım. Qurban olduğum (Allah) axı nədən el içində üzüqara edən bir oğul qismət etdi mənə? (*Yorulub Zərifənin yanında divanda əyləşir. Əlləri əsə-əsə tütünü kisəsindən çıxarıb qəlyana doldurur. Titrək səslə*) Axı neçə

illər həsrətlə yaşayıb çırağımı yandıracaq, düyünçəmə yiyə duracaq bir oğul gözləmişdim.

Görüntü. Bu ara Rəşid tələsik içəri keçir. Səlim kişi onu qapının kandarında saxlayır. Əsəbi halda ayağa qalxır. Zərifə də cəld qalxır.

Səlim (*əsəbi*): - Rədd ol! Bir də ayağın bu həndəvərə dolaşmasın! Mənim oğlum öldü! Onu bil ki, ata-ana xeyir-duası sənə çox lazım olacaq! (*Ürəyini tutub qıvrılır. Zərifə cəld onun qoluna girir. Rəşid yaxınlaşmaq istəyirsə də, Səlim kişi boğunuq səslə hayqırır*): - Toxunma mənə!

Görüntü. Rəşid otaqdan çıxır. Zərifə ana Səlim kişini ustufca divana uzadıb ona su verir.

Növbəti sabah. Sübh tezdəndir.

Kamera dəhlizə qoyulmuş iki böyük çamadanı görüntüləyir. Rəşid öz otağından çıxarkən dəhlizdə anası və bacıları ilə qarşılaşır. Zərifə ana onun boynuna sarılır.

Zərifə (*qəhərdən boğularaq*): - Ay oğul, fikrindən daşın, ata qarğışı yaman olur. Heç olmasa, mənə yazığın gəlsin, həsrətinə dözə bilmərəm (*üzünü Rəşidin sinəsinə yapışdıraraq hönkürür*).

Arzu: - Qaqaş, bizi gözü yolda qoyma!

Aynur: - Qaqaş, atam sənsiz yaşaya bilməz, getmə.

Görüntü. Rəşid anasından aralanıb bacılarını qucaqlayır. Hər ikisinin başından öpür.

Rəşid: - Bilirəm, atam məni heç vaxt bağışlamayacaq. Barı siz məni bağışlayın. Ana, sən məni bağışla, yoxsa tamam yetim qalaram.

**13**

Görüntü. Rəşid çamadanlarını götürüb anası və bacıları ilə vidalaşır. Zərifə ana əllərilə üzünü qucaqlayıb ağlayır. Arzu ilə Aynur anasını qucaqlayırlar.

Kamera dəhlizin həyətə açılan aynabəndini görüntüləyir. Pərdənin arxasında özünü gizlədən Səlim kişi gözlərini sıxıb kövrəldiyini gizlədir.

Panorama. Vağzal. Rəşid qatara minib kupedə əyləşir. Əllərini yanağına dayaq edib pəncərədən bayıra baxır. Qatar hərəkətə gəlir. Rəşid yol uzunu atası ilə münaqişəsini, anası və bacıları ilə vidalaşma səhnəsini gözləri önündə canlandırır.

Bu ara fondan yenə Aygünün səsi eşidilir.

Fon (*Aygünün səsi*): - Rəşidin gəlişi evdəkilərə sevinc gətirmiş olsa da, gedişi özündən sonra çox ağrılı, tükürpədici iz qoymuşdu. (*Şairanə*)

Taleyimə kötük oldu böyük bir qaya,
Mən özüm özümü saldım bəlaya.

Bakı. Yağmurlu hava.

Panorama doqquzmərtəbəli bir binanı görüntüləyir. Bu ara binanın çıxışında Aygün görünür. Rəşid cəld onun qarşısını kəsir.

Rəşid: - Bağışlayın, sizinlə tanış olmaq olarmı? (*Aygünlə Rəşid göz-gözə baxışırlar. Sükutu yenə Rəşid pozur).*

Rəşid: - Çünki biz artıq tanışıq. Sadəcə, sizə münasibətimi bildirməyim üçün bir neçə dəqiqənizi almaq istəyirəm. Bilsəydiniz ki, sizi tanımaza-bilməzə, amma sizdən ötrü mən nələrimdən keçmişəm?.. (*Aygün ötüb keçmək istəyirsə də, Rəşid onun qolundan tutub saxlayır*) Məhəbbətin nə olduğunu mən sizi görəndən sonra anladım. Başa düşdüm ki, bundan sonrakı həyatımı yaşamaq üçün mən ürəyimi məhz sizinlə bölməliyəm. (*Aygün susur*) Susmağınızı razılıq kimi qəbul edərək, sizi hər gün oxuduğunuz məktəbin qarşısında gözləyəcəyəm. Mənim adım Rəşiddir, bəs sizin adınız?

**14**

Görüntü. Aygün gözləri donmuş vəziyyətdə Rəşidin gözlərinə zillənir. Fonda yenə də Aygünün səsi yüksəlir.

Fon (*Aygünün səsi*): - Bu qəribə jestli cavanın hərəkətləri ona nə cavab verəcəyimi çaşqın salmışdı. Artıq həyatımda yeni bir səhifə açılmış olurdu.

Kamera Rəşidi görüntüləyir.

Rəşid dediklərini təkrar etməklə Aygünün fondakı səsini itirir.

Rəşid: - Mənim adım Rəşiddir, bəs sizin?

Aygün (*adəti üzrə yuxudan səksənmiş kimi*): - Aygün.

Yeni sabah. Dənizkənarı park. Aygün bu gün şən görünür. Rəşid isə sanki qollarına qanad taxıb. Aygünlə şirin söhbətlər edir, gəmi ilə səyahətə çıxır... Onların ilk görüş səhnəsi canlanır.

Fonda yenə Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - "Rəşid" adının ürəyimə sərin bulaq suyu kimi səpildiyini, bu təsadüfün onun ürəyində necə od-ocaq qaladığını aydınca hiss edirdim. Bu alovun həyatımızın bütünlüklə bürüməsini görürdüm. İnanmaq istəyirdim ki, bu hisslər bizim ruhumuzu oxşayacaq, Tanrının verdiyi ömür payını layiqincə yaşamağımız üçün bir səbəb olacaqdır.

Panorama. Aygüngilin mənzili. Evdə canlanma var. Aygünə elçi gəlib. Bir otaqda Aygünün qardaşı Elmir elçilərlə söhbət edir, digər otaqda isə Aygün çarpayısında yastığı qucaqlayıb ağlayır. Anası Təhminə içəri daxil olub qızına nə isə deyir.

Fonda isə Aygünün səsi canlanır.

Fon (*Aygünün səsi*): - Mənim üçün seçdikləri oğlan ailə dostlarındandır. Əslində İlham pis oğlan deyil, amma neyləyim ki, mənim ürəyim Rəşid üçün çırpınır.

**15**

Görüntü. Aygün olduğu otağı əsəbi halda tərk edərək öz otağına keçib, qapını arxadan bağlayır. Anası nə qədər cəhd göstərsə də, qapını aça bilmir.

Aygün yazı masasının üstündəki lampanı yandırıb masanın arxasına keçir. Gündəliyini açır.

Öncə gözlərində donmuş yaşı əlinin arxası ilə silir. Sonra qələmi barmaqlarında sıxaraq yazmağa başlayır. Fondakı səs davam edir.

Fon (*Aygünün səsi*): - Məhəbbət əyləncədir məgər ki, bir günün içində həm sevib, həm də unutmağı bacarasan? Sızlama, ürəyim, sən davamlı ol!.. Bilmirəm bu misralar bütöv bir həyatımın qəmli notlarla əhatələnəcəyindən soraqçıdır, yoxsa nədir?.. (*Bu ara fondakı səs Rəşidin səsilə əvəzlənir. Aygün gah dayanıb fikrə dalır, gah da təzədən nə isə yazmağında davam edir*).

Fon (*Rəşidin səsi*): - Bundan sonra bu gündəlikdə nələrin yazılacağından, nisgilli bir həyat yolunda çəkiləcək yaşantılarda nələrin qeyd olunacağından, hələ ki nə qələmin xəbəri var idi, nə də onu ağ vərəqlərə köçürəcək Aygünün...

Panorama. APİ-nin binası qarşısında xeyli tələbə cəm olub.

Aygün məhz ona məxsus yerişilə başı aşağı instituta sarı gəlir.

Kamera Aygünün addımlarını yerə düzülmüş daşlara toxunduraraq ağır addımlarla yeridiyini görüntüləyir.

Kadr dəyişir. Aygünün gözləri iri planda görüntülənir.

Aygünün Turalla bağlı bir səhnəsi göz önündə canlanır.

(Montajla).

Görüntü. Auditoriya. Aygün dərs oxuyur. Tural ona yaxınlaşır. Aygünün qarşısındakı masada yarımoturmuş vəziyyətdə.

Tural: - Aygün, bilirsən... Necə deyim, utanıram da, vallah, deməyə. Amma deyəcəm. Biləsən ki, mən səni çox sevirəm... Gözlərini nə bərəltmisən üzümə? Nədi bəyəm, inanmırsan?

Aygün: - Dediyin sözə görə yox. Sənə ona görə belə baxıram ki, gözlərin əlli cür hava çalır. Düzünlə əyrin bilinmir.

**16**

Tural: - Qadan alım, qız, gəl daşı tök ətəyindən, yazılarımı yaz, nənə canı, məktəbi bitirən kimi səni alajam.

Kadr əvvəlki vəziyyəti alır.

Aygün gülümsəyib başını yelləyir ki... Bir də görür auditoriyadadır. Qızların səsi Aygünü xəyaldan ayırır.

Tələbə qız: - Ay qız, gəl çıx də, gözləməkdən Turalın gözünün ağı qarasına qarışıb (*gülüşürlər*).

Aygün (*qızlarla görüşür*): - Nədi, bir ağı qaradan ayıra bilmirsiniz?

Tural: - Əzizim, Aygün. Bu gün bizim üçün çox önəmli bir gündür, axı məktəbi bitiririk. Düz dörd ildir bu günü gözləyirdik. Axır ki, gəlib özünü yetirdi.

Aygün (*təəccüblə*): - Nədən danışırsan, Tural?

Tural (aktyorsayağı görkəm alıb): - Vəfasızı görürsüz də, uşaqlar. Aygün, mən səni həqiqətən sevirəm, dədəmin canı düz deyirəm, mənə gələrsənmi?

Aygün (*yarı əsəbi*): -Tural, sənə nə olub?

Tural (*özünü sərxoş kimi apararaq*): -Axşam çox içmişəm, yəqin ondandı.

Bu ara müəllim auditoriyaya daxil olur. Imtahan başlayır.

***

İmtahandan sonra dəhlizdə Turalla Aqil görünür.

Aqil: - Ə, bayaq hara gedirdiniz?

Tural: - ZAQS-a getmək istəyirdik, amma məsələ deyəsən qəlizləşib, qız naz atır. Bəlkə sən yola gətirəsən?

**17**

Aqil (*Turalın növbəti zarafatlarından biri olduğunu güman edirmiş kimi*): - Turalım, canım-ciyərim, sən artıq çox gecikibsən. Məni gözləyirlər, getməliyəm. Fəqət, ciddi səhvə yol verdiyinlə

barışmağa məcbursan. Səndən yaxşı gülüş ustası çıxardı, sən gərək incəsənətə gedərdin. Ancaq yenə də sağ ol ki, bu dörd ildə öz zarafatlarınla bizim üzümüzdə təbəssüm yaradıbsan.

Aqil gülüb, başını yellədərək Turaldan ayrılır. Tural lal-mat onun ardınca baxır.

Fonda yenə Aygünün səsi eşidilir.

Fon (*Aygünün səsi*): - Tural həqiqətən məni sevirmiş. Ancaq heç bir sərhəd gözləməyən zarafatları onun mənə olan səmimi hisslərini yanlış başa salmış, belə bir ciddi məsələdə mövqeyinin bir üzü hənək-bir üzü dəyənək təsiri bağışlaması halı nəticə etibarı ilə Turalı zarafatlarının qurbanı etmişdi.

Kadr. Aygün dəhlizdə əlində kitab var-gəl edərək növbəti imtahana girmək üçün hazırlaşırdı. Arabir kitabı sinəsinə sıxıb gözlərini yumur, nəyi isə fikirləşib yenidən oxumağında davam edir. Fonda isə öz səsi güclənmişdi.

Fon (*Aygünün səsi*): - İndi qarşıda məni daha ağır bir imtahan gözləyir. "Həyat" adında təlatümlü bir dünyanın sınaqları. İlğımlı bir yaşam tərzi. Mənim üçün bəyaza bürünmüş, bəlkə də, qaranlıq bir dünya.

Bu ara hansısa bir səs Aygünü xəyaldan ayırır.

Fondakı səs Rəşidin səsilə əvəzlənir.

Rəşid: - Xanım qız, bilmirsiniz ki tək-tək gəzmək qadağandır?

Aygün geri çevrilir.

Kamera ayaqdan üzü yuxarı Rəşidi görüntüləyir.

Aygün (*təəccübdən dili topuq vurur*): - İnstituta necə keçə bilibsən?

Rəşid: - Əvvəla salam (*Aygünün əlindən kitabı alıb qatlayır, özü isə dəhlizin pəncərəsi önündə oturaraq*), ikincisi, indiki halımda məni buraxmaya bilməzdilər. Üçüncüsü də ki...

Aygün (*onun sözünü kəsir*): - Başa düşdüm. Getmək lazımdır.

**18**

Yeni kadr. Aygünlə Rəşid Azadlıq meydanında əl-ələ tutub gəzişirlər. Rəşid Aygünün bikef olduğunu anlayaraq...

Rəşid: - Əzizim, sənə nəsə olub?

Aygün: - Rəşid, imtahanlar qurtarandan sonra məni nişanlayacaqlar. Nə edəcəyimi, necə olacağımızı bilmirəm. Biri gün son imtahanımdı (*qısa aradan sonra*), yəqin ki, daha görüşə bilməyəcəyik.

Görüntü. Rəşid yerindəcə donur. Donmuş halda gözlərini Aygünə zilləyərək qalır.

Fonda Aygün yenə də danışır

Fon (*Aygünün səsi*): - Dilimdən naqəfil çıxan bu kəlmələrdən Rəşidin nitqi tutuldu. Heç özü də bilmədi nə desin.

Fondakı səs yığılır.

Rəşid (*qəhər içində, asta tonda*): - Bağışla məni ki, səni də, özümü də çıxılmaz vəziyyətə salmışam. Nə elçi göndərmək, nə də toy etmək gücündə deyiləm (*bir anlıq susur*). Gedək mənimlə, Aygün, kiçik bir komada öz xoşbəxt ailə həyatımızı qurarıq. Qərar qəbul etmək üçün sənin tam bir günün var. Hər qərarına hörmətlə yanaşacağıma söz verirəm.

Hər ikisi skamyada əyləşir. Aygün başını Rəşidin çiyninə qoyaraq yenə fikirləri ilə qol-boyun olur.

Fon (*Aygünün səsi*): - Doğrudan da, bu geniş dünya sayı bilinməyəcək qəribəliklərlə doludur. Xəyallarında yaşatdığı xoşbəxtliyi və ürəyindən keçirdiklərini həyatda yaşamaq çox zaman insanın nəsibi olmur. Görünür, mənim də taleyimə ağıla gəlməyən mübhəmliklər yazılıbmış. Mən Rəşidimi bir ömür boyu və təmənnasız sevəcəyimə and içmişdim.

Görüntü. Rəşid bir əlilə arada Aygünün saçlarını tumarlayır. Aygün yanaqlarından çənəsinə süzülən göz yaşlarını nazik barmaqlarıyla xəfif-xəfif silir.

Fonda isə səsi davam edir: - Axı mən də başqa qızlar kimi ata evindən gəlinlik duvağı geyinərək vağzalı sədaları altında, ana-qardaş xeyir-duası ilə çıxmaq istəyirdim.

**19**

Yeni kadr.

Panorama. Kamera aydın, aylı səmanı görüntüləyir. Aygünün yataq otagı. Aygün yorğanı başına çəksə də, yuxulaya bilmir. Yatağında o yana-bu yana çevrilərək fikirlər içində boğulur.

Fonda səsi ucalır.

Fon (*Aygünün səsi*): - Görəsən, bu gecə səhərin açılmasını səbrsizliklə gözləyən daha nə qədər insan var? Görəsən, insanı kədərləndirən gecədirmi? Ya insanlar özləri həsrət çəkmək üçün gecəni seçirlər? Yalqızlıq - gecələrin, xəyal - naçarların, ümüd - gözləyənlərindir. Mən sevgimi səmada sayrışan ulduzların arasından seçdim. Onu belə asanlıqla itirmək niyyətində deyiləm. (*Fikirlərin qoynunda yavaş-yavaş Aygünü yuxu aparır*).

Yeni bir sabah.

Kamera Aygünün paltarlarını dolabından səliqə ilə çamadana yığdığını incəliklə görüntüləyir.

Fonda səslənən həzin musiqi zövq oxşayır. Aygün fotolar toplanmış albomu əlinə alaraq vərəqləyir. Sonra onu da çamadana qoyur.

Kamera kitab rəfindəki qara, qalın üzlü gündəliyi görüntüləyir. Aygün incə hərəkətlərlə gündəliyi əlinə alıb baxır və köks ötürərək sinəsinə basıb, ani fikrə gedir. Tez də ayılır və gündəliyi masanın üzərinə qoyaraq otaqdan çıxır.

Kamera iri planda masanın üstündəki gündəliyi görüntüləyir. Həzin musiqi davam etməkdədir.

Aygün anasının yataq otağına keçir. Hələ yuxuda olan anasına ustufca yaxınlaşaraq onun gözlərindən öpür. Sonra qardaşı yatan otağın qapısını azacıq aralayıb qardaşının mışıl-mışıl yuxulamasına tamaşa edir.

**20**

Kamera bu anda başını qapının tininə söykəyib fikirə dalmış Aygünü görüntüləyir. Fikirlərdən qəfil ayrılan Aygün son olaraq otaqlara göz gəzdirir. Köks ötürərək ailəsini tərk edir.

Kamera Aygünün arxasınca qapının bağlanmasını görüntüləyir.

***

Panorama. Doqquzmərtəbəli bina.

Kamera binanın çıxışını görüntüləyir. Aygün əlində iki böyük çamadan blokda görünür. Rəşid cəld Aygünə yaxınlaşıb çamadanları onun əlindən alır.

Kamera həyətdə dayanmış taksini görüntüləyir. Rəşid arxa qapını açıb Aygünə yer göstərir. Aygün ayaq saxlayıb həyəcanla geri çevrilir. Sonuncu dəfə eyvanlarına baxıb, maşına oturur.

Rəşıd öndə, sürücünün yanında olan oturacaqda əyləşir. Maşın tərpənir.

Fonda Aygünün səsi yüksəlir.

Fon (*Aygünün səsi*): - Bu da son. Sınaqlarına atıldığım həyatın ilk imtahanı. Ata ocağımla, qayğısız gənclik ömrümlə vida anım. Bu evdə hər kəs mənim qayğımı çəkmiş, hər cür şıltaqlığıma dözüb sevinmişdi. Amma indi mən vidalaşmadan, gizlicə, qaçaraq, küskün, kövrək hisslərlə onlardan ayrılıram.

Fonda musiqinin səsi güclənir.

**I HİSSƏNİN SONU**

***

## II HİSSƏ

Qara fonda yazı görünür.

**Alti ay ötdü**

Panorama. Həzin musiqi.

Kamera kiçik bir daxmanı görüntüləyir. Aygünün yaşadığı kasıb, gün işığı düşməyən otağındakı səliqə göz oxşayır.

Aygün stulabənzər bir taxtanın üstündə oturub kitab oxuyur. Qapının taqqıltısı altında fondakı musiqi yığılır.

Aygün tələsik gedib qapını açır.

### 21

Görüntü. Kamera qapı ağzında dayanmış nurani, qocalmış bir simanı görüntüləyir. Qadın heyrətlə Aygünə baxır. Aygün sual dolu baxışlarla Zərifə anaya baxıb...

Aygün: - Xala, sizə kim lazımdı?

Zərifə (*qısa aradan sonra*): - Gözəl qızım, mən Rəşidin anasıyam.

Bu ara fonda musiqi güclənir.

Aygün ananı diqqətlə süzür.

Aygün (*sevincək*): - Üzr istəyirəm... Bağışlayın, tanımadım. İcazə verin... Anacan, xoş gəlmisiz evinizə!

Qucaqlaşırlar.

Görüntü. Kamera Aygünün ananı qucaqlamasını və gözlərindən Zərifə ananın çiyninə axan göz yaşlarını görüntüləyir. Fonda Aygünün səsi güclənir.

Fon (*Aygünün səsi*): - Əllərim Rəşidin anasına toxunanda, öz anamın qoynuna sığınıb ovunduğum anlar yadıma düşdü. Bir də, axı mən ata evindən ayrılarkən anamı quca bilməmişdim. Qoynuna sarıldığım bu ananın məhəbbətini içimdə hiss etdim. Qəbahətimin yüngülləşməsilə özümə təsəlli verdim.

Fondakı səs yığılır.

İçəri keçirlər. Zərifə ana oturur. Dərindən köks ötürüb, Aygünün əllərini sıxaraq

Zərifə: - Bu sənin günahın deyil, qızım, taleyin yazısıdı.

Aygün: - Ana, mən öz taleyimlə çoxdan barışmışam. Biz Rəşıdlə, bax, bu komanın altında çox xoşbəxtik... Uzaq yol gəlmisiz, sizinçün bir çay gətirim.

Görüntü. Yan otağa keçən Aygün çox ötmür əlində çay süzülmüş iki stəkan və qənddan geri dönüb sinini masanın üzərinə qoyur. Hər ikisi çay içir.

Fonda Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - Ailə qurduğum bu neçə ayda ilk dəfədi özümü həqiqi mənada gəlin, ev qadını hiss edirdim.

Bu ara Rəşid görünür. Anasını görüb duruxur.

Kamera Rəşidin sevincdən dolan gözlərini görüntüləyir. Az sonra bu hal Zərifə ananın gözlərində də iri plana keçir.

**22**

Rəşid: - Ana! Anam mənim!

Görüntü. Qucaqlaşıb görüşürlər. Kamera ana ilə balanın – bu iki həsrətin necə qovuşduğunu görüntüləyir.

Rəşid: - Nə yaxşı gəldin, ana. Səndən ötrü elə qəribsəmişəm ki... Qorxurdum, bir də səni görməyəm.

Kamera bu an Aygünün gözlərindəki ana həsrətini açıq-aydın görüntüləyir.

Zərifə: - Can bala, səni heç belə görməmişdim. Anasından ayrı düşmüş körpə quzu kimisən.

Kövrəlir. Qəhər onu boğur.

Zərifə: - Evimin işığı, dirəyi balam. Anası üçün darıxan balam.

Kamera Zərifə ananın Rəşidin saçına necə sığal çəkdiyini görüntüləyir.

Bu ara Aygün kadra keçir.
Aygün: - Siz söhbət edin, mən süfrə hazırlayım.
Yan otağa keçir.

Rəşidlə anası üz-üzə əyləşirlər. Rəşid susmuş halda başını aşağı dikib. Qəflətən biixtiyar...
Rəşid: - Ana, atam necədir?
Zərifə: - Belə də.., oğlum. Sən evdən gedəni yaman kürlük edir kişi. Bacıların da atanın bu halı üçün çox pərişandılar.

Görüntü. Rəşid sual dolu gözlərini anasına zilləyib. Nə isə soruşmaq istəyir. Amma soruşmağa cəsarət etmir, hələ ki, susur.
Rəşid: - Ana.
Zərifə: - Can.
Rəşid (*tərəddüdlə*): - Gülərdən nə xəbər?

Görüntü. Bu ara Aygün yan otaqdan çıxır. Əlində sini, içində su bardaqları masaya yaxınlaşır. O, Rəşidin dilindən çıxan sonuncu kəlmələri eşitsə də, özünü eşitməzliyə vurur. Hər ikisinin (Rəşidlə Zərifənun) üzünə gülümsəyərək, təkrarən yan otağa qayıdır.
Qapının kandarında dayanıb fikrə dalır.

**23**

Kamera Rəşidlə ananın danışıqlarını görüntüləyir. Fonda yenə Aygün danışır.
Fon (*Aygünün səsi*): - Rəşid artıq Gülər barədə düşünməyə başlayıb. Bu, qəbuledilәndir. Onlar on il bir parta arxasında əyləşiblər. Bəlkə də, Rəşid bu gün peşman olduğu haqda düşünür. Amma, neyləsin ki, ürəyə hökm etmək olmur. Çünki ürəyi məni sevib-seçmişdi. Bu da bir tale, bir naxışdır.

Zərifə (*yarımçıq qalmış kəlmənin ardını tamamlayırmış kimi*): - Sən demə, Gülər dayısı oğlu Rüstəmə qoşulub qaçıbmış. Biz də kişiyə and-aman etdik ki, daha sənə olan münasibətini

qoysun yerə. Atansa "nırx" dedi, peyğəmbər demədi. (*Ah çəkərək*) Səninlə barışmayacağına təkrar and içdi.

Görüntü. Aygün süfrəni artıq hazırlayıb, xörək yeyirlər.

Zərifənin süfrə arxasından qalxmasilə Rəşidlə Aygün də qalxır. Zərifə gözləri dolmuş halda boğunuq səslə Rəşidi qucaqlayıb deyir.

Zərifə: - Özünü üzmə, bala. İnşaallah, yavaş-yavaş hər şey qaydasına düşər. Təki sən xoşbəxt ol (*əli ilə Aygünün saçlarına sığal çəkib, ciynini ovxalayır*) Bu gözəl gəlin balamdan isə muğayat ol. Biri-birinizin qədrini bilin. Biri-birinizi qoruyun.

Hər ikisinin alnından öpərək evdən çıxır. Həyət qapısından çıxarkən geri çevrilib, mənalı nəzərlərlə Rəşidlə Aygünü süzür.

Fonda Aygünün səsi eşidilir.

Fon (*Aygünün səsi*): - Bu son baxış, son görüş idi.

Rəşid anasını sonuncu dəfə gözləri ilə yola salırdı.

**24**

Yeni kadr. Səlim kişinin həyəti.

Panorama. Həyətdə mağar qurulub. Evdə mərsiyə səsi. Mağarda mollanın yasin oxuması. Bayırda tüstüləyən samovarlar. Qadınların bir hissəsi başı qara şalla bağlı halda işləyirlər. Bir tərəfdə üzü tüklü bir kişi çay süzür. Bir qadın közün üstündə buğlanan aş qarasını qarışdırır. Mağarın giriş qapısında əlləri qarınlarının üstündə bikef, başıaşağı cavanlı-qocalı xeyli kişi dayanıb.

Fonda (*Aygünün səsi*): - Zərifə ananın ölümünü Rəşidə əmisi oğlu rayondan telefon edib demişdi. Əvvəl-əvvəl Rəşidin bu xəbərə inanmağı gəlmədi.

Görüntü. Bacılar qol-boyun olub ağlaşırlar. Mağardan az aralıda çılpaq budaqlı tut ağacının altında qoyulmuş skamyada

Səlim kişi gözlərini bir nöqtəyə zilləyib, donmuş kimi qəlyanını tüstülədir:

Səlim kişi: - İnsan heç vədə öz doğmasının ölümünü qəbul etmək istəmir.

Kamera bu məqamda həyət darvazasından beli bükülmüş vəziyyətdə içəri girən Rəşidi görüntüləyir.

Fondan Aygünün səsi yığılır.

Kamera Rəşidin gözü ilə ətrafı gəzir. Birdən Rəşid diz çökərək hönkürüb ağlayır.

Rəşid: - Ana! Yox, ana! Bu sənin ölümün deyil, ana! Gözlərinə qurban olum, məni kimə tapşırıb getdin?!

Görüntü. Bacıları cəld yaxınlaşıblar. Qoluna girib Rəşidi yerdən qaldırırlar. Rəşid bacılarını qucaqlayıb yenidən hönkürür:

- Yox, Arzu! Yox, Aynur! Mən düz gəlməmişəm, deyilmi?!

Görüntü. Kamera Rəşidin damarları aydınca sezilən əllərilə bacılarını necə qucaqladığını görüntüləyir. Bu ara kamera Rəşidin qarşısında durmuş Səlim kişini ayaqdan başa qədər görüntüləyir.

**25**

Səlim: - De görüm bu qapıya hansı üzlə gəlmisən?! (*əsəbi halda çığırır*). Səndən soruşuram! Cavab ver! Ana qatilisən sən!

Görüntü. Kamera Rəşidin qəzəb dolu gözlərini və o gözlərdən, yanaqlardan üzü aşağı çənəyə doğru şırım açmış göz yaşlarını görüntüləyir.

Səlim: - Onu sən öldürdün, sən! Anan sənin xiffətindən çürüdü!

Rəşid: - Ata, axı mən...

Səlim kişi (*onun sözünü yarıda kəsir*): - Sus! Sənin danışmağa haqqın yoxdur. Rədd ol! Səni bir də bu qapıda görməyim! Get! Nankör övlad!

Görüntü. Kamera Rəşidin qəzəbdən yaş donmuş gözlərini görüntüləyir. Rəşid yana çevrilir. Bacılarına baxır. Qızlar əllərini üzlərinə sıxıb ağlamağda davam edirlər.

Kamera bu ara Rəşidə tərəf gələn əmisi oğlunu görüntüləyir.

Əmisi oğlu: - Bizə gedək, başına dönüm. Əmimin ki xasiyyətinə bələdsən. Gözünə görünməsən yaxşıdır.

Görüntü. Kamera Rəşidin küskün və acı nəzərlərlə atasına baxdığını görüntüləyir.

Rəşid: - Yaxşı, gedək...

Gedirlər.

Görüntü. Bacılar bir-birilərini qucaqlayıb ağlaşırlar. Səlim kişi cibindən tütün çıxarıb qəlyana basır və heç nə olmayıbmış kimi geriyə, mağara doğru gedir.

Panorama. Qəbiristan.

Kamera ağ və qara mərmərdən gözlərə baxan küskün nəzərləri (*başdaşlarını*) görüntüləyir.

Sonra kamera Rəşidin bir məzarın üstündə yıxılıb torpağı qucaqladığı vəziyyəti iri planda görüntüləyir.

**26**

Rəşid: - Bağışla məni, ana! Niyə məni kimsəsiz qoydun, ana?! Həsrətin məni görmək imiş. Hardan biləydim sənin o dəfəki gəlişin mənimçün son gəlişin imiş.

Görüntü. Anasının məzarı üstündən bir ovuc torpağ götürüb ovcunda sıxıb öpür. Sonra ağlamağında davam edir.

Rəşid: - Axı sən nəvə arzulayırdın, niyə səbr etmədin... Sənsiz necə yaşayacağam, ana?!.

Yeni kadr. Rəşid avtobusla Bakıya qayıdır. Yol uzunu anasının onlara gəlişi, atasının onu necə qarşıladığı, bacılarının göz yaşları... bir-bir gözləri önündə kino lenti kimi canlanır.

(Kom. qrafiki). Aygünün səsi fonda ucalır:

Fonda (*Aygünün səsi*): - Rəşid bir daha kəndə dönməyəcəyini göz önünə alıb geri qayıdırdı. Ana nisgilini, ata qarğışını, bacı həsrətini köksünə doldurub, ana qatili damğasını bağrına basıb geri qayıdırdı.

Yeni kadr. Rəşid evdə bikef oturub. Aygün ona çay süzüb gətirir, amma Rəşid içməyib yan otağa keçir. Yatağına girib yorğanı başına çəkir.

Fonda Aygünün səsi davam edir.

Fon (*Aygünün səsi*): - Anasının ölümündən sonra Rəşid tamam dəyişmişdi. Gülərüz, zarafatçıl, həmişə baməzə Rəşiddən əsər-əlamət qalmamışdı. Bəlkə də, bütün bunlarda yeganə günahkar mən idim?..

Görüntü. Kamera Rəşidi yorğanı üstündən düşmüş, yatmış vəziyyətdə görüntüləyir. Aygün ustufca yorğanı Rəşidin üstünə çəkir.

Fonda Aygünün səsi davam edir.

Fon (*Aygünün səsi*): - Bəlkə bizim təsadüfi tanışlığımız olmasaydı (*bu ara kom. qrafikində Aygünlə Rəşidin avtobusda ilk tanışlıq səhnəsi canlanır*) bu hadisələr də olmazdı. Hardan biləydi ki, (*görüntü. Aygün gecə köynəyində çarpayının digər tərəfindən yorğanı qaldıraraq astaca yatağa girir. Rəşidin necə yuxuladığına tamaşa edir. Sonra yana çevrilərək gözlərini yumur*).

Fonda isə səsi davam edir.

Fon (*Aygünün səsi*): - Fələyin təzəcə qaldırdığı bu qəm küləkləri yeni qurduğumuz ailənin başı üzərində, hələ bəlkə, aman vermədən çox illər əsəcəkdi...

Ekranda iri hərflərlə yazılır:

**Doqquz ay ötdü**

**27**

Panorama. Rəşidgilin yaşadıqları koma görüntülənir. Qalib yan otaqdan qucağında qundaqda bir körpə çıxır. Masa arxasında əyləşmiş Rəşidə sarı gəlir. Rəşid bikef halda siqareti külqabında söndürərək, Qalibin qucağındakı övladına solğun nəzərlərlə baxır. Aygün mətbəxdən əlində iki fincan çay masanın yanına gəlir. Uşağı Qalibdən alır.

Qalib bikef halda Rəşidin yanında əyləşir. Fincanı dodaqlarına yapışdırıb içməyə başlayır. Rəşid isə cibindən siqaret qutusunu çıxarır. Siqareti damağına qoyub yandırır, çəkməyə başlayır. Qalib Rəşidin özünə qapanıb siqaretin tüstüsündə boğulduğunu görür. O da çay içməsini saxlayir. Fincanı nəlbəkiyə qoyur. Başını aşağıya sallamış halda başını yelləyir.

Yeni kadr. Rəşidlə Qalib parkda gəzişirlər. Qalib onun başını qatmaq üçün nə isə danışır. Rəşid yenə siqareti damağında tüstülədir.

Digər kadr: Aygün beşikdə körpəsinə layla çalır. Körpə yuxuya gedir. Aygün qolunu başına dirək edərək Rəşidi fikirləşir.

Yeni kadr. Gecə. Rəşid kafenin qapısından sərxoş çıxır...

Evin qapısı döyülür. Aygün qapını açan kimi Rəşid səndirləyir, özünü saxlaya bilməyib yerə yıxılır. Aygün cəld qoluna girib onu yerdən qaldırır. İçkinin təsirindən hələ də ayılmayan Rəşid, hətta Aygünü belə görmür. Aygün onu çarpayıya uzandırıb, əynini soyundurur. Rəşid yuxuya gedir. Aygün xəfifcə gözündən axan yaşı silir.

Digər kadr. Evin pəncərəsindən bayır görüntülənir. Gecəyarısıdır. Aygün divardan asılmış saata baxır. Saatın əqrəblərinin 3-ün üstündə durduğu görüntülənir. Qəflətən telefon səs salır. Aygün cəld dəstəyi götürür. "Rəşidi olar" deyə tanımadığı səsi eşitdikdə, dəstəyi tez də asır. Oturub yenidən ağlamağa başlayır.

Yeni kadr. Rəşid bir sarısaç qızla qol-boyun olmuş halda bara girir.

Digər kadr. Masanın üstündə ad günü tortu. Qalib tortun üstündəki şamları yandırır. Uşağı qucağına götürüb şamları birlikdə üfürüb söndürürlər. Aygünsə kənardan baxıb gah sevinir, gah da ağlayır. Balasının sevinclə əl-qol atmasına baxıb əl çalır.

**28**

Yeni kadr. Aygün gəbənin üstündə oturub qollarını yenicə addım atmağa başlamış oğlunun üzünə açır. Rauf bir addım atıb yıxılır və ağlamağa başlayır. Aygün cəld onu yerdən qaldırıb bağrına basır. Özü də ağalyır.

Digər kadr. Aygün pəncərə önündə durub qucağında tutmuş olduğu körpəsini yedirtməyə səy göstərir. Ralaca Rauf isə başını geri ataraq, boşqabı itələyərək yeməkdən imtina etdiyini anasına bildirməyə çalışır.

Bu ara fondakı həzin melodiyanı qapının taqqıltısı (döyülməsi) pozur. Aygün uşaq da qucağında qapıya doğru gedir. Qapını açır.

Kamera yaraşıqlı, saçlarına adda-budda dən düşmüş bir kişinin üzərində dayanır.

Vahid: - Bacı, Rəşidin yoldaşı sizsiniz?

Kamera Aygünün çaşqın nəzərlərlə Vahidin üzünə dikilən gözlərini görüntüləyir.

Vahid: - Bağışlayın, salam verməyi də unutdum, mən Rəşidin əmisi oğlu Vahidəm.

Görüntü. Rauf ağlayır. Aygün əlindəki əmziyi uşağın ağzına qoyub, onu sakitləşdirməyə çalışır.

Aygün: - Rəşid evdə deyil, keçin içəri.

Vahid içəri girər-girməz Raufu qucağına alıb onu acgözlüklə öpür.

Vahid: - Ay bunu Allah saxlasın! (*uşağa diqqətlə baxır, gözləri dolur. Qəhərdən boğulan səsilə*) Səni görmək nə nənənə, nə də babana qismət olmadı. Allah onların ömrünü sənə bağışlasın.

Aygün: - Xoş gəlibsiniz. Əyləşin. Borş bişirmişəm, gətirim?

Vahid: - Yemişkən varam, sağ olun. Bir stəkan çay olsa, içərəm.

Görüntü. Aygün yan otaqdan əlində iki stəkan çay yaxınlaşıb masanın üstünə qoyur. Özü də əyləşir.

**29**

Vahid çaydan bir qurtum içib, köks ötürür: - Səlim əmim Zərifə bibinin yoxluğuna dözə bilmədi. (*Qısa ara*) Dünən əmimin yeddisini verdik. Kişinin gözləri qapıda qalmışdı. Nə qədər yalvardım ki, icazə versin Rəşidə xəbər edək gəlsin, razılaşmadı. Son nəfəsində də dedi ki, "Ölümün də üstünə gəlməsin, yoxsa qəbrim od tutub yanar".

Aygün: - Bağışlayın, nə deyəcəyimi bilmirəm... Allah rəhmət eləsin, yeri behiştlik olsun.

Vahid: - Bacı, Rəşid evə nə vaxt gələr? Tez gələrsə, gözləyim.

Görüntü. Kamera Aygünün başını yerə dikdiyini görüntüləyir. Bu ara beşikdə yenicə yuxuya getmiş Rauf qurcalanıb ağlamağa başlayır. Aygün cəld oğlunu beşikdən götürüb qucağına alır. Yenidən qayıdıb masanın arxasında əyləşir. Titrək səslə...

Aygün: - Rəşid bir il doqquz aydı bu evi tərk edib. Başqa bir qadınla yaşayır zənnimcə. Çünki belə olmasaydı, oğlunun doğum günündə evdə körpəsinin yanında olardı.

Vahid (*təəccüb içində*): - Başa düşmədim. Nə danışırsınız. Rəşid sizi sevdiyi üçün atasına qarşı çıxıb kəndi tərk etdi, bu da sonu? Bəs bu körpənin günahı nədir?!

Görüntü. Aygün ovuclarını üzünə sıxıb, ağladığını gizlətməyə çalışır.

Kamera Vahidin üzündə dayanır. Aygünün ağlamasına görə Vahid pis olur. Sözü dəyişir.

Vahid: - Bu balaca balanın adını da soruşmadım.

Aygün (*gözlərini silir*): - Adı Raufdu. Adını qoyanda dedi ki, taleyi mənə oxşamasın. Amma...

Vahid (*uşağı qucağına alıb onun yaxasına şirinlik* (pul) *qoyur*): - Ay adıyla böyüsün! Pis günün ömrü az olar, bacı.

Görüntü. Hər ikisi qalxır. Vahid sonuncu dəfə Raufu öpüb anasına verir. Paltosunu geyinib, papağını başına qoyur. Qapıdan çıxmaq istəyərkən geri çevrilir...

Vahid: - Sağlıqla qalın.

**30**

Yeni bir sabah. Rəşid başını-üzünü ovuşduraraq masa arxasında əyləşib. Aygün çayı onun qənşərinə qoyur. Özü də stul çəkib oturur. Diqqətlə Rəşidin gözlərinin içinə baxır. Birdən Rəşidin gözü Aygünə sataşır. Özündən çıxır.

Rəşid (*əsəbi*): - Bilirsən nə var, dalımca xəbər-zad göndərmə. İstədiyim vaxt gələcəm, istədiyim vaxt gedəcəm. (*Barmağını masaya vuraraq*) Bunu birdəfəlik yadında saxla! Nə səni, nə də bu evi görmək istəmirəm, bunu da bil. Məni isə rahat burax! (*çayı xortultu ilə içməyə başlayır*).

Kadr Aygünün qəzəbdən titrəyən dodaqlarını görüntüləyir.

Aygün (*titrək səs tonunda*): - Rəşid, olanlarda məni niyə suçlandırırsan. Axı biz bir-birimizi xoşbəxt edəcəyimizə söz vermişdik. Olanlarda bu körpənin günahı nədir ki, başlı-başına buraxıb gedibsən?! Nə öldüsündən xəbərin var, nə qaldısından. Heç düşünmürsən də ki, nə yeyir-nə içir, sağlamlığı nə yerdədir?

Görüntü. Rəşid Aygünün sözlərini qulaqardına vurur. Cibindən siqaret çıxarıb damağına qoyur. Kibritlə onu alışdırıb tüstülətməyə başlayır.

Kamera Aygünün ayağa qalxdığını görüntüləyir.

Aygün: - Susursan!.. Əmin oğlu Vahid gəlmişdi. Atan rəhmətə gedib, kəndə getməyin vacibdir.

Görüntü. Rəşid cəld ayağa qalxır. Tələsik qapıdan çıxaraq qapını arxasınca çırpır. Aygün onun dalınca qapını açıb çığırır: - Rəşid, mənə bu zülmü etmə! Sənin övladın var, Rəşid!

Kadr. Aygün özünü qapıya sıxıb ağlaya-ağlaya dizi üstə yerə çökür. Dizlərini qucaqlayıb hönkürür.

Aygün: - Gedəsi yerim olsaydı, sənə bir belə yalvarmazdım, Rəşid. Doğrudanmı, sən məni heç sevməyibsən? Doğrudanmı o sözlər saxta deyilibmiş? Mən heç, barı körpənə rəhmin gəlsin. Qoyma onu atasız böyüyə!

Yenidən hönkürür.

Ekrana iri hərflərlə yazılır:

**Bir il də ötdü**

**31**

Fon (*Aygünün səsi*): - Kaş ki, Rəşid bu gün əvvəlki sevgisinə dönüb, həmişəki Rəşid olaydı.

Panorama. Masa bəzədilib. Süfrədə tort, üstündə şamdanda “2” rəqəmi qoyulub.

Görüntü. Aygün süfrəyə bardaqları, qoşqabları səliqə ilə düzür. Masanın ortasındakı güldana çobanyastığı çiçəklərini qoyur. Tez-tez divardan asılmış saata baxır, arada-bərədə pəncərənin pərdəsini kənar edib bayıra boylanır.

Fonda Aygünün səsi: - Kaş kim isə... Bir Allah bəndəsi... Gülərüzlə, baməzə tərzdə qapımızı açıb içəri girəydi.

Bu ara telefonun zəngi çalır. Aygünün səsi fondan yığılır.

Görüntü. Aygün cəld dəstəyi götürür.

Aygün: - Alo, Sizə kim lazımdır?

Telefonda qadın səsi eşidilir.

Səs: - Salam. Bağışlayın, mənə Rəşid lazımdır. Evdədi?

Görüntü. Aygün donmuş vəziyyətdə susur.

Telefondan "Alo... alo" səsləri eşidilir.

Aygün: - Rəşid ki, səninlədir, ay evdağıdan ləçər! Deyəsən başqa kişilər ürəyini vurub, indi də Rəşidi ələ keçiribsən?! Hərəkətlərindən utanırsan heç?!

"Dud-dud, dud-dud". Telefonda qudok səsi gəlir. Aygün dəstəyi hirslə yana tullayır.

Görüntü. Aygün gözündən yanağına süzülən yaşı silir. Bu ara oğlu Rauf qaçaraq onun qucağına hoppanır. Aygün onun üz-gözündən öpür. Sonra bəzədiyi süfrəyə yaxınlaşır. Bişirdiyi tortdan bir çəngəl alıb Raufun ağzına qoyur. Rauf şirin-şirin yeyir. Aygün onu təkrar öpür və taqətsiz halda stula əyləşir, Rauf onun qucağından sürüşərək düşüb qaçır. Aygün əlini çənəsinə dayaq edib, fikrə dalır. Gözlərinin önündə Rəşidlə evlilikləri barədə əminliklə danışdıqları, bir sabah sübh ertədən ailədən xəbərsiz Rəşidə qoşulub evdən qaçdığı və bu komaya pənah gətirdiklərinin ilk günləri canlanır.

(*kom. qrafiki*). Ekranda sonuncu xoşbəxt görüntü. Aygünün fonda səsi ucalır.

**32**

Fon (*Aygünün səsi*): - Nə xoşbəxt imişəm bir zaman, Allah! (*qapının taqqıltı səsinə yuxudan ayılmış kimi cəld qapıya tərəf çevrilir*).

Görüntü. Qapı açılır. Rəşid bir sarışın qızla içəri girir. Yetər-yetməz Rəşid Aygünə bir sillə vurur. Aygün yerə yıxılır. Rəşid onun saçını əlində düyünləyib, ev boyu sürüməyə başlayır.

Balaca Raufun "ana, ana" deyən hayqırtısı otağı başına götürür. Uşağın anasını Rəşidin əlindən almaq üçün göstərdiyi cəhdlər görüntülənir. Aygün çığırır, çabalayır, Rəşidin əlindən qurtulmağa çalışır. Rəşid şalvarının belindən qayışı açıb qayışla, yumruqla, yaxud təpiklə yerdə yıxılmış Aygünün belinə, böyrəklərinə vurmaqda davam edir.

Kamera qapının cəftəsinə söykənib onları seyr edən sarışın qızı görüntüləyir. Qız ağzındakı saqqızı biədəb görüntü ilə çeynəyərək, dırnaqlarını təmizləyir. Rəşid Aygünü döydükcə sarışın qız ləzzət alıb gülür.

Kamera Raufun anasının üstünə sərilib onun boynunu bərk-bərk qucaqladığını görüntüləyir. Rəşid Aygünü döydüyü qayışı qəzəblə yerə tullayır.

Yerdə taqətsiz, uzanılı vəziyyətdə qalmış Aygün birtəhər, yarımoturaq qalxır. Oğlunu bağrına basıb ağlayır.

Rəşid: - Eşit məni, qancıq! Şələ-şüləni də yığışdırıb cəhənnəm ol bu xarabadan! Gözüm səni görməsin!

Görüntü. Aygün üzünə dağılmış saçlarını kənara edib, boğuq səslə...

Aygün: - Rəşid, niyə belə edirsən? Mən hara gedim? Bu körpəni özümlə hara sürüyüm? İndilikdə mənim səndən savayı bir kimsəm yoxdur, bunu bilirsən. Mən cəhənnəm, barı bir balana rəhmin gəlsin, Rəşid!

Görüntü. Sarışın qız Rəşidin əlinin içini üfləyir. Bintlə sarıyır. Rəşid geri dönmədən...

Rəşid: - İkiniz də cəhənnəm olun!

(*Bu ara kamera sarışın qızı sevinib-gülən vəziyyətdə görüntüləyir*).

**33**

Aygün birtəhər ayağa qalxıb sarışın qızın üstünə tərəf yeriyir.

Aygün: - Sən də qadınsan. İçində ana xisləti var. Ürəyin necə sakit olar körpə bir uşaqla çarəsiz bir ana isti evindən soyuq, ucsuz-bucaqsız çöllərə düşsün? Susma, cavab ver, qancıq.

Görüntü. Aygün sarışın qızın qollarından tutub sirkələyir. Qız Aygünün sinəsindən itələyərək onu özündən kənarlaşdırır. Rauf cəld anasını qucaqlayır. Rəşid yenidən Aygünün qolundan yapışıb onu bayıra atmağa çalışır.

Rəşid: - Əlimdən xəta çıxmamış cəhənnəm olun! Nə səni, nə də oğlunu bu evdə görmək istəmirəm! İtilin!

Rəşid Aygünlə Raufu bayıra atır.

Aygün geri dönüb sarışın qıza (Könülə) tutarlı söz deyir.

Aygün: - Elə bilmə ki, sən də bir gün görəcəksən? Yox, bu, sənə də qismət olmayacaq. Çünki səni ömrüm boyu lənətləyəcəyəm. Mənimki ata üzünə həsrət qalacaqsa, səninki də ana üzünə həsrət qalar, inşaallah!

Rəşid qapını onun üzünə çırpıb bağlayır. Aygün qapını döyəcləməyə başlayır.

Aygün: - Rəşid, başının üstündə Allahı gör! Aç qapını, Rəşid! Aç! Balana rəhmin gəlsin!

Görüntü. Aygün taqətsiz halda qapının arxasında yerə çökür. Raufu bağrına basıb hönkürür.

Yeni kadr, Aygün avtobusun axırıncı oturacağında əyləşib. Raufu dizi üstündə oturdub. Hara isə gedir.

Kamera avtobusun şüşəsindən göy üzündəki qara topa buludları görüntüləyir.

Fonda Aygünün səsi ahəstə-ahəstə səslənir.

Fon (*Aygünün səsi*): - Rəşid, yara kimi içimizdə inləyən yarımçıq qalmış nəğməmizdəmi ruhunu heç titrətmir? O nəğməni yenidən sənin dodaqlarından eşitmək mənə həyat verərdi. Amma sən bütün bunları bir başqasına qurban verirsən. Yaşadığımız o günləri heç xəyalına gətirirsənmi? Ürəyimdə ilk dəfə sən məskən saldın, Rəşid, bil ki, bu ürəkdə bir qeyrisi üçün yer yoxdur, olmayacaq da.

**34**

Fon (*Aygünün səsi*): - İstəməzdim qəlbimdə bəslədiyim alovlu duyğularım gözlərimdə qəmli göz yaşlarına bələnsin. Bunu istəmirəm, Rəşid!..

Görüntü. Hava qaralıb.

Kamera Aygünün ayaqlarını görüntüləyir. Aygün hündür bir binanın qarşısında dayanır. Yuxarıya, altıncı mərtəbənin pəncərəsindən bayıra sızülən zəif işığa diqqət yetirir. Sonra bloka girib pillələri qalxmağa başlayır.

Kamera, üstündə “86” rəqəmini və “V.B.Mehralıyeva” lövhəli boz dəmir qapını görüntüləyir. Kadrda Aygünün qapının zəngini basdığı iri planda görüntülənir. Qapı açılır.

Kamera Elmiri aşağıdan yuxarı görüntüləyir.

Elmir: - Bu ev sənə yaddır, nə üzlə bu qapını döydün?

Aygün: - Bilirəm, üzüm yoxdur, Amma sənsə məni çölə atma, qardaş, əlacsızam.

Elmir: - Sənə bu da azdı!

Qapını Aygünün üzünə bağlayır.

Görüntü. Aygün balasını bağrına bərk-bərk basıb, pillələri enir. Binanın qarşısındakı dayanacaqda oturub avtobus gözləməyə başlayır.

Fonda səsi ucalır.

Fon (*Aygünün səsi*): - Məhəbbət yer üzünü işıqlandıran günəşi, gecələrimizi nurlandıran ayı öz yerinə qoyaraq asimanı qaranlığa bürüyəcək qədər güclüdür. Mən bu məhəbbətimlə həyatımı əbədi zindana çevirmiş, ürəyimin səsini dinləyərək uçuruma yuvarlanmışam.

Görüntü. Avtobus gəlir. Aygün Raufun əlindən yapışıb. Onlar avtobusa minirlər. Aygün arxa sırada, həmişəki yerində oturaraq fikrə dalır.

Fonda isə Aygünün səsi davam edir.

Fon (*Aygünün səsi*): - Baxmayaraq ki, bir ömür qədər yaşanacaq məhəbbətimi tapdığıma əmin idim, sən demə, bizim sevgimiz qəfil gələn leysan, yaz yağışı imiş. Gəldi və yer üzünü çirkablardan təmizləyərək yeni bir aləm yaratmaq cəhdində oldu. Fəqət... Deyəsən, əminliklə yəqinlik arasındakı fərqi elə də anlamayaraq səhv etmişəm.

## 35

Görüntü. Aygün Raufu bağrına basıb iş axtarmaq üçün şəhərin canına düşür.

Aygün bir fabrikə daxil olur. Qəbul otağında oturub müdirin qəbulunu gözləyir. Rauf ağlayır. Aygün onu sakitləşdirməyə çalışır. Katibə hərdənbir gözünün altından tərs-tərs gah uşağa, gah da Aygünə baxır.

Fonda isə otağa yayılan sakit, həzin musiqilə yanaşı, Aygünün səsi eşidilir.

Fon (Aygünün səsi): - Allahım, sən böyüksən! Məni bu yolda pərt etmə! Başqa uşaqlar kimi mənim Raufumun da xoşbəxt yaşamaq haqqını əlindən alma.

Növbə Aygünə çatır. O, uşaq da yanında otağa daxil olur. Müdir ona baxmadan əli ilə oturmaq üçün yer göstərir. Özü isə qarşısındakı kağızları gözdən keçirir. Müdirin telefonu səs salır. Müdir dəstəyi götürür. Telefondan nə söylədiyi anlaşılmayan qadın səsinin hənirtisi duyulur. Müdir telefondakını dinləyə-dinləyə aram-aram gah Aygünü, gah da onun yanındakı körpəni süzür. Narazı halda başını bulayıb, kağızları yana atır.

Aygün müdirin nə deyəcəyini gözləmədən uşağın əlindən yapışıb bikef halda qapıdan çıxır.

Yenə avtobusda əyləşib hara isə gedir.

Fonda yenə Aygünün səsi davam edir.

Fon (Aygünün səsi): - Hər qaranlıq gecənin bir işıqlı sabahı var. İnşaallah, mənə də bir gün bir ümid qapısı açılar.

Kamera Aygünü başqa bir müəssisənin qəbul otağında növbə gözlədiyi vəziyyətdə görüntüləyir. Növbə ona çatır. İçəri keçir. Sahibkar əlindəki kağızlara gözucu nəzər sala-sala Aygünü başdan-ayağa süzür

Sahibkar: - Uşaq sizinkidir? Allah gözü dolusu versin.

Aygün (*başını qaldırmadan utancaq*): - Sağ olun, Allah razı olsun.

Sahibkar kreslosunda oturub yellənməyə başlayır: - Ali təhsillisiniz? Şirkətimizin sizin kimi savadlı və gözəl xanımlara ehtiyacı var (*Siyirtmədən konverti çıxarıb masanın üstünə fırladır*).

Sahibkar: - Aygün xanım, hələ ki bu kiçik bəxşişi qəbul edin, sonrası mütləq yaxşı olacaq.

Görüntü. Kamera Aygünün əsəbdən titrəyən dodaqlarını görüntüləyir. Ciddi bir görkəm alıb...

**36**

Aygün: - Sizi başa düşmədim!

Sahibkar (*göz-qaşla danışmaqda davam edərək*): - Gözəl xanım, burda başa düşməməklik nə var ki...

Aygün: - Bu bəxşiş qoyun sizdə qalsın! Lazımınız olar! Gedək, oğlum! (*Raufun əlindən tutub hirslə otaqdan çıxır. Qapı arxasınca bərk çırpılır*).

Kamera Aygünün dayanacaqda avtobus gözlədiyini görüntüləyir. Rauf yerdən çınqıl daşları əlinə götürüb yaxınlığa qonan çöl göyərçinlərini daşlayır. Avtobus gəlir. Aygünlə Rauf minirlər. Aygün oğlunu da qucağında oturdub. Fikrə gedib.

Fonda Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - İnsanı yoxdan var edən Xaliq bir gün mənim kimi çarəsiz olanları da sıxıntılardan xilas edər, inşaallah!

Görüntü. Aygün başqa bir şirkət rəhbərinin qəbul otağında növbə gözləyir. Rauf isə sakit durmaq bilmir. Darıxdığından hey ağlayır. Aygün onu qucağına götürüb sakitləşdirmək istəsə də, uşaq sakitləşmək bilmir. Bütün bu hadisələri kənardan seyr edən bir ağbirçək, Aygünə yaxınlaşır.

Qadın: - Qızım, burda hər kəsə iş var. Amma sən əli uşaqlısan, bu sənə işləməyə imkan verməyəcək. Gərək uşağı nənəsinin, ya da atasının yanında qoyub, işə gələsən.

Kamera əvvəlcə Aygünün diqqətlə qadına baxdığını, sonra gözlərinin dolduğunu görüntüləyir.

Aygün cəld oğlunu qucağına alıb otaqdan çıxır.

Görüntü. Aygün yol kənarındakı parkda oturub, Raufun gül-çiçəklərlə oynamasına tamaşa edir. Az əvvəl şirkətdə rastlaşdığı qadının ona söylədikləri gözünün önünə gəlir. (kom. Qrafik.) Fonda səsi ucalır).

**37**

Fon (*Aygünün səsi*): - Mən buna dözə bilərəmmi?

Görüntü. Aygün diqqətlə Raufun şən, şıltaq hərəkətlərini seyr edir. Rauf hərdənbir anasına baxanda, Aygün, saxta da olsa, onun üzünə gülümsəyir.

Fonda Aygünün səsi davam edir.

Fon (*Aygünün səsi*): - Həsrətlə gözlədiyim, çətinliklərlə bəsləyib böyütdüyüm, qoxusundan hələ də doymadığım övladımdan, işdən ötrü necə imtina edə bilərəm?

Kamera parkda gəzişən anaları və analarının üstünə sevinclə, fərəhlə qaçışan körpələri görüntüləyir. Kimi övladının əlindən tutub gəzdirir, kimi uşağını qucağında oynadır...

Aygün bir-bir onları seyr edir.

Fon (*Aygünün səsi*): - Yox! Bunu heç bir ana edə bilməz! (Ayağa qalxır ki getsin, yenə bayaq rastlaşdığı qadın gözlərinin önünə gəlir. Təkrar oturur. Gözlərində yaş gilələnir). Əgər mən ev kirələyib, oğlumu evdə qoyub işə getsəm?.. Yox, bunu edə bilmərəm. Balam evdə tək qalar, xəta törədər. Bəs onda mən nə etməliyəm? Bu işi də əldən çıxarsam, balam ac qalacaq... Aman Tanrım, mənə yol göstər!

Aygün qalxıb uşaqlara qarışmış oğlunun yanına gedir.

Fondakı səsi yığılır.

Fon (*Aygünün səsi*): - Rauf, ananın gül balası, hava qaralır, bəsdir oynadığın, gedək.

Kamera Aygünü yenə avtobusda görüntüləyir. Rauf başını anasının sinəsinə qoyub. Mışıl-mışıl yuxudadır. Aygün yenə fikrlərlə qol-boyun olur.

Fonda (*Aygünün səsi*): - Oğlum oxumalıdır. O təhsil alıb, xalqına yararlı insan kimi yetişməlidir. Bəlkə onu atılmış uşaqların evinə verim?.. Yox, yox! Eşidib-bilən məni qınayar.

Kamera Aygünün oğlunu bağrına sıxdığını görüntüləyir. Fonda isə səs davam edir.

Fon (*Aygünün səsi*): - Amma mən bunu etmək məcburiyyətindəyəm. Balamı çabaladığım girdaba özümlə birgə ata bilmərəm. İnşaallah, iş taparam, ev kirələyərəm, sonra Raufumu da Uşaq evindən alaram. Həm oxudaram, həm də işləyərəm. Məncə, doğru yol budur.

Görüntü. Aygün avtovağzalın sakit bir küncündə boş skamyada oturub. Əynindən plaşını soyunub yatmış oğlunun üstünə salır. Başını oğlunun başına söykəyib fikrə gedir.

**38**

Yeni bir sabah. Panorama. Uşaq evinin ikimərtəbəli binası. Aygün ağır addımlarla binanın girişindən içəri daxil olur. Qəbul otağındakı gülərüz xanıma yaxınlaşır.

Aygün: - Salam, xanım. Mən uşağımı sizin Uşaq evinə vermək istəyirəm.

İşçi: - Övladınızın doğum haqqında şəhadətnaməsini verə bilərsinizmi?

Aygün sənədi çantasından çıxarıb qadına uzadır. Qadın qeyd dəftərinə nə isə yazmağa başlayır.

Kamera Aygünün xısın-xısın ağladığını görüntüləyir.

İşçi: - Nə isə narahatlığınız var, xanım? (*Aygün üzünü gizlədib cavabdan yayınır*) Xanım, hər şey qaydasındadırmı?

Aygün: - Heç də yox.. Bəlkə də mən bu gün dünyanın ən pis anasıyam. Amma çabaladığım girdablarda məsum, günahsız bir körpənin də düşərək boğulmasını görmək istəmirəm...

İşçi: - Xanım, siz nə danışırsınız?!

Görüntü. Aygünün Rəşidlə başına gələn ürəkbulandırıcı hadisələr, Aygünün ata evindən də rədd edilməsi, sonra şəhərdə iş axtarması, bir şirkət müdiri tərəfindən ona "pis yol" təklif olunması təkrar-təkrar ekranda canlanır.

(kom.qrafiki). Kamera işçinin diqqətlə əlini çənəsinə dayaq edib, Aygünə qulaq asdığını görüntüləyir.

Aygün: - Baxın, mənim düşdüyüm girdab budur. Övladımın gələcək həyatının təhlükəsiz olması, onun sağlam, savadlı böyüməsi üçün mən bu yolu seçməyə məcbur qaldım...

**39**

İşçi: - Üzülməyin, xanım, siz doğru olanı seçim edibsiniz. Hələlik ərizəniz kifayətdir, övladınızın Uşaq evinə qəbul edilməsini sonra tam sənədləşdirəcəyik. Arxayın ola bilərsiniz. Övladınız əmin əllərdə bəslənəcək. Sizə isə bu ağır həyat sınaqlarında yalnız səbrli olmağı arzu edərdim.

Aygün: - Çox sağ olun, Sima xanım. Sizin kimi mərhəmətli anaların qarşısında baş əyirəm.

Sima cəld ayağa qalxır.

Sima: - Əslində sizin kimi anaların qarşısında bizlər baş əyirik. Kimisi övladını səbəbsiz yerə bura atıb getdiyi halda, Siz məcburiyyət üzündən edirsiniz. Bu sıxıntıdan təkbaşına qurtularaq, günahsız bir cocuğun girdablarda boğulmayacağı uğrunda vicdanınızı zamanla mübarizəyə səsləyərək bu addımım atırsınız.

Aygün (*gözləri dolur*): - Siz ki, güclü ikən gücsüz, savadlı ikən aciz, qüruru əzilmiş bir ananı bu qədər ucaltdınız, sizə nə deyəcəyimi bilmirəm (*Simanı qucaqlayır*).

Kamera Uşaq evinin həyətində Raufun uşaqlarla oynadığını görüntüləyir. Rauf uşaqlar üçün quraşdırılmış gah bu, gah da başqa bir attraksiona minib əylənir.

Kamera iri planda Aygünlə Uşaq evinin işçisi Simanı görüntüləyir.

Sima: - Görürsünüzmü, Aygün xanım, oğlunuz qısa bir zamanda bizim uşaqlara qaynayıb-qarışdı.

Aygün (*əlinin dalı ilə gözündə donmuş yaş giləsini silir*): - Mənim oğlum istiqanlıdır, Sima xanım, tez alışır insana.

Sima: - Aygün xanım, sizə bir bacı məsləhəti, Raufun başı uşaqlarla oynamağa qarışıb, gözünə görsənmədən arxa qapıdan getsəniz yaxşı olar.

Aygün (*karıxmuş halda*): - Bilirəm, Sima xanım! Canımın bir parçasını burda qoyub gedirəm (*gözləri dolur*).

**40**

Sima (*onu qucaqlayıb təskinlik verir*): - Bacı, gözün arxada qalmasın. Mən nə qədər sizi əvəz edə bilməsəm də, amma inanın vicdanıma, öz övladım qədər Raufu sevəcəm (*kövrəlir. Qısa aradan sonra*) Hərçənd ki mənim övladım yoxdur, amma inanın mənə, Rauf bu gündən mənim də balamdır (*təkrar qucaqlaşırlar*).

Aygün: - Sima xanım, mən mütləq qayıdacam. Mən övladımın sağlam böyüməsi, Raufumu bu acılardan xilas etmək üçün gedirəm... Oğlum sizə əmanət.

Görüntü. Aygün göz yaşları içində, dəmir barmaqlıqlardan yapışıb əlini sürüşdürə-sürüşdürə Uşaq evini tərk edir.

Kamera Aygünü avtobusda görüntüləyir. Aygünün siması tamam dəyişmiş bir haldadır. İndi Aygün bu amansız həyatı döyüşə çağırırmış kimi gözlərindən acılar dolu göz yaşı axıdaraq yox, od, qisas qığılcımları çaxaraq gedirdi. Həyatla qoç döyüşünə...

Ekranda yazılır:

**Bir həftə ötdü**

Görüntü. Şirkət. Aygün hansı bir zərbəni isə dəf etmiş şəxs kimi ötkəm bir görkəmdə qəbul otağına girir. Katibəyə yaxınlaşır.

Aygün: - Salam, xanım. Bəlkə yadınıza düşdüm. Bir həftə bundan öncə iş üçün şirkətinizə müraciət etmişdim. Siz mənə vakansiya yerlərin bu günlərdə məlum olacağını söyləmişdiniz.

Katibə (*ani fikrə gedir*): - Ah-ha... yadıma düşdü. Amma gərək məni üzrlü hesab edəsiniz. Siz yenicə burdan ayrılmışdınız ki, ofisin baş meneceri vakansiyaların sabahdan başlanacağını elan etdi. Sizin isə bizdə əlaqə nömrəniz olmadığı üçün sizi qeydiyyata götürə bilmədim...

**41**

Aygün: - Yəni, deyirsiniz...

Katibə: - Bəli, xanım. Boş yerlərin hamısı tutulub. Üzrlü hesab edin (*qarşısındakı dosyeləri incələməyə başlayır*).

Kamera Aygünü donmuş halda görüntüləyir. Əli ilə üz-gözünü ovcalayan Aygün pərt halda çıxır.

Yeni kadr. Aygün yolun kənarındakı parkda sakit bir guşədə skamyada oturub fikrə gedib. Bir anlıq Uşaq evində Sima xanımla olan söhbətlərini, övladından necə ayrıldığını göz önünə gətirir.

(kom. qrafiki). Səliqə ili geyinmiş nürani - ağ saçlı, baş yaylığı boynuna düşmüş, əlində çanta bir qadın (Asiman) Aygünün yanında əyləşir. Aygünü diqqətlə süzür. Aygün qadına baxıb, üzündə azacıq təbəssüm oyadır. Qadın sinəsində bağla sallanan eynəyini cib dəsmalı ilə silib gözünə taxır.

Asiman (*köks ötürərək*): - Aman bu qocalığın əlindən, bir-iki addım yol gedirsən, yorulub əldən düşürsən. Bir yandan da gözlərimin zəifliyi. Yolu keçənəcən iki dəfə kəlmeyi-şəhadətimi oxyuram (*hər ikisi gülür. Aygün acı təbəssümlə*)

Aygün: - Allah canınızı sağ eləsin, yardımçınız olsun!

Asiman: - Çox sağ ol, qızım! Ürəyimə yaman yatdın, kimsən, nəçisən?

Aygün: - Adım Aygündü. Ali təhsilliyəm, amma hələ ki işləmirəm.

Asiman: - Eh, ay qızım, zəmanə elə gəlib ki, indi diplomlular işsiz, pulunu balta kəsməyənlərinsə şəhərin hər nöqtəsində bir şirkəti, zavodu, fabriki...

Aygün: - İnşaallah, işsizlər də iş tapar yəqin.

**42**

Asiman: - Ay qızım, səninlə ünsiyyətdə olmaq necə də xoşdu. Inan ki, ruhum dincəldi. Bu gün uşaqlar yaman əsəbləşdiriblər məni.

Aygün: - Yəqin dərsə hazır olmayıblar?!

Asiman (*təəccüblə*): - Qızım, hardan bildin ki mən müəlliməm?

Aygün: - Bunu bilməyə nə var. Sizin saçlarınızın hər teli illərin yollarında ağarmış, qocaman bir müəllim obrazından soraq verir.

Asiman: - Qızım, sənin nitqin ilahi möcüzədir.

Aygün: - Sadəcə zamanın sərt yelkənlərində qayalara çırpılaraq yonulmuş bir nitqdir. Mən də müəllimərm. APİ-ni bitirmişəm. Sonra ailə həyatı, uşaq... Problemlər məni elə üstələdi ki, işləyə bilmədim. İndi də...

Asiman: - Sən nə danışırsan, qızım. Təhsilimizin sənin kimi gənc kadrlara həmişə ehtiyacı var. Harada qalırsan, neçə övladın var?

Aygün: - Bircə oğlum var idi. Evim də ki, oturduğumuz bu skamiyadı.

Asiman: - Başa düşmədim. Yəqin mənimlə zarafat edirsən. Qalx, qızım, bu ətrafda yaxın bir rəfiqəmin qəlyanaltısı var. Bir stəkan çay içib bir az söhbətləşərik. Dur, qızım, dur...

Fonda həzin musiqi. Hər ikisi qalxıb gedirlər.

Görüntü. Qəlyanaltı. Salonun yaşıl bağa açılan pəncərəsi önündə qoyulmuş masada əyləşiblər.

Fonda musiqi yığılır. Aygün sözünü bitirmiş kimi son kəlməsini tamamlayır.

**43**

Aygün: - Bax belə, Asiman xanım. Bu da mənim hələ başlamamış bitən acı həyat hekayətim.

Asiman: - Qızım, sən düz fikirləşmirsən. Sənin həyatla əsl mübarizən hələ bundan sonra başlayır. Zaman bizləri nə qədər

qamçılasa da, sərtləşmiş ürəyimiz daha dözümlü olur. Həyatın hər sınaq imtahanına hazır olmalıyıq, qızım. Özünü üzmə. Səni günü sabahdan işlədiyim məktəbdə işə qəbul etdirərəm. Məktəbin direktoru çox səmimi, mərhəmətli bir cavandır. Həm də mənim şagirdim olub. Belə bilirəm ki, məni məyus etməz.

Aygün (*gözləri dolur*): - Sizin bu yaxşılığınız qarşısında acızəm, Asiman xanım. İndiki zamanda insanın tanımadığı bir şəxsə bu yaxşılığı etməsi, mənə hələ də yuxu kimi gəlir.

Asiman (*gülümsünür*): - Məsləhət yaradanındır, qızım. Biz vasitəçilərik. İç çayını, soyutma. İnşaallah, sabah bu işi yoluna qoyarıq... Hə, bir də deyim biləsən ki, qızımın şəhərdə, elə məktəbin yaxınlığında ikiotaqlı bir mənzili var. Özləri xaricdədirlər. Hələlik orada yaşayarsan. Balanı da Uşaq evindən alıb yanına gətirərsən.. Darıxma, qızım, Allah zülmə dözüb səbrli olanları sevər.

Aygün: - Heç bilmirəm, sizə necə minnətdarlıq edim. Allah sizdən razı olsun, Asiman xanım (*qəhər onu boğur*).

Yeni sabah. Panoroma. Şəhər məktəbi. Məktəbin qarşısında xeyli məktəbli görüntülənir.

Kamera məktəbin giriş qapısında adda-budda görünən, qoltuğunda sinif jurnalları olan müəllimləri də görüntüləyir.

**44**

Görüntü. Aygün şagirdləri yara-yara əynində orta məktəb qanunlarına uyğun olmayan bir geyimdə, giriş qapısının ağzında qürurla dayanmış Asiman müəlliməyə tərəf addımlayır.

Kamera Aygünlə Asimanın görüşdüklərini görüntüləyir.

Asiman: - Xoş gəlmisən, qızım.

Görüntü. Asiman müəllimə əli ilə Aygünün geyimini yoxlayır. Aygün bu vəziyyəti hiss etmir.

Asiman: - Gedək, qızım.

Kamera onları Asiman müəllimənin otağında görüntüləyir. Divarda dünyanın siyası xəritəsi, pəncərənin önündə dibçəklərdə bir-birindən gözəl gül-çiçəklər, iri kitab rəfi, qalaq-qalaq yığılmış dəftərlər, qlobus, yanında qum saatı və kompas...

Kamera öncə Aygünün qum saatına, sonra masanın üstündə qalaqlanmış dəftərlərə toxunduğunu görüntüləyir.

Asiman da bunu görür.

Asiman: - Bu dəftərlərin az qala yarım əsr yaşı var, qızım. Uşaqlar sinifdən-sinfə adladıqca dəftərləri, bax, mənim bu masamın üstündə əbədi xatirəyə çevrilir.

Aygün: - Həqiqətən də maraqlıdır.

Görüntü. Asiman əlində bir dəst qara kostyum Aygünə yaxınlaşır.

Asiman: - Qızım, məktəbin bəzi qanunlarını xoşlamasam da, buna əməl etməyə məcburuq. Al, bu kostyumu geyin.

Aygün: - Asiman müəllimə....

Asiman: - Bu bir borcdur, qızım. Məktəb müəllimlərinin uniformaları eyni olmalıdır. İnşaallah, ilk maaşından formanın pulunu qaytararsan (*gülümsünür*).

**45**

Aygün Asiman müəllimin otağında onun verdiyi paltarı geyinir.

Kamera Aygünü səliqəli uniformada ayaqdan-başa görüntüləyir.

Asiman: - Çox gözəl yaraşdı. Hə, indi də gedək qəbula (*gedirlər*).

Görüntü. Qəbul otağı. Asimanla Aygün otağa daxil olan kimi katibə ayağa qalxır.

Asiman: - Sabahın xeyir, qızım. Direktor otağındadırmı?

Katibə: - Bəli.

Kamera. Asimanla Aygün direktorun otağına daxil olurlar. Direktor (Rəvan) cəld ayağa qalxır. Aygünə gözucu baxıb Asiman müəllimə oturmaq üçün yer göstərir. Asimanla Aygün əyləşirlər.

Rəvan: - Asiman müəllimə, necəsiniz? Səhv etmirəmsə, bu gün sizin dərsiniz olmamalıdır.

Asiman: - Oğlum, bu gün önəmli iş üçün gəlməli oldum. Bu qızımın adı Aygündür. Pedaqoji institutun sinif müəllimliyi ixtisasını bitirib. Dünyagörüşlü xanımdır. Düşündüm ki, Aygün müəllimə bizim məktəbdə işləsə, pis olmaz.

Rəvan: - Asiman müəllimə, sizin məsləhət gördüyünüz önəm məktəbimizin tərəqqisidir. Mən bu təklifi olduqca xoş məramla qəbul edirəm... Aygün müəllimə, aramıza xoş gəldiniz!

Aygün: - Çox sağ olun. Mənə əvəzsiz olan böyük borcun qarşılığını necə ödəyəcəyimi bilmirəm.

Rəvan: - Siz nə danışırsınız, Aygün müəllimə. Asiman müəllimə hamımızın ağbirçəyidir. Həm də mənə altı il coğrafiyadan dərs deyib. Bü gün Asiman müəllimənin məktəbimiz üçün gərəkli bildiyi sizi, bizim, şəxsən mənim borcumdur ki işlə təmin edim.

**46**

Asiman: - Allah sizdən razı olsun, Rəvan müəllim! (Aygünə) Qızım, gedək səni sinfinlə tanış edim.

Qalxırlar.

Fonda həzin musiqilə yanaşı Aygünün də səsi ucalır.

Fon (*Aygünün səsi*): - Allahım, səndən çox razıyam! Nə yaxşı ki, (*Görüntü. Asiman Aygünü dərs deyəcəyi ibtidai sinfə salır. Aygün uşaqlarla tanış olur. Fonda isə səs davam etməkdədir*) bu fani dünyada yaxşılar da varmış. Hamı daşürəkli olsaydı, bəşəriyyət məhvə doğru sürüklənərdi.

Ekranda yazılır:

**Daha alti ay ötdü**

Panorama. Rəşidin daxması.

Görüntü. Rəşid əlində stəkan masanın arxasına keçib çay içməyə başlayır. Könül isə televizorun qarşısında əyləşib dırnaqlarını pedikür edir. Ağzındakı saqqızı biədəb tərzdə çeynəyir. Arabir Rəşidə baxıb gözlərini süzdürür.

Fonda Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - Yeni ailəlik həyatı Rəşidi sanki dondurmuş, əslində onu Könül üçün dəmirdən düzəldilmiş robota çevirmişdi.

Görüntü. Rəşid bikef halda siqaret yandırıb damağına qoyur. Ucalan tüstü Könülə pis təsir edir. Könül ayağa qalxıb əda ilə Rəşidə baxaraq, yan otağa keçir. Qapını da arxasınca çırpır.

Fonda Aygünün səsi davam etməkdədir.

Fon (*Aygünün səsi*): - Rəşidin bugünki həyatı qara qulun həyat tərzini xatırladırdı. Amma deyəsən, gec də olsa, qəflət yuxusundan ayılmağa başlamışdı.

Görüntü. Rəşid üzünü, başını ovcalayır. Əllərini qollarına daraq edib qoynuna qoyur və fikrə gedir. Bu ara qapı bərk döyülür.

Fondakı musiqilə Aygünün səsi yığılır. Rəşid qapını açır.

Kamera qapıda Vahidi əlində iri bir oyuncaq görüntüləyir.

Vahid: - Əmioğlu, üzünü görək (*içəri boylanır*). Hanı o gözəl oğlan? Ötən səfər də əliboş gəlmişdim.

**47**

Görüntü. Rəşid bikef halda, Vahidə heç nə demədən keçib əyləşir. Vahid içəri keçir. Gözləri balaca Raufu axtarır.

Vahid: - Səndən soruşuram, hanı Rauf balam?.. Rəşid, niyə cavab vermirsən?!

Görüntü. Könül yan otaqdan başını çıxarıb, uca səs tonunda.

Könül: - Rəşid, tez ol bayıra çıx rəfiqəmi qarşıla. Bizə gəlir. Özün də pəncərələri aç, otağın havası dəyişsin! (*təkrar qapını çırpır. Vahid təəccüb dolu nəzərlərlə Rəşidi süzür).*

Rəşid: - Rauf indi başqa yerdə yaşayır. Anasının yanında. (*siqareti damağına qoyub alışdırır. Dərindən iki qullab alır*).

Vahid: - O cür gözəl qızın yerinə bu ifritəyəoxşarı gətirmisən evinə?

Rəşid (*cəld qalxır. Vahid də onunla birlikdə*): - Həddini aşma, ağzının danışdığını qulağın da eşitsin.

Vahid (*mənalı baxışlarla ani olaraq Rəşidi süzür. Sonra qayibanə səs tonunda*): - Heyf o başdan ki, sən gəzdirirsən. Peşman olacaqsan, amma onda gec olacaq. Mənim Aynurla Arzuya yazığım gəlir. Qardaş deyən dilləri qabar olub. Qardaş isə gündə bir eşqə düşür.

Görüntü. Vahid sözünü bitirər-bitirməz, Rauf üçün aldığı oyuncağı da masanın üstündən götürüb, əsəbi halda evdən çıxaraq, qapını da arxasınca çırpır.

Kamera Rəşidlə Qalibi bir parkda görüntüləyir.

Fonda musiqi səsi. Rəşidlə Qalib nə isə danışırlar. Qalib əsəbli əl hərəkətlərilə sanki Rəşidi tənbeh edir. Fonda musiqi ilə bərabər Aygünün də səsi ucalır.

Fon (*Aygünün səsi*): - Hətta Rəşidin ən yaxın dostu Qalib də Rəşidi anlamaqda çətinlik çəkir. Ondan üz döndərmək həddindədir.

Görüntü: Qalib əli ilə kəskin rədd cavabı göstərib, Rəşiddən uzaqlaşır.

**48**

Fonda isə səs davam edir.

Fon (*Aygünün səsi*): - Hamı, hər şey Rəşiddən üz döndərirdi. Həyat indi onu elə bir sınağa çəkirdi ki, fələk də bu oyundan baş çıxara bilməzdi.

Görüntü. Rəşid damağında siqaret ağır addımlarla evə sarı gəlir. Evin qapısını aralı görüb addımlarını becidləşdirib içəri keçir. Könülün evdə olmadığını biləndə, əsəbi halda əlini yumruq edib masaya çırpır. Sonra yataq otağına keçir.

Kamera dolabda gizlədilmiş balaca, qara mücrünü görüntüləyir. Rəşid mücrünün içindən Aygünün tələbəlik illərinin fotolarını, birlikdə çəkdirdikləri foto-şəkilləri çıxarıb baxır. Kamera şəkilləri iri planda görüntüləyir. Sonra qəhərdən gözləri dolan Rəşidin üzündə cəmləşir.

Fonda bu dəfə Rəşidin səsi ucalır.

Fon (*Rəşidin səsi*): - Adını qəlbimdə gül butası kimi bəslədiyim Aygünüm.

Kamera Rəşidin əlini gözlərinə sıxıb için-için ağladığını görüntüləyir. Fonda isə Rəşidin səsi davam edir.

Fon (*Rəşidin səsi*): - Bilməzdim ki adın qədər ucalıb, məni həsrətdə qoyacaqsan. Hansı yerə enəcəyimi əvvəlcədən bilsəydim, kəndə dönüb mal-heyvan otarardım.

Görüntü. Kamera Rəşidin gözləri önündə Aygünlə ilk dəfə avtobusda rastlaşdıqları anları, ilk dəfə Azadlıq meydanında əl-ələ gəzişdikləri, dəfələrlə Aygünü institutdan alıb birgə evə gəldiklərini canlandırır. (kom. qrafiki) Fonda isə səs davam edir.

Fon (*Rəşidin səsi*): - Bundan belə səni uzaqdan sevməyi, toxunmadan ruhunu hiss edərək qovuşmağımız üçün səbr etməyi öyrənəcəm. Səni tapmayınca, özümə rahatlıq verməyəcəyəm. Bizim bir-birimiz üçün yarandığımızı sənsiz günlərimdə aydın dərk etdim.

Kamera bu ara Aygünü görüntüləyir. O, xoşbəxt görünürdü. Gah məktəbin dəhlizilə sinifə daxil olduğu, gah da dar, ensiz qumlu yollarla evə tələsdiyi görüntülənir.

Fonda həzin musiqi müşayiət olunur.

Yeni günəşli gün.

Panorama. APİ-nin binası. Kamera binanın qarşısında həsrətlə ona baxan Aygünü görüntüləyir. Aygün həyətdə, kölgəlikdə qoyulmuş skamiyaya yaxınlaşır.

**49**

Kamera Aygünün əllərini skamyanın söykənəcək taxtasına xəfifcə toxunduraraq titrəyə-titrəyə sürtdüyünü görüntüləyir. Bu ara Aygünün gözlərinin önündə Rəşidlə həmən skamyada oturub, şirin-şirin söhbət etdiyi anları canlandırır. (kom.qrafiki)

Aygün asta-asta pillələrlə ikinci mərtəbəyə dekanatlığa qalxır.

Kamera Aygünün ayaqlarını pillələrə necə asta-asta basdığını görüntüləyir.

Fonda Aygünün səsi ucalır.

Fon: (*Aygünün səsi*): - Əlçatmaz, ünyetməz xatirələrlə yaşayan xoşbəxt günlərim, hardasınız? Özüm öz əlimlə sizi hüznlü etdim.

Görüntü. Aygün "Pedaqogika" kafedrası sözləri yazılmış qapının önündə durur. Qapını astaca döyür. İçəridən kiminsə "Gəl!" deyən səsi eşidilir. Qapı astaca aralanır. Aygün utana-utana içəri daxil olur.

Kamera dosye rəfləri, qara mebellər düzülmüş masalar, qırmızı üzlü davamiyyət jurnalları, divarda psixoloji terminləri andıran sxemlər və şəkillər olan otağı, otağın baş tərəfində başı yazı dəftərlərinə qarışan, nürani, ağ saçlı, gözündə eynək, tələbkarlığı üz-gözündən bəlli olan bir müəllimi (Mayanı) görüntüləyir.

Aygün: - Salam!

Maya (*başını qaldırmadan*): - Nə lazımdır, qızım?

Aygün: - Diplomumu götürmək üçün gəlmişəm. Dedim gəlmişkən müəllimlərimlə də görüşüm.

Görüntü. Maya müəllimə astaca başını qaldırıb, özünəməxsus şəkildə eynəyini gözlərindən çıxarır. Aygünü diqqətlə süzür.

Maya: - Sənin institutu bitirməyin çoxdanın söhbəti olmalıdır.

Aygün: - Doqquz ildir.

**50**

Kamera Maya müəllimənin əlindəki qələmi astaca dodaqlarına toxundurub fikrə getdiyini görüntüləyir. Başqa bir masada əyləşib qəzet oxuyan Sənan müəllim qəzetdən ayrılıb, sükutu pozur.

Sənan: - Doqquz il? Bəs bu vaxt ərzində harda idin, qızım?.. Oxuyursunuz, diplomun ardınca isə yadınıza düşəndə gəlirsiniz. Belə olmaz.

Kamera Aygünün necə qızarıb başını aşağı dikdiyini görüntüləyir.

Maya: - Adın nədir, qızım?

Aygün: - Aygün. Aygün Mehralıyeva.

Maya (*təəccüblə*): - Necə-necə? Ola bilməz! Sən həmin Aygünsən? (*ayağa qalxır*) Ay qızım, nə yaman dəyişmisən (*qucaqlaşırlar. Maya Sənan müəllimə*) Sənan müəllim, bu həmin Aygündür. Xatirinizə gəlir? Ona həmişə "xanım-xatun balam" deyərdiniz.

Görüntü. Sənan müəllim yerindən qalxıb Aygünü diqqətlə süzür.

Sənan: - Qızım, nə qədər də dəyişmiş olsan, gözlərin əvvəlki dəcəl, çılğın Aygündür.

Görüntü. Əllərilə çənəsini ovxalayıb diqqətlə Aygünü süzən Sənan müəllim otaqdan çıxır.

Maya: - Qızım, ailəlisənmi? Oğuldan-uşaqdan nəyin var?

Aygün (*başını yerə dikir. Qısa sükutdan sonra*): - Bəli, ailə qurmuşdum, bir oğlum da var idi.

Maya: - Necə yəni, "var idi"? Oğlun indi səninlə deyil bəyəm?

**51**

Aygün: - Yox, mənim düşdüyüm girdabda oğlumun boğulmasını istəmədim, Maya müəllimə. Odu ki, Raufumu Uşaq evinə vermişəm.

Maya: - Bəs həyat yoldaşın?

Aygün: - Üç ildir ayrılmışıq.

Maya müəllimə ağır-ağır başını bulayır. Kamera müəllimin əsəbindən rənginin bozardığını görüntüləyir. Sonra müəllim əlində tutmuş olduğu eynəyi gözlərinə taxıb Aygünün qoluna girir. Otaqdan çıxırlar.

Kamera onların univeristetin həyətyani bağında qol-qola gəzdiklərini görüntüləyir.

Maya: - Taleyin hökmündən qaçmaq olmaz, qızım, gərək fələyin gətirdiyi bütün ağrı-acılara sinə gərməyi bacarasan. İnsan ömrü həyat romanının yazıldığı bir kitabdır. Biri o günü yaşayır, digərinin isə qismətinə ömrünə yazılan günləri sadəcə səhifələmək qalır. Sanma ki, hər zaman parlayacaqsan. İnsanın qalxdığı kimi, endiyi vaxtları da var. Sən enmə zolağına düşübsən, qızım, ucalacağın günü səbrsizliklə gözləməyi unutma.

Görüntü. Maya müəllim əli ilə Aygünün saçlarına sığal çəkir.

Maya müəllim: - Şükür et ki, şükür Sahibi səni hər zaman hifs etsin.

Yeni kadr. Aygün iti addımlarla harasa tələsir. Yol uzunu Maya müəllimə ilə olan söhbətləri gözlərinin önünə gətirilir. (kom. qrafiki) Fonda Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - Maya müəllimənin nəsihətləri məni yenidən bu həyata bağladı. Bu yeni dünyada ən böyük arzum Uşaq evinə əmanət verdiyim Raufuma qovuşmaq və yeni evimizdə şad-xurrəm birgə yaşamaqdır. İndi bu xoşbəxtliyin bircə addımlığındayam.

Panorama. Uşaq evinin binası. Aygün həyəcan dolu baxışlarla tələsik addımlarla pillələri qalxıb qəbul otağına girir. Qeydiyyat şöbəsində başqa xanımın əyləşdiyini görəndə duruxur.

**52**

Aygün: - Salam, xanım. Mənə Sima müəllimə lazımdır.

Müəllimə: - Bağışlayın, siz onun nəyisiniz?

Aygün: - Ən yaxın rəfiqəsi. Düzdür çoxdandır görüşmük, amma hər zaman qəlbimiz bir olub.

Müəllimə: - Çox təəssüf ki, qəlbiniz bir ağır itkini duymayıb.

Aygün (*təəccübdən gözləri böyümüş halda*): - Siz nə danışırsınız? Nə itki?

Müəllimə: - Sima müəllimə ürək çatışmazlığından vəfat edib. Artıq bir aydır aramızda yoxdur.

Kamera otağın Aygünün başına hərləndiyini görüntüləyir. Aygün əllərini üzünə sıxıb. Səndirləyir, az qalır yıxıla. Aygünün yanından ötən bir qadın imkan edib onu tutur.

Aygün: - Axı neyçün! Hansı acını unutmuşdum ki, qaysaqlanmış yarama duz səpdin, Allahım (*ağlamsınır*).

Görüntü. Uşaq evinin müdiri Solmaz xanım bir stəkan suyu Aygünə uzadır.

Solmaz: - Səbrli ol, qızım. Bu yoxluğa heç biz də alışa bilmirik. Gəl, keçək otağıma. Sima müəllimə sizin haqqınızda mənə hər şeyi danışmışdı (*Aygünün qoluna girib, öz otağına aparır. Aygünü kresloda oturdur*).

**53**

Aygün: - Sima müəllimə mənim oğluma bu illər ərzində analıq edib. (*ağlayır*) İndi bu borcu ona biz necə qaytaracağıq?

Solmaz: - Sakit olun, Aygün. Sima müəllimənin ölümündən sonra onun şəxsi seyfindən kiçik bir dəftərçə tapdıq. Orada sizin haqqınızda hər şey ətraflı yazılıb. Elə bil ölümün onu vaxtsız yaxalayacağını bilirmiş. Sonuncu səhifədə qeyd edib ki, Raufun vətənə, anasına layiqli övlad kimi böyüməsi üçün Türkiyəyə oxumağa göndərilsin. Konvertin arasında lazımı qədər pul da qoymuşdu. Biz də mərhumənin vəsiyyətini yerinə yetirib, oğlunuzu qardaş Türkiyə Respublikasına oxumağa göndərdik. Bu məktubu da sizin üçün yazıb.

Ağzı açıq bir konverti siyrmədən götürüb Aygünə uzadır. Aygün əlləri əsə-əsə məktubu alıb oxumağa başlayır. Fonda Sima müəllimənin səsi ucalır.

Aygün oxuyur.

Fon (*Simanın səsi*): - Bacı qurban, Raufun oxuyub, millətə gərəkli övlad olması naminə səndən iznsiz bu yolu seçdim.

Kadr Aygünün məktubu qatlayıb, astaca gödəkcəsinin cibinə qoyduğunu görüntülənir.

Aygünün səsi: - Sən doğru olanını seçibsən, bacım. Allah sənə rəhmət eləsin...

Aygün əlləri ilə gözlərində gilələnən yaşı silir.

Aygün: - Solmaz xanım, bəs oğlum nə vaxt dönəcək?

Solmaz: - Bunu deyə bilmərəm, qızım. Ancaq sən narahat olma. Rauf yad yerdə deyil ki... Türkiyədədir də... Bir addımlıq məqafədə. Allaha eləməmiş, ölüm yox-itim yox, bir şey deyil. Sağlıq olsun, təhsilini başa çatdırıb Bakıya oxumuş bir alim olaraq dönər inşaallah. (*gülümsünür*).

Görüntü. Aygün çaşqın bir vəziyyətdə qalxır ki, getsin.

**54**

Solmaz: - Qızım, sən də Tanrı qarşısında savab bir iş gör. Uşaq evinə atası tərəfindən verilmiş bir gözəl qızımız var: Ləman. Təklifimi səmimi qəbul etsən, o qızı özünə övladlığa götürərdin. Həmçinin, bu yolnan bala həsrətin də bir az yüngülləşər.

Aygün: - O uşaq bura niyə atılıb?

Solmaz: - Qəribə düşüncə də olsa, məhz qız uşağı olması səbəbindən.

Aygün: - Solmaz xanım, mən o qızı indidən sevdim. Sənədlərini rəsmiləşdirin zəhmət olmasa. O qız bu gündən mənim balamdır.

Görüntü. Solmazla Aygün birlikdə yeməkxanaya tərəf yollanırlar. Solmaz işarə ilə həmən qızı Aygünə göstərir. Aygün yaxınlaşıb qızın qarşısında çöməlırək onun saçlarını sığallayır. Qızcığaz da ona baxıb gülümsünür. Aygün qızı qucağına alır və Solmazla birlikdə qəbul otağına dönürlər.

Kamera qızı Aygünün qucağında, onun boynunu bərk-bərk qucaqladığını görüntüləyir. Solmaz qızın şəxsi işini vərəqləyərək

Solmaz: - Osmanova Ləman İlqar qızı. Beş yaşın yenicə tamamlayıb.

Aygün: - Solmaz xanım, etiraz etməzsinizsə, Ləman mənim soyadımı daşısın, Mehralıyeva Ləman (*qısa fikrə gedib, bu sözü olduqca qürurla*) Aygün qızı.

Solmaz: - Bu təklifi yalnız alqışlamaq olar, Aygün.

Görüntü. Aygün Ləmanın əlindən tutub uşaq evindən aralanır. Solmaz müəllimə və daha bir neçə tərbiyəçi-müəllim fərəf dolu nəzərlərlə Aygünlə Ləmanın əl-ələ tutub getdiklərini seyr edirlər.

**55**

Kamera Solmazın dözündə giləlınən yaşı əlinin arxası ilə gizlicə sildiyini görüntüləyir. Aygünlə Ləman avtobusa minirlər.

Yol boyu Aygünün Ləmanın saçlarına sığal çəkdiyi görüntülənir. Aygünün gözləri önündə oğlu Raufla keçirdiyi şən günlər canlandırılır (*parkda Raufun oynadığı, onun ad günləri, Raufun Uşaq evinin bağçasında uşaqlarla oynaması...).*

(Kom. qrafiki). Fonda Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - Bu nə cəzadır mənə çəkdirirsən, Allahım. Taleyin yazısına bax. İndi doğma balandan uzaqda, tanımadığın bir ananın övladını bağrına basıb ona ana oluram. Bəlkə bu da həyatın başqa bir sınağıdır. İndi bu körpə mənim doğma balam olaraq, bu fani həyata yeni qədəmlərini qoyaraq "Ləman Rəşid qızı" imzasıyla tanınacaq.

Yeni bir sabah.

Panorama. Beşmərtəbəli bina. Rəşid əlində bazarlıq zənbilləri evin qapısını açır. Uşaqları onun üstünə qaçırlar.

Rəşid: - Mənim dovşanlarımın halı necədir? Kökdən, kələmdən bir şey çırpışdırıb yeyə bilibsinizmi? (Rəşid oğlunu qucağına alıb divanda oturur)

Azər: - Ata, bacımın ümüdünə qalsaq, lap acından ölərik. Səhərdən sənin otağını təmizləyir deyən, məni də ac qoyub.

Kamera Zərifənin bikef halda bir küncə sıxılıb büzüşdüyünü görüntüləyir.

Rəşid: - Zərifə, qızım, sənə nə olub? Səni kefsiz edən nədir? (*Zərifəyə yaxınlaşaraq onun saçlarını sığallayır*) Xəstələnməmisən ki?

Zərifə (*ayağa qalxır*): - Əgər sualıma cavab versən, deyəcəyəm.

Görüntü. Azər sakitcə Rəşidin qoynuna sıxılaraq Zərifəyə baxmağında davam edir.

Rəşid: - Bu nə qəribə sorğu oldu, qızım? De görüm, noolub?

Görüntü. Zərifə qaçaraq yan otağa keçir. Rəşidlə Azər bir-birlərinə baxıb, çiyinlərini çəkirlər. Çox keçmir  Zərifə yan otaqdan çıxır. Əlində kiçik bir albom atasına uzadaraq

Zərifə: - Ata, bu albom haqda bir söz deyə bilərsənmi?

Kamera Rəşidin donuq halda alboma diqqətlə baxdığını görüntüləyir. Rəşidin gözləri önündə canlanır (kom. qrafiki)

Rəşid yorğun halda masa arxasında oturub. Bu ara arvadı Könül yan otaqdan əsəbi halda çıxaraq

Könül: - Bəlkə sənin qulluqçunam? Bəlkə ayağını da yumalıyam? Yoxsa məni o gözəlçənə tay tutursan? Nə donuq-donuq baxırsan üzümə?

Rəşid (*asta, ancaq hiddətli səs ahəngi ilə*): - Deyəsən yadına barda etdiyin xozeyinlik düşüb? Kim olduğunu unutmamısansa, səni mən ev qadını etdim.

Könül (*əsəbi*): - Böyük iş görmüsən?!. Gərək səni nazir qoyardılar... Unutma ki, səni də mən kişi etmişəm.

Kamera. Rəşidin əsəbdən əlləri əsir. Rəngi bozarmış halda ayağa qalxır. Əlinin arxası ilə çırpıb qarşısındakı çay dolu stəkanı masanın üstündən yerə salır.

Rəşid: - Sən mənə kişi yox, oğraş adı gətiribsən. Sənə nifrət edirəm.

Könül (*yançağını əda ilə oynadaraq, başqa stulda əyləşir*): - Mən həm sənin özünün, həm də sənin gizli-gizli seyr etdiyin şəkillər ki var idi ha, onları böyük nifrət hissi ilə doğramışam (qəhqəhə çəkir).

Rəşid (*həyəcanlı*): - Ola bilməz (tələsik yan otağa keçir).

Görüntü. Rəşid içəri keçəndə görür ki, çarpayısının üstündə və yerdə xalının üstündə doğranmış xeyli foto-şəkil səpələnib. Rəşidin gözləri dolur. Cəld yerdəki şəkilləri topalayıb, qonaq otağına dönür. Yetər-yetməz Könülə iki sillə vurur.

Rəşid: - Yapışdır bunları!

**57**

Könül (*əli ilə yanağını tutaraq*): - Mən tüpürdüyünü yalayanlardan deyiləm. O şəkilləri doğramamışam ki, təzədən də yapışdıram?! Bu sillə isə sənə baha başa gələcək (*əda ilə öz otağına keçərək, qapını da ardınca çırpır*).

Rəşid: - Sən insanlıqdan kənar adamsan. Sən hardan biləsən ki, məhəbbət nədir. Yadında saxla ki, onu daim sevəcəyəm... Düz deyirsən, mən fərli kişi olsaydım, sənin kimi bar pozğununu ev qadını etməzdim. Səninlə yaşadığım illər üçün xəcalət çəkirəm (*Doğranmış şəkilləri üzünə toxunduraraq kövrəlir, taqətsiz halda dizləri üstə çökür*).

Kamera Zərifənin atası Rəşidin yanağından öpdüyünü görüntüləyir. Rəşid dəli kimi fikirdən ayrılır.

Rəşid: - Qızım, olarmı suallarına sən bir az böyüyəndən sonra cavab verim?

Zərifə: - Bir şərtlə ki, bu albomu daha gizlətməyəcəksən.

Rəşid: - Şərtlər kəsildi, müqavilələr bağlandı. İndi nə qaldı?

Azərlə Zərifə bir ağızdan: - Qaldı şam etmək.

Görüntü. Rəşidlə Azər süfrə arxasına otururlar. Zərifə süfrəni bəzəyir. Fonda isə Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*):- Zərifə atasının əhval-rühiyyəsini yüksəltmək üçün bacardığı qədər şıltaqlıq edib məzəli lətifələr danışır, nisgilli ürəyini ovundurmağa çalışırdı (*Görüntü. Zərifə masa arxasında əl-qolunu ölçərək nə isə danışır. Rəşidlə Azər onun danışdıqlarına qulaq asır, uğunub gedirlər*).

Yeni kadr.

Panorama. Bakı. Azadlıq meydanı. Aygün əlləri gödəkçəsinin cibində başını aşağı salmış vəziyyətdə ağır addımlarla gəzişir. Birdən arxadan eşitdiyi doğma bir səs onu düşüncələrdən ayırır.

**58**

Qalib: - Salam, Aygün bacı, necəsiniz?

Kamera ayaqdan-başa Qalibi görüntüləyir.

Aygün: - Bağışlayın, tanımadım. (*Qalib danışmadan Aygünə baxıb, sadəcə gülümsəyir*).

Aygün (*qaşlarını çataraq ciddi görkəm alıb*): - Kimsiniz? Sizə nə lazımdır?

Qalib: - Deyir, dağ dağa rast gəlməz, insan insana rast gələr. Məni nə tez unutmusunuz? Rəşidin dostu Qalibi tanımadınız?

Aygün: - Bağışla, Qalib, fikirliydim. Necəsən?

Qalib: - Mən yaxşı, bəs siz necəsiniz? Haralardasınız?

Aygün: - Şəhərdəyəm. Orta məktəbdə sinif müəllimiyəm. Mərhəmətli insanların sayəsində özümə iki otaqlı mənzil də almışam. Yaşayıram ki, yerim boş qalmasın. Desinlər ki, bu adda, bu nəm-nişanda birisi də var idi.

Qalib: - Ümidsiz olma... Rauf necədir? Yəqin indi böyümüş olar. Bu gün-sabah gəlin gətirərsən, inşaallah!

Aygün (*dərindən köks ötürərək*): - Bəli böyüyüb. Amma məndən uzaqlarda.

Qalib: - Başa düşmədim.

Aygün: - Bilirsənmi, Qalib, mən Raufumu dostun Rəşidin sayəsində itirdim.

Qalib: - Heç nə başa düşə bilmirəm. Necə yəni "itirdim". Bir ətraflı danış görüm nə olub?

**59**

Aygün: - Rəşid məni gecə ikən evdən çıxartdı. Həmin vaxt atam evi də məni qəbul etmədi. Körpə uşaqla küçələrdə qaldım. Körpəmi bağrıma basıb iş axtardım. Hər yerdə iş oldu, amma heç kəs əliuşaqlı ananı işə götürmədi. Günlərin birində yaşlı bir qadının mənə, "uşaqla işə çətin qəbul olarsan, qızım" deməsi, məni daha dərin düşünməyə vadar etdi. Son qərarı düzgün olaraq seçdim. Raufumun təhsil alması üçün onu Uşaq evinə təhvil verdim. Vicdanımın gözlərinə pərdə çəkib ürəyimə daş bağladım. Raufumun başı uşaqlarla oynamağa qarışarkən, mən oğlumu

sonuncu dəfə qoxulamamış, körpə ürəyini bağrıma basıb ruhunu duymamış, canımın bir parçasından ondan xəbərsiz ayrıldım. (*Görüntü. Qalib əlilə üz-gözünü övkələyir, gözlərindən yaşı içinə axıdırdı*): - Sonra Asiman adlı bir xanım mənə havadar çıxdı. Anamdan uzaq düşmüş ikən, mənə ana qədər yaxın oldu. İşlədiyi orta məktəbdə məni işə düzəltdi. Yaşamaq üçün qızının evini mənə verdi. Çovğunda üstümə yorğan, yağmurda başıma çətir oldu. Özümə gün-güzaran düzəldənəcən aylar bir-birini sürətlə qamçıladı. Bir gün Uşaq evinə gedib oğlumu istədim. Ancaq sarsıdıcı bir xəbər - körpəmə analıq edən, gecələr mənim əvəzimdən Raufumu bağrına basıb onunla birlikdə yuxuya gedən, şəxsi vəsaiti hesabına Raufumun Türkiyədə təhsil almasına səbəbkar olan, elədiklərinin əvəzi heç bir mizanla ölçülməyəcək dərəcədə balama yaxşılıq etmiş insanın - müəlliməsi Sima xanımın "öldü" xəbəri, övlad itkisini belə mənə unutdurdu...

Aygün bunları danışdıqca hadisələr bir-bir görüntülənir.

**60**

- Belə, Qalib, bu da tərəddüdlər burulğanında çabalayan, zavallı bir ananın həyat hekayəti.

Qalib: - Yüzə dözmüsən, yüz birə də döz. İnşaallah, Rauf təhsilini başa çatdırıb bir gün evinə-eşiyinə dönər... Yenə, nə yaxşı ki işləyirsən, başın qarışır, yoxsa təklik səni sıxardı.

Aygün (*qürurla*): - Tək deyiləm. Bir qızım da var. Raufumun ətrini ondan alıram.

Qalib: - Aygün, bəs...

Aygün – Uşaq evindən götürmüşəm.

(*Görüntü. Aygün skamyadan qalxır. Qalib də onunla birlikdə*).

Aygün: - Artıq gecdir. Məndən Laləyə, uşaqlara salam söylə. Sağ ol, Qalib, nə yaxşı ki, bu günümdə qarşıma çıxdın. Dərdimə şərik olası birinə ehtiyacım var idi (*gedir, birdən geri çevrilib Qalibi mənalı nəzərlərlə süzür*) Məni gördüyünü isə, O-na demə.

Yenidən dönüb yoluna davam edir.

Kamera Qalibi bikef, ala-qaranlıq uzun yolun kənarı ilə gedən vəziyyətdə görüntüləyir.

Fonda Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - Mənim “yox” deməyimə baxmayaraq, Qalib bu olanları, onsuz da, Rəşidə danışacaqdı. Axı iki əziz insan arasında uçurum həddində olan boşluğu götürmək Tanrı qarşısında bütün oruc və nafilə namazlarından da irəlidir. Qalib dostunun yaşadığı hadisələrdə özünü də günahkar hiss edirdi. İndi – məndən ayrılandan sonra isə bu alaqaranlıq yolla Qalib Rəşidin evinə gedirdi. Gənclik illərinin dostunun yaşadığı əzablara son qoymaq üçün. Ancaq bunu bacaracaqdımı?!.

**61**

Kadr. Rəşid evdə təkdir. Var-gəl edir. Bu ara qapının zəngi çalınır. Rəşid qapını açır. Qalibi görəndə yerindəcə donur. Qalib Rəşidi qucaqlayır.

Rəşid: - Qalib, inana bilmirəm ki, bu sənsən!

Qalib: - Mənəm, Rəşid. Səni sonsuza qədər unutmayan dostun.

Rəşid: - Keç içəri, qapıda qalma (*Qalib içəri keçib evə göz gəzdirir*).

Qalib: - Deyəsən evdə təksən. Uşaqlar hardadır?

Rəşid: - Uşaqlar kinoya gediblər.

Qalib: - Yenə nə olub, rəngin qaralıb.

Rəşid: - Daha dözə bilmirəm, Qalib. Bir tərəfdən ürək, bir yandan da baş ağrıları. Lap canımı boğazıma yığıb. Qəbul etmədiyim dərman qalmayıb.

Qalib (*divanda əyləşir. Dizinə söykənib fikrə gedir*): - Rəşid, mənə elə gəlir ki, gətirdiyim xəbər sənin ürəyinə məlhəm olar.

Rəşid (*təəccüblə Qalibin yanında oturur*): - O nə xəbərdi elə, danışsana.

Qalib: - Aygünü gördüm. Bir vaxtlar sizin sevərək əl-ələ tutub gəzdiyiniz meydanda. Tamam düşüb, çox qocalıb.

Kamera gərgin vəziyyətdə əli ilə yanaqlarını sürtələyən Rəşidin gözlərində yaşın gilələnməsini görüntüləyir.

Sükut.

Qalib: - Soruşmaq istəmirsən ki, necədir? Gün-güzaranı nə yerdədir? Oğlun Rauf indi hardadır?.. Soruşmaq istəmirsən?

**62**

Rəşid (*qəhərdən boğulan səsi ilə*): - Nə bilirsən hamısını danış, Qalib.

Bu ara qapını zəngi çalınır. Zərifə ilə Azər görünürlər. Qalib onları bağrına basıb kövrəlir. Zərifə atasını gözləri dolmuş görüb, həyəcanla onun qucağına şığınır.

Zərifə: - Ata, yenə ürəyin ağrıyır?

Rəşid (*əlinin arxası ilə gözlərini silir*): - İndi yaxşıyam, qızım. Siz keçin otağınıza, əminlə söhbətim var.

Görüntü. Uşaqlar öz otaqlarına keçirlər. Qalib bütün bildiklərini hərarətlə Rəşidə danışır. Rəşid başını qollarının arasında sıxıb. Gözləri bulud tək dolub-boşalır.

Fonda Aygünün səsi eşidilir.

Fon (*Aygünün səsi*): - Gül budağından, sevgi qəlbdən qopanda solar. Rəşid günahkar olduğunu bilirdi. Onunçün də gözlərini bərk-bərk yumub vicdanına baxmağa belə xəcalət çəkirdi. O indi inanırdı ki, artıq məni tapıb. Tezliklə həsrətdən sönüb külə çevrilən odunu yenidən alovlandıracaq.

Görüntü. Qalib Rəşidi qucaqlayır. Sonra əlini onun çiyninə qoyaraq nə isə deyir. Daha sonra gedir. Tək qalmış Rəşid evin ortasında var-gəl etməyə başlayır. Bu ara yan otaqdan hıçqırıq səsi eşidir. Tələsik hənirti gələn otağa keçir. Zərifə balıncı üzünə sıxıb ağlayırdı. Rəşid yenicə əlini qızının çiyninə toxundurmuşdu ki,

Zərifə qəflətən yerindən sıçrayıb ayağa qalxır və yüksək səs tonunda hıçqırtı ilə...

Zərifə: - Ata, daha yetər bizi uşaq bilib aldatdığın. Qalib əmi ilə söhbətinizi eşitdim. Bilirəm ki, anam yaşayır. Onun varlığını bizdən niyə gizlədirsən? Onu çox sevdiyini və bir qardaşımızın da olduğunu Qalib əmi danışanda başa düşdüm. Bizi daha neçə il aldada biləcəyini düşünürdün? Daha məndən heç nəyi gizlədə bilməyəcəksən. Axı sən yaxşı bilirsən ki, biz ana həsrəti çəkirik. Axı mən də istəyirəm qeyri uşaqlar kimi anam başıma tumar çəksin, saçlarımı darayıb hörsün, şirin-şirin boynuna sarılım.

**63**

*(Zərifə əlini üzünə tutub ağlayır*).

Zərifə: - Bunları bilə-bilə ana məhəbbətini bizdən niyə əsirgəmisən, ata?

(*Yenidən çarpayıya sərələnib balıncı qucaqlayır*).

Kamera. Rəşid əlini qızına toxundurmağa tərəddüd edir. Az sonra özündə güc toplayır. Qızının çiyinlərini qucaqladığı görüntülənir.

Rəşid: - Sənə bütün həqiqətləri danışaram, qızım, amma ağlama. Sizin göz yaşlarınıza dözə bilmirəm. Söz ver ki, məni axıra qədər dinləməyə gücün çatacaq

Görüntü. Rəşid Azərlə Zərifəni divanda əyləşdirir. Özü isə onların arasında. Bir qolunu Azərin, o biri qolunu Zərifənin boynuna salaraq onları sinəsinə sıxır.

Rəşid: - Canım Azərim, gözüm Zərifəm, siz bu illər ərzində övladlarım olmaqdan savayı mənə həm də ata-ana, bacı-qardaş olubsunuz. Sizdən nəyi isə gizlətmişəmsə, bunu yalnız mənə aid olduğu üçün etmişəm. Amma indi hamısını danışacağam ki, ürəyinizdə mənə qarşı bir xılt qalmasın.

Görüntü. Rəşid uşaqların arasından ayağa qalxır. Qarşıdakı stulda əyləşib dərin fikrə getmiş kimi danışmağa başlayır.

Rəşid: - Həyatım qəmli bir hekayətə bənzəyir. Deyirlər, məhəbbəti qorusan, onunla ucalarsan. Mən isə öz məhəbbətimi qoruya bilmədiyim üçün neçə illərdir bu ağrıları çəkirəm. Danışacağım hadisələr başıma gələndə, sizdən azca böyük olardım...

Fonda musiqi güclənir. Rəşid danışmağa başlayır. Ekran tədricən solur.

Panorama. Məktəbin binası və həyətyanı bağı. Rəşid həyətdə oynayan şagirdlərdən birini işarə ilə yanına çağırır.

Rəşid: - Oğlum, sizə Aygün adında bir müəllimə dərs demir ki?

Şagird: - Əmi, hansı Aygün müəlliməni soruşursunuz?

**64**

Rəşid: - Sizdə neçə Aygün müəllimə var ki?

Şagird: - Üç. Zinyətova, Mehralıyeva, bir də Abdullayeva.

Görüntü. Rəşid uşaqdan əlavə heç nə soruşmadı. Əlini yüngülcə uşağın çiyninə toxundurmaqla razılığını bildirib, ondan aralandı və məktəbin giriş qapısından içəri keçdi. Dəhlizdə üzü ona sarı gələn orta yaşlı bir müəllimənin qarşısını kəsən Rəşid son dərəcə həyəcanla...

Rəşid: - Bağışlayın, Aygün Mehralıyeva kimdir?

Müəllimə: - Qardaş, onun kimliyi sənə lazımdır, yoxsa özü?

Rəşid (*pərt vəziyyətdə gülümsəyir*): - Bağışlayın, deyəsən sualı düzgün qoymadım. Mənə, təbii ki, özü lazımdır. O harada yaşayır? Ünvanını verə bilərsinizmi?

Müəllimə: - Doqquzuncu mikroyayonda yaşayır. Binəvanın kimi var ki... Bu məktəbdə gecəsini gündüzünə qatdı. Min bir əziyyətə qatlaşıb, özünə ikiotaqlı mənzil aldı. Səhv etmirəmsə, bina 21, üçüncü mərtəbə, mənzil 39 olmalıdır. Siz Aygünün nəyisiniz?

Rəşid (*son dərəcə sevincli*): - Uzaq qohumlarındanam. Kömək etdiyiniz üçün çox sağ olun. Mənə çox yaxşılıq etdiniz!

Tələsik geri dönəndə şagirlərdən biri ilə toqquşur, sonra iti addımlarla məktəbdən uzaqlaşır. Müəllimənin təəccübdən əli üzündə qalır.

Yeni kadr. Rəşid təngnəfəs doqquzmərtəbəli qırmızı binanın qarşısında dayanır. Əlini ürəyinin üstünə qoyub, ağır-ağır nəfəs alır. Əli ilə alnındakı təri silərək, binanın girişindən içəri daxil olur. Pillələri həyəcanla qalxaraq, nəhayət ki, 39-cu mənzilin qarşısında dayanıb zəngi basır. Təkrarən basır, bir də təkrar edir. Yan qapı astaca aralanır və bir qadın başını bayıra uzadır.

**65**

Qonşu: - Görürsən qapını açan yoxdur, demək evdə heç kəs yoxdur də. Müəllimə adamdı, gedib şəhərə, nə bilim hara... Qızı evdə olmalıdır, amma tanımadığı adama qapı açmaz. Nahaq yerə özünü yorma.

Rəşid: - Bilmirsiniz nə vaxt gələr?

Qonşu: - Mən nə bilim, kefi haçan istəsə. Bir də ki, mən gözətçi-zadam bəyəm səninçün? (*hirslə qapını çırpır. Tez də açıb*) Aygünün qohumlarındansınız, yoxsa iş yoldaşlarından?

Görüntü. Rəşid qadına cavab verməyib gedir. Qadın onun dalınca baxıb-baxıb, külləmə edir.

Yeni sabah. Aygün məktəbdən çıxıb, parkla bikef, başıaşağa evinə tələsir. Birdən parkın kənarındakı skamyada bir neçə insanın toplaşdığı və onların ortasında hündürboy daha bir nəfərin əl-qolunu uzada-uzada nə isə danışdığını, ərtafındakılarının da onun danışdıqlarından uğunub güldüklərini görür. Üzündə azacıq təbəssüm oyadıb, daxilində danışmağa başlayır.

Fon (*Aygünün səsi*):- Zənnim məni yanıltmırsa, bu səs xoşbəxt günlərimin yadigarı, mənə olan məhəbbətini illərlə içində pünhan saxlayıb dilə gətirməyən tələbə yoldaşım Turalın səsi olmalıdır.

Aygün adamlara yaxınlaşır. Fonda səs yığılır.

Aygün: - Tural deyilsiniz? Yoxsa mən səhv edirəm!

Tural: - Bəli Turalam. Amma bağışlayın, sizi tanıya bilmədim.

(*Turalın dostları Turalla sağollaşıb gedirlər*).

Aygün: - Tələbə vaxtı yazılarını yazmaqdan barmaqlarımın ucu qabar bağlamışdı. Nə tez unutdun, ay etibarsız?

**66**

Tural (*Aygünün əlindən tutur, ikisi də skamyada əyləşir*): - Eh, Aygün, Aygün... Həyat səni nə yaman sıxıb?! Düşünürdüm, səni daha bir də görmərəm. Taleyin yazısına bax. O vaxt məni atıb getməsəydin...

Aygün (*dodaqlarında acı və saxta təbəssüm*): - Heç zarafatlarından qalmırsan. Ağır günlərimdə sənin zarafatların daim dodaqlarımda təbəssüm oyadıb, məni yaşamağa ruhlandırıb. Necə də xoşbəxt günlər idi, Tural.

Tural: - Hə! Amma o xoşbəxt günləri sən öz əllərinlə gömdün. Dilim zarafat etsə də, ürəyimdə yeganə sən idin. (*Qısa sükut*) Qızımın da adını Aygün qoyub səni içimdə yaşadıram. Deyəcəksən ki, indi niyə dil-dil ötürsən, gərək o zaman deyərdin, amma demədim. Ona görə demədim ki, sənin ürəyində olan kəsin özüm olduğunu düşünmüşdüm. Hissimdə yanıldığımı dərk edəndə isə artıq gec idi... Səni gördüyüm üçün Tanrıma şükürlər edirəm.

Görüntü. Aygün qollarını daraq edib qoynuna qoyub. Dərin fikrə batıb.

Tural isə dil-boğaza qoymadan danışır: - De görüm haradasan, necə yaşayırsan? İşləyirsənmi? Uşaqların varmı?

Aygün: - Tural, heç dəyişməmisən. Gərək içindəki hisslərini zamanında açıqlayardın... Özümü çox pis hiss etdim, bilməyərəkdən ürəyinlə oynamışam. Buna görə məni bağışla.

Görüntü. Tural ayağını ayağının üstünə aşırıb, əllərini dizlərinə daraq edib.

Tural: - Mən səni çoxdan, Rəşidə qoşulub getdiyin gündən bağışlamışam. Çünki ürəyə hökm etmək olmaz. Mən Tanrının qoyduğu qədərə hər zaman qane olanlardanam. Suallarımdan yan qaçmaq istəyirsənsə, yanılırsan. (*Yenə söhbətinə məzə qatır*). Hə, mən sizi dinləyirəm, xanım qız, buyurun.

**67**

Aygün (*gülümsünüb başını yellədir*): - Sən heç düzələn deyilsən... Mikrorayonda yaşayıram. Özüm də şəhər məktəbində sinif müəlliməsiyəm. O ki, qaldı ailə məsələsinə, o haqda danışmaq istəməzdim.

Tural: - Heç danışmağına ehtiyac da yoxdur. Hər şey üz-gözündən bəlli olur - gözəl çöhrəndən əsər-əlamət qalmayıb. Heyf səndən, Aygün.

Aygün: - Səni görməyimə elə sevindim ki... Nə qədər xatirələrimiz təzələndi, üzümüz güldü. Çox sağ ol, Tural.

Görüntü: Hər ikisi qalxıb, asta-asta gedirlər.

Tural: - İnsan özü gülməyi bacarmasa da, ətrafındakılara xoş ovqat bəxş etməyi bacarmalıdır. Bu günümüzü də yazaq taleyimizin yaddaşına. Evə gedirsənsə, əyləş.

Kamera Turalın xarici maşınını görüntüləyir.

Yeni kadr. Aygün mənzilinə yenicə daxil olub. Qızı Ləmanı qucağına alıb usanmaq bilmədən öpür. Bu ara qapı zənginin səsi gəlir.

Aygün gözlükdən baxıb o anda da geri atılır.

Qapının arxasından Rəşidin səsi eşidilir.

Rəşidin səsi: - Aygün, məni evə dəvət etmək istəmirsən? Biz ki, bir-birimiz üçün doğulmuşlardan idik. Xahiş edirəm, qapını aç.

Görüntü. Aygün qapıya söykənib. Gözlərində yaş gilələnib.

Səs isə davam edir.

Rəşidin səsi: - Bu günü illərlə, səbrsizliklə gözləmişəm. Bunusa mənə çox görmə.

Kamera. Aygün qapını açır. Qarşısında qocalmış sima, ağarmış saçlar, qaralıb çuxura düşmüş gözlər ona dikilir.

Fonda Aygünün səsi eşidilir.

Fon (*Aygünün səsi*): - Həyatda eləsini sev ki, sən onun üçün ölməyi düşünəndə, o, özünü sənin üçün artıq çoxdan öldürmüş olduğunu düşünsün.

**68**

Fon (*Aygünün səsi*): - İndi biz hər birimizin vaxtsız qocaldığını görürdük.

Görüntü. Aygün Rəşidin üzünə baxmadan ona əyləşməsini işarə edir. Rəşid oturur.

Rəşidin kim olduğunu yəqinləşdirə bilməsə də, Ləman onun qarşısına çay və piroq qoyur.

Ləman: - Xoş gəlmisiniz. Buyurun. Çayınızı soyutmayın.

Aygün (*Ləmana dönür*):- Qızım, sən öz otağına keç. Mən də qonaqla bir balaca söhbət edib, həmən sənin yanına gələcəm.

Ləman sakitcə yan otağa keçir.

Görüntü. Aygün gözucu Rəşidə baxıb, soyuq bir səslə:

Aygün: - Gəlişinin səbəbini açıqlaya bilərsənmi?

Kamera Rəşidin gözlərini xəcalətlə Aygünə zilləyib, alnından axan təri əlinin arxası ilə silməsini görüntüləyir. Rəşid alçaq səs tonunda...

Rəşid: - İstərdim aramızdakı bu həsrət bitsin artıq. Səni tapdığım üçün özümü xoşbəxt hiss edirəm. Səni çox axtarmışam, amma ağlıma da gətirməzdim ki, gözlənilməz bir təsadüf bizi qovuşdurar. Məni sənə qovuşdurduğu üçün Qalibə minnətdaram...

Aygün (*dodağının altında*): - Bilirdim də ki, bu onun işi olacaq.

Rəşid (*davam edir*): - Başına gələnləri mənə danışıb. Düzü, qarşında xəcalətliyəm. Həyatımda yeganə sevdiyim qadın sən olduğun halda, sənə çəkdirmədiyim qalmadı. Bilirəm ki, məni heç vaxt bağışlamayacaqsan.

Görüntü. Aygün pəncərə önündə durub. Əllərini qoynuna daraq edib.

**69**

Aygün: - Qismətimiz bu imiş, Rəşid. Biz xeyir-duasız ailə qurmuşduq. Hələ atanın qarğışını demirəm. Ata qarğışı bağışlamağı bacarmır, adamı kəsir. Necə ki kəsdi də. Onu sındırmağa gücümüz yetmədi.

Görüntü. Rəşid qalxıb arxadan Aygünün çiyinlərini qucaqlamaq istəyir. Aygün özünü ondan qaçırır.

Rəşid: - Mən sənə əzab vermək üçün gəlməmişəm. Səni bircə dəfə görmək üçün ömrümü verərəm. Sənsiz nələr çəkdiyimi bilsəydin... (*qəhərdən boğulur*). Oğlumuz Raufu mütləq axtarıb tapacam. Bunun üçün Tanrımdan ömür deyil, möhlət istəyirəm. İstəyirəm oğlumu bircə dəfə də olsa görüm, sonra köçüm bu dünyadan. Bir yerdə olmağımız üçünsə, mənə möhlət ver. Heç olmasa, bu yaşımızdasa həsrətimiz olmasın.

Görüntü. Aygün əsəbi halda pəncərə önündən çəkilir. Mətbəxin qapısını örtərək qapısının arxasına söykənir.

Aygün: - Rəşid, oğlum Raufu görməyincə səninlə bir olmağı bacarmaram. Bilmirəm indi Raufum haralardadır, nə yeyir-nə içir, necə yatır, dərslərinə necə hazırlaşır? Ata-anasının sağ olduğunu bilirmi?.. Ata-anası sağ olduğu halda, Uşaq evində yetim kimi böyüdü mənim balam. Bunların hamısında isə yeganə günahkar sənsən. Mənə də, balama da bu dəhşətli həyatı sən yaşatdın... Kimdən əksik idim? Mənim də arzularım var idi. Hamısını ürəyimdə sən qoydun. Sən mənə cəmi bircə il xoşbəxt həyat verdin. Bütün bədbəxtliyimə dözdüm, amma Raufumsuz yaşaya bilmərəm. (*Əli ilə üzünü örtüb, xısın-xısın ağlayır*).

Görüntü. Qısa sükut. Rəşid qalxır. Aygünə bir söz demək istəyirsə də, Aygün üzünü yana çevirir. Rəşid başını yerə dikib qapıya tərəf addımlayır.

Aygün qapını açıb, ona yolu göstərir.

Rəşid geri çevrilib...

**70**

Rəşid: - Elə bil vaxtilə bir-birini sevən insanlar olmamışıq. İndi küsülülərtək söz tapıb danışa da bilmirik. Səni dərd içində qoyub qocaltdığım üçün məni bağışla. Məni bağışla ki, ağrılarım bir az azalsın.

Görüntü. Rəşid qapıdan çıxır. Aygün qapını bağlamaq istəyirsə də, Rəşid əli ilə qapını tutur.

Rəşid: - Gedirəm, ancaq bacarsan, hərdənbir səni görməyimə icazə verməyini xahiş edirəm (*Aygün gözləri döşəməyə dikilmiş vəziyyətdə susur. Az sonra qapını Rəşidin üzünə bağlayır*).

Yeni kadr. Aygün qapını bağladıqdan sonra qonaq otağının pəncərəsi önünə keçir. Gizlicə Rəşidin gedişini izləyir. Gözləri dolur. Pərdəni çəkib geriyə dönəndə qarşısında dim-dik dayanmış Ləmanı görür.

Ləman: - Deyə bilərsənmi, gələn bu kişi kim idi, niyə gəlmişdi?.. Nə hadisə baş verir, ana? Unutma ki, daha uşaq deyiləm. Bu vaxta qədər uşaq olduğumçün susurdun, indi niyə susursan? Sənin başına gələnlərdən mənim də xəbərdar olmağa haqqım yoxdurmu?

Görüntü. Aygün divanın üstünü səliqəyə salırmış kimi başını qarışdırır. Yarıəsəbi görünür.

Aygün: - Biz bəndələr xoşbəxt günlərimizdə çox naşükür oluruq. Suallarınla məni yorma. Acı xatirələr insan qəlbinin çəkə biləcəyi bir yükdür. “Başqaları səni anlamaz” deyə özünə qapılıb qalır, taleyinin sənə bəxş etdiyi ağır yükü zaman-zaman çəkməyə məcbur olursan. Dünya səndən üz çevirəndə, tapınacağın yeganə pənah yalnız ulu Tanrın olur. Mən bu yükü təkbaşına çəkməyə öyrəşmişəm.

Görüntü. Ləman anasının qolundan yapışıb onu iş görməkdən dayandırır.

Aygün əlindəki döşəkçəni divanın üstünə qoyub, yorulmuş halda oturur.

**71**

Ləman: - Yenə də heç nə başa düşmədim. Axı həyatında baş verənləri mənə danışmağa niyə ürək etmirsən? Mən ki sənə yad deyiləm, dərdini yüngülləşdirə bilmərəmmi? Sən içini mənimlə bölüş ki, mən də həyatımı səninlə bölüşməkdən çəkinməyim. Biz rəfiqə deyilikmi, ana?

Aygün (*əsəbi narahatçılıqla*): - Ləman, sən məni çox yordun. Keç otağına və sənə aid olmayan suallara cavab axtarma. Oldu?

Görüntü. Ləman tutulur. Əsəbi halda qonaq otağından ayrılıb, öz otağına keçir və qapını da arxasınca çırpır. Aygün Ləmanın arxasınça baxır. Qəflətən hönkürüb ağlayır.

Fonda səsi ucalır.

Fon (*Aygünün səsi*): - Yox, artıq Ləman böyüyüb. Mən hər şeyi ona danışmalıyam. İllərdən bəri ürəyimdən çıxarıb ata bilmədiyim Rəşidin kimliyini, Ləmanın mənə doğma olmadığını... Hamısını danışmalıyam.

Görüntü. Aygün gözündəki yaşı silir. Kitab rəfindəki qara üzlü gündəliyini əlinə alıb diqqətlə ona baxır.

Sonra Ləmanın otağına sarı gedir. Otağın qapısını döymədən açıb, gündəliyi sinəsinə sıxaraq kandarda halsız vəziyyətdə divara söykənir. Ləman onun bu halını görüb, çarpayısından quş kimi anasının üstünə atılır.

Ləman: - Gözüm anam, sənə nəsə oldu? Səni üzdüyüm üçün bağışla.

Görüntü. Aygün Ləmanın boynunu qucaqlayaraq ağlayır.

Aygün: - Səni çox sevirəm, qızım, lap çox. Mənim səndən özgə bir kimsəm yoxdur, bunu yaxşı bilirsən.

Kamera Ləmanın Aygünün göz yaşlarını silib, ağaran saçlarına sığal çəkdiyini görüntüləyir.

**72**

Ləman: - Yox, ana, sənin Rauf kimi bir oğlun da var. İnan ki, onun gəlişini mən səndən də çox səbrsizliklə gözləyirəm. Ümid sonda ölür, ana. Sənin bir belə ümidsizliyə qapılmağa haqqın yoxdur.

Görüntü. Aygün təəccüb dolu nəzərlərlə Ləmana baxır. Anidən onu təkrar bağrına basıb hönkürür.

Aygün: - Mənim ağıllı qızım! Mənim saf ürəkli Ləmanım! (*Əlindəki gündəliyi ona uzadaraq*) Al, oxu. Bu gündəlik mənim ömür yolumun səhifələridir. Axıra kimi oxu, sonra fikrini mənə söylərsən!

Yeni gün.

Görüntü. Aygün əlində süd bardağı, bir də üstünə şokolad yağı yaxılmış çörək, astaca Ləmanın otağının qapısını aralayır. Ləman bunları hiss etməyərək qarşısındakı gündəliyi oxumaqdadır.

Aygün əlindəki sinini masanın üstünə qoyub, əlini Ləmanın saçlarına toxundurur. Sonra qapını astaca örtüb otaqdan çıxar.

Ekranda yazılır:

**Üç gün sonra**

Görüntü. Ləman gündəliyi qatlayıb, diqqətlə dəftərinüzünə baxır. Daxilindəki səsi fonda ucaldır.

Fon (*Ləmanın daxili səsində*): - Böyük sevginin əzablarla dolu keşməkeşli yolları, doğrudan da, bir gün məni də ağuşuna ala bilərmiş? Yox, bu bədii əsərdir, sadəcə insan düşüncələrinin məhsuludur. Həyatda belə hadisələrin yaşanmasına inanmaq çox çətindir. Ki, sevgi insan ömrünə bərabər olmaqla yanaşı, o ömrü yarıda qoymağa da qadir ola bilərmi?

Görüntü. Ləman bu düşüncələrlə gündəliyi əlinə alıb, mətbəxdə yemək bişirən anasına yaxınlaşır.

Fondakı səs yığılır.

Ləman: - Ana, bu əlyazma səndə hardandır?

Aygün (*gülümsünərək*):- Görürəm sənin suallarından qaçmaq mümkün deyil (*qazanın qapağını örtərək, əlini önlüyünə silib stula əyləşir. Ləmanı bir dizinin üstündə oturdub, belindən qucaqlayır*).

**73**

Aygün: - Əvvəlcə de görüm oxuduğun bu yazını, yəni orada olan insanları necə dəyərləndirərdin? Qınadığın bir kəs oldumu? (*qısa ara*) Əsərin qəhrəmanı sən olsaydın, nə edərdin?

Görüntü. Ləman anasının dizinin üstündən qalxıb yan stulda oturur.

Ləman: - İstəməzdim insan həyatında belə hadisələr baş versin. Mən əsərdə olanları öz həyatım olaraq yaşadım. Və yaşadıqca, həmin insanları çox dəyərləndirərək qınaq hissindən özümü qıraq tutdum. O həyatı insan övladının yaşaması, bilirsən necə dəhşətlidir? O ki qaldı əsərin qəhrəmanının yerində olmaq... Mən bacarmayaraq intihar edərim. Bəlkə mən iradəsizəm, ona görə olanlarla mübarizəyə tab gətirməyib ölüm yolunu asan hesab edirəm. Bu anlaq mənim üçün olduqca çətin. Həyatda belə hadisələrin var ola biləcəyinə isə inanmağım gəlmir. Bu dəftəri sənə kim verib, ana?

Aygün (*dodaqlarında xəfif, acı təbəssüm*): - Olanları danışmaq mənə ağır olduğu üçün dəftəri sənə verdim. Qələmə alıb ağ kağıza köçürdüyüm və sənin insan həyatı üçün yaşanılması mümkünsüz hesab etdiyin ömür payı mənim öz həyatımdır. O dəhşətləri yaşayan insan sənin qarşısında durub, qızım. Və canlı olaraq sənin ona qiymət verməyini gözləyir.

Ləman: - Sənin qiymətini sevdiyin insan verməlidir, ana, mən o mərtəbəyə layiq deyiləm. Sən mənim üçün əbədi olaraq ən dəyərli varlıq mövqeyindəsən. Oxuduqlarımdan isə bunu da anladım ki, sənin doğma qızın deyiləm. Mən buna çox təəssüf edirəm. Varlıqları bilinməyən doğmalarım məni kimsəsizlər evinə atdıqları halda, sən məni götürüb xoşbəxtliyin zirvəsinə ucaltmısan. Mən sənə qarşı necə naşükür ola bilərəm, ana? Bəyəm vali-

deynlik hüququ insana yalnız övlad gətirdiyi üçün verilir? Məncə, şəhvani hissin nəticəsi olan materiya heç də insana valideynlik hüququ verməməlidir! Bu, məsələnin yalnız bir tərəfidir.

**74**

- Özünü valideyn kimi görmək istəyən kəs nəfəs verdiyini böyütməli, həyata hazırlamalı, cəmiyyət üçün gərəkli bir şəxsiyyətə çevirməyə borclu olduğunu dərk etməlidir. Yalnız bu haqqı yerinə yetirənlər özlərini valideyn adlandırıla bilərlər. Daha şəhvani hisslərin nəticəsi olaraq dünyaya övlad gətirənlər yox.

Aygün (*kövrəlmiş halda boğunuq səslə*): - Sənin kimi bir qızım olduğu ilə fəxr edirəm, Ləmanım. Məhəbbətini məndən heç vaxt əsirgəmə. Raufumdan sonra sən Tanrımın mənə verdiyi bir paysan. Şükürlər olsun Allahıma ki, mənə layiqli pay verib.

Ləman: - Ana, soruşmaq olarmı? O, səni neçə illərdən sonra və necə tapıb?

Aygün (*fikirə getmiş halda*): - Təsadüfən. Şəhərdə onun ən yaxın dostu, həmdəmi olan Qaliblə rastlaşmışdım. Harada işlədiyimi demişdim. Rəşid də Qalibin sözünün ucuyla gəlib məni tapıb.

Görüntü. Aygün qəflətən otağa dolan qaz qoxusunu hiss edir. Cəld qalxıb yeməyin altını söndürür.

Aygün: - Vay, vay! Başımız söhbətə qarışdı, qazan yandı qır oldu. Heyf, yeməyimiz yararsız hala düşdü.

Kamera onların bir-birinə baxaraq gülüşdüklərini görüntüləyir.

Ekranda yazılır:

**Üç ay ötdü**

Görüntü. Kamera öncə əsa və onunla birlikdə addımlayan yorğun ayaqları görüntüləyir. Görüntü tədricən yuxarıya doğru

qalxdıqca, bu şəxsin Rəşid olduğu aydınlaşır. Rəşid qoltuğunda qovluq Türkiyə səfirliyinin binası qarşısındadır. İçəri daxil olur.

Fonda Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - Neçə ay idi ki, Rəşidin Türkiyə səfirliyinə göndərdiyi məktubdan xəbər yox idi. Bu üzdən təzədən səfirliyə üz tutmuşdu.

**75**

Rəşid bikef halda çölə çıxır. Siqaret yandıraraq damağına qoyur.

Səfirlikdə Raufun artıq Türkiyədə olmadığını, bir həkim olaraq Bakıya göndərildiyini bildirən məktubu Rəşidə təqdim etmişdilər.

Görüntü. Rəşid əlindəki məktuba baxır, sonra onu üzünə sıxarar gözlərini silir.

Fonda yenə Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - Son zamanlar Raufun tapılması üçün gərgin axtarışlar, keçirdiyi həyəcanlar Rəşidin ürək ağrılarını bir az da ağırlaşdırmışdı.

Görüntü. Rəşid bir siqaret yandıraraq damağına qoyur. Ara-bir əlilə ürəyini ovuşdurur. Və başını yerə dikərək yoluna düzəlir.

Yeni kadr. Əsasını yerə dirək edə-edə pillələri çətinliklə də olsa qalxan Rəşid, mənzilinə mümkün qədər tez çatmağa can atırdı.

Pillələri yarı edib dayanır. Əlilə ürəyini yenidən ovuşdurub təkrarən pillələri qalxmağında davam edir.

Yeddinci mərtəbəyə bir döngə qalmış tab gətirə bilməyib yıxılır. Ürəyini əlilə sıxıb, boğulur. Gözləri önündə Aygünün evindən çıxarkən söylədiyi "oğlum Raufu görməyincə səninlə bir yerdə ola bilmərəm!" kəlmələri canlanır (kom. qrafiki).

Görüntü. Aşağı mərtəbədən üzü yuxarı bir gənc qalxır. Kamera öncə o gəncin ayaqlarını, sonra qoltuğundakı qalın üzlü kitabları, daha sonra simasını görüntüləyir. Bu Rafət (Rauf) idi.

Kamera. Rəşidi yerdə yıxılmış vəziyyətdə görüncə Rauf cəld özünü Rəşidin üstünə atır.

Rauf: - Efendim, noldu size? Yinemi kalbiniz tutmuş?! (*onun qoluna girərək qaldırır*) Böyle olamaz, efendim. İzn verin tedavi edeyim. Ben sizleri çok sevdim. Siz bana bir babam gibisiniz. Lütfen izn verin sizinle ilgileniyim.

Görüntü. Rauf Rəşidi mənzilinə çatdırır. Ehmalca yatağa uzandırır. Yorğanı üstünə çəkir.

**76**

Rəşid: - Sağ ol, oğlum. Tanış olduğumuz bu neçə gündə qızıma çox kömək etmisən.

Rauf: - Ne demek, efendim. Biz artık arkadaşız. Ben çok isterdim böyle bir ablam olsun. Kabul edersinizse, size "baba" deye bilirmiyim?

Rəşid (*dodaqlarında güclə təbəssüm oyadaraq*): - Oğul, sənin anan-atan Türkiyənin hansı bölgəsindəndir?

Görüntü. Rauf duruxur. Rəşidin çarpayısının qarşısına qoyulmuş stulda əyləşir. Fikrə gedibmiş kimi...

Rauf: - Hayır, ben çocukken annemden, babamdan öksüz kalmışım. Kendimde azeri türküyüm, yani bir toprakın evladıyım. Kimim-kimsem yok, çok yalnızım (*kövrəlir*).

Rəşid: - Daha sən tək deyilsən, oğlum. Sənin üçün biz varıq. Bu qapım üzünə hər zaman açıqdı, bunu unutma.

Görüntü. Rauf gözünün yaşını silərək Rəşidi qucaqlayır.

Rauf: - İyi ki sizlerle rastladım. İyiliyinizi hiç zaman unutmam.

Yeni sabah.

Görüntü. Qapı döyülür Zərifə açır. Rauf öncə Zərifəylə görüşür. Sonra Rəşid yatan otağa keçib masanın üzərində

görüntülənən dərmanlara göz gəzdirir. İynə hazırlayıb Rəşidin qoluna vurur. Sonra onun üstünü örtərək sağollaşıb gedir.

Yeni sabah.

Rauf qapıdan içəri girən kimi, Zərifə onun başının üstünü kəsdirir.

Zərifə: - Rafət, bir az səninlə danışa bilərəmmi?

Rauf: - Buyur, ablam.

Görüntü. Qonaq otağına keçən Raufla Zərifə divanda əyləşirlər.

**77**

Zərifə: - Rafət, mənə çox maraqlıdır, bir az uşaqlıq illərindən danışa bilərsənmi?

Rauf: - Ne konuşacağım? Acı hatıramımı? Beni annem çocuk iken çocuk bakım evine vermiş. Ne babamı, ne annemi - hiç birini hatırlamıyorum. Ben Baküde doğulmuşum, kimliyimde böyle yazılmış. Her zaman "anne" diye ağlıyordum. Türkiyede okurken, hocam beni hey ovutuyor: "ben senin hem annen, hem de babanım" diye söylerdi. Sonra liseyi bitirip doktor olmaya karar verdim. Kimsesiz, hasta çocuklara yardım etmek için...

Görüntü. Bu ara qapı bərk döyülür. Zərifə qapını açmağa tələsir. Qapı açılan kimi Rəşid özünü qızının üstünə atır

Zərifə (*həyəcanlı*): - Ata, nə oldu sənə? Yenə də ürəyinmi? Sənə dedim axı, işə getmə.

Görüntü. Raufla Zərifə köməkləşib Rəşidi yatağa uzadırlar. Rauf tələsik Rəşidin təzyiqini ölçür.

Rauf: - Baba, senin için böyle çalışmak çok zor. Bir kaç gün sakin yerde olsanız olmazmı? Kendinize kast ediyorsunuz. Olmaz böyle.

Görüntü. Rəşid yataqdan qalxırmış kimi.

Rəşid: - Mən yaxşıyam, oğlum. Qızım, bizə çay gətirsənə. Bir az dərdləşərdik.

Rauf (*Zərifə otaqdan çıxan kimi* Rauf *həyəcanl*): - Baba, bir şeymi olmuş? Karib halin var gibisin?

Rəşid: - Bilmirəm haradan başlayım ki, fikrimi sənə çatdıra bilim. Sənin Türkiyədə yaşadığın evdə Rauf adlı bir oğlan da qalıb. Yəni, Raufun Türkiyədə qeydiyyatda durduğu məkan olaraq o ünvan göstərilib. Dedim, bəlkə tanıyasan?

Görüntü. Rəşidin həyəcanını Rauf aydınca hiss edir.

Rauf: - Çok merak etdim. Rauf isimli çocuk sizin neyiniz oluyor?

**78**

Rəşid: - O mənim hər şeyimdi (*Rəşid çətinliklə yataqdan qalxıb, pəncərə önünə gəlir. Gözləri dolur*).

Rauf: - Sizə açıklamak zorundayım, çünki aradığınız kişi benim. Aslen ismim Raufdu, ama beni Rafet diye seslerdiler. O zamandan ismim böyle kalmış. Beni neyçin arıyordunuz?

Kamera anidən Rəşidin ürəyini tutub bayıldığını görüntüləyir. Rauf cəld Rəşidin qoluna girərək onu çarpayıya uzadıb Zərifəni səsləyir.

Rauf: - Abla, abla, Allah aşkına söylermisiniz, Rauf isimli çocuku babanız neyçin arıyor? Siz biliyormusunuz?

Görüntü. Zərifə atasının başı üstündə durub onun əlini əlinin içində ovuşdurmaqda davam edir.

Zərifə: - Atam onun fikrini çəkməkdən xəstə düşüb. Raif mənim ata bir-ana ayrı qardaşımdır.

Rauf (*əllərilə başını sıxır. Həyəcanlı səs tonunda*): - Hiç bir şey anlamıyorum, aranan Rauf benim? Yani, ben seninle kardeşmiyim?

Görüntü. Zərifə sevincindən Raufun üstünə atılaraq onun üz-gözündən öpür.

Zərifə (*qəhərli*): - İnana bilmirəm. Deməк, mənim qardaşım atamın həkimi, mənim isə müəllimimdir? Rauf, qardaşım mənim. İndi sən tək deyilsən, atan, anan, bacın, qardaşın - hamısı ətrafındadır.

Rauf: - Ablacım! (*qollarını yuxarıya (göyə) qaldıraraq*) Allahım, sana şükürler olsun. Beni topraka gömmeden babamla kovuşdurdun. Annem nerde yaşıyor, abla?

Zərifə: - Gedək, qardaşım (*əl-ələ tutub evdən çıxırlar*).

**79**

Kamera onları parkda Qaliblə bir skamyada oturan vəziyyətdə görüntüləyir.

Qalib: - Hə, uşaqlar, bax belə...

Rauf: - Amca, nolursun, beni anneme götür.

Zərifə: - Qalib əmi, sizin bu vasitəçiliyiniz dağılmış bir ailənin yenidən qurulmasına səbəb olacaq.

Görüntü. Qalib susur. Skamyadan qalxırlar. Qalib başı ilə "gedək" işarəsi verir. Gedirlər.

Fonda Aygünün səsi ucalır.

Fon (*Aygünün səsi*): - Nəhayət ki, qırılan ümidlər, qubarlanan həsrətlər bu gün günəş qürub etmədən qovuşacaqdı! Ancaq təsadüfi gəliş, qızım Ləmanın doğum gününü pozmuş olacaqdı.

Fondakı səs yığılır.

Yeni kadr Rəşidin evində - onun xəstə çarpayısında görüntülənir. Rəşid yuxudan oyanır. Gözlərini açanda Azəri başının üstündə görür.

Azər (*birnəfəsə*): - Ata, həkim sakitliyə ehtiyacın olduğunu söylədi

Rəşid (*astaca başını yana çevirib, boğunuq səslə*): - Oğlum. Rauf... Azər, Rauf hardadır?

Azər: - Qalib əmi ilə getdilər. Zərifə də onlarladır.

Rəşid: - Oğlum, get ən gözəl paltarını geyin. Birlikdə gedək ananı görməyə.

Azər (*sevinir*): - Oleyy! Anamı görməyə gedirəm (*atasını öpüb, sevincək yan otağa keçir*).

Rəşid (*yorğun halda dodaqlarını tərpədərək azacıq təbəssümlənir. Əlilə sinəsini, ürəyini ovuşdurur. Ağrıdan kömürtək qaralan dodaqlarını xəfifcə tərpədərək öz-özünə pıçıldayır*).

**80**

Rəşid: - Yuxudan oyanınca insanı oyandığına peşiman edən, geri dönmək istəyib amma dönməyincə çarəsizlikdən havalanan, həyatda bircə dəfə görülə bilən şirin yuxum oldun, Aygünüm. Səni sevməkdən və gözləməkdən heç usanmadım. Səni qəlbimdə müqəddəs varlığın nuru kimi bəslədim ki, daim yolumu nurlandırasan. Yağışı unutmuş torpağın dolmuş qara buludlara həsrətli yalvarışı kimi səssizcə, xəfif-xəfif, amma ürəkdən darıxdım sənin üçün... (*arada dayanır, yorğun nəfəs dərir. Sonra yenidən pıçıldamağında davam edir*). Gülü solunca, səni isə ölüncəyə qədər sevəcəyəm. Əlim sənə qovuşmasa da, artıq möhnətim başa çatdı. İndi bu fani dünyadan rahat köçə bilərəm. Məni bağışla ki, səndən razı gedə bilim... Son dəfə gözlərinə baxa bilmirəm deyə, yenə də həsrətinin yanğısı ilə səndən ayrılıram, Aygünüm!.. (*ağır-ağır dərindən nəfəs alıb, köks ötürür*)... Yanına gəlirəm, ata, heç olmasa indiki anımdasa məni bağışla. Axı mən bu addımı sənə qarşı dönüklük, nankorluq zəminində yox, istədiyimlə xoşbəxtliyim naminə atmışdım. Hansı ki, bu günü mənə qıymadın.. (*hərəkətsiz qalan Rəşid bu pıçıltıyla da gözlərini yumur*).

Kadr. Əsərin əvvəlinə. Aygün divanda oturulu. Rauf, Zərifə, Qalib və Ləman onun başının üstünü kəsdirmiş vəziyyətdə görüntülənir.

Aygün (*dərindən nəfəs alaraq*): - Hə, əzizlərim, bu da zavallı bir ana həyatının faciəli aliə dramı.

Görüntü. Ləman əllərini üzünə tutaraq yan otağa qaçır, qapını da arxasınca örtür.

Görüntü əsərin birinci kadrına dönür. Həmin qaranlıq otaq, masa, masanın bir tək üstünü işıqlandıran lampa, qocalmış ana və qarşısında gündəlik. Aygün yazmaqdadır.

Fonda Aygünün səsi ucalır

**81**

Fon (*Aygünün səsi*): - Hər şey zamana möhtacdır. Bütün bağlı qapıların açarı səbr, dözüm, iradə və bir də inamdadır. Parçalanmış bir ailənin indi yenidən bir yerdə qərarlaşması bitmiş bir həyat hekayətinin başlanğıcıdır. Son cümləmi gələcək nəsillərə sual olaraq yazıram:

"Siz deyin, oxuduğunuz bu gündəlikdə baş verənlər taleyin hökmüdür, yoxsa ata qarğışı?!"

Görüntü. Aygün asta-asta gündəliyi qapayıb qələmi onun üzərinə qoyur. İşıq bir tək gündəlikdə gurlaşır və bağlı dəftərin üstündə yazılır:

**SON**

# II Fasil

## QARA, MƏXMƏR GECƏLƏRİM
## (poeziya)



# Poeziya heyrətdən doğulur

***Bu, qızın (qadının yox) uşaq doğmasından betərdir***

*Bundan sonra şeir yazacağammı?Ağlım kəsmir! Hər şeydən öncə ona görə ki... Həyat insanı, nədəndi bilməm, çox ağrıdır. Qarabağ müharibəsi içimdə nə var çoxunu əzdi, xışmaladı, yaman günə qoydu. Odu nə vaxtsa içimin ağrıdan, göynəkdən yox, istəkdən, şövqdən ağrıyacağına inanmadığım kimi, bu üzdən də bundan sonra şeir yaza biləcəyimə inanmam. Əsası da bu ki, 1980-ci illərin ilk tarixlərindən sonra heyrətləndiyim xatirimə gəlmir. Hətta çapa layiq bilmədiklərimi də kitaba ona görə qoydum ki, xatirə yaradıcılığım kimi xatirlərdə qalsın.*

***

*Mən poeziyaya gəlmək istəyəndə şeir dünyası çoxdan tutulmuşdu. Ha illah etdim, hara üz tutdum, özüm üçün bir çərək yer tapa bilmədim. «Azərbaycan» jurnalı da eləcə, «Ulduz» da. «Ədəbiyyat və incəsənət», həmçinin «Bakı» və hətta «Azərbaycan gəncləri»nin müvafiq şöbələri də tutulmuşdu.*
*Yalnız bircə yol şair Ağacavad Əlizadə (Allah-taala belələrini unudulmağa qoymasın) təqdim etdiyim iki şeirdən birini - «İlmələrə toxunan ömür»ü əvvəl «Ədəbiyyat və incəsənət» qəzetində, sonra isə «Çinar pöhrələri» ədəbi almanaxının I cildində (1979-cu il) çapa verdi. Bu, bəlkə də mənim rəhmətlik şair Sabir Almazovla həmyerli olmağımın və bu rəhmətliklərin (C.Almazov və A.Əlizadənin) bir-birilə isti ünsiyyətinin bəhrəsi idi, bilmirəm.*

*Amma artıq gec idi, mən deyəsən yorulmuşdum. Çünki, xaraktercə ayağının qənşəri bircə dəfə «döyülməyə» möhtac olanlardanam. Sınıram və məni sındıran qapını özüm öz üzümə biryolluq bağlayıram.*

*Elə də oldu. Bu gün də bağışlaya bilmədiyim, poeziya şöbəsinin müdiri, şair Tofiq Bayramın «Ulduz» jurnalında poeziya istefa verib» (sən demə o, məzuniyyətdə imiş) kəlməsilə 18 yaşlı gənci,başqa sözlə məni lağla qarşılaması sonralar ədəbi nümunə təqdim edə biləcəyim bütün digər qapılardan ayağımı biryolluq kəsdi. Ondan sonra yazdımsa da yazdıqlarımı ya cırıb atdım, ya da saxlanc edib bu gün üçün qorudum.*

***

**Sonradan:** *Mən bu sətirləri yazanda 1980-cı illər idi .Ancaq zaman məni vədimə xilaf çıxartdı.*
*2009-cu ildə içimə yenidən*
*məni heyrətləndirə biləcək duyğular doldu.*
*Və mən yenidən poeziyaya qayıtdım.*

***Müəllifdən***

# I Bölüm

• • •

## İlmə-ilmə toxunan misralar

### OXUCUMA

*Açsan səhifəmi sən varaq-varaq*
*gözündə bir ömür canlanacaqdır.*
*Burda ürəyimin odu-alovu,*
*burda təbiət də qucaq-qucaqdır.*

*Bir misram – ömrümün bir səhifəsi,*
*bir misram – arzumdur,*
*burda dil açıb.*
*Bir misram – könlümün nisgilli səsi,*
*biri – həsrətimdir sinəmdən qaçıb.*
*Varaqla gəl məni sən varaq-varaq,*
*Diz-dizə oturaq,*
*göz-gözə duraq,*
*Gəl, biri-birimizdən hal-əhval tutaq,*
*Bir ürək söhbəti biz pıçıldaşaq.*

## BU YEGANƏ ÖLÜMDÜ YER ÜZÜNDƏ

*(Anara)*

Qalx yatağından, Nigar,
Bir daş at göy üzünə.
Gör göylər götürəcəkmi?

Bir «ah!» çək qarsalansın
yalquzaq sevginiz.
Gör Rəsul eşidəcəkmi?

Bir «ah!» qalxıb xəstəxanadan,
yapışıb tavanın
ən gözə görükən yerinə -
heç kəs görmür.
Bir «ah!» qalxıb Mərdəkanın
göyüzünə.
Rəsul görür -
heç kəs görmür.
Bu möcüzəli ölümdü Yer üzündə.
Nigar arxayın ölür.
Ki, hər səhər
nərgiz qoxusu dəyəcək
ruhunun dodaqlarına.

Bu möcüzəli ölümdü Yer üzündə.
Rəsul arxayın ölür.
Ki, hər səhər
nərgiz qoxulu bir cüt əl
sığal çəkəcək yanaqlarına.

Hər kəs öz dünyasında.

Nigarın indi hər səhər
xəfif

nərgiz qoxusu hopur ruhunun dodaqlarına.
Rəsulun indi hər səhər
xəfif
nərgiz qoxusu çökür yanaqlarına.
O əllər Anarındı.
Anar ürəyi hər ikisi çəkəni çəkir:
Bir cüt dodağa nərgiz qoxusu
hopdurur hər səhər,
bir cüt yanağa nərgiz qoxusu
çökdürür bir təhər.

## FİKRƏT QOCAYA

Çox da,
«mən ünvansız yaşayıram», deyib
özünü yanıltma, qardaş!
Çox da,
yayını çəkib
oxunu dərəyə, dağa,
çəmənə, yaylağa
atma, qardaş!
«Ünvansız yaşayıram», söyləyib,
özünü yanıltma, qardaş!
Üzdə yanılda bilərsən özünü,
sözdə yanılda bilərsən özünü,
hissdə, duyğuda,
bir şirin uyğuda,
ən dərin qovğada
yanılda bilməzsən özünü.
Bilirəm, bərk ayaqda
yenə sən köksünü irəli verəcəksən,
yenə sən hər qovğaya sinə gərəcəksən,

yenə sən fəxr eləyəcəksən
Ki, torpağın ucalardan ucadı.
Ünvanın Azərbaycandı,
özün Od oğlu,
imzan Fikrət Qoca!

*Fevral 1985-ci il*

## EYNİ QAPINI DÖYÜR EYNİ TALELİ ADAMLAR

*(Vaqif Cəbrayılzadəyə)*

Elədi, qardaş!
Gəl, gir mənim evimə,
qapım tanış gələr sənə.
Daşım, divarım, hörgüm,
«kef çəkdiyim» günüm,
yadım,
ya qonağım,
evimin havası,
könlümün davası –
hamısı birər-birər
sənə tanış gələr.
Sevincimin dadına bax,
dadı tanışdı sənə.
Sevgimin doğmasına,
sevgimin yadına bax –
yaddı – tanışdı sənə.
Talemin çarxına bax –
qaçdı, qarışdı sənə.
Biz ki, nə dostuq, nə tanış.
Yəqin,
Allahın salamı da heç yadında qalmamış
ki, mən sənə nə vaxt «salam» vermişəm.

Oxusan ürəyimi,
görəcəksən bildiklərindi –
çaları ayrıdı bircə.
Tale də bir naxışdı,
qarğışı ayrıdı bircə,
gecəsi, gündüzü ayrıdı bircə,
yağışı ayrıdı bircə,
uyğusu ayrıdı bircə.
duyduğu ayrıdı bircə.

Talemiz bu naxışdadı, qardaşım.

*30.06.1986-cı il*

# BU NƏ CƏNG, BU NƏ CİDAL

Bu yol hara gedir belə?
Maşınlar,
adamlar…
Yağışlar
döyə-döyə təpəsinə,
Taleyini ömrümüzə yaza-yaza,
döyülə-döyülə,
söyülə-söyülə
bizi çatdırır öz ünvanımıza.

Bu yol hara gedir belə?!

Hara qaçım
bu dünyanın əlindən?
Necə dözüm
fitnəsinə, felinə?
Necə doyum
çəmənindən, gülündən –
bilmirəm!
Üzlər gördüm,
renginə bax, İlahi,
Gözlər gördüm,
cənginə bax, İlahi,
söz gördüm
ahənginə bax, İlahi -

dözmürəm!

Bir «ah» çəksəm
Xəzər od tutar, yanar,
Harayıma dağlar, daşlar hoylanar,
Hıçqırtımdan yer də, göy də laylanar -
dinmirəm
Dəyməyim mənim bu dünyama.

ꙮ

## DÜNYANIN RƏNGLƏRİ

*(bir oturumluq şeirlər)*

### *ÜRƏYİM*

Ağrını özün seçdin.
Hardan alım vüsalı
sənə bəxş eləməkçün.
Hıçqırıb için-için,
sən Ağrı bulağından
udum-udum su içdin.
Elə bir nəğmə hanı,
Könlünə qətrə-qətrə
tapım,
nəqş eləməkçün? –
Ağrını özün seçdin,
ürəyim!

**1.** Bir ürək ağrı – məndə,
bir ürək ağrı – səndə.
Ağrılardan bağrımız
düşdü havaxt kəməndə?
Kor qalasan, a dünya,
necə dözüm bu cəngə?

Bir ürək ağrı – səndə,
bir ürək ağrı – məndə.
Mən çıxartdım köksümdən,
Sən çıxartdın köksündən –
Yaydıq dünya üzünə.

Dünya – acı ağrıdan,
dünya – şirin ağrıdan,
hamiləymiş havaxtdan
xəbərimiz yox bizim.
Uyduq bir yad nəfsinə,
yaydıq öz ağrımızı
dünyanın boz üzünə.
Nə sadəlövh bir istək
aldadıbmış gör bizi.
Dünyanın vaxtı hanı,
görsün ağrıya qundaq
sızlayan cismimizi.
Eh!
Ay-hay, a qardaş,
bu da məgər bir işdi:
«Dünya hardan yön aldı,
dünya hara yönəldi?»
Deyirəm e,
başımıza iş-güc qəhətdi.

**2.** Mənə bir ürək verin,
od-alovu özündən.
Göynək-göynək göynəsin,
çatıldasın hey çat-çat,
(Nə yarası sağalsın,
nə göynəyi azalsın).
Yapışıb kəmərindən,
yapışıb əllərindən,

yapışıb sözlərindən –
çöndərim dünyanın nəfsini
öz başına.
Bəlkə özünə gəldi.

***

Bu da bir gündü bəyəm?
Ömrümüzü salıq salaq
«bəlkə»lərin ümidinə?
Bu gün nə gördük ki,
sabah nə görək.
Ağıllı ol, qardaş!

Mənə bir ürək verin!
«Tək əldən səs çıxmaz», -
deyib dədələr.
Eh, yazıqlar hardan biləydilər
Ki, bu qədər artıb-törəyib,
batırıblar dünyanın adını
gədə-güdələr.

***

Mənə bir ürək verin.
Qoyub ürəyimnən yan-yana,
yana-yana
çırpım dünyanın başına.
Bəsdi daha,
qorxum da yoxdu, Vallah.
Asi olacam bundan belə,
Yerə, Göyə, Allaha!..
Cana doyduq ki, daha.

***

Mənə bir ürək verin,
qoyum ürəyimnən yan-yana.

Bəlkə ağ ola bildik
dünyanın qartdaşmış üzünə,
söhbətinə,
sözünə.
Yoxsa, alacam ayağımın altına.
Bəsdi daha,
ya ona verən Allahdı, ya mənə.
Qoymaram qalsın sabaha.
Tüpürəcəm dünyanın üzünə.
***
Mənə bir ürək verin!

***3.Ürəyimlə söhbət***

– Eh…y!
hara belə?
Nooldu?
Nə yaman üzüdönük oldun, balam?
Əsl zəmanə adamısanmış, Vallah!
Hardan biləydim bunları.
heyf, səd heyf!

***4. Gör e…***
tanımaq olmazmış adamı.
Bu qədər yaş yaşadım,
filan qədər daş daşıdım
əlimnən,
ətəyimnən,
kürəyimnən,
ürəyimnən -
bir yol «sağ ol»unu eşitmədim dünyanın.
Gəldim çatdım bu yaşa
vuruşa-vuruşa,
dartışa-dartışa,

savaşa-savaşa.
Alacağım nə oldu?
– Cismim dolu ağrı,
ürəyim dolu ağrı.
Bəs axırı?..

Bu tutuş ki məndə var,
bilirəm, elə belə də gedəsidi.
Üstündən getməkdən danışma, qardaş,
hələ bəlkə üstünə gələsidi.
…Ay səni, dünya!
Yaman ipiqırıqsanmış.

**5.** Bu da işdi, a qardaş?
Bir söz demək istədim
ağzımdan vurdular,
dodağım qanadı.
Sağ gözümü çevirdim –
sağa baxdım,
sol gözümü çevirdim –
sola baxdım,
gördüm dünyanın hər qarışı
bir özgə rəngdədi.
Ürəyim bir söz dedi,
dilim özgə.
Əlimi apardım dodağıma,
əlim qana bələndi.
Gördüm dünyanın hər qarışı
bir özgə rəngdədi,
əlim özgə.
Sağ yönüm yönəldim
– atamı gördüm.
Sol yönüm yönəldim –
anamı.

Atam baxdı dodağımın qanına,
acı-acı təbəssümləndi,
başını buladı.
Anam baxdı dodağımın qanına,
xısın-xısın ağladı.
Baxdım yar-yoldaşıma,
bağrım sızladı.
Özüm yadımdan çıxdım.
Göynək-göynək göynədi içim.
Bir soyuq bulaq aradım -
Qarlı Baba bulağı -
Bəlkə içəm,
göynəklərim sozala.
…İçdim,
nəfəsimi hovxura-hovxura,
ta nəfəsim qaralınca,
könəlgimədi göynəyim.
Çıxdım
Baba Dağının quşqonmaz zirvəsinə,
Baş qoydum
qurd salmış,
qartımış buzlaqlarının sinəsinə,
bəlkə könəlgiyə ağrım.
Yenə gəlmədi karıma.
…Və ən nəhayət,
Ağrına-ağrına,
tapqına-tapqına
təzədən yön aldım anamın yanına.
Başımı qoyub dizinə,
uyuyub kəlməsinə-sözünə,
bir də baxdım,
havaxtdı gözlərim yumulub.

Eh! Deyirəm, a qardaş,

bu dünya ki var, üzü bozdu.
Nəbzini tuta bildin, sənindi,
tutmadın, yox.
İkicə üzü var dünyanın –
biri qışdı,
biri yazdı.
(Nəyi var elə bundadı:
həm sirri-xudadı,
həm dayazdı).
O da qismətnəndi,
hansına düşdün-düşdün.
Meylin çəkir yaşa…
meylin çəkmir…

…Eh, nə deyim daha.
Özün görürsən də.
Dünyanın işi uzundu, qardaş,
hərəsi də bir rəngdə.

### *6. Bilirsən nədi istəyim?*

Dediyim odu ki,
kişi – elə kişi olar.
Taftologiya olmasın,
qabaqlar kişilər vardı
bir oturum çörəyə,
bir udum çaya,
bir kişi kəlməsinə
qan bağlardı.
Kişinin bığının qırxılması,
atının yal-quyruğunun dalanması,
papağının,
qadın yaylığının tapdanması
kişilikdən sayılmazdı.

İndisə…

Hələ də ümiddəyəm,
ki, nə vaxtsa,
babalarımızın ömrünü yaşadıq bəlkə.

**7. Nə hillədi bilmirəm**

Son vaxtlar nəsə,
bir əlləm-qəlləm fikrə düşmüşəm,
Mənə elə gəlir ki, hərdən
get-gedə saxtalığa bürünürəm.
Yadımdadı, qabaqlar otun,
torpağın, daşın
üstündə oturmaq istəyirdim,
– otururdum.
Öz xoşumnandı,
Durmaq istəyirdim,
              – dururdum.
Ayağıyalın şenniknən
qaçmaq istəyirdim,
              – qaçırdım.
Ulduzlu gecələrimi
gecələrin qoynunda
dirigözlü
açmaq istəyirdim,
              – açırdım.
İndisə…
İndi, «o olmaz, bu olmaz,
bundan kar aşmaz,
axı eyibdi camaatdan»
kimi deyimlər yorur,
usandırır ömrümü…
Uf!

Bu da işdi?
Daha ürəyimiz şişdi
hər şeyi dərd eləməkdən içimizdə.

…Görən nə vaxt özümüz olacağıq?

**8.** Deyən baş alıb getdim…
Yiyəsiz-yeliksiz fikirlərimin azman ağırlığilə
ağzıma gələnləri,
ağlıma girənləri
köçürüb ağ kağıza,
bəzilərinin deyimincə olmasın,
özümü saldım dilə-ağıza.

O gün də,
hörmətli yazıçılarımızdan biri
qayıtdı ki,
bəsdir bu qədər ağrındın,
ağlamsındın.
Bəlkə, mövzularını dəyişəsən.
Bəlkə, bizlər yönü yönələsən.
Soruşdum:
– Nədən yazım?
Yazım ki, hər şey düzdədi?
Bir çala-çökək yerimiz də yoxdu,
asfaltda yaşayırıq?..
Qayıtdı ki,
ay sağ ol,
bax, indi mən deyənə gəldin.
Güldüm,
içim göynəyə-göynəyə.
acı-acı.
(Nəsimi ömrünə tamarzı…)
Noolar, bundan sonra

elə yazaram, – dedim.

***

Görəcəkli günlərim varmış!..

**9.** Bayaqdan elə
«Allah-Allah» deyirəm.
Amma, Vallah,
Allahın işi
bizimkinin yanında şükürdü.
Nə vecinə,
bu boyda dünyanın ağasıdı.
(Qılıncının dalı da kəsir,
qabağı da).
Ancaq, o da var ki, Allah deyib,
səndən hərəkət
məndən bərəkət.
yaxasını çəkib qırağa.
Camaatı salıb oda-ocağa.
Baxtı onda çəkib ki, gözə görükmür.
Yoxsa,
kimin əli üzülsəydi yerdən-göydən
qoymazdı onda bu qisası.
Olardı yerlərə, göylərə,
lap Allahın özünə də asi.
Bizdən fərqli yeri budu ki,
Allah təkdi.
Qohum-qardaş dərdi çəkmir.
Hər şeyi görür, düşünür,
amma danışmır.
Bircə yol bircə kəsin
bir əməlləsinə qarışmır.
Bölüb dünyasını çin-çin,
idarə eləyir özüyçün.

(Beşdə alacağı yox,
üçdə verəcəyi).

***10. Ay insanlar***

Arzumun qorasına,
bağrımın yarasına,
baxtımın qarasına
dəyməyin!

Ayım mənim, günüm mənim,
aylı, günlü ilim mənim.
Ağzımdakı dilim mənim
qaldı odlana-odlana.

Ruzum gözüyaşlı keçdi,
gözlərimdən qaçdı keçdi,
ömrüm özü qışdı, keçdi -
qaldım odlana-odlana.

Yandım bir köz umuduna,
ürək umsuna-umsuna,
ağlamsına-ağlamsına
dözdüm hər cür yumruğuna.

Könlüm odu közdü, keçdi,
dağı keçdi, düzü keçdi,
anlaq günüm düzü, keçdi, –
qaldım od ana – od ana.
Ağrım başdan aşdı keçdi,
qöynək qaldı, çaşqı keçdi,
havaxt qorxum candan keçdi –
qaldım odlana-odlana.

Ay insanlar!
Arzumun qorasına,

Bağrımın yarasına,
Baxtımın qarasına dəyməyin!
Dəyməyin, siz Allah!

**11.** Bu dünya - ulu dünya,
Göz yaşın sulu, dünya!
Bu nə gündü biz düşdük –
olmuşuq qulun, dünya!

Aşıq əcəb haldadı,
könlüm gör nə qaldadı.
Bu necə ağrıdı ki,
Şirinindən bal dadır.

Ay haray, qal da qaldı?
Ürəyim qalda qaldı.
Cismə sığmaz bu canım
sirri pünhan qaladı.

Haylınam harayından,
ün yetməz harayından.
Misqal-misqal gen düşdüm
ömrümün hər ayından.

Bu dağ – mən, o dağ – mənəm,
O budaq-budaq mənəm.
Kökdüm – sındı budağım,
Sinəsi bu dağ – mənəm.

Dağlarda bir «Ah» gəzir,
Zülfləri siyah gəzir.
Ümid itirib mən tək,
Allaha pənah gəzir.

Gör sözüm harda qaldı,
Yaramı ilan çaldı.
Qulların ölsün, dünya,
Odlu nəfsim qaraldı.

*Avqust 1979-cu il*

ꟃ

İçimin ağrıları çoxalır
illər ötdükcə,
əsəblərim daralır.
Əl atıram adda-budda
əlim yetməyən «saman çöplərinə».
Əllərim uzalı qalır,
ürəyim arzulu,
gözlərim ümiddə.
Yaşa dolduqca
çoxalır bu «saman çöpləri»,
çoxalır içimin sevinci,
çoxalır içimin kədəri,
çoxalır içimin qazancı,
çoxalır içimin itiyi.

*Naftalan, 1984-cü il*

Ömrü yaşamağa nə var.
Səhər durardım,
yeyərdim, içərdim.
Sonra naharımı,
axşamlar şam yeməyimi edərdim.
Günlərimi
ecgahınlıqla keçirərdim.
– Ömrü belə də yaşamaq olar.

Yəqin qismətimdə yoxmuş belə ömür.

Mən
güllüyün, çəmənliyin seyrindən çox,
insanların
söz-sovunun seyrini xoşlayıram.
Ağrısını,
qayğısını
və qeyrisini xoşlayıram.
Bir də baxıram,
nə vaxt yediyim yadımdan çıxıb
səhər yeməyimi,
naharı,
şam yeməyimi.

Yəqin qismətim beləymiş,
Mən belə ömürü xoşlayıram.

*16.03.1983-cü il*

Bu dünya çalın-çalpaşıq,
bu dünya qarışıq-quruşuq.
Ayağımı hara basım,
hara qaçım –
göy üzünü ulduzlar tutub,
yer üzünü insanlar.
Mənə bir çərək yer yox.

4 yanvar 1985-ci il

İnsan içinin
çənə düşən günü də var,
gəlin unutmayaq bu günümüzü.
Qoruyaq çəndən, dumandan,
Hər gümandan
qoruyaq özümüzü.

## EH, YİYƏSİZ-YELİKSİZ FİKİRLƏRİM

Bu necə gəliş idi?
Gördün ki,
arxamda həyanım yox –
gəldin üstümə.
Bu necə gülüş idi?
Bildin ki,
bir qahmar duranım yox –
güldün üstümə.
Bu necə hənirtiydi,
çatladım çat-çat vahiməsindən.
Bu necə haray idi,
qapandı qulağım nalə səsindən.
Qiymələndim gəlişindən.
Qəlpə-qəlpə qəlpələndim
gülüşündən.
Bağrım çatladı ki, vahiməndən.
Qulağım qapandı ki, ah-naləndən.
Dözəmmirəm daha.
Anamı çağırın
bir layla desin.
Bəlkə içimin buzlaqları
qızına bu qayğıdan.
Anamı çağırın
Bir ağı çağırsın ucadan.
İçinin yanğısından
Bir bayatı qopsun bağrından.

Anamı çağırın!

## BİR DƏCƏLLİK SORAĞINDA

*(9 yaşında ikən cərrah naşılığı üzündən tələf olmuş dayım qızı Xatirənin acı xatirəsi üçün)*

**1. Bu gün**

Bir körpə dəcəllik
dəfn oldu bu gün.
Bir şıltaq təbəssüm
gömüldü yerə.
Kiminçün yaşardı
göydə bir ulduz.
Söküldü göylərdən
töküldü yerə.

O haray, o səda
buz sükut oldu.
Sığındı gözlərin
ümmanlığına.
Neçə çılğın könül
sısqadı bu gün
Xatirə soraqlı
ürək dağına.

*25 sentyabr 1974-cü il*

**2.** Bu otaq, bu həyət,
bu küçə yolu,
şıltaq addımının sorağındadı.
Sənin məktəb yolun,
yüksəliş yolun,
lap məzar yolunun qırağındadı.
A Xatirə bacım,
a körpə quzum,
bir anlıq dinlə gəl,

bir söylə görüm,
o soyuq gözlərin,
soyuq baxışın
kimlərin, kimlərin qınağındadı?

...Bu otaq, bu həyət, bu küçə yolu
şıltaq addımının sorağındadı.

***3. Ax, nadan əlləri***

Bir dayan,
bir anlıq dinlə, sonra get.
Yandı göynəklərim
yandı bağrımda.
Sən məni əfv et.

A Xatirə quzum, xatirindəmi?
O gün iş görməkdən soyudu əlin.
Sənə «tənbəl» dedim,
dinməyib getdin.
Sən böyük əzmilə, əzəmətilə
öz ağrılarını
içində
gizləyib getdin.
Sənə «tənbəl» dedim,
dinləyib getdin.
Həkim də çağırdıq,
– Elə bir şey yoxdur, ötüşər, – dedi.
(Ax, nadan əlləri, nadan əlləri!)
Bir nadan ürəyin bilməzliyindən
neçə ürəyə dən düşər,
bilmədi,
yoluxdu, getdi.
Sonra bıçaq altda sızladı canın,
Bir həftə keşiyə möhtac qaldın sən.

Bu atan, bu anan, bu bibin, dayın –
gündüz Günəş oldu,
gecələr ulduz
başının üstdə.
Dumanlı kölgələr sayrışmaqdaydı
qaşının üstdə.

**4.** Bir damla göz yaşı…
Bumuydu dünyadan qazancın sənin –
qaytardın geri.
Neçə göz yoluna dikili idi,
qırdın o gözləri.
Dondu baxışında qırov, qar sənin.

Ah,
soyuq sükutun nələr söyləyir.
Bir ata əlləri, ana gözləri,
bir soyuq məzara aparır səni.
Bir insan axını ağırlığından,
bir insan axarı ürək inləyir.
Bu qəmli sükutun nələr söyləyir.

Yollara qurğuşun tökülüb nədi?
Yollar yorğun-yorğun addımlayırlar.
Bir axın kədəri, qüssəni, dərdi
yollar qəbristana çəkib aparır.
Gözlər yurdun-yuvan, məskənin idi.
Düşdün baxışların dərinliyindən.
Göydə ildırım çaxdı,
göydən bir ulduz axdı,
bir ömür yayındı öz məhvərindən –
düşdün baxışların dərinliyindən.

Bir otaq, bir həyət tutmazdı səni,

Sığmazdı yurduna o qaynarlığın.
Bir kiçik məzara de, necə sığdın?
Yırtmazmı məzarı qəlbidağlığın?

**5.** «Salavat çevirin!» deyir bir qoca,
biri başsağlığı verir səninçün.
O biri əlində təsbeh çevirir,
(belə yola salır səni, de, neyçün?)

O yanda ağıçı ağı söyləyir.
Nəmli gözləri
ürəkdən bixəbər dolub boşalır.
Məni düşüncələr, ağrılar alır:
«O yəqin oğlunu anıb ağlayır,
o gəlin əriyçün sıxır gözünü.
O isə… O isə…
Bəs səninçün kim
qoparır bağrının yanar közünü?»

Bir ata ürəyi sızlar göynəkdən.
Bir ana naləsi dolar gözlərə.
Bir hayqırtı kədər
sürünüb dizin-dizin.
Addım-addım soraqçı
düşər düzlərə.

**6. Məzarıstanda**
Görüşünə gəldim bu gün, a quzum.
Dedim,
ağuşuma yüyürəcəksən açıb qolunu
əvvəlki kimi.
Elə hazırdım ki, qucum boyunu…
Gözlədim, gözlərim
dikili qaldı yoluna sənin.

Açılmış qollarım
bükülü qaldı yoluna sənin.
nə səs-sədan gəldi,
Nə səndən soraq.
(Ah, taleyi nakam məzar görüşü,
üzdən iraq).
Sənə bant almışdım allı-qırmızı.
De, neyləyim,
kimə verim,
kim bağlasın bəs?
Sənin bantın əllərimi yandırır, düzü.
Bu qırmızı rəngin üçün kim ağlasın bəs?
De neyləyim,
kimə verim,
kim bağlasın bəs?

Bir dur görüm!
Susqun nitqin,
lal baxışın,
cansız cismin
əhd-peymansız,
məndən gizlin
hara gedir?
Aman Allah!
Bu lallaşan,
yalnızlaşan,
müəmmalı
buz sükutun nələr deyir?
Bir dəli hıçqırtı qopdu bağrımdan,
Üz tutdu sərgərdan düzə, çəmənə.
Hayqırdım, qışqırdım:
«Ehe…y, geri dön, yet Xatirənə».
Düzlər kədərimdən çatladı, durdu.
Çəmən bu naləmdən yandı, qurudu.

***

…Dünən dünyaya gələn,
heç doğulmayanlar da
ötəcək yaşda səni.
Sənsə doqquz yaşında qalacaqsan əbədi.
Hər gələn sentyabr
gəlib axtaracağam məzarda, daşda səni:
«Dur, Xatirə, quzum,
bu kitab, bu dəftərin.
Dur,
məktəbə yollanır bu gün rəfiqələrin».
Sən lal,
məzarıstan lal.
Sıxar buz sükutun,
buz soyuqluğun məni.
Maddım-maddım baxışın,
lal donuqluğun məni.
Nə bir səs, nə bir səda…
Vida… Vida…
(Ah, taleyi nakam məzar görüşü,
könüldən, gözdən iraq,
                    üzdən iraq).

**7.** Günəş gəlin gərdəyindən baş qaldırar,
həyasından yanaqları min rəng alar
                    – sübh açılar.
Tay-tuşların dəstə-dəstə,
axın-axın
məktəblərə yollanarlar.
Anan durar yol boyunda.
Baxışları yol boyunca
iməkləyər dizin-dizin,
kövrək-kövrək.
(Dözmür ürək, dözmür ürək).

…Şər qarışar.
Bir yuxu qaranlıq çökər gözlərə.
Can alışar,
anan durar yol boyunda,
əl qoynunda,
qol qoynunda.
(Yollarına soraqçı,
dönüşünə duaçı).

Bir buz sükut
divarların matəminə yas da tutar.
Pas da tutar
burda şənlik,
burda vüsal.
Dörd yan səssiz, dörd yan lal.

Televizor həyasından
qara pərdə tutub üzə,
radio da qıfıl asıb dodağından.
Bu – atandır,
bu da anan.
Baxa bilmirlər göz-gözə
baxışların qınağından,
baxışların danlağından.

…Gözlərinin qorasını sıxır anan
gecə-gündüz.
(*Yaraları çiçək-çiçək,*
*yaraları yenə göz-göz*).

**8.** Yenə həmin həyət,
yenə həmin ev.
Bir soyuq sükuta bürünüb bura.
Bir nəfəs musiqi,

bir nəfəs şənlik
qaçaq düşüb uzaqlara.
Bir dodaq təbəssüm donub divarda,
bir dodaq gülüşə qəm-qüssə çöküb.
Tale caynağında götürdü getdi
bir otaq sevinci,
min qubar töküb.

Göylərin bağrında bir şimşək çaxdı,
göylərin bağrından bir ulduz axdı –
göylər doldu, göylər hönkürtü çaldı.
Burda sevinclərin köksü daraldı,
burda addım səsin qırılı qaldı.

Bu ayaq səslərin,
incik gözlərin,
burda əllərinin teması vardır.
Hər addım başında səs-sorağının
nəvası vardır.
Bəs bu çanta nədir belə yan düşüb?
O damı bu nurlu, geniş dünyadan
nigaran düşüb?..

…Orda rəfiqənin yeri boş qalar.
Orada xəyalın boynun buracaq.
Bəlkə müəllimin dərs sordu bu gün,
de,
kim duracaq?..

…Bir ana gözləri ağlayır burda.
Bir ana ürəyi yanır qubardan.

• • •

…Yenə həmin həyət,
yenə həmin ev.

İllər qanadında ovunduracaq əzizlərini.
Bu göz yaşlarını qaysaq tutacaq.
Anan gəlişinə ümiddə idi,
yığacaq gözlərini.

*Noyabr 1974-cü il*

## NANKOR ÖVLAD

*(hadisə)*

Salam!
– Əleyküm, – dedi, -
boyuna qurban olum».
Hələ bir gileyləndi:
– Görmək olmur üzünü,
Aya, Günə dönmüsən.
Aman Allah, buna bax,
ay oğul, bu sənmisən?
Bir yol gəlib getsənə.
Mən də xalanam axı,
Məni də yad etsənə.
– Oğlundan, gəlinindən,
güzaranından danış.
Küsmə gec gəlməyimdən.
– Sənə qurban bu canım,
Ay başına dolanım,
dərd bir-ikidi bəyəm?
Bircə yerə kül tökdüm,
neçə qızın üstündə
bircə oğul böyütdüm.
O da mənə dərd oldu.
Dərd mənə bülənd oldu.
Deyirlər, ev alıblar,
yığışıblar içinə.

Düşündüm ki, bir xonça
düzəldim,
pay-parçayla
gedim oğlum evinə.
Nə eləyibdir mənə,
qoy südüm bağışlasın.
Aralığa ayrılıq
toxumu qarışmasın.
İstər pis, istər yaxşı…
Qurban olum, baladır…
….Ana susdu.
Gözündə
bir alov yandı, söndü.
Bu odlu baxışlarda
neçə məna göründü.
Çəlimsiz bir can evi
tüstülərə büründü.
…Ananın gözlərində
bir alov yandı, söndü.

Hara barmaq tuşlayıb
Oraya gedib ana.
«Eh, təki xoşbəxt olsun
bir oğlum»
söyləyib yana-yana.
Başsız ailə, dörd qız…
Dözüb ağrı-acıya,
ana palto da alıb
bir gün «gəlinbacıya».
Tufli, kostyum… Və nələr,
duzu yavanlıq edib
Çörəyə evdəkilər.
«Qısılmasın birdənəm»
söylədikcə hey ana,

soyulub köynək kimi,
soyulub yana-yana.

***

Döy-sındır, dedi-qodu…
Nişan taxılıb bir gün.
Onun başına elə
bu da qaxılıb bir gün.
Hələ bunlar nəymiş ki…
Çox şeylər görəcəkmiş
başıbəlalı ana,
odlanıb yana-yana.

***

Günlər ötüb… Övladı
yağlı əppəyə dönüb.
Günlərlə itən oğul,
ayda bir yol görünüb.
Aylıqdan anasına
para göndərməyib o,
bircə yol anasını
şirin dindirməyib o.

«Toy edim, əl-ayağı
yığışsın qudamgildən,
ağlı başına gələr,
oğlum evimə dönər».
Min zidgirliklə ana
toy eləyib oğluna.
«darılmasın» söyləyib,
«bircədənəmdir» deyib.

Ana, dörd qızı ilə
ev-mətbəxə köçüblər.
Otağı gəlin üçün
bəzəyiblər, seçiblər.

Bir evdə iki qazan
asılıb həmin gündən.

Üzündə qüssə artıb,
ağarıb saçı dən-dən.
Ürəyi göynək-göynək,
dərdləri çiçək-çiçək,
ət töküb köynək-köynək,
sınıxıb, yanıb ana.
hələ cavan yaşında,
qartımış qarılarla
qoşa dayanıb ana.

Çözələnib bu söhbət,
elə-obaya çıxıb.
Nə dost-tanışa baxıb,
nə camaata qarışıb
utandığından ana.
Canı yanan-yanmayan
təsəlli verib ona.
…Qartımış qarılarla
qoşa dayanıb ana.

…Bir evdə iki qazan…
Asan deyilmiş, asan…

***

Bu yerdə söz-sovuna
xitam da vurdu ana,
dayandı durdu ana:
– Hə, sonra bizdən köçüb
qudamgildə qalıblar.
İndi də eşitmişəm
təzə mənzil alıblar.
Dəyməyə gedəcəkdim,

heyf…
Bu keçmiş ola.
Bir oğul ki, ananı
saymaya, üzdən sala…
Dünən küçədə gördüm,
qudamgilin yanında –
Bir od keçdi canımdan.
Üzümə baxıb, baxıb
qanrıldı, getdi oğlum.
Eybi yox, bir gün anlar
yanıldı, getdi oğlum!

*1974-cü il*

## EH, NƏ UZUN İMİŞ DÜNYANIN İŞİ

**1.** Eh, nə uzun imiş dünyanın işi:
şirini, acısı,
əzabı, ağrısı,
sevgisi, qəzəbi…
Bəzən üzügülər olması,
bəzən əsəbi.
Bəzən bir hissin ağırlığından
ürəyindən gildir-gildir
qan-yaş axması.
Heç nə gəlməsə də əlindən,
kimlərinsə ağrısına
bağrının qovrulub yanması.
Gördüyü dağ boyda işi
sənə sezdirməmək qayğısı.
…Görürsən də, sən Allah,
nə uzunmuş dünyanın işi!

**2.** Eh, nə uzun imiş dünyanın işi.

Vaxtında bizlərə elə gəlib ki,
bu Sabirdi,
bu Rəsuldu, Əlidi –
yüz-yüz yazandan biri.
Bu Vaqifdi
yüz bəstəçidən biri.
Bu ki, ustad Ələsgərmiş,
bu ki, Dədə Şəmkirdi,
bu aşıq Alının özü,
bu da Bozalqanlıdı –
yüz-yüz ozandan biri…

…Və bir də, onda başladıq
görmədiklərimizi görməyə.
Bağrımızdan qan sıza-sıza
axtarmadıqlarımızı axtarmağa,
ağlamadıqlarımıza ağlamağa,
öyünmədiklərimizlə öyünməyə –
baxdıq ki, daha gecdir.
Nə Mirzə Ələkbər var yer üzündə,
nə Rəsul Rza,
nə Əli Kərimlə
Vaqif Mustafazadə…
Başladıq bağrımızdan qan sıza-sıza
göynəyib ağlamağa.
Uşaq başı aldadırmış tək
özümüz-özümüzü danlamağa.
…Eh, nə uzun imiş dünyanın işi.
**3.** Kəndimizdən qaçıb
şəhərə gəldim.
Əl ilə sulanan «çəmənləri»,
şəhərin içində
guya ki,
yarğanlardan üzüaşağı

gurlayan şəlaləni,
qəfəsdəki quşların cəh-cəhini…
Heç bilmirəm
necə oldu ki, məğbul bildim…
…Yaşımın yetkinlik çağında
yurdumdan baş alıb Şəhərə[1] gəldim.
Heç özüm də bilmirəm
necə oldu,
yavaş-yavaş öyrəşdim
içimdə ağlaya-ağlaya
bəzən
yerə-göyə qarğıya-qarğıya,
gərək biləndə
üzdə xəfifcə gülümsəməyi.
Gərək biləndə
getmək istəmədiyim yerlərə getməyi.
Ürəyim deməyənləri etməyi.
Və kim bilir
daha nələrə,
heç özüm də bilmədim
necə öyrəşdim.

Hərdən dönürəm
yallı-yamaclı,
bulaqlı-arxaclı,
bir vaxt,
özümün də dediyim kimi,
guya ki, «qaxınclı» kəndimə.
Və yalnız onda
bir doyumluq da olsa,
çəmənlərin ətrini yığıram içimə.
İnsanların xətrini yığıram içimə.

---
[1] Bakı nəzərdə tutulur.

Və yalnız onda
sədam daşlarda qalacaq qədər
gülmək istəyirəmsə – gülürəm.
İnsanlar arasında
dağları-daşları
ağladacaq qədər
hönkürtü çalmaq istəyirəmsə – bilirəm.
Kövşənliklərdə
gecəli-gündüzlü
qalmaq istəyirəmsə – qala bilirəm.
Bir sözlə,
ömrümü hara
salıq salmaq istəyirəmsə – sala bilirəm.
Nə bir gülən olur mənə,
nə lağ eləyən.
Belədə,
bir günlük də olsa,
bu günümə sevinirəm.
Sevinirəm ki, İlahi,
heç olmazsa,
hardasa, haçansa
özüm ola bilirəm.

Bu günümə də şükür!

**4.** Bu dünya mənimlədi.
Mənim gözlərimnən gülür dünya.
Bu dünya əlimdədi.
Mənimlə yaman üzüyoladı,
hara desəm -
gedir dünya,
hara çəksəm -
gəlir dünya.
Elə mən də pis olmamışam ona.

Çiçəyinin dibini desən –
boşaltmışam,
çəməninə qətrə-qətrə su
– axıtmışam.
havasına sevincimi
– qatmışam.
Nəyim var,
həvəsnən, eşqnən qucağına atmışam.
O qədər bağlıyıq ki…
Sevinirəm -
dağları, daşları sevincdən gülür.
Qəmlənirəm –
dağları, daşları göz yaşlarından ölür.

Beləcə,
gülüynən, çiçəyinən,
öz ürəksiz ürəyinən
mənimlədi dünya.
Bircə insanlarından savayı.
Bircə biz övladları sirliyik biri-birimizə.
…Dünya –
hər kəsin öz ürəyindədi,
öz dilindədi,
öz gözündədi.
Hər kəs öz ürəyinən,
öz gözüynən baxır dünyaya,
dünyasa öz yerindədi.
Mən gülürəmsə – gülür.
Mən ağlayıramsa – ağlayır.
Bircə
İNSAN adlı övladlarıdı,
sakit, səssiz
hər kəsən öz yolu ilə addımlayır.

• • •

Bu gününə də şükür, dünya!

**5.** Dünya ilə
elə bir çəkişməm yoxdu.
Odumu, alovumu deyirsənsə,
bilirəm,
birinci özümü yandıracaq.
Şaxtamı, qırovumu deyirsənsə,
bilirəm,
birinci özümü donduracaq.
Hər şey bəyaz dumanlıqdan
aşkar görünür mənə.
Ki, nəyim var,
birinci öz başımda çatlayacaq.
Bilmədiyim bircə budu:
görən yer üzünə
məndən nə qalacaq?

**6.** Eh, nə imiş insan dünyası.
Adam arzu ümmanında da
boğula bilərmiş,
arzu gümanında da.

*26.04.1983-cü il*

## EH, DUYĞULARIM-DUYUMLARIM

**1.** Havaxtdı,
əsir-yesir olmuşam
yiyəsiz-yeliksiz hisslərimin əlində.
Dinsizin, imansızın biridirlər.
Fikrimi, düşüncəmi alıblar caynaqlarına.
Qalmışam çırpına-çırpına,
qalmışam yana-yana.

Daha dözəmmirəm istəklərinə,
işləklərinə.
Lap yaxın günlərin birində,
yaxasın keçirəcəm əlimə.
Ya onlara verən Allahdı, ya mənə.
Görərsiz!

**2.** Bilirsən nə var?
Axır bunun da bir sonu olar.
Sən
o qədər məni əsir edəcəksən,
o yerəcən məni eşim-eşim eşəcəksən,
didim-didim didəcəksən,
o vaxta qədər mənə gülə biləcəksən
ki, ürəyimdən çıxasan.
Onda baxarsan sənə nə divan tuturam.
Heç eybi yoxdur!

**3.** Hərdənbir durub
arzularımla, istəklərimlə qabaq-qənşər
dərdləşirik.
Hərdən xoşqılıq oluruq,
hərdən sərtləşirik.
Olur, bəzən
onun dediyi mənim boğazımdan keçmir,
mənim dediyim onun boğazından.
Qalırıq qaşnan – göz arasında,
ürəknən – üz arasında,
ətnən – dırnaq arasında.

• • •

Ömrümüzün belə anları da var.

**4.** Olur, bəzən

ürəyimin səsini eşidənəcən gülürəm.
Deyirlər, bəxtəvərəm,
nə dərd bilirəm,
nə qəm bilirəm.
Hərdən çoxlarına elə gəlir ki,
dözə bilmərəm
mən bu qədər sevincə,
ölərəm!

Elə ki, tək qalırıq:
ürəyim,
bir də mən,
deyirəm:
– Nəğmələrimizi bir oxuyaq,
sızıltılarımıza bir qovrulaq,
göynəklərimizə bir ovunaq.
Noolar, bir az da özümüz olaq.

Eh,
görürsiz də, insanlar,
insan içinin öz ömrü var.

## ÖLÇÜ VAHİDİ – ÖMÜR DEYİL

İllər,
illər,
illərə nə var.
Nə ağrı duyar,
nə qocalar,
nə zirvədən pillə-pillə enər,
nə ucalar.
(İnsan ömrü deyil ki…).

## ARZU

Dədəm Qorqudun
gözündəki yaşların
qıtlığını görmək istəyirəm bir də.
Səttarımın[1]
üzündəki qırışların
qartlığını görmək istəyirəm bir də.

Vaqifimin[2]
yerə-göyə sığmaz diləklərinin
çatlığını görmək istəyirəm bir də.
Gözünü oğurlayıb dağların,
bağrındakı bulaqların
gözünü görmək istəyirəm bir də.
Yiyəsiz-yeliksiz istəklərimin
şadlığını görmək istəyirəm bir də.

• • •

Görən görəcəyəmmi?

*1981-ci il*

## "VƏTƏN ÜÇÜN NƏĞMƏLƏR" SİLSİLƏSİNDƏN

Ürəyimdə nəyim var
sənə vermişəm.
Azım-çoxum,
varım-yoxum,
yazım-pozum,
tale ruzum –
nəyim var, hamısı sənindi.

---

[1] Səttar Bəhlulzazə
[2] Vaqif Mustafazadə.

Elə ki, ürəyim havalanır,
nəğmələrimi söykənəcək verib içimin səsinə,
toxdaqlıq tapıram.
Elimin-günümün ucalığını görüb –
ucalıram.
Lap göyün yeddinci qatına qalxıram.

Elə ki, dözümüm çatmır işləklərimə,
göynəklərini həyan edib göynəklərimə,
«kələklərimə»,
içimdə dolaşan küləklərimə
– yenə sənə söykənirəm, Vətənim!
Dar ayaqda qaçacağım,
bəd ayaqda tutacağım,
ömrüm boyu qorxacağam
sənin üçün, Vətənim!

## MƏNƏ ÖMÜR VER, BABAM

Qobustanın hər qayası bir igid.
Hər qarışı tarixin bir varağı.
Gəldim bura qulağımda min öyüd,
Ürəyimin min qubarı,
yarası,
Ey daşlaşan,
torpaqlaşan,
ürəyimin danlağı.
Qoymadın dil-boğaza.
Simsar qobum, babalarımdı səndə.
Məni görcək
Hər lal daşın hövlləndi yerindən.
Qazan xanın,
Bayandurun gözlərimə göründü.

– Noola, – dedim, – bir daş olaydım mən də.
Dədəm Qorqud,
ağlayaydın, yalvaraydın önümdə.
Baxmayaydım,
qılıncları kəməndlərə çataydım.
Araz boyu bu sahildən o sahilə
bir gün körpü ataydım.
Üz qoyaydım torpağına, daşına,
daş balıncım islanaydı
ürəyimin yaşınnan.
Çarpışaydım,
vuruşaydım,
nə demişdin hamısını yetirəydim hasilə
ürəyimdə qalmayaydı bir nisgilim hamilə.
Varsa baxtım,
noola bir gün
dik baxaydım
gözlərinin içinə.
Sonra mən də daş olaydım,
daşına qatılaydım…

Simsar qobum,
Dünənimdən bu günümə əbədilik qovuşan,
ulu babam,
dözümümü əsirgəmə,
sən ömrümü əsirgəmə.
Nə demisən, qoy yetirim hasilə.
Qoy qalmasın ürəyimdə
bir nisgilim hamilə.
Öz balanam axı mən.
Qıyma qınaqlı qalım,
qıyma danlaqlı qalım
sən tək mən də ömrümdən.
Qıyma, qıyma babam!

*Mart, 1984-cü il*

# GÖZDƏN İRAQ OLANLAR, KÖNÜLDƏN DƏ UZAQ OLAR

Uzaqda,
lap uzaqda,
məndən, atamdan lap qıraqda,
Şamaxıda
Kürdəmic adında bir kənd var.
O kəndin ulularıynan,
ucalarıynan.
O kəndin qıvraqlarıynan,
növraqlarıynan
vaxt vardı,
babam da yanaşı addımlayardı.
Vaxt vardı atamın, anamın
əmiləri də, dayıları da
bu kəndin ucalarıynan,
qocalarıynan
çiyin-çiyinə,
boy-boya durardı.

***1945-dən sonra***

Bu kəndin ağsaqqalları, ağbirçəkləri,
oğlanları, göyçəkləri
sığışardı babamın
pir olmuş,
Allah olmuş
evinin divarları arasına.
Davaya gedib-qayıtmayanlar
nağıllanardı bir-bir
onların dodaqlarında.
Dava salan «bəndəsizlər, Allahsızlar»
qılınclanardı bir-bir

onların qınaqlarında.
«Unutmayın igidləri, ərənləri.
Allah evini yıxsın
bu igidlərin çıraqların söndürənlərin», -
deyərdi babam.
İçindən bir «ah» qopardı.
Yandırardı
pir olmuş, Allah olmuş bu evin
daşını-divarını.
Qopardardı
üz tutmaq istəyən yarasının
                qaysağını, qubarını.
…Və beləcə-beləcə,
kəndin gedib-qayıtmayan
ərənlərinin göynəyilə
göynəyə-göynəyə yaşayardı babam.
Gör, nə boyda yükü çiyinlərində
45-dən üzü bəri
körpü atıb daşıyardı babam.
Dönə-dönə tapşırardı:
– Yaddan çıxarmayın ölənləri.
Öz ömrünü, öz gününü
yarıbayarı
sizin ömür-gününüzlə bölənləri.

***1969-dan üzü bəri***

Babam öldü.
Dedik, bu gündən
bu «pir olmuş, Allah olmuş» evin
divarları danışar
        o igidlərdən, ərənlərdən.
Dedik, neyləmək olar,
dedik, işdi düşdü.
İllər ötdü.

Dedilər: – daha qocalıb bu ev,
uçulub uşaqları altına alar bir gün,
uçurdun, sökün!
Uçurdub sökdülər-tökdülər
divarlara hörülmüş əmilərini, dayılarını
bu evin divarlarıyla birgə.
Gözündən iraq babamın,
görsəydi,
hövlündən bağrı çatlardı bəlkə.
Qoymazdı uçurulsun
qardaşlarının, əmiuşaqlarının
bu daşlarda yazılmış nağıllarını
bu daşlara qazılmış nağıllarını,
babam qoymazdı uçurula.

*19.03.1983*

ꙮ

Babam kirpiklərin sıxdı.
Babam dinnən-imannan çıxdı:
– Əmilərin qayıtmadı,
Hittlerin yer üzünü
Qana çalxayan davasından.
Söylədi ki, dərdim çoxdu.
…Atam baxdı
matdım-matdım,
susqun-susqun:
– Əmilərim, dayılarım uşaq vaxtı
arxam idi, həyanımdı.
İndi bir kimsənəm yoxdu.
İndi əmim, indi dayım -
iki sizsiz,
ikicə oğul həyanım.

Çaşdım qaldım.
Dünya da çaşa bilərmiş.

Kiminsə qanlı əlilə
dünya alışa bilərmiş!?
Yox, «Ah!» çəkmə, atam, babam,
mən varam -
biz varıq.
Biz qoymarıq dünyanı
bir də alışıb-yana
məhvərindən höylana.

*19.07.1983-cü il*

## İLMƏLƏRƏ TOXUNAN ÖMUR

Əlləri titrək,
barmaqları hənaya dirək,
bir az növraq,
bir az kövrək
anam var.
Xalı toxuyar
səhərlər, axşamlar.
Zümzümə edər
bir bayatı həzinliyində.
Arzularını ilmələrə qatar,
ilmə-ilmə toxuyar
istəklərini anam.
Köksü yüngülləşər
bayatılar süzüldükcə bağrından.
Çiçəkli çəmən olduqca ilmələr
ömrünü ömrümüzə calar anam.
Biz naxış-naxış ucalarıq,
ilmə-ilmə qocalar anam.

*«Ədəbiyyat və incəsənət» qəzeti. (31.12.1974-cü il) və «Çinar pöhrələri» almanaxı (I cild, 1979-cu il)*

# ANAM YOLA SALIR MƏNİ

Hər evə dönəndə qarşılar məni,
odlu baxışların üstümə çilər.
Canlanar elə bil ev də, eşik də,
soyuq divarlarda təbəssüm gülər.

Açar ürəyini el süfrəsi tək,
götür, səninkidir nəyim var, – deyə.
Nə olar, anana tez-tez məktub yaz,
vüsala bələnsin intizar, – deyə.

…Qatar nəfəs dərib yortur yolları,
uzaqda bir ümman insan qaralır.
Düşüb gözlərimin dərinliyindən
anam xoş xəyal tək vağzalda qalır…

Yox, yox! Bəs o nədir.
Relslər üstündə
Qatarın izinə bir cüt göz düşüb
arayır kimi?
Günəş şüasında alışıb-yanan,
ay ana, de, sənin gözlərindimi?

• • •

…Neçə min incik göz, sözlü baxışlar,
neçə min alovlu ürək aparar.
Düşübdür yollarda min bir sorağa
insan qayğısilə yüklənib qatar.

*«Lenin tərbiyəsi uğrunda» qəzeti.*
*Payız, 1972-ci il (ADU-nun nəşri)*

# BU NECƏ GEDİŞ İDİ

Bu nə gedişdi, anam?
Xəbərsiz-ətərsiz,
gərəkli-gərəksiz,
bir kəsə sezdirmədən.
Bir də soraq aldım ki,
hələ görməyibsən deyən
Arazxanımı istəyibsən.
«Son kərə
Sevdamı, Ayətxanımı görüm», –
deyibsən.
Həmişəki tək
adiydi bu görüşün də.
Bir şey də sezəmmədim
tək-tük sözlərinin deyilişində.
Bircə biz geri dönən gün
üzümə baxıb
«Arazxanımı qucağıma verin», -
dedin.
Sonra o biri nəticəni, gəlinini,
axırda məni öpdün.
Göydən bir ulduz axdı o gecə.
Axdı, arın-arxayın, gizlicə.

(Bu necə gediş idi, anam?)

*1980-ci il*

**P.S.** "Arazxan" – nə vaxtsa dünyaya gələcəyinə ümiddə olduğum oğlum üçün arzuladığım Araz çayı göynəkli ad idi. Oğlum bu şeir yazılandan bir il sonra doğuldu - 1981-ci il fevral ayının 26-da. Sumqayıt VVAQ şöbəsi "Arazxan" adını qeydiyyata almadı. Yüz illər ürəyimdə yaşatdığım addan imtina etməyə məcbur qalanda, bacısının istəyincə qardaşının adını "Babək" yazdırdım.

Anam Qızxanım 2006-cı ildə (*80 yaşında*) dünyasını dəyişdi (*ruhu şad olsun*), bu şeir yazılandan 26 il sonra.

# QORXU

Anamın laylasıyla
göz açmışam dünyaya.
Öyrənmişəm yerişimi
anamın yerişini
yamsılaya-yamsılaya.
Dilimdəki nəğmələrimi
anam verib dilimə.
Ürəyimdə istəklərimi
anam hopdurub diləyimə.
Hay demişəm –
anamın səsindən götürüb harayını.
Qıy vurmuşam –
anamın nəfəsindən alıb odunu – alovunu.
Qılınc çalmışam –
anamın gücündən alıb yarağını.
Nəyim var –
bu torpaqdan olub,
bu torpaqla olub.
Nəfsim də, nəfəsim də
bu torpaqdan yoğrulub.

Mən dünyaya göz açanda
başqa yerişdi, anam.
Hər şey suynandı, torpaqnandı,
hər şey qılıqnandı,
əlnəndi,
dilnəndi.
İndi başqadı dünyanın gedişi, anam!
İndi hər şey göynəndi, düyməynəndi.
İndi hər şey başqasının sirrini
altdan-altdan öyrənməynəndi,
bilməynəndi.

İndi çox şey feilnəndi.

• • •

Heç nədən qorxum yoxdu.
Qorxum
mənə çaldığın laylanı
yadırğamaqdandı, anam!
Mənə öyrətdiyin yerişi,
mənə bağışladığın deyilişi,
mənə tanıtdığın leylanı
yadırğamaqdandı, anam!
Qorxum, nə vaxtsa
Hanı mənim laylam, – deyib,
                    ağlamaqdandı.
Hanı mənim yerişim, – deyib
                    qarğamaqdandı.
Hanı mənim deyilişim, – deyib
                    sayaqlamaqdandı.
Özümü itirməkdəndi,
özümü yadırğamaqdandı
                    qorxum indi.

• • •

Bu gediş əzəlki gediş deyil, anam!

*1981-ci il*

# MƏNİM DƏ ÖZ DÜNYAM VAR

Yazdıqlarıma, – işıqlı deyil, -
deyə bilərsiniz.
zövq sizinkidir.
Danışdıqlarıma yapışıqlı deyil, -
deyə bilərsiniz.
Qulaq asmırsınız, asmayın.
Kədər hopmuş
gülüşüm də xoşunuza gəlməyə bilər,
göz yaşım da,
istəklərim də,
savaşım da.
Məhəbbətim də sizə çöçün görünə bilər,
nifrətim də,
sevincli anlarım da,
xiffətim də.
Bu, mənim öz dünyamdı.

İşıqlı yazdıqlarınızı,
yapışıqlı danışıqlarınızı,
boğazdan yuxarı gülüşünüzü,
ayağıyox hissinizi
çıraq eləyə bilmərəm ömrümə.
Bu, mənim öz dünyamdı.
Dəyməyin mənim dünyama.

*27.10. 1982-ci il*

# ÖZÜMÜ GƏZİRƏM ÖZ KEÇMİŞİMDƏ

A qaçan dağ çayı, şıltaq şəlalə,
dayan, gör nə yatır hay-harayımda.
A külək, uzadıb qamçı əlini
ətəklə axışan buludları da.

Məndən uzaqlaşan görüş anım da
qayıtsın bir anlıq öz ünvanına.
Uşaq arzularım, lal istəklərim
titrəsin ruhumda, coşsun canımda.

Boylansın ömrümün künc-bucağından
mürgülü vüsalım, yatan qubarım.
Göynəsin, hıçqırsın qoy için-için
qərib keçmişimdə kövrək anlarım.

Yenə acıqlansın ata gözləri,
bir qızın saçları şıltaqlığımda
qırılsın tel-tel.
Həzin nəğmə deyən ana laylası
yuxularımda
ötüşsün dil-dil.

İznsiz baş alım güllü yamaca.
cilovsuz buraxım çılğınlığımı.
Ay ata, ay ana, haraylarında
güneydən, quzeydən al sorağımı.

…Yaşayım toz basmış yalnız anları,
dönüm cığırlarım, izim yanına.
Uşaq illərimin xatirələri
qayıtsın bir anlıq öz ünvanına.

*11.11.1973-cü il.*
*«İqtisadçı» qəzeti, 06.03.1974*

## ELEKTRİK QATARINDA

Bir qoca tanıyırdım neçə illərdi.
İsti aylarda
bir qara, nimdaş köynəyi vardı əynində.
Soyuq aylarda
bir qara, nimdaş paltodu çiyinlərində.
Varı, dövləti, əmlakı
bir kiçicik boxçaydı əllərində.
Ləli, cəvahiratı –
sözdü, nəğməydi, şeirdi,
bir də ağrılı, xırıltılı səsi.
Oturub-durub
sənə elə şeirlər, nəğmələr deyərdi,
elə yerlərdən söhbət başlardı,
elə şeylərdən danışardı –
əlin üzündə qalardı.
Bir dəfə yenə eynilə - eləcə,
ürəyimizdə o sözlərin, şeirlərin istisi,
bayırda şaxta, sazaq
başa vurduq səfərimizi.
Camaatın vaqondan düşməsini
gözləyə-gözləyə,
bu gününü də ömrünəközəyə-közəyə,
kağızdan büküb-bürmələdiyi siqaretinə
dərin bir qullab vurdu qoca.
Sonra elə
oturduğu oturacaqdaca
qılçalarını qarnına yığıb
bükülüb-bürmələnib qaldı qoca.
(İstədim dinəm, evə dəvət eləyəm,
gəlmədi heyim)…
Sabahı,
lap obaşdannan,

gözümün yuxusu başımdan çıxmamışdan
qaçdım qatarın gecələdiyi yerə,
Ki, bəlkə bir də rast gələm o gözlərə.
…Elə axşamdan uzandığı yerdəcə
qarnında qılçaları,
bükülüb-bürmələnib qalmışdı qoca.
Şeir pıçıldayırdı yenə dodaqları.
…O vaxtdan
daha bir də
gördüm deyən olmadı o ixtiyarı.

*1981-ci il*

## PAYIZDA

Ha vaxtdır üzünü bozardıb payız,
seyrəlib küçədən gediş-gəliş də.
İlin soyuqluğu gəzir insanın
dodaqda büzüşmüş təbəssümündə.

Təbiət yamanca ərköyünləşib,
haldan-hala düşür lap çağa kimi.
Günəş seyrçi tək gəzir dünyanı
yandırıb-yaxmağa qadağa kimi.

Hayqırır, qıy vurur qamçı küləklər,
sümsünür dalanı, küncü-bucağı.
Yortur küçələrdə zingildəyərək
şaxtadan qovrulan küçüksayağı.

...Kimdir döyəcləyən pəncərəmi bəs
hürkdü xəyalımın min ilham sirri.
Qarğışla qaldırdı məni yerimdən
qoca təbiətin hönkürtüləri…

*1972-ci il*

İçimdə böyüyür bir ağrı, itim.
İllər adladıqca şaxəli, şaxlı,
illər adladıqca qollu-budaqlı,
illər adladıqca köklü-yaraqlı
içimdə böyüyür bir ağrı-itim.

İçimdə böyüyür bir ağrı, itim.
Göynəyi mənimdi, dağı mənimdi,
bağçası mənimdi, bağı mənimdi.
Çiçək-çiçək olsa,
öc eləsə də,
əlində sözünü güc eləsə də…
Gücü çatmasa da özgə bir şeyə
içimdən sağalmaz bu ağrı, itim.

…İçimdə boy atır bir ağrı, itim
illər ötdükcə.

*1985-ci il*

## İSTƏKLƏRİ DAŞDAN KEÇƏN ADAMIN

Ömrünün yolları tutmaz bir tavan,
perikər əbədi sığnacağından,
gələr ürəyinə olan, olmayan,
əsəbləri tarım çəkilər an-an
istəkləri daşdan keçən adamın.

Hər addımı olar yollar yorğunu,
könlü çay durğunu, ümman durğunu,
içində başlayar qardaş qırğını
istəkləri daşdan keçən adamın.

Gələr qətrə-qətrə sevinc ilğımı,
könlü qəlpə-qəlpə qabarar, şişər.
Ömür yollarının bu qartlığında
özündən xəbərsiz bərkiyər, bişər.

Gözü dost gözünə baxar dik, açıq,
özü öz yanında təmiz, qonuşuq,
ömür xatiratı qatmaqatışıq –
istəkləri daşdan keçən adamın.

24.09.1984-cü il

Mənim bu dünyadan əmanətim var,
Anadan ol gündən yol yoldaşıyıq.
Hərarətindən ürəyim qızınar,
soyuğundan istəklərim don tutar.
Mənimlə qoşa addımlayır neçə illərdi.
Mənimlə yaşa dolur o da.
Qazancı – mənəm dünyada,
İtirdikləri – itirdiklərimdi.
Nə yaxşı ki,
dünyanın səbri böyükmüş,
ürəyi genişmiş,
dözümü çoxmuş.
Gözləyir neçə illərdi.
Bilir ki, amanatını
onsuz da nə vaxtsa qaytaracağam.
Onsuz da özümnən aparmayacağam
dünyadan dünyanın əmanətini…

Belədi insan ömrü.
Aldığı da əmanətdi,
yaşadığı da,
dünyaya bağışladığı da –
hamısı.

Biri
ağacın yaralı köksünə baxır,
deyir, ağac olaydım,
bu ağaca ağlayaydım.
Biri
dodaqları çat-çat olmuş
dağlara, daşlara baxır,
deyir, daş olaydım,
daşların gününə qara bağlayaydım.
Biri
dolmuş buludların dolmuş köksünə baxır,
deyir, bulud olaydım,
buludlarçın ildırımlar çaxaydım.
…Mənsə, heç nə olmaq istəmirəm.
Mən öz insan ürəyimnən
gördüklərimə ağlayıram,
bir də,
bəşərin düşmənlərinə.

Gücüm çatan budu.

Eh, nə qəribə olub dünyanın işi,
gəlişi, gedişi, gərdişi.
Ürəyindən keçəni dilinə gətirirsən,
olan-qalan hörmətini də itirirsən.
«Böyüklər səhv eləməzlər,
sözünün ipini-sapını yığ,
odunu-alovunu boğ,
qızğınsan yaman», – deyirlər, -
«yox» desələr, deginən «yox!»,
«hə» desələr, – «hə!».
Neyləyəsən, indi belədi də!..

Qalıram
içimin tufanında xırıldaya-xırıldaya.
Yerə-göyə,
Allaha, bəndəyə qarğıya-qarğıya.

• • •

Dözmək çətindi
zamanın bu əbədi «ehtiyacına».
Böyüklərin özünü addımbaşı
hiss etdirmək ehtirasına.
Bu yerləşib-yataqlaşmış
adətlərə, ənənələrə
dözmək yaman çətindi.

*16.03.1983*

ꟃ

Nə əlimə dəmir əsa götürdüm.
Nə ayağıma dəmir çarıq geydim.
Dünyaya gələn gündən,
özümü bilən gündən,
səhərlər evdən çıxdım,
axşamlar döndüm.
Gecələrimi
masa başında yola verdim.
Hər il bir ayaqqabı dağıtdım,
üç-dörd ildən bir
bir dəyişəcək.

• • •

Qazancım nə olub dünyadan
bilmədim.
Baxdım ki, itirdiyim ömrümdü.

*01.02.1983-cü il*

Bu nə dəli istəkdi,
biryolluq özümdən qoparıb məni.
Elə qərib, elə kövrək olmuşam…
Mənə elə gəlir hissimin əlində
didik-didik, ələk-vələk olmuşam.
Hərdən elə billəm bu yer, kainat
biryolluq unudub, atıbdı məni.
Hərdən elə billəm bir kimsənəm yox,
Dünya öz yükünü
çiyinlərimə çatıbdı mənim.
Hərdən elə billəm dözə bilmərəm
mən bu ağrılara,
mən bu zillətə.
Hərdən də silkinib özüm-özümdən,
düzü, çaş qalıram bir həqiqətə:
"Doğrudan-doğruya çiyinlərində
bu yükü daşıyan mənəmmi görən?"

*1981-ci il*

## SAYQISIZ, DİQQƏTSİZ YAŞAYA BİLMİRƏM

Elə gileyliyəm
hisslərimin, duyğularımın təlatümündən.
Lapdan cana doydurur məni,
bezirəm.
Bəzən həftələrlə,
hərdən aylarla
yalvar-yapışla
dincliyimçün soraqçı gəzirəm.

Budur, indi
düz bir həftədi

hər qayğıdan, iztirabdan
hər ağrıdan, əzabdan
uzağam.
İçimin tufanlarla dolu
duyğularına yasağam.

Və birdən,
hansı hissinsə gücündən,
hansı hissinsə içindən
bir səs qalxdı kəsdi qənşərimi:
«Bu nə güzarandı,
bu nə yaşayışdı,
bu nə daş-başdı
edirsən ömründən?»

Baş aldım qaçdım
dostun-tanışın
dərdinə-sərinə ortaq olmağa.
Sevinməlisinə-sevinməyə
ağlamalısına-ağlamağa…
Və sonra da başladım
ömrümün bu hilləsini daşlamağa...
Neyləyim,
mən də beləyəm.
Qayğısız, diqqətsiz yaşaya bilmirəm,
Mən belə öyrəncəliyəm.

*10.11.1981*

Bir dəcəl qoymur yatam sabahacan.
Bir ilıq səs haylayır
məni hər gün obaşdan.
Sonrasa iş.
Axşamlarım –
qızımın kitab-dəftər məşğələsi.
Gecələrim –
ürəyimin yağını əritmək tələsi.
Günlərim beləcə keçir.

Eh, təki bu olsun dərdlərimin hamısı.
Qorxduqlarımın hansını deyim:
Atamdan, anamdan yana,
oğlumdan, qızımdan yana
ürəyimin ağrıması.
Bir məhəllədə
iki bədxislətin biri-birinə ədası.
Bəzən söz davası,
bəzən ağac.
Bəzən üstümə töküləcək qaxınc.
Bəzi fikirlərin
yer üzünü ləngərləndirən dalğası.
Nəfəsi tıncıxdıran,
dünyamızı kövrəkləşdirən atom havası.
Hələ ki, çatmayıb beləsinə
bir uşaq naləsi,
bir ana qarğışı.

Hansını deyim qorxduqlarımın?
Hansından ikiəlli yapışım?

Yuxularım –
hələ içimdə dəbərməmiş duyğularımdı.
İnanıram ki, gün gələcək

ayılacaq onlar da.
Onda görüm necə duruş gətirəcək
qorxduqlarım qarşımda…

***

Gözlərimin yuxusunu,
ürəyimin qorxusunu,
dərdlərimin toplusunu
almayın məndən.
Axı onlarsız mənim nə günüm,
insanlar?

## İKİ ÖMÜR

Gecədir.
O yanda
divar qonşumun səsi, ədası,
otağa toplaşanların «sağlıq» sədası.
Musiqi, demək-gülmək,
Ütülü sözlərlə bir-birindən
hal tutmaq, əhval bilmək
həvəsi.
Bu yanda mənim otağımın
səssizlikdən üşənən divarları.
Ürəyimin göz-gözə dayanmış
sevincinən qubarı.
Masamın üstünə yayxanmış
işığımın rəngi.
Ürəyimlə ağlımın
dava-dalaşlı ahəngi.

• • •

Biz insanlar öyrəncəliyik.
Hərə çiynində bir cür yük daşıyır.
Hər kəsə bir cür ömür xoşdu,

hərə öz ömrünü yaşayır:
O – elə,
mən – belə.
Kimsəyə qəribə görünməsin
bu ömrüm.

## BƏZƏN BELƏ DƏ OLUR

Daş ürəyimin
daş yaddaşından
daş arzularım asıla qalıb.
Neçə ömür yaşamışam,
neçə ömür daşımışam
çiyinlərimdə,
hamısı yanıb, qovrulub,
qaralıb.

Olub, naxış-naxış naxışlayanı da.
Olub, çiçək-çiçək çiçəkləyəni də.
Olub, məni qarğıyanı da.
Mənə
diş ağardıb lağ eləyəni də tapılıb,
dərdimə-sərimə ortaq olanı da.
Hamısından olub.

…İllər ötüb,
o günümdən bu günümə
bircə közərtisi qalıb,
bircə cücərtisi qalıb
daş ürəyimin
daş arzularının
daş yaddaşının.

Buna da şükür!

## TORPAQ OĞLUYAM

Şahə qalxdı dalğalar,
bir boy ucaldı dənizin maviliyindən.
Göz açdı
ölməzlik hissi, bir də vüqar
dalğaların diləyində.
Bu hayqırtı,
bu gurlama
doğrandı şaqqa-şaqqa,
qiymə-qiymə
maviliyində dənizin.
Qibtə etdim dalğalardakı
sükutla cəngə.
Dayandım
mənliyimdə baş qaldıran
inadla ayaq-ayağa,
pəncə-pəncəyə.

Dəniz əsəbi,
dəniz qəzəbi,
dəniz durğunluğu,
və bir də
dalğalardakı bu hikmət
düşündürdü məni:
«Dənizdən doğuldu,
dənizdə boğuldu
dalğalar.
Mən də torpaq oğluyam –
torpaqdan yoğrulmuşam.
Torpaq olmalıyam,
torpaqda qalmalıyam!"

Haçansa
görsəm ki, ömrüm çatıb başa…
Haçansa,
görsəm ki, dözmək olmur
daha bu savaşa…
Məni quylayın bir qayaüstü torpağa.
Üstümdə bir saz qoyun,
bir qələm,
bir gözəlin puhun,
bir də bir ələm –
ana ələmi,
qız ələmi,
oğul ələmi –
bəsimdi.
Dünyadan yoxdu
bundan özgə dilədiyim.

*Yanvar 1985-ci il*

ജര

Atadan xatirə istədi oğul.
Ata bircə ovuc torpaq uzatdı.
Oxşayıb əllərilə
Ovxarladı, oynatdı.
Oğul anasına döndü bir anlıq
Gördü saysız-sonsuz bir mehribanlıq,
Onun baş barmağı
gələcək deyə
irəli uzanırdı.
Ananın ovcunda ürək modeli
əbədi Günəş tək alovlanırdı.

*1972-ci il*

ജര

# İSTƏK

Əsən xəfif küləkdən qopdu burulğan.
Yığdı-yığışdırdı bir yerə artıq kağızları –
zibil topalanmış qalaqları.
Əzdi, əzişdirdi var gücüylə
bu «varlıqları».
Qaldırdı əlçatmaz, ünyetməz ənginliyə,
rədd etməkçin onları heçliyə.

…Noolardı,
Məndə də olardı
yenilməz, yedəklənməz bir qüvvət.
Yığardım yer üzündən
tüfeyli həyat sürən «varlıqları».
«N» heçliyə bərabər qaranlıqlara
qərq edərdim onları.
Noolardı.

*1972-ci il*

Adam – özündən də bezə bilər,
adam – sözündən də bezə bilər,
adam – oğlundan da bezə bilər,
adam – qızından da bezə bilər
bezməz amalından.

Oğlum – mənim ürəyim,
qızım – ciyərparamdı,
atam – elimin tacı,
anam – süfrəm tacıdı.
Bezmərəm
oğlumdan, qızımdan,
anamdan, atamdan.
Bir quru canım var

hara deyirsən atım.
İstəsən lap ocaq çatım
çatıldasın çatıl-çatıl,
izsiz-soraqsız.
İstəsən,
Qalsın kimsiz – kimsəsiz…
Qalsın cavansız-qocasız…

Gücüm özümə çatır.

## ADSIZ ƏSGƏR QƏBRİ

Adını görə bilmədim.
Doğulduğun gün də,
öldüyün il də
«qaranlıqdı» qəbrinin üstündə.
Baxdım məzarının üzünə,
gözünə,
kimdisə,
hansı əldisə,
gördüm təzəcə rəngləyib
hüznlü ömrünü,
adsız Əsgər qəbri.

…Deyək ki, bir gün
anan gələcək.
O yazıq hardan biləcək
sənin kimliyini?
Mələr-mələr gəzəcək
Bakımın küçələrində.
Oğul dərdi dilində,
gözlərində oğul sorağı,
ürəyində oğul yarası.
Bəlkə, elə gəlib

sənin məzarının önündə duracaq.
Hay çəkib,
haray çəkib,
içində öz oğlunun dərdi,
bəlkə, yad bildiyi sənin önündə
saatlarla quruyacaq…

Aman Allah, belə itik dərdini
ləleyk ana necə daşıyacaq?
Allahın dərdinə bir bax:
Adın
öz ananın da ürəyində
Sənin başdaşına yazılan kimi çağrılacaq:
«SOLDAT!»

*30.06.1986*

## NƏ YAXŞI Kİ SİZLƏR VARSIZ, İNSANLAR

Əl atdım,
dünyanın çox yerinə
əlim çatmadı.
Dünyanın çox işləklərinə
özüm əlimi qatmadım –
qorxdum «pis!» deyərlər adıma.
Qılçalarım kirrədən düşməsə də,
qollarımın giri itməsə də,
istəklərimin heyi bitməsə də,
çox işə bilərəkdən baş qoşmadım.
Pis olmaq yaman qorxuludur
adamlar arasında.

Gördüm içimin

işıqlı guşəsinən bahəm
acılı söz-sözu da var.
Yanğısıynan, sevgisinən bahəm
allah-allah baş qaldırmaq istəyən
lov xəbəri də var, dovu da var.
Aldım cilovunu əlimə
lov xəbərin, acılı söz-sovun.
Xamut vurdum istəyinə, felinə.
Ömrümün qürubunda
sizlərə arxalandım, insanlar.
Ürəyinin işığı irmaq-irmaq gəzən,
sevgisi, yanğısı, qayğısı
daima məninən insanlar.
Nə yaxşı ki, Siz varsız!

*16.03.1986-cı il*

## ÖMRÜN 30 İLİNDƏN SONRA

Günlərim başlamamış
görürəm axşam olur,
aylarım ərsəyə dolur,
illərim havaxt başa çatır –
bilmək olmur.
Ayırd eləməyə macal tapmamış ki,
günlərim
hansı enişdən-yoxundan keçib,
hansı koğuşda büzüşüb,
hansı bulaqdan su içib –
bir də baxıram
ildi gəlib-keçib.

Eh, günlərim nə yüyrək olub.
Ha qaçıram,

çarpışıram,
vuruşuram
çatdırmaq olmur.
Yenə görürəm
bütün işlərim tökülüb qalıb.

Günlərim beləcə ötur –
içi haylı-haraylı,
qasırğalı, tufanlı,
üzdə sakit, həlim.
Nə oyanlıqdı, nə buyanlıq.
…Hərənin qisməti bir cürdür.
Biri içindən yanıb tökülür,
qaxac olur.
Biri şişmanlanır,
gün-gündən ətə-qana dolur.

Hərə bir sayaq ömür sürür.

Kəcdiyimi lap əzəldən deyirlər:
Uşaq olmuşam –
iməkləməkdən təzəcə qalxan cocuq.
Yıxıla-dura
əl atmışam daşa-divara.
Ki, «allah-allah» yeriş öyrənəm.
Gəlib durublar qənşərimdə,
«buyur», – deyib yapışıblar əllərimdən, –
«indi yeri».
Mən də baxıb onların yerişinə –
yerimişəm.
İstəmişəm bir loxma udum,
büküb-bürmələyib, gətiriblər qənşərimə –
yemişəm.

• • •

Qəribədir bu dünya.
Yerişinə də qarışırlar,
duruşuna da qarışırlar –
həyatda hər işinə qarışırlar.
Qoymurlar ki,
dediyini deyəsən,
yediyini yeyəsən,
barı
öz yerişinisə yeriyəsən.
Qəribədir bu dünyanın işi.
Gedişi,
gəlişi –
həp gərdişi
məəttəlçilikdi.

*1981-ci il*

## HƏR ÖMRÜN ÖZ NİSGİLİ VAR

**Uşaqlıq illərim**

Deyirlər,
elə uşaqlıqdan kürr olmuşam.
Deyiblər, əlini oda-ocağa vurma –
vurmuşam.
Anam gözünün qorasını töküb
əlimin yanığın bağlaya-bağlaya,
hikkəsindən ağlaya-ağlaya.
Demişəm, bir də əlimi vurmaram
oda-ocağa,
qadağa olmuş küncə-bucağa,
yazıqdı anam,
göz yaşlarına qıymaram.

**Ömrün**
**yeniyetmə yaşı**

Deyiblər, filan yerə getmə –
getmişəm.
filan işi etmə –
etmişəm.
Anam danışanda məndən
daş atıb başını tutub
ki, bu uşaq düzələn deyil.
Əlini üzüb yerdən-göydən,
gücü yenə göz yaşlarına çatıb.
«Səni doğan yerdə bir qara daş
doğaydım» – deyib.
Hərdən
mənsiz qalmaq qorxusu,
bir də Allah xofu
yadına düşəndə birdən,
səsini qısıb.
Təntiyib.
Ürəyinin yağını yeyib
anam
qorxduğundan.

**Gənclik yaşı**

Deyirlər,
– yenə qabağından yemirsən.
Yenə dediyini deyirsən,
getdiyin yerə gedirsən,
etdiyini edirsən.
Anam baxıb bu günümə,
bu səfər ürəyi göynəyə-göynəyə,
çarəsizliyindən

göz yaşlarını
könəlgidə-könəlgidə
mənə nifrin edib.

● ● ●

…Eh, nə qədər gileylənir
qoy gileylənsin məndən.
Özgə nə gələcək ki,
anamın əlindən.

ഇഈ

Mən dünyaya göz açanda,
çağa günlərimi aşanda
ömrümün yollarında
bir ağ işıq gördüm.
Yeriyib-yüyürüb qaçanda
yenə ömrümün yollarına
nur saçırdı o ağ işıq.

Nə xoşbəxtdim uşaq yaşımda.
Atam, anam, qardaşım qarşımda –
yoxdu özgə qayğım.
Bir dərslərimdi,
bir də oyun-oyuncağım.
Hamısının da önündə o ağ işıq
yaraşıq.

● ● ●

Yaşa dolduqca,
oğrun-oğrun, sinə-sinə,
məndən xəbərsiz
gündə bir rəng düşdü
o ağ işığın yanına, yörəsinə.
Biri oğul-uşaq qayğısı,
biri ata-ana, qardaş,

qohum-əqrəba, dost-tanış,
el – oba.
Hamısı da qətrə-qətrə,
hikkə-hikkə doldu içimə.
Doldu ağ işığın rəngli çalarlarına.

Qayğısız ömrüm
o gündən başlayıb sısqa-sısqa
göynəyib yanmağına.
Qanad açmış arzularımın
çoxu yarımənzildə qalıb.
Bölünüb sərhəd-sərhəd,
bölünüb çin-çin,
qəlib-qəlib.
Hərəsinin öz ağrısı,
öz göynəyi,
öz yanğısı.
…Hərəsi öz bildiyi tək
ağrıdır məni özüyçün.

*Naftalan, yay, 1984-cü il*

ꟿ

Evimizə gedən yol
qəbiristanın yanındandı.
Bura gəlir el-oba axışıb.
Elə-obaya qarışıb
qohum-qonşularımız
burdan keçib gedir evlərinə.

Məzar daşlarının içinə
bir yol dönür bu yoldan.
Bir yol çıxır
qəbir daşlarının arasından.
Mən bu yolnan gedirəm hər səhər.

Bu yolnan dönürəm gecələr.
Elə hey mənə deyirlər,
gecəyə qalma,
yolunu qəbiristanlığın içindən salma,
Ölülərin xofu var, ruhu var.
Bilmək olmaz,
qalxıb başdaşının içindən
öz fəhminən
adamın başına min oyun açar.
…Gülürəm,eh, insanlar,
adam da ömrünün sonundan
qorxub qaçar?

*25.12.1982-ci il*

ꕥꕥ

Göz yaşları ürəyində
düyün-düyün qalanlara, gülməyin.
Ağrısından, hikkəsindən
Siz hönkürtü çalanlara, gülməyin.
Gülməyin, insanlar,
bu da bir insan ömrüdü.

ꕥꕥ

Bir «yemirəm» deyəndən qorx, –
deyib atalar, -
bir də «içmirəm» deyəndən.
Çox yox,
elə həmişə bu sayaq olmuşam.
Sevəndə dəli kimi sevmişəm,
soyuyanda donmuşam.

*31.12.1982*

ꕥꕥ

## ŞEİR NECƏ YAZILIR

*«İctimai mövzuda şeir yaza bilmirəm»*
*(deyən gənc dostuma)*

Əlinə qələm götürüb
fikirlərini tavandan asmaqla
şeir yazmaq olmaz, qardaş!
Şeir özü yazılır.
Şeir yazan
əvvəl-əvvəl özü qazılır,
tökülür, dağılır.
Şeir yazanın əvvəl-əvvəl
özünün bağrı yarılır:
əsəbdən,
dərddən,
qəzəbdən.
Şeir belə doğulur.

Tutub
sənin fikirlərini hədələyən
birisinin yaxasından
o qədər silkələyirsən,
döyürsən, söyürsən… –
Elə bu dava-dalaşını qələmə alsan
bəsindi.
Ya da,
əli-qolu bağlı,
ürəyi qundaqlı
hisslərinin durub qabağında,
duruş gətirə bilməyib
bu qovğanın qınağında,
başlayırsan hönkürtü çala-çala ağlamağa –
Elə bu göz yaşını qələmə alsan
bəsindi.

Gahdan,
sevinc çulğayır səni.
Dəli bir qəhqəhə qopur bağrından –
Elə bu qəhqəhəni qələmə alsan
bəsindi.

…Poeziya belədi, qardaş,
əlinə qələm almaqnan,
fikirlərini tavandan asmaqnan
şeir yazmaq olmaz.
Belədə,
oxuyanlar necə qızınar səndən?
Belədə,
özün də üşüyərsən özündən.
Şeir yazmaq
yanmaq deməkdi gecə-gündüz
korun-korun,
közərə-közərə,
milyon kərə.

*Fevral 1975-ci il*

O səfər
bir şair dostum,
mənim
«Füzulini oxuya bilmirəm»
kəlməmə
tənəylə güldü.
Mən də güldüm.
Və bircə bununla kifayətləndim.

Daha bilmədi ki yazıq,
bu gülüşümlə onun
Füzulini dərk edəndən sonra
yaza bilmək cəsarətinə gülürəm.
Neylim, mən də beləyəm.

*1981-ci il*

# BİR GƏNC DOSTUMA

Neçə vaxtdı ölçüb-biçib danışığını,
adamla yola getməyini,
oturuşunu,
duruşunu,
küsmək bacarığını,
barışığını
dik üzünə
söylədim ki, sənə
«Özünü hələ dərk etməyibsən».
Ardınca da dedim əlavəsin –
«Xoşbəxtsən».

Düzü çaşdın qaldın:
«Əzəlki təhqir nədir,
ardınca bu nə «xoşbəxtlikdir» –
deyə fikirlərini haçaladın.
Boylanıb ömrünün 21-ci baharından
mənim 30 yaşıma,
baxıb hisslərimin səninlə savaşına
gözlərinin dililə söylədin ki,
«Bu nə deməkdir?»
Soruşdum: – dərdin varmı?
Dedin: – yox!
– Sevincin ürəyində ayazıyarmı?
Dedin: – yox!
– Çox bilirsənmi?
Dedin: – hə!
– Gəlmək istəyəndə, gəlirsənmi?
– Hə!
– Getmək istəyəndə gedirsənmi?
– Hə!
– Etmək istədiyini edirsənmi?

– Hə!
– Bir sözlə, xoşbəxtsənmi?
– Hə!
Gördün, – dedim, – dərk etsəydin özünü,
yerini bilərdin söhbətinin, sözünün.
Gülməkdən çox, ağlayardın,
bilməkdən çox,
bilmədiyini bilərdin,
hərdən də baxıb bu gününə
şaqqanaq çəkib gülərdin.
…Görürsən xoşbəxtsən,
nə dərdin.
...Yaxşı ki, özünü dərk etməyibsən.

## TƏLƏBƏ YOLDAŞLARIMA

Kimini oxuyuram jurnaldan, qəzetdən.
Kiminin kitabı masamın üstündədi.
Görüşürük də hərdən.
Hərə söz açır
özünün son vaxtkı uğurlarından.
Susuram.
Dinmirəm,
üzə çıxartmadığım cızma-qaramla.
Zaman-zaman
özümə təskinlik verdiyim,
şah əsərlərim bildiyim –
gündə bir buğdaboyu boy atan
Babəkimlə, Sevdamla.

## BƏZİ QƏLƏM DOSTLARIMA

Yormayıbmı sizi,
bər-bəzəkli bülbülün
bər-bəzəkli gülə vurulduğunu,
pərvanənin qətrə-qətrə
eşq odundan qovrulduğunu,
təbiətin ömür boyu
çiçək ətrindən boğulduğunu,
sevgi ucundan məcnun könlün
divanə qaldığını
yazdığınız.
Olmazmı bəyəm,
hər şey yerli-yataqlı olsun.
Elə göz yaşımız da,
alqışımız da.
Gülmək istəyəndə,
beynimizdə səda qalanacan gülək?
Ağlamaq istəyəndə,
hörkürtüdən
qulağımız qapanacan ağlaya bilək?
…Məncə,
vaxtı çoxdan çatıbdı
oxucuynan diz-dizə oturub dərdləşməyin,
hal tutub, əhval eşitməyin.
Məncə,
əslində şeiriyyət elə bundadı.
Ayağı torpaqda,
ürəyi torpağa bağlı,
ürəyi torpaq qılıqlı
yazmaqda.
Axı
hər şeyin öz adı var.
Gəlin hər şeyi
öz adıyla çağıraq.

*1984-cü il*

# ARAZ HAQQINDA ŞEİRLƏR

**1.** Haray çəkdim
«Ehe…y» deyə
sahilində xan Arazın.
Harayıma sərhəd oldu,
harayıma bir sədd oldu
ox məftillər.
Bu həsrətdən,
bu möhnətdən,
bu göynəkdən
bir xəbəri yox məftillər,
ox məftitlər.

• • •

Ömür billah
mən siqaret çəkməmişdim.
Bu gün çəkdim
sahilində sərhədimin.
Göynəklərim
ərşə dirək oldu bu gün.
Siqaret yox,
mən dərd çəkdim,
həsrət çəkdim,
möhnət çəkdim –
ürəyimi çəkdim bu gün,
Sərhədində Xan Arazın.

**2.** Havaxtdı bir həsrət qovurur məni,
bir nakam istəyin sorağındayam.
Gecələr könlümün aydınlığında
görrəm Xan Arazın qırağındayam,
bağrı qan Arazın qınağındayam.

Kədərimdə, möhnətimdə,

bir dəlisov hiddətimdə
Araz axar.
Araz axır…
Kür olurlar.
Eyni məna, eyni istək –
bir olurlar.

Arzu böyük, dilək böyük.
İman, güman qırıq-qırıq,
kəsik-kəsik,
bölük-bölük.
Qoşalaşır, gah ayrılır,
qolaylanır, bir də gəlir –
qovuşurlar.
Suların da qaçışında tələsiklik,
Suların da baxışında
bir təskinlik
bir ümid var.

**3.** Su – aydınlıq, qan-qovuşuq –
deyib ellər.
Arzuların, istəklərin
zəncirini didib ellər,
yeyib ellər
əsrlərlə.

Sularında qan-qadalıq,
sularında min dalğınlıq
axır Araz.
Gah kükrəyir qalxır Araz,
gah sustalır,
sısqa-sısqa enir Araz.
Dodağında donmuş nəşə,
gözündə həsrətli vüsal,

dalğaların şallağında dinir Araz –
qalxır Araz,
enir Araz.

Üzərində məftillərdən sərhəd ola,
iki parçalana ürək – o, hədd ola,
– dözmür Araz.
Qandal ola, buxov ola könüllərə,
«Ana», «bacı», «qardaş» deyən
ləleyk dillərə
dözmür Araz.

Qəvvas olub mənliyimdə gəzir məni
Araz dərdi.
Bir yalquzaq düşüncə tək üzür məni
Araz dərdi.

*Füzuli rayonu, 1972-ci il*

Hacıqabulda, mülklərimizin arxasında
ikimərtəbəli hökumət evləri vardı.
Orda qonşularımız malakanlar yaşayarrdı.
Biz ev sahibi ola-ola,
onlar bizim evdəkilərə
«qonaq» deyərdilər,
bizimkilər onlara «sosed».
Kim-kimin yurdunda qonaq idi,
niyə belə edərdilər -
Bilməzdim.

Deyilənə görə,
uşaqlığım elə onların evində keçib.
Yeyiblər – xörəklərindən yemişəm.
İçiblər – çaylarından içmişəm.

Yəqin «ata», «ana», deyərdim,
bir də baxıblar.
«papa», «mama» deyirmişəm.
Olub, döyülmüşəm də,
söyulmuşəm də.
Yenə, «qırxdı, biri əskik deyil» söyləyib,
dediyimdən dönməmişəm…
Niyə belə edirmişəm,
bütün bunlar nə demək imiş –
bilməmişəm.

ꕥ

Tələbəydim,
bir gün atam qonaq gəldi məktəbimizə.
Baxdı ki, uşaqlar bir-birini
«Alik, Jana, Toma, Gülya»
deyib çağırırlar.
Donuq-donuq baxdı üzümüzə,
sonra da
gülümsəyə-gülümsəyə sopuşdu:
– Adları nədi bunların»?
– Aydındı, Jalədi, Tamelladı, – dedim, -
biri də Gülsümdü.
Atam baxdı, baxdı…
təzədən gülümsündü:
– Maşaallah!

ꕥ

«Mənəm, mənəm»liyi bilinsin deyə,
Dənizdə bir dalğa hay-həşir saldı.
Qaraldı nəfəsi bu hayqırtıdan,
axır sustaldı.
Dəniz əzəməti yenə dənizin
özündə qaldı.

*Oktyabr, 1974-cü il*

# BİR KİRƏKEŞİN DİLİNDƏN

Xozeyin olanda nolar, a Mişa dayı,
qırıb çatmayacaqsan ki, bizi?
Nə suçumuz var yanında,
neyləmişik,
atmayacaqsan ki, bizi?
Xozeyin olanda noolar?

Atam gəlir – payın ayrıca gəlir,
anam gəlir – payın ayrıca gəlir,
qardaşım gəlir – payın ayrıca gəlir.
Nədəndi,
ağzın düzəlmir ki, düzəlmir.
İstədiyin nədi – kimsə bilmir.

Dost-tanış əyləşə bilmir
stolumun başında
– deyinirsən.
Uşaqlarım doyunca gülüşə bilmir
bu cocuq yaşında
– deyinirsən.
Qalmışam ömrümlə güzaranımın savaşında.
hisslərim də səninlə dil tapa bilmir,
guya günahkarmış qarşında.
Amma, yenə
səndən bircə budu dilədiyim:
mənə dəyib dolaşmayasan.
Gündüzlər onsuz da özümün deyiləm,
gecələrimisə əlimdən almayasan.
Bir işıq nədi ki, a Mişa dayı,
onusa mənə qızırğanmayasan.
Bax ha, olar günlərin birində
mənim də beynim qızar.

Mənim də gözlərimə qan sızar.
Mənim də gözlərim
ayağımın altını görməz.
Onda necə duruş gətirəcəksən
qənşərimdə?
…Olar,
Vallah, günlərin birində bu da olar.

Xozeyin olanda noolar, a Mişa dayı?

## ÜRƏYİMLƏ SÖHBƏT

Sənə noolub belə.
Gah tutulursan bulud kimi,
gah qaxaca dönürsən qurut kimi.
Gahdan havalıymıştək
dolursan-boşalırsan qoca təbiət kimi…
Başıma açırsan min bir oyunu –
çaşıb qalıram.
harda qurtaracaq bu işlərin sonu –
bilmirəm!

*1981-ci il*

Mənə demə, bu cəngdi-cidaldı,
dünya özü mənim səbrimi aldı,
Neyləmişdim, hamsı gözümdə qaldı.
Mənə demə, bu nə cəngdi-cidaldı.

Dodağıma bir ney tutdum – çalmadı,
dodağıma bir söz atdım – qalmadı,
sən nə dedin, nə söyləndin – almadım.
Mənə demə, bu nə qəribə haldı,

Bu dünyaynan bu cəngdi-cidaldı.
Deyirik ki, dünya bizik–özümüz.
Deyirik ki, toxdaq dursun gözümüz.
Deyirik ki, urfa tutsun kökümüz.
Hardan qalxdı, hardan qopdu bu külək?
Necə çıxdı öz kökündən bu şülək?
Dünyamızın bu deyimin nə bilək?
Demə, məndə bu nə qəribə haldı?
Bu dünyaynan bu nə cəngdi-cidaldı?

Bu yollara üz tutaram, gedərəm.
Baş götürüb göz tutaram, gedərəm.
Bir gün bu dünyadan qərib köçərəm.
Sənsə demə, bu nə qəribə haldı?
Bu dünyaynan bu nə cəngdi-cidaldı?

Tutub bir gün gecələrin əlindən,
tutub bir gün gündüzlərin felindən,
tutub bir gün bu dünyanı dilindən,
çevirəcəm öz nəfsini başına.
Qoy nə çıxır, qoy lap çıxsın qarşıma.

Yaşaya bilmərəm neçə rəngdə mən,
haçalama neçə yerə məni sən,
parçalama neçə yerdən məni sən,
qarsalama neçə yerdən məni sən.
Mənə demə, bu nə cəngdi-cidaldı,
mənə demə, bu nə qəribə haldı.
Demə,
sənsə demə,
ürəyim!

## ÖMÜR YOLU

Bir ilə bənzəsə də bəzən bir saatımız,
Arzular, istəklərdir ömrümüzü yaşadır.
Bəzən vaxt tapsaq da darıxmağa biz,
sonra dərk edirik,
Ömrünyolu qısadır.

*1972-ci il.*

༺༻

Yaman şeydi bu vəzifə –
yaman şeydi bu əda.
Adamlıqdan heç xəbəri olmayanı
adam edir dünyada.
Kəlmələri sitat olur
kəlmələrin başında.
Süfrələrə bəzək olur
masaların qaşında.
Hələ qoysan,
lap Allah da olar bəlkə
bu yaşında,
bu başında.
(Kəlmələri – eyni sözlər,
Məsləhəti – təsəvvür.
Təxəyyüldən xəbəri yox təxəyyül).

༺༻

Oxuyub sızıltımı,
bir də onabənzər qara-quramı,
dostum dilləndi,
bəsdir, – dedi, –
yığışdır bu dünyaynan düyünlərini,
yığışdır bu deyimlərini.
Gör ha, işə bax,

adamı doyunca
ağlamağa da qoymurlar.
Adamı öz dünyasıyla
qalmağa da qoymurlar.
Bu da işdi Siz Allah?

*1983-cü il*

## DÖZMÜRƏM

Bir incik, tənəli, sözlü baxışdan
yanar ürəyimə odlu köz düşür.
Hakim iddiası, yüksəkdən baxış
didir hisslərimi, bağrım büzüşür.

Zirvəyə ucalsa nadan əlləri,
ağlın zirvəsinə çən düşər birdən.
Görsəm bulud kimi boşalan gözlər,
kövrək ürəyimə dən düşər birdən.

Bu nədir?
Süzüldü məstanə gözlər.
De, kimdən incidi?
De, kimdən küsdü?
Həyatda ilk səhvi etmək istərkən,
qarşımı bir ana gözləri kəsdi.

Yalan ayaq tutub şux yeriyəndə,
həqiqət bükülüb qəddin əyəndə,
haqq səsim sinəmdə düyümlənəndə,
Dözmürəm, dözmürəm, dözə bilmirəm.

*Mart 1973-cü il*

Bu dünyadan
görəsən narazılığımız nədəndi?
Yeməyi – bizdən deyil,
içməyi – bizdən deyil,
amma, əlimiz elə ətəyindədi,
ağzımız düzəlmir ki, düzəlmir.

Onun nəyi var bizimdi,
bizim də nəyimiz var onun –
lap qardaş malı kimi bölüşmüşük.
Amma
sonu necə qurtaracaq bu oyunun
düzü, bilmirəm.

Odumu ulu Zərdüşt
doldurubdu köksümə.
Düzlüyümü Nəsimi
hopdurubdu köksümə.

Vücudumda püskürən,
Koroğlu cəngisimi?
Qaçaq Nəbi qılıncı,
Babəkin haqq səsimi?

Sevildən dil alıbdır,
Bəsti olub qalıbdır.
Həzim tək ucalıbdır.
– Bax, bu yollar, bu yollar
Bizə miras qalıbdır.

# BURDAN VURĞUN KEÇİB

Dindir bu yerləri, yer, göy dil açar,
hər daş-torpağında xatirəsi var.
Çiçəkli çəmənlər pardaxlanarlar,
turaclar, kəkliklər nəğmə oxuyar –
«Burdan Vurğun keçib!».

Çıxsan el yoluna, oba yoluna,
hər ləpir bir soraq yetirər sənə.
«Səməd» pıçıldasan dağlar qoynuna,
O qiymə qayalar hay verər sənə –
«Burdan Vurğun keçib!».

Bir damla yaş görsən bulaq gözündə,
Bir misra şeirdən kövrəlibdi bil.
Könlü səs-soraqlı ceyran, cüyür də
burda şeiriyyətə öyrənibdi bil –
Burdan Vurğun keçib!

Qayıdıb bu günə qərinələrdən,
hər evdə bir Humay, bir Cəlal yaşar.
Şahdağla Göyəzən, Milim, Muğanım,
bu günüm, sabahım ondan danışır: -
«Burdan Vurğun keçib!»

# SƏN BU CAHANA SIĞMADIN...

*(Şair İmadəddin Nəsiminin mühakiməsi*
*Haqqında ərəb mənbələrində belə qeyd olunur)*

Yığılıb beş-on qazi
bilmir necə fitva versin.

Yox olubdur qorxudan
söz birliyi, dil birliyi.
Nədəndi çatmır qüdrəti
əl-Maliki tək bir kəsin
Ki, tarixi cinayətlə
öldürsün bir gələcəyi?..

Yox oldu o sarsıntı,
çatdırıldı hökmü-fərman,
Qoy soyulsun dərisi,
qoy etsin Hələb tamaşa.

Fitva itmamə yetdi.
Bir qərar da verdi sultan:
«Doğradılıb bədəni
göndərilsin üç qardaşa!..»

• • •

Dönmədin, ər oğlu ər,
dönmədin öz əqidəndən.
Gözlərin gömülsə də,
əbədiyyat sükutunda.

İnsana «Allah» dedin,
Allahsız olmasan da sən.
Cəsarət simvoludur

indi qəmli sükutun da.

Ölmədin,
əsrləri öz ömrünə düzən sənsən.
Min duyum, göynəkləri
dodaqlarda gəzən sənsən.
Səndə sığar ikən cahan,
sən bu qədər böyükmüşsən?
Sığmadın bu cahana
çıxdın cahan orbitindən!

*«İqtisadçı» qəzeti. (Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun nəşri), 26.09.1973-cü il*

ჲ

## KÜR NƏĞMƏLİ ÖMÜR

*(Sosialist Əməyi Qəhrəmanı,salyanlı mexanizator Sabir Əhmədova)*

Bir zəhmət orbiti tanıyıram mən,
Sabir əllərinin qabarındadı.
Bir izzət orbiti tanıyıram mən,
Sabir mənliyinin vüqarındadı.

«Rahatlıq, sükunət – ölümdən ölüm,
əbədi zəhmətdi ömrün mənası.
Gərək elə yanam, elə qovrulam,
min-min ömrə düşsün onun ziyası».

Budu həyat yolun, budu amalın,
öz sadiq hissinə sadiq qalıbsan.
Balaca Seydandı bir vaxt ünvanın,
indi sən kəndinə ünvan olubsan.

Nə bilirdin şöhrət nədir, şan nədir,
şöhrət özü gəldi ayaqlarına.
Atanın adıyla tanındın bəsdir,
onu tanıdırsan sən innən belə.

Bu illər ömrünün qaşında qalar,
ucalıq ömrünün başında qalar,
gözün torpağında, daşında qalar,
dönərsən ömrünün xoş sabahına…

Sən elə alışdın, elə yandın ki…
Geriliyi bircə yolluq dandın ki…
Torpağı özünçün Allah sandın ki,
dönəsən torpaqçün Yer Allahına…

…Bir orbit çıxıbdı ölkə fövqünə,
dolanıb Kür boyu Salyandan keçir.
Muğanda bir «Yeni Muğan» yaranıb,
şöhrət çələngini Seydanda biçir.

Gəl ey sabah oğlu, sabahın xeyir!
Geysin əməlinlə çöllər zər-xara.
Üzünə nur yaysın hər gələn sabah,
sür dəmir atını ağ tarlalara...

## DAĞLAR

Hər dağ sinəsində, zirvə başında
görürəm Kərəmi, Qaçaq Nəbimi.
Qayalardan gələn əks-sədalar
Koroğlu atının ayaq səsimi?

Nigar «oğul!» deyib hıçqıran gündən
bulaqlar suyunu ondanmı aldı?
Həcər «layla»sını boğdu ürəkdə,
Aynalı tüfəngi sandı övladı.

Yoxuşlar yoranda kəhər atımı,
sanıram qabaqda Qıratdır gedən.
Ürək elə bilir səksənən zaman,
Koroğlu səsindən olub yerindən.

Qucub bir-birini sevgililər tək,
Əbədi yuxuya dalıbmı dağlar?
Düşmən səfərinə sərhəd olmaqçün
qol-qola çatılıb qalıbmı dağlar?

…Duman yorğan salar, hey «layla» çalar,
Dağlar mürgü vurar, dağlar yuxular.
Qoynunda gizlənən kahalarında
Dağların sirrini gizləyər dağlar.

*23.07.1972-ci il. «İşıq» qəzeti.*
*Əlibayramlı (indi Şirvan) Şəhər*
*Partiya Komitəsinin orqanı*

## BİZİM DAĞLAR

Bölüklənər dəstə-dəstə,
ceyran, cüyür sinən üstə.
Qartal gəzər zirvən üstə,
Görkəmin şah vüqarlıdır,
bizim dağlar!

Çən-çiskin olub oylağın,
duman – gəlinlik duvağın.
Bir yol olaydım qonağın.
Ürəyim dağ havalıdır,
bizim dağlar!
Sizin üçün soraqlıdır,
bizim dağlar!

*17.03.1976-cı il*

## SUMQAYIT

Bir qız sədasından yarandınmı sən?
Bir qız sədasının sorağısanmı?
Qırıldı daşlarda bir nalə, haray.
Bir qız niskilinin növrağısanmı?

Küçələr boy-boya verər bu yerdə,
evlər qatar-qatar uzanar gedər.
Bir yol baxsan əgər üzügünəşə,
deyərsən, üfüqə qovuşub şəhər.

Yaşıllıq sığışmır öz məcrasına,
küçələr sahilə ayaq açıbdır.
Baxırsan, gün-gündən arzular qədər
şəhərim Xəzərə yaxınlaşıbdır –
Yaşıllıq sahilə ayaq açıbdır.

*1972-ci il*

# MƏŞƏLƏ DÖNMÜŞ ÖMÜRLƏR

Dilimizdə «Sülh!» sözü,
günəş-günəş arzular,
əsrin başı üstündə
dalğalanan xoş mehik.
Günəş arzumuz ilə
dünyanın taleyinə,
özünə cavabdehik.

Ovod inamımızla
üzü güldü dünyanın.
Ovod inamımızla
güllələndi dünyadan,
güllələndi qan-qada.
Əlimizdə od-alov
ovulduq bu yollarda.
Bağrımızda buz-qırov
qovrulduq bu yollarda.
Burdan Berlinə kimi
uzanan yol nədi ki!..
Gedildi bu qısa yol
qırx birdən-qırx beşədək.
Yeridik qarış-qarış,
yeridik dizin-dizin
1418 gün.

Güllələndi dünyadan,
güllələndi qan-qada.
Dönmədi neçə igid,
min soraq döndü geri.
Həyata işıq, ümid -
Azadlıq döndü geri.

Gedənlər dönməz daha!
Yollar igid qənimi!..
Daş heykələ dönüblər
burdan Berlinə kimi!
Ay ellər, ay obalar
«Naməlum əsgər» deyil,
çağırın siz onları
«Azadlıq heykəlləri»,
«Planetin inamı».
Naməlum olmaz axı
azadlığın ünvanı.

Bu ünvanla dünyadan
güllələndi qan-qada,
min soraq döndü geri.
Həyata işıq, ümid,
Azadlıq döndü geri!
Qoruyaq dünyamızı,
Qoruyaq, ey insanlar!
Qoruyaq Yerdə, Göydə
Kainatda hər nə var!..
Qoruyaq Dünyamızı!..

*10.02.1986-ci il*

## BUZOVNADA BİR HEYKƏL VAR

Dayan,
bərk tut tüfənginin qundağını.
Qoru göz bəbəyin kimi,
dünyamızın «Sülh» adını.
Dünya – yaxşı övladının,
dünya – yaman övladının
adıdı.

Baxır başda kim oturub.
Baxır başda oturanın
fikri nədi,
dünyanın yerdə qalan övladlarıynan.
Dünyanın fikri-zikri,
dünyanın ağrısı, acısı,
dünyanın dünyaya diş qıcatması
əlindəymiş tək-tək
«böyük» dediyi övladlarının.

Deyirəm, nolaydı,
dünya «yaxşı» övladının əlində qalaydı.
Yoxsa, alışar, yanar dünya.
Yoxsa, buzlaq dövrünün ömrü kimi
ömrümüzdə donar dünya.
Mən – var ikən,
Sən – var ikən,
hamı varkən – ölər dünya.
Odu, deyirəm:
yad əllərdən qoruyaq,
dünyamızı «yaxşı» övladının əlində
girov qoyaq.

…Amerikada Reyqana
məktub yazdı bir dəstə uşaq.
Bir dəstə uşaq dedi:
– qoymarıq dünyamız olsun daş-qalaq.
Biri üz tutdu Reyqana:
– Sən yaşamısan,
mən də yaşamaq istəyirəm.
Biri dedi:
– Mən cəhənnəm,
nənəmi çox istəyirəm,
istəmirəm ölsün nənəm.
Üçüncüsü, daş atdı Reyqanın

Daş-qalaq etmək istədiyi dünyanın üzünə.
Dedi: – Özünüz oğul-uşaq atasısınız,
niyə bunları çox görürsüz mənə.
Dördüncüsü, çağaydı,
qundaqda qığıldadı: – inqə-ə…
Reyqan baba, amandı,
dünyamıza dəymə…

…Daş atanın – daşın tutaq.
Baş kəsənin – başın tutaq.
Qoymayaq ki, dünyamızın
məhvərinə bir daş dəyə.
Qoymayaq ki, dünyamızın
məhvərini bir baş əyə.
Gəlin,
əlimizi birdən ataq.
Dünyamızın
«məhvər» adlı düyməsinin
dəstəyindən birdən tutaq.
Ki, sıxılmasın dünyamızın
məhvərinin düyməsi.
Bir yad əli, nadan əli
dünyamızı əyməsin.

…Əsgər qardaş,
tüfəngindən bərk yapış.
Dünyamızı hədələyən kimlərdisə –
bərk çarpış.
Axı sənə tapşırılıb
dünyamızın «Sülh» adı.
Ömrümüzün xoşbəxt günü
hələ bundan sonradı.
Arxayınam,
qurtaracaq bu cəng-dava nə vaxtsa.

Arxayınam,
dünyamızın keşiyində sən varsan.

*19.07.1983*

# II Bölüm

• • •

## Məhəbbətimin dodaqları çatdaq-çatdaq



Salam, dost,
Gəl əl tutaq,
salamlaşaq.
Bağrın-bağrımda,
əlin-əlimdə,
gözün-gözümdə
bir ürək söhbəti pıçıldaşaq.
Gəl, üz-üzə,
gəl, göz-gözə,
gəl, diz-dizə
oturaq.
Bardaş quraq.
Ağrıların qınağında
qabaq-qənşər duraq.
Bir kəlmə mən deyim,
sən eşit.
Bir kəlmə sən söylən,
mən qulaq kəsilim.
Görək,
bu ağrıları çəkməyə çatarmı gücün?

*İyul 1981-ci il*

ꕥ

Məhəbbətimin dodaqları
çatdaq-çatdaqdı hisslərimin odundan.
Dil tərpədib
yalaya bilmir dodaqlarını qorxduğundan.
Oğurluq üstündə tutulmuş uşaq tək
ağrısını içində qısa-qısa
fərəhindən ölür səni tapdığına.

*30 iyun 1986-cı il*

ꕥ

# SEVGİM BİR YAŞIL YARPAQ, RƏNGİ MƏNDƏN

Əl atdım dünyanın boyalarına,
Gördüm
tufanları məndən,
cəngi məndən.
Oxunmamış sehrli düyünlərinin
ahəngi məndən –
Sevgim bir yaşıl yarpaqdı,
rəngi məndən.

Mənmi sənə möhtacam,
Sənmi mənim möhtacım?
Gözlərində hansı dünya?..
Çaldı-taladı məni.
Dilin nədən belə şirin,
dilin nədən belə acı.
Bildinmi
hansı ocağa qaladı,
hansı künc-bucağa qovaladı
məni.
Gözlərində baxışlarının hansı ahəngi? -
Sevgim bir yaşıl yarpaqdı,
məndəndi rəngi.

Qənşərini kəsən nədi?..
Düşüncələrin
daşlaşmış yasaqların əsirliyindəmi?
Qulaqların
lüt-üryan qalmış
“sevirəm” kəlməsinin bayalığınamı təşnə?
Dünya bu gün bu geyimdə,

bu dəbdə,
bu rəngdə.
Oxuya bilərsənmi
Içimin səndən duyduqlarını
cahanın bu cəngində? –
Sevgim bir yaşıl yarpaqdı
bir özgə rəngdə.
Sənə sevgim bu rəngdədi,
səninki nə?

***

Baxışlarının məsumluğunu,
söz-sovunun durğunluğunu,
duyğularımın qırçınlığını,
sənə duyduqlarımın
səndə oxunan çaşqınlığını,
ipə-sapa yatmaz azğınlığını
içimin məhəbbətdən umduğu rahatlığını
tapmışam səndə.
Sevgim bir yaşıl yarpaq ki...
Rəngi bu rəngdə.

...Tanrım
hardan göndərdi bu rəngdə səni.
Oxuya,
görə,
sevə bilərsənmi
sənə hisslərimin bu rənglərini?
Gücün çatarmı buna. –
Təşnə duyğularımın
səndən duyduqlarına?

***

Sevgimin bütün rəngləri mənimdi,

məndəndi.
Sənun üçündü,
sənindi...

*iyun, 2013-cü il*

## İKİNCİ ÖMÜR

Neçə aydı
içimdə çaxnaşan tufanları.
amanları,
yamanları,
gümanları
köçürüb ağ kağıza,
özümü salıb dilə-ağıza
bir az rahatlıq tapdım.
Bilmirəm
düzmü, səhvmi qayıdışım
ömrümün bu döngəsinə.
Bildiyim bircə budu ki,
bundan sonrakı yazı tərzim,
bu ruh, bu nəfəs,
içimdə dolaşan hər kəlmə, hər səs
sənin qismət etdiklərindi mənə.
«Ştraus ömrü» adlandıracam
bundan sonra onları,
içimdə çaxnaşan tufanları.
Axı, bu ömrü sən
mənə veribsən.

*Oktyabr 1981-ci il*

# ÖMRÜM BİR SUSUZ SƏHRA

*(Oxu, ağlama gücün çatarsa)*

Mən susuz səhra,
dodaqları çat-çat,
Sən dərilmiş,
ancaq tər qönçə.
Pardaxlamış yalquzaq çırpıntıların
duyduqlarıma möhtac.
Haylasam,
sədamı eşidərmisən?
Bu mən idim.
Səsimə hay verən səs
sənmisən.

***

İllərcə qıymadım
dodaqlarımın həsrətin
kimsənin ovundurmasına.
Ağrısının,
yanğısının
könəlgiyib sönməsin
qıymadım illərcə kimsəyə.
Bu, sən oldun,
gah dalğın,
gah çılğın.
Vücudun ruhumda həm durğun,
həm qırçın-qırçın,
…Haylasam,
sədamı eşidərsmisən?
Bu mən idim.
Səsimə hay verən səs
sənmisən?

***

Hardan gəldin ömrümə
Hardan girdin ömrümə,
Azər qızı?
səndən nə istəmişdim,
sən mənə nə bəxş etdin,
Azər qızı?

Sənsən mənim ömrüm-günüm.
Sənsiz ömrüm şaqqa-şaqqa,
dilim-dilim.
Bu nə hikmət,
bu nə zülm,
Azər qızı?

***

Ömrümə daş atma,
sapandının daşı ağır.
Qıyma,
qıysın yazıq canıma.
Onsuz da göylərdən
başıma daş yağır.
Yağmur-yağmur,
ağır-ağır,
fağır-fağır
göylərdən daş yağır ömrümə,
göylərdən daş yağır sənli günlərimə.

Həsrət içimizi ova-ova,
Həsrət bizi
biri birimizdən qova-qova,
didə-didə.
Yaşayırıq,
özümüz kölgədə,
ömrümüz qızmar günəş altda,

ömrümüz labirintdə.
Bir qütbündəyik hərəmiz zamanın,
Ağrının,
acının,
yamanın…
Bu gecə nə ağır.
Bu gecəmin sığalı sən idin,
harda qaldın?
Sənli günlərimin adı özgə,
Sənli günlərimin dadı özgə,
Sənli günlərimin həzzi özgədi,
Azər qızı.

***

Eşitdinmi səsimi,
Eşitdinmi hissimi,
Saxlanc elə içində
nadir, təbərrük kimi
məndən yığdıqlarını,
məndən umduqlarını.
…Haylasam,
sədamı eşidərmisən?
Bu mən idim,
Səsimə hay verən səs
sənmisən?

***

…Ömrüm bir susuz səhra,
dodaqları çat-çat.
Sənlə ömrün dadı şirin,
Sənsiz ağrıdı,
acıdı həyat.

*Noyabr-dekabr 2009-cu il*

# BALINCI TƏRSİNƏ ÇEVRİLMİŞ DÜNYAM

*İsgəndər Zülqəreyn deyiləm quyu qazıb quyuya söyləyəm dərdimi. Bir əlcə ka-ğızdı gümanım mənim. Tapşırdım istəklərimi ki, bəlkə yetirə sənə*

**1.** Bu dünyanın şirinliyin
mənə sən demək istədin.
Bu dünyamda
ürəyimi ovcuna alıb
oxşadın öpdün.
Bilmədim bu nə hillədi,
bilmədim bu nə hiylədi,
məni harada oxşadın,
harada sevdin,
harada inlətdin, –
bilmədim.

**2. Sorğu**
Heç
balıncını çevirib
sabahacan yuxularında
xumarlandığın olubmu?
Heç
yuxularının ilğamlığında
sabahacan
tumarlandığın olubmu?
Fikirləş, – dedin.
Güldün.
Dəstəyi endirdin.
Az keçdi,
yenə səs gəldi dəstəkdən:

– Nə fikirləşdin?
Dinmədim.
– Eləcə, biryolluq unut məni, – dedin.
Qıyya da çəkdin:
– Heç xatırlama da hərdən-hərdən!
Köksümü ötürüb,
başımın altından balıncımı götürüb
qolayladım.

**3.** Nə səbrsiz olmuşuq.
Atışırıq,
tutuşuruq,
dartışırıq.
Qarışırıq
hisslərimizin ılıq-qırıq dünyasına.
Ayılırıq,
      ayrılırıq
özümüz-özümüzdən çınqı tutub yana-yana.
Soyuyuruq,
      daş oluruq
düşürük dünyanın ən uzaq qütblərinə –
sən şimalına,
      mən cənubuna,
      qarsalana-qarsalana.
Niyə belə yazılıb taleyimiz?
Bilmirəm.

**4.** Mənə özün söz veribsən.
Ki,
balıncı tərsinə çevrilmiş,
yuxusu tərsinə yozulmuş,
yazısı yazılıb-pozulmuş
dünyandan söz deyəsən.
Özün bil ha?..

Çox çək-çevir eləmə
o yan-bu yana.
Götürərəm başımın altından,
həsrət qoyaram səni
tərsinə çevrilmiş balıncına.
O sən ol,
bu da mən.
Mənim də səbrim
tükənə bilər hərdən-hərdən…

**5.** Bu nə səsdi,
axdı gəldi doldu köksümə.
Bu nə səsdi,
axdı gəldi yordu köksümü.
Bu səsi illər boyu aramışdım,
bu səsi bircə yol eşitdim ömrümdə
Əl atdım – əlim yetmədi.
Qıy vurdum – qıyım çatmadı.
Yarı acı, yarı qılıq
suvardım arzumun çonalarını,
bircə gülü bitmədi.
Əlimi üzdüm biryolluq.
İtirmək istədim –
itmədi.
İlahi,
bu nə hillədi!

**6.** Gəl ayrılaq, – dedin, –
onsuz da tutmur ki, daha bizimki.
Eh, belə güzaran yordu bizi ki…

Durdum qaya kimi, durdum dağ kimi,
Görən niyə belə yaranır insan?
Bu söz-sov havaxtdı kəsib səbrimi.

bu istək havaxtdı yeyir içimi.
Buz sükut səni də üzür deyəsən.
Çırpınıb özünlə öz dünyanda sən
içinin ən məhrəm istəklərini
başının üstündə tutub deyəsən,
bir soyuq kəlmə də heç söyləməyib
atmaq istəyirsən dünya üzünə.
Bəlkə bir tikəsi
o yandan, bu yandan yetişə mənə.

Bu mənəm,
durmuşam lal qayalar tək,
Deyəsən buz sükut əzir səni də.
Yapışıb sözümün qorxuluğundan
Qaytarıb çırpırsan özümə mənim:
«Al, bu sənin olsun,
      al, bu da sənin!»
deyə çırpınırsan.
Səksənib qarşında donmuş heyrətdən
çaşıb quruyursan,
çaşıb durursan.
Qaçırıb gözünü baxışlarımdan,
sıyrılıb özünün çılğınlığından
qanadı qırılmış bir quş olursan.
Allah bilir nələr pıçıldayırsan.

Kəhildəyib açıb gözümü birdən,
qərib-qərib gəzib küncü, bucağı,
nədəndi bilmirəm sözün açığı
tərsinə çevirdim
      balıncımı təzədən…
Beləcə, ötüşdü mənim bu gecəm
      ta ki sübhəcən.

**7.** Bu gecə mən Prometeydim.
Sıxıb sinəmə
od apardım
Buzlu Okeanın dərinliklərinə.
Dədə Qorquddum,
qopuz götürüb
nəğmə dedim xalqımın bu gününə.
Dionis oldum,
duz-çörəklə qarşıladım
elimin-obamın qonaqlarını.
Koroğluydum, Babək idim, Cavanşirdim,
qılınc götürüb
suvardım arzularımın çonalarını.
Ovod oldum,
inamımı məşəl etdim
başımın üstündə bu gecə.
Amur idim
xəbərsiz-ətərsiz
insanların ürəyinə girdim
bircə-bircə.

Ayılıb,
balıncımı tərsinə çevirdim.
Dedim bəlkə,
yuxuna gələm bu gecə.
Gəldimmi?
Bilmirəm!
Xətai olmaq istəyim ürəyimdə qaldı bircə.
Sənsə, barı bunu bildinmi?
Bilmirəm!

**8.** Gecələrim tapqır-tapqır.
Gecələrim bircə hovur
almır çimir.

Daha öz-özünü aldatmaq üçün
gümanı yoxdur.
Ömrü gödək olub təsəllilərin,
yalanı yoxdur.
Başı ayılıbdı istəklərimin,
düşübdü göylərin min bir qatından.
Marsın Allahlıq taxtından.
Göydə quşlar uçur – öz rəngindədi.
Torpaq çiçək-çiçək, söz –
rəngindədi.
Buludlar qatından enib ürəyim –
bil, rəncidədi.
Hardadı o xoşbəxt, o kövrək anlar,
milyon əsrlərin uzaqlığında
qalıb gümanlar.
Gecələr şirinim talx tamı verir,
gündüz acısından doya bilmirəm.
Balıncı tərsinə çevrilmiş ömrü
daha baş – altına qoya bilmirəm.
Götürüb gələcəm sabahdan Sizə
Ya balıncı götür, ya da…

Daha yuxuları ətəkləmişəm,
daha yuxuları ələkləmişəm,
daha yuxuları biləkləmişəm –
Özün bil!

*1984-cü ildə qələmə aldığım bu misralar 13 şeirdən (nəhs rəqəm olduğu üçün) ibarət olmalıydı. Lakin tamamlaya bilmədim. Çünki heç vədə ağlımın sifarişilə yazmamışam… Və elə bu səbəbdən də sonradan aşağıdakı misralar doğuldu.*

«Balıncı tərsinə çevrilmiş dünyam»
adında bir yazım yarımçıq qalıb
bir gör havaxtdı.
Harayı içimdə səsini qısan,
harayı içimdə təntiyib susan
bir nəğmə çökübdü köksümə mənim
bir gör havaxtdı.

Ağrılar, acılar qalaq-qalaqdı.
Yapış əllərimdən
nəfəsi təntidən bu cığırda sən.

Unudaq dünyanın əməllərini.
Tərsinə çevirək bu balıncı biz.
Bəlkə tapa bildi bu haqq yerini.
Sözlər uçur gedir, tuta bilmirəm.
Ki,
sənə layiq görəm bəlkə birini.
Bircəcəyi sözə qulaq asmır.
Qalmışam dağla aran,
yerlə göy,
varlıqla yoxluq arasında.
Əlim bir yerə çatmır.

Sonralar şeir dəftərçəmi vərəqləyən Vilayət (indi şirin xatirəyə çevrilmiş bu təbərrük xanım) dəftərçəyə aşağıdakı bu cümləni yazmışdı:

*«Axıtdığım göz yaşları*
*sinənizə axaydı kaş.*
*Gecə».*

*14 may 1993-cü il*

## SƏN ÖMRÜMƏ NEYÇÜN GƏLDİN?

Sən ömrümə neyçün gəldin,
sən ömrümə neyçün girdin.
Hansı yolnan,
hansı qılıqnan
yasaq olmuş sərhədləri aşdın –
bilmədim.
Donub önündə bu həqiqətin
dərk etmək çətin…

Tanrım hələ «doğmamışdı» bu hissi…
15 yaşda körpə uşaqlarsayaq
çəkdin məni özünə.
Misqal-misqal,
qətrə-qətrə,
addım-addım girdin içimə.

Neyləmişdim Tanrıma.
Bu yaşımda
alıb əlimdən olan-qalan nəyim var
bağladı məni sənə.
Ki,
sonra da üz çevirib,
«Vida!» deyib gedəsən
divanə etdiyin ömrümə?
Neyləmişdim Tanrıma?
Neyləmişdim Tanrıma,
suçum nə idi,
calğaq-calğaq edib
atdı məni sənsizlik girdabına.
Ömrümün bu hissəsin qoydu
göynək-göynək,
ağrı-ağrı,
yana-yana?

Neyləmişdim Tanrıma,
Urcah elədi məni bu sarsıntıma.
Bir əlim,
bir başım –
indi qalmışam canımı suçlaya-suçlaya.

Neyləmişdim Tanrıma?!

*13 iyul 2009-cu il*

ꕥ

Bir gör ha vaxtdı
nə qəm yükü daşıyırdım,
nə sevinc yükü.
Qeylü-qalsız, xudmani
özümçün yaşayırdım.
İndi budur,
gecəni ötürmüşəm yarıdan.
Yanımda nə sən varsan,
nə bir kimsənə.
Bir gecədir,
bir də dəftər-qələm –
həyan durublar mənə.
Oturmuşuq qabaq-qənşər;
dərdləşə-dərdləşə,
sevişə-sevişə.
Fərqi budur ki sənsiz günlərimdən,
indi şeir yazıram mən.

*13.12.1982-ci il*

ꕥ

Deyirsən ki,
Mənimlə yola getmək çətin olubdu.
Mənimlə oturub-durmaq usandırır səni.
Deyirsən ki, bəlkə də tutmadı
    səninlə mənimki.
Deyirsən ki…

Bəzən gülüşümdən cana doyursan,
bəzən dalğınlığımnan.
Bəzən soyuqluğumdan
quruyursan,
bəzən çılğınlığımdan.
Bəzən odum-alovum
    yandırır səni,
bəzən göz yaşım.
Dözə bilmirsən,
məndə çox şey,
çox şey usandırır səni.

…Eybi yox,
bir gün də yəqin
mənsizliyin yandırar səni.

*1981-ci il*

ꕥ

«Deyirsən «hə!» deyəcəyəm, -
nə olur olsun sonu.
Baş götürüb gedəcəyəm.
onda özləri bilər».
Dayan, gülüm,
asan bilmə bu mürəkkəb oyunu,
tapdalarsan, sevgimizin
inad izləri gedər.

*Fevral, 1974-cü il*

ꕥ

## DEYİRSƏN Kİ...

*(23 yaşlı bir ana 51 yaşında kişiyə ərə getmək istədiyini deyəndə, düzü mənə çöçün gəldi)*

Deyirsən, daha yorulubsan,
tənhalıq sıxır səni.
Beləcə,
göz görə-görə,
əllərinin içiynən keçib gedir ömrün axarı.
Deyirsən,
daha bəsdi,
sona çatdırmaq vaxtıdı
tənha gecələrin axırın.

Deyirsən,
bədənin ilıq bir həsrətlə gizildəyir.
Ruhun
səssiz-soraqsız bir həsrəti gözləyir.
Deyirsən…

Baxıram hövldən səksənə-səksənə
səndəki dünyanın sirrinə-sehrinə.
Dilim-dodağım təpiyir
ömrün bu cəng-cidallı mehrinə.
Birmirəm nə deyim sənə…

*Fevral 1987-ci il*

Səni deyə bilmərəm,
səni bilə bilmərəm.
Sənsiz ötən günlərim
yaman yorubdu məni,
lap doydurubdu məni –
Səni bilə bilmirəm.

*27.10.1982-ci il*

Deyirsən ki, baxaram.
mən göylərin qatına,
göyü çatlayan görsəm
bilərəm orda sənsən.
Deyirsən ki, baxaram
buludların qatından,
görsəm, yorulub daha,
görsəm, buyrulub daha,
görsəm, düşür atından –
bilərəm himə bəndsən
göz yaşı tökəcəksən.

Deyirsən, ulduzumu
arayım tapım özüm.
Deyirsən ki, təknəmin
çörəyin yapım özüm.
Ömür minik atıymış,
deyirsən, çapım özum –
havaxtacan, bilmirəm.
Deyirsən, dönəcəksən!
Görən haçan, bilmirəm.

*1981-ci il*

Mənim ömrüm elə sənlə gözəldi.
Yayı da, payızı da,
qışı da, yazı da.
Bürküsü də sənlədi,
      ürküsü də.
Umusu da sənlədi,
      küsüsü də.
Düzü də sənlədi,

    əyrisi də.
İrəlisə də sənlədi,
    gerisi də –
Nəyi var hamısı.
Göz yaşları da,
    arzuları da.
Gözlərin gülür –
ömrümə şəfəq tökülür.
Soyuyur baxışların –
hissim, duyğum,
arzularım, istəklərim,
ürəyimdə nə ki var məhrəm diləklərim –
hamısı sökülür,
dağılır, tökülür.
Ömrüm olub əlində oyun-oyuncaq.
harada dayanacaq,
dağılacaq, ya qurulacaq –
                    bilmirəm.

*1981-ci il*

Mənim
umacağım nədi səndən,
bilmirəm.
Sənin
umacağın nədi məndən
bilmirsən.
Beləcə,
ovundururuq biri-birimizi.
heç birimiz heç nə bilmədən.

Son vaxtlar nəsə
bir ılıq baxışa,
bir gözəl naxışa,
bir qız ürəyinin leysan yağışına,

yazına,
yayına,
payızına,
qışına –
nisgilliyəm.

İstəyirəm
bir ılıq təbəssümdən
köz basılsın ürəyimə.
bir öpüşün odundan
dodaqlarım çatdaq-çatdaq çatlasın.
Ürəyimdə boyat qalan,
mürgü vuran istəklərim
qarsalansın.
Bu da bir ömürdü.
Bir ömrüm də belə yaşansın.

Mən belə istəyirəm.

## SƏNİNÇÜN NƏĞMƏ

Bu nazın, bu duzun məni öldürdü,
İşvəndən, qəmzəndən doymaq mümkünsüz –
içimdən qopartdın xiffəti, dərdi.
Sənsiz itirdiyim illərə heyf –
necə yaşamışam görən mən sənsiz?

Xəsismiş xislətin,
yox insafın,mürvətin.
Sənçün ləleyk olubdu,
içimdə məhəbbətim.

Tüstüsü göyə dirək,

hissimdə yandı həsrət.
Qoy öpüm nəfəsindən,
izn ver
xəlvət-xəlvət.
Bu göynəyin, xiffətin
bir sonu olar əlbət.

...Hardan gəldin ömrümə,
hardan girdin ömrümə,
xəfif sabah mehi tək
gizlicə,
sinə-sinə?

*30.11.2008-ci il*

Nədir səndə bu laübalı hal?
Nədir içindəki çaşqınlıq, qalmaqal?
Mənli günlərini
oxşaya-oxşaya,
öpə-öpə,
didə-didə
yaşayırıq.
Çaşdırırsan məni də.
Tuta bilmirəm
əlindən istədiyinin...
Ömrüm-günüm labirintdə.

Gahdan gözlərin gülür.
Gahdan “rüzgar vurur” –
üzün bozarır.
Çaş düşüb qalıram:
bu nə xislətdi səndə oyanır.
İçində tufanlı,
qırğınlı qalmaqal.

Nədir səndə
  "buynuz çıxartmış"
  bu laübalı hal?!

İstəklərimi götürüb ovcuna,
yandıra-yandıra,
    yana-yana
üz tutubsan
oxunması müşkül qaranlıqlara,
        çırpa-çırpa daşa-divara.

Gen dururam,
təlatümün axarın tapsın deyə –
  töhmət yağdırırsan bu gördüyünə.
Yaxınlaşıram,
  yanaşıram məhrəm olam hisslərinə,
  yenə
mənə qaranlıq bir hal.
Və təkrar
dönə-dönə...
...İstəklərin əriş-arğac.
Etibar et istəyimə istəklərini,
  işləklərini –
  bəlkə bundadı əlac.

Gəl, ustuf-ustuf,
göz-gözə,
gəl, səbrlə arayaq bir əlac.
Hər şey zamana möhtac.
Gəl, ovunduraq hisslərimizi
  biz də bu sayaq...

Sənli günlərimi öpə-öpə,
  oxşaya-oxşaya,

didə-didə
yaşayıram.
Yaşayıram,
ömrüm-günüm labirintdə...

*05.12.2008-ci il*

## MƏNİMLƏ BİR ÖMÜR YAŞAYAYDIN KAŞ

Ötən illərimi hara yazım mən?
Uçurdum ovcumdan kəpənək kimi.
Harada qalmışdın?
Ahıl çağımda
Girdin ürəyimə sən külək kimi.

Bu nazın, bu işvən
Oynamaqmı mənlə,
ya oynatmaqmı
təlatümə düşmüş duyğularımı?
İstədiyin nədir?
Çöküb sinəmə
oyatdın ömrümün qar-qırovunu.

*Dekabr, 2008ci il*

Dünyanın hər işi yaman.
Dünyanın gəlişi, gedişi yaman.
Dünyanın gərdişi yaman.
Bu dünyaya
məni neyçün gətirdiyin bilsəydi anam,
mənə həyat verməzdi.
Bir cavan qucağına girərdimi?

Çətin ki…
Girməzdi.

Hər işimiz belədi.
hər işi korafəhm görürük.
Adəmlə Həvva zamanından
vəhşi, şəhvani hisslərini korşaltmaqçün
oğlanlar ucdantutma
qızlara sarı qaçır.
Qızlar ucdantutma
oğlanlarçün ağuş açır.
Yüz illərdi
adını bir sayaq qoyub
biri arvad alır,
biri ərə gedir.
Elə bilirsən
oğlan qucağına girəndə anamız
bizi fikirləşmişdi?
Bir kişi qucağıyla
övlad xətrinə məhrəmləşmişdi?
Xaliq haqqı yox!
Kərəm haqqı yox!

Sən Allahın işinə bax.
Ta Adəm-Həvva zamanından bu yana
insanları əsir edib hisslərinin feilinə,
qənim kəsdirib biri-birinə.

Hələ dünya durduqca da bu yolu aparacaq.
Bu da ulu Yaradan.

## ÖMÜR-GÜN YOLDAŞIMA

*Aman, Allah! İllər ötdü, 50 yaşı adladım, qadınımın həyat yoldaşı, ev xanımı, ana, nənə olmaqlığının qabağında səcdə qıldım. Mən yaxşı qardaş olmaqlığı özümdən üç yaş kiçik qardaşım Rəfaildən öyrəndiyim kimi, öz həyat yoldaşını, övladını, onun törəmələrini, qayın-qardaş balalarını möcüzəli məhəbbətlə sevməyi, ata-ana adının qabağında səcdə qılmağı, hətta özümü sevməyi də həyat yoldaşımdan öyrəndim.*

Mənə nə veribdi sənin bu sevgin.
Gərəkli-gərəksiz dedi-qodular.
Özünə nə verib bəs qısqanclığın:
Gərəkli-gərəksiz qovqa, ahu-zar –
məni qaçdı-qovdu az elə daha.

Qovrulluq bir hissin ağrılarında,
bu qayğı nə zaman gen düşər bizdən.
Hərdən baş götürüb qaçmaq istərəm
sözünün-sovunun gərəksizindən –
məni qaçdı-qovdu az elə daha.

Məncə daha yetər qısqanclıq, əzab,
ağıl da o deyil, yaş da o deyil.
Qızlar «əmi» deyir ha vaxtdı mənə
kifayət deyilmi sənçin bu dəlil?

Olar,
bir gün vurar ürəyimizi,
yorulub usanar haçansa bu hiss.
Biz onda neylərik, necə yaşarıq
əbədi mən sənsiz, sən də ki mənsiz.
…Məncə bəsdir daha,
Allaha bax, Allaha!

*29.09.1984-cü il*

## İSTƏYİMİZ SEVDAM OLUB

Ömrümün
haylı-haraylı,
qayğısız illərini çapa-çapa gəlmişəm.
Bu yolda nə usanmışam,
nə dincəlmişəm.
Xəbərim varmı, mən
ömrümün
sənli günlərinin astanasına yetəndən,
istəklərimin
əl-ayağını yığmışam küçələrdən.
Mən – olmuşam sən,
sən də – mən.
Bir vaxt küçələri
sərgərdan dolaşan istəyimiz,
dönüb olub balacamız Sevdam!

*İyun 1976-cı il*

ഌന്ദ

## QIZIM SEVDAYA

Mən də bir vaxt,
sənin kimi
arzu idim, gözəl balam!
Arzu ilə doğuldum.
Atamın istəyi,
anamın ürəyi
oğuldum.
Sonra,
arzu ümmanından
mənə də pay düşdü
arzuma döndün.

Sonra,
arzularım
bir-bir bölündü.
Bir qismət sənin oldu,
biri qardaşının,
biri evimizin,
biri də ərzin hər qarışının.

Görürsən, mənim balam,
arzularım nə qədər haçalanıb.
Deyən mənə qalan olmayıb,
gör neçə yerə paylanıb!..

ଌଓ

Ürəyimin içində bir qız ağlayır,
yoxdu ömrümün yollarında.
Özgəsiyçün xamır yayır,
kündə tutur.
Özgəsinin çağasıdı qollarında.
Mənim ürəyimdə ağlayır o qız.

Mənim ürəyimdə bir qız ağlayır.
Heç özünün də xəbəri yoxdu
odumun, alovumun,
şaxtamın, qırovumun
bir cilovu əlindədi,
götürüb aparıb özüynən.
…Bu qız
başqasıyçün ev qurur,
başqasıyçün uşaq böyüdür –
adı mənim dilimdədi.
Mənim ürəyimdədi o qız.

Olur.
İki ev sığınır biri-birinə.
Görüşürük,
söhbətləşirik,
gülüşürük,
küsüşürük.
Baxıram, bir vaxtkı o qız deyil
məhrəm ola ürəyimin istəklərinə,
yiyə dura oduma, alovuma,
şaxtama, qırovuma.

• • •

Mənim ürəyimdə bir qız ağlayır,
hələ də uşaq yaşındadı.
Axtarıram, bilmirəm hardadı.

*13.02.1983-cü il*

Bir ürək nədi ki,
əsirik ona.
Bir ağrı nədi ki,
biryolluq əhdini
qıra bilmirik.
Bu dünya kimdi ki,
öz yumruğunu,
bir gün öz başına
vura bilmirik.
Bir gülüş nədi ki,
yeri gələndə
ürək dolusu da gülə bilmirik.
Nə xilqət imişik
bilməm, İlahi?
bir yol özümüzü
bilə bilmirik.

*1981-ci il*

Bu yolların yazısıdı – özündən,
Bu yolların pozusudu – özündən,
Bu yolların ruzusudu-özündən.
Mənim yazım,
            mənim pozum,
            mənim ruzum
hanı bəs?

Bu istəyi kəmər etdim belimə.
Deyindilər –
bir yiyə dur dilinə.
Yiyə durdum dilimə.
Buxovladım istəyimi,
            feilimi,
            əməlimi,
            əlimi.
Doymadılar.
Çaşdım qaldım.
            neyləyim:
Bir ürəkdi –
çıxarımmı bağrımdan?
Bir diləkdi –
çatlasınmı ağrıdan?
Bir istəkdi –
de, çıxsınmı yadımdan?
Bu yazını
necə pozum alnımdan? -
Bilmirəm!
Bilmirəm!

*1981-ci il*

Qoy bu da sənin olsun,
bax, bu birisi də.
İçimdəkilərin
ölüsü də, dirisi də -
nəyim var hamısı.

Odum-ocağım desən –
özün veribsən.
Dodağımdan gülüşünü götürsən,
yenə özün bilərsən.
Gözlərimdən sevincimi aparsan,
ürəyimdən ürəyini qoparsan,
məni biryolluq
çalsan-çapsan, talasan,
cəsədimin üstündə
ahlar, nalələr qalasan –
yenə özün bilərsən.
Axı, hamısı sənindi.
Sənin mənə verdiklərindi
geri istəyirsən.

Özün bilərsən!

*1981-ci il*

## BELƏ GÜNAH OLMAZ, BELƏ GÜN OLMAZ

Gəl diz çökək
çıxaraq istəyimizi içimizdən,
öldürək.
Yerə döşəyək,
başlayaq ağı çağırmağa,
görək hansımız daş-qalaq olacağıq.

Gəl əriyək
biri-birimizin qucağında,
görək hansımız kürr olacağıq.

Gəl daş atıb başımızı tutaq,
qaçaq yer üzündən,
görək hansımız yolda qalacağıq.

Gəl istəkdən hörülmüş
bir dam altda yaşayaq,
görək hansımız qovulacağıq.

Gəl, ömür boyu beləcə göynəyək,
görək hansımız yorulacağıq.

*1981-ci il*

## SƏN MƏNDƏN GİLEYLİSƏN, MƏN SƏNDƏN

Rahatlığımı əlimdən alıbsan, -
deyirsən.
Beşdə alacağı yox idi, üçdə verəcəyi.
İndi od ilə su arasında qalıbsan, –
deyirsən, –
bilmirsən neyləyəsən!

Deyirsən ki,
qəribsəməzdin bir kəsdən yana.
Boyun bükməzdi ürəyin
bir kimsənin yollarına.
Bürünməzdin bir kimsənin qayğısına,
qovrulmazdın yanğısına.
Ağrınmaq nədi,
ağlamaq nədi –
bilməzdin.

Eh,
Niyə belə olmuşuq görən:
Sən məndən gileylisən,
mən səndən.
Kim kimin əlindən alıb rahatlığın –
bilmirəm!

*1981-ci il*

ꙮ

## SİZİN EVDƏN GEDƏN YOLLAR

Bu yollar nə yaman daşlaşıb belə,
Gedir, ayağımı apara bilmir
sizin küçədən.
Bu yollar nə yaman qartlaşıb belə
gedir, ayağımı qopara bilmir
sizin küçədən.
Nə oldu,
bəs niyə bozardı üzü?
Dünən gülə-gülə çağırmırdımı
məni bu yollar?
Bir bölük sevinci, bir bölük hissi
bu gün çilik-çilik qırdımı
yollar?
Uçunub, uçulub, qoparaqlanıb
yiyəsiz-yeliksiz
boz küçələrdən,
sərgərdan ömrümü daraqladın sən.
Daradın bağrımın könül nübarın.
Quzuladı ömrümün sənli anları.
…Bu yollar nə belə ağırlaşdılar?
Bu yollar nə yaman fağırlaşdılar?
Bu yollar nə qəfil bəs yadlaşdılar?..

*Noyabr 1981-ci il*

ꙮ

## MƏNƏ QIYIMSIZ DEMƏ

Ürəyimin nəyi var sənindi.
Bircə
qızırğanmışam azca odundan,
demişəm, qarsalanmayasan,
qorxmuşam yanarsan.

İstəklərim də sənindi büsbütün.
Bircə
azca götürmüşəm özümçün
ucundan-bucağından.
Qorxmuşam içimdə
vakuum yaranmağından.

Nəğmələrimi də sənə bağışlamışam.
Bircə,
bir qolunu
naxış-naxış naxışlamışam,
özümçün saxlamışam.

• • •

Sənə qıymadığım
nəğmələrimdə ağılarımdı,
istəklərimdə bağlılarımdı,
ürəyimdə işıq ucu görməmiş
nağıllarımdı.

Mənə qıyımsız demə.

*01.02.1983-cü il*

Ömrümü əlimdən alan qız,
bir ömrüm vardı
pisiydi, yaxşıydı yarayırdı özümçün.
Gərəksiz elədin ömrümü özümə.
Cinsənmi, şeytansanmı, cadusanmı, -
bilmirəm.
Durub-durub
bu yaşımda girdin ürəyimə.
Yerimdən elədin məni,
yolumdan elədin məni,
ömrümü əlimdən alan qız.

*Naftalan, yay, 1984-cü il*

Niyə yalan danışaq.
Desəm, öldürəcək bu sevgin məni,
inanma.
Oğlunun dəfnində,
mələr qalan ana da heç
qaralmadı ocaq-ocaq.
Desəm,
yanacam səninçin kösöv-kösöv,
qələm-qələm,
inansan da azca inan.
Axı Məcnun da,
Kərəm də,
Nəsimi də,
Babək də
yanmadılar qucaq-qucaq.

İndi ki, belədi,
gəl, özümüzdən ayrılaq,
dünyaya çıxaq,
düzə çıxaq.

Başlayaq hissimizin əlindən qaçmağa.
Başlayaq özümüz olmağa.

*Yanvar 1985-ci il*

ꕥ

## BU NECƏ DUYĞUDU?

Nə ad verim bu duyğuma.
Uzaq ikən ürək dolu.
Bu nə sirdir,
görüşəndə qıfıllanır ürək yolu.
Sualımın,
məlalımın,
yüz kəlməmin
son cavabı sən özünsən.
Bəlkə elə,
buna görə ürəyimin sədasını,
sənsizliyin nəvasını
gözlərimin alovuyla söyləyirəm.
Baxışımla baxışının
söhbətini dinləyirəm: -
görüşəndə dinməyirəm.
Bəlkə elə
buna görə susuram mən.

*1972-ci il*

ꕥ

## SƏNƏ SÖZ LAZIMMIŞ...

Sənə söz lazımmış,
mənə od-alov,
gətirə bilmədim qəlbimi dilə.
Bir axşam tutaşdıq söz davasına,
mən evimə döndüm, sən atangilə –

sənə söz lazımmış.

Əl atdım bağrımın dərin qatına,
ki, bəlkə yetişəm sənin atına.
Qollarım qoynumda qaldı çatıla –
gətirə bilmədim qəlbimi dilə,
mən evimə döndüm, sən atangilə –
sənə söz lazımmış.

Yortdum qaça-qaça günlər ardınca.
Sən alınmaz qala – bənzədin bürcə.
Çağırdım, yalvardım…
sədd heyf, bica,
gətirə bilmədim qəlbimi dilə,
mən evimə döndüm, sən atangilə –
sənə söz lazımmış.

Günlər qaynaq oldu ömrün ilinə.
Mən bir gün bir evi aldım əlimə,
sən bir gün bir evi aldın əlinə,
qaldıq ömrümüzün qubar layında:
Sən Arazın o tayında,
mən bu tayında.

ꙮ

Ömrüm nəğməliykən,
mənlə yaşamağa nə var.
Nəğməmdən bir pay götürərsən,
ürəyin soyuyanadək içərsən,
nəş`ələnərsən.
Ömrümün bu anı yadında beləcə qalar.

Məndən doymağa nə var.

Durğun olanda
min kəlmə  dindirərsən,
bir kəlmə alammazsan.
İstəklərimin qaraqabaqlığı,
söz-söhbətimin ütüsüzlüyü,
yenilməzliyimin gücsüzlüyü,
ömrümün ağırlığı
                    doyurar.
Dözəmməzsən mənlə,
baş götürüb gedərsən.

***

Görürsən də,
mənlə olmaq da asandı.
məndən doymaq da asandı.

*01.02.1983-cü il*

Sənə
niyə elə gəlir ki, bəzən,
sən mənim ömrümə öz gəlişinlə
ömür gətiribsən,
həyat veribsən?
Sənə
niyə elə gəlir ki bəzən,
gen dünya başıma dar gələr sənsiz?
Məni sənsiz görən ellər, obalar,
göllər, ormanlar,
dağlar, yarğanlar
kükrəyib üstümə gülər sənsiz?
Məni sənsiz bilər, sənsiz!

Qoy olsun,
bir elə zərif deyiləm.

Ağrınnam, hıçqırram,
lap düyünçə tək sənsiz düyülləm.
Sənin itkin üçün
özüm öz içimdə yüz yol döyülləm.
Özüm öz nəfsimi min yol söyərəm,
çat-çat səhra ollam bu həsrətimdən,
iynəyə sap ollam bu xiffətimdən,
dönüb qaxac ollam bu möhnətimdən,
qorxma, ölmərəm!
Torpağa üzü buz, - deyib atalar,
insana üzü boz, - deyib atalar,
noolar, nəfsini qıs, - deyib atalar,
qorxma, ölmərəm!
Ölmərəm sənsiz!
(Mənə sədəqə gərək deyil).

*1981-ci il*

Əlini ver mənə…
Qorxma,
gözüyumulu yollansan da bu səfərə.
Getməyə məhkumuq
hamının getdiyi bir yolla,
hamı gedən yerə.
Gedək,
nəfəsimizi birmərrə dərmədən.
Bir acı gülüş,
bir dəli qəhqəhə yığaq içimizə,
bilməyək bir qorxu.
Gedək, ayağımız yerə dəymədən,
içimiz gülmədən,
özümüz-özümüzü bilmədən.
Gedək, bağrımızda dünyanın xofu.
İçimizdə

ölümün bağrını yaran bir dəli qorxu.
Əllərimiz bir-birində.

*10.01.1987-ci il*

## BU VİDA GÖRÜŞÜMÜ

*Sən xətrimə dəydin. İçimdən nə isə uçuruldu. Böyründəcə oturub qubernator bağında bu misraları qələmə aldım. Fillər öləcəklərini irəlicədən bilirlər. Sonrakı görüş «vida» qarşılaşmamız oldu*

Günün günorta çağı dayanıb qənşərimdə
od-alova döndərib ayağını, əlini
yandırırsan sən məni.
Qurtar bu qovğaları.
Dön, bir geri bax barı.
Kölgəmiz qoşa qalıb.
Ayağımızın izi,
ürəyimizin səsi,
yol boyu içimizin
nəfəsi
qoşa qalıb.
Sənin də ürəyində,
mənim də ürəyimdə
bu addımların ömrü,
bu addımların yaşı qalıb.

Bu günün ayağı yüyrək,
bu günün ayağı qırıq.
Bu günüm
günün günorta çağı qaranlıq…

Nə deyim bu görüşə?
Ömrün bu sayaq yolu
daha nə sənlikdi,
nə mənlik.
Nə deyim bu görüşə,
görüşənədək,
ya hələlik?

…Mən sabah öləcəyəm…

*10.01.1987-ci il*

ജ൫

Milyon illərlə səni qorudum.
Özümün də ürəyimdən.
Hisslərimin təlatümündən .
hər cür istəyimdən
qorudum səni,
mənim hisslərimdən hamilə qalıb
başqasıyçün çağa böyüdən qız.
…Sənə olan hissim
sənə də qaranlıqmış, Allah!
Bilə bilmirəm,
bu, qələtmi, ya günah,
mənim hisslərimdən hamilə qalıb
başqasıyçün çağa böyüdən qız?

Öpüşlərə qərq elədin öz körpəni,
gülüşlərə qərq elədin öz körpəni.
Yox, gülmədin mənə, gülüm.
Ötənləri daşlayaraq
güldün xoşbəxt günlərini.
Hansı hissdi taleyimlə
barışdırdı bilməm məni?

*31.01.1974*

# GÖR HA...

Tutub istəklərimin yaxasından
  silkələdin.
- Nəyin var, qoy çırpılsın,
                                        tökülsün, - dedin.
Yığdın, yığışdırdın
olan-qalan odumu, alovumu,
nə ki var
küncdə-bucaqda qalmış qorumu,
                                    qırovumu.
Götürdün getdin.

*13.12.1082-ci il*

Hər şeyin bir doyumu var:
məhəbbətin də,
nifrətin də,
xiffətin də.

İstədim məhəbbətindən
yanım,  qarsalanım,
lap havalanım.
Anam dizinə döysün,
«oğlum cünun olub» desin.
Atam başına qapazdasın,
göz yaşıynan toxdasın.

Hissimin gücündən
sənə o qədər irad tutdum –
sənin sənliyini unutdum.
Qaldım hissimə  qovrula-qovrula.
Hissim ovula-ovula
bir də baxdım,

sənə «nifrət» edirəmmiş.
Neynim,
beləymiş naxışım,
beləymiş baxtım.

Ha vaxtdı tək qalmışam:
bir – ürəyi qırıq məhəbbətim
bir – bu hissimə «nifrətim»,
bir də bağrı «yara» xiffətim –
yaşayırıq bir canda.

Ancaq, bilirəm,
hər şeyin doyumu var.
Lap elə xiffətin də.
Odur ki, gözləyirəm
ömrümün gədiyində.
O günün haçansa gələcəyini
gözləyirəm.
Gözləyirəm,
özümə inandığım kimi.

*27.10.1982-ci il*

## SEVSƏN 30-dan SONRA...

Allahsızlıqmı deyim taleyin bu naxşına?
Günaha saldı məni oturduğum yerdəcə.
Bir qəfil tufan kimi məcrasını dəyişib
əsir etdi hissimi, əsir etdi gizlicə.

Taleyin bu oyunu olub əsrlər boyu.
Bu nə qınaqdı bilməm gəlib durub qarşımda?
Gərək bir pay da mənim olaydı bu oyundan?
Bu nə çanaqdı bilməm sınır mənim başımda?

Sən oturub rahatca əlində kitab, qəzet,
önündə televizor – özünçün dincəlirsən.
Sözlərlə cənc-cidala çıxmışam gör havaxtdı
ürəyimi əridib hissimlə döyüşdə mən.

Taleyin havasına oynaya bilərikmi?
Susursan.
Cavab vermək sənə çətindi birdən.
Fikirlər əriş-arğac, löhrəm yerişli dəvə…
hövlündən  qorxursan da cınçırıq çıxarmağa.
Hələliksə bir anlıq,
hələ fürsət var ikən,
ovundur hisslərimi oxşayıb sevə bilsən…
…Başlayaq gizli, oğrun bir ömür yaşamağa.

*12.01.1986-cı il*

## SƏNİN ÜÇÜN

Ömrümün qayğısız anları ilə
deyirdim, gülürdüm, əylənirdim mən.
Bir nagahan baxış tutdu yolumu,
dəyişdi məcramı – oldum yerimdən.

Necə sakit idim neçə illərdi.
Ömrün qaysaqlamış məhəbbətini
mən ki, yuxlatmışdım öz ürəyimdə
ən acı, ən şirin xatirə kimi.

Yolumuz ayrılmış durna yoluymuş,
haçalaşan yollar cüt düşür deyən.
Ömrün qanunları sevgi önündə
diz çöküb ləleykdir, büzüşür deyən.

Hayana baş alıb istəklərimiz?
Yatmış duyğuların oyanmasına
dözərmi iki ev, dözərikmi biz?
Biz ki, özümüzlə bacarmamışıq.
Biz ki, özümüzlə bacarammırıq.
Yəqin ki, bacarmaz daha qəlbimiz.

Bu ömür hayana baş alıb bu gün?..
Bu istək hayana aparır bizi
döyülə-döyülə, üzgün-üzgün?

*Yay, 1984-cü il*

## BAŞLAYAQMI ÖMRÜMÜZÜ TƏZƏDƏN

Başlayaqmı ömrümüzü təzədən?
Olsa-olsa itkimiz bir-iki ildi.
Qıvrılıb yatmışdı köksümdə bir hiss,
nə qəfil səksəndi, nə qəfil dindi.

Qazancımız – el qınağı bir addı,
itiyimiz – bir dünyalıq sevgimiz.
Tale vurub hissimizə möhrünü
qıraqmı, ataqmı, dağıdaqmı biz?

Yollarımın haçasından – doymuşam,
ömrümün bu qıçasından doymuşam,
Könlüm burda, özüm orda –
donmuşam.
Başlayaqmı ömrümüzü təzədən?

Hər baxışın bağlı qapı açarı,
qırıqla, şaqqala saxta vüqarı,

Alışıbdı ömrün kösöv odları –
başlayaqmı ömrümüzü təzədən?

Dərya ikən dərəlikdən qorxuram,
hissim sağkən, ölülükdən qorxuram,
Sən var ikən, mən təklikdən qorxaram?
Başlayaqmı ömrümüzü təzədən?

Bu səadət ömrümüzün naxşıdır,
talemizin bizimçün baxşışıdır,
belə gündən, vallah ölüm yaxşıdır,
başlayarıq ömrümüzü təzədən,
başlayaqmı ömrümüzü təzədən?

*Yay, 1984-cü il*

## ALOVUNDAN YANMAQ OLMUR, QIROVUNDAN DONMAQ OLMUR

Bir ocaq çatmışıq gör  bir havaxtdı.
Əlinə götürüb,
başının  üstünə qaldırıb aparmaq olmur.
Bir ocaq çatmışıq gör bir havaxtdı, -
Odunu, ocağını
ha əlləş, vuruş,
qoparmaq olmur.
Əlimiz qarsalanır,
içimiz qarsalanır,
gözümüz  qarsalanır,
dilimiz qarsalanır,
dodağımız qarsalanır…
Sözümüz qarsalanır
bu ocağın odundan-ocağından.

Sənin də əlindən düşür yana,
mənim də.
Qanrılıb gedə bilmirik heç birimiz
ondan  o yana.
Heysiz, süst
çöküb bu ocağın başına
qalırıq korun-korun ağlaya-ağlaya,
yana-yana.
Bir lağım atmışıq gör bir havaxtdı
bizdən sizə,
sizdən bizə.
Mən səndən gizlin,
sən məndən gizlin
qazıhaqazıdı.
Bir ümid göyərir içimizdə,
bəlkə  çatdıq biri-birimizə
bu yazda,
gələn yazda,
o biri yazda.

*06.01.1985-ci il*

## MƏNİM DÜNYAM, SƏNİN DÜNYAN

Nə həzin, nə kövrək bir istək imiş,
havaxtdı çalınır, yorulmaq bilmir.
Alovu bağrımı qarsalandırır,
alışır, yandırır - qovrulmaq bilmir.

Bu istək nə qərib yaşadır bizi,
obadan gizlicə, eldən gizlicə.
Bizlərin gündüzlər olub qənimi,
görüşür bu həsrət gecələr, necə?

Gəl, ataq bu daşı ətəyimizdən
iki ruh od tutsun biri-birindən.
Araz adlı göynək çaları kimi
orda sən göynərsən, bu tərəfdə mən.

«Allah!» deyə-deyə gör neçə ildi
iki ev üstündə bir göynək körpü…
Nə uçuranı var, nə götürəni
de, necə yaşadır bizi bu itki?

…Yerdə bir ağrı var, göydə bir ağrı,
içimdə bir ağrı, çöldə bir ağrı.
Görkəmim, vüqarım, «kefdə, damaqda»,
arzularım, ünüm bir-bir yanmaqda.

Nə qədər sən varsan,
nə qədər varam,
bu göynək, bu həsrət sozalmaz yə`qin.
Arazın o tayı – sənin kef yerin.
Arazın bu tayı – mənim «kef» yerim.
Yaşarıq beləcə.
Allah, İlahi,
bu nə  güzərandı,
bu nə ömür-gün?

*Yanvar  1986-cı  il*

## MƏNƏ NƏĞMƏ DE...

Elə ki bağrımı duman bürüdü,
ağlımı, hissimi güman bürüdü,
elə ki hiss etdin yaman günümdü –
mənə nəğmə de…

Görsən gözlərimdə çaxan şimşəklər
dağlarla döşləşib qalxana dönür,
görsən ki, canımdan qalxan küləklər
qıy vurub borana, tufana dönür –
mənə nəğmə de…

Yollar ayrıcında əssə dizlərim,
dolansa hissimdə aman-gümanlıq,
çaşıb qara görsə ağı gözlərim,
ayırıb özümdən məni bir anlıq –
mənə nəğmə de…

Sən mənə nəğmə de, durulsun qanım.
Çaşanda nəğməylə ayılıram mən.
Bir ürək qəzəbim, bir ürək ağrım
bir şirin nəğməylə qalxır köksümdən.
Nəğməylə coşuram, qaynarlaşıram,
nəğməylə çalxanıb büllurlaşıram.
Mənə nəğmə de…

*1973-cü il*

## YAŞAT MƏHƏBBƏTİMİ

Bu necə hikkədi bəs?
bu necə qəzəbli səs? –
tökdün üstümə.

Eşqim günahmı idi?
eşqim mənə nə verdi? –
Durdun qəsdimə.

Göynədib diləyimi,
kəsirsən kələyimi –
qəsdin nə?

Nə əlçatmaz qalıbsan?
nə ünyetməz olubsan? –
Yetsən səsimə.

Qovurub həsrətimi,
yaşat məhəbbətimi.

ꕥ

## DÖZMÜRƏM SƏNSİZLİYƏ

Bu nədir – həsrət şirin,
bu nədir – həsrət acı.
Ürəyim saf eşqinin
əbədilik möhtacı.

Yoluma həsrət səpdin,
yoluma çıxan gündən.
Baxışların hissimi
yandırıb-yaxan  gündən.

Əridim damla-damla,
əridim gilə-gilə.
Göz yaşım vüsalımı
gözümdən silə-silə.

Dolanır arxan ilə
xəyalım, sənsiz, niyə?
Səninlə yaşayıram,
dözmürəm sənsizliyə.

*01.03.1973-cü il*

ꕥ

## ÇİLİKLƏMƏ BU SEVDAMI

Əzizim, küsdünmü məktublardan da.
Sərin-soyuq gəlir,
de, bu nədəndir?
Qurtar iztirablar qoynundan məni,
intizar könlümü didir, göynədir.

Gəzib dolaşırsan giley-güzarlı,
nədən uzaşırsan alıb sədamı?
Qovla baxışında gəzən kölgəni,
çilikləmə bu sevdamı.

Aramızda olan odu-alovu
görüb soyutmağa can atır kimsə.
Uyub iftiraya, yad bir nəfəsə
çilikləmə bu sevdamı,
çilikləmə bu sevdamı!

*15 oktyabr 1973-cü il*

Mənə bir söz bağışla, -
dedim.
Dillənmədin.
«Nə söz axı»
- Yox, gedirəm, - dedin.

- Nə istəsən,
lap olsun göydəndüşmə,
adicə bir kəlmə.
Susdun.

- Bircə söz,

sonra gedərsən.

- Yoxdu axı sözüm!
(sükut)
Onda qulağını gətir mən deyim.
- Elə niyə?
Elə istəmirəm mən.
Kim var ki burada
qulağıma da deyəsən?

- Nə bilim,
sadəcə, belə istədim.

Və…
Gözlərini dikib gözlərimə
Zəndlə baxdın, baxdın…
Bu ılıq sükutnan, nəyin vardı,
hamısını mənə bağışladın.

Yapışıb əllərindən
dedim:
- Gedək,
amma bir xahişim var səndən,
ömrünün bu gününə haçansa,
köks ötürüb lağnan gülməyəsən.

*01.02.1983-cü il*

## QIZLARIMIZ MƏNƏ DEYİR Kİ...

Qızlarımız mənə deyir ki,
mənə qızların qarğışı keçib.
Yoxsa
işlərim niyə bəd gətirirdi ki…
Niyə düyün düşürdü ki…
Əriş-arğac içində bitirdi ki…
Mənə qızların qarğışı keçib, -
deyir qızlar.

Mənə qızların qarğışı keçib, –
deyir qızlar.
Ona görə ömrüm boyu –
əl atacam ağac tutum –
ayağım daşa dəyəcək.
Çöp götürəcəm dişmi eşim,
dilim-dişim bilməyəni
el - oba deyəcək.
Nəyi atıb nəyi tutum,
                bilə bilməyəcəyəm.
Quruyacaq matım-qutum,
                dinə bilməyəcəm.
- Qızlar mənə belə deyirlər,
Mənə qızların qarğışı keçib, –
                deyir qızlar.

• • •

Neyləyim?
Bu ki mənim deyil,
gözlərimin günahıdı.
Bəndənindi, Allahındı
bu günah,
bilə bilmirəm.

Birinin gözlərini tutdu gözüm –
dedim gözəldi.
Birinin sözlərini tutdu sözüm –
dedim gözəldi.
Birinin yerişi gördüm şeytan işidi –
tutdu gözüm.
Birini ürəyim özü seçdi.
Hər ağrıdan, hər əzabdan
sısqa-sısqa, qətrə-qətrə
özü keçdi –
mənim xəbərim olmadı.
Vallah, mən deyiləm günahkar,
a  qızlar,
ürəyim özü onu seçdi.

*19.07.1983-cü il*

# YAŞIDIM OĞLAN, GÖZLƏ, QIZIMI VERRƏM SƏNƏ

*(el məsəli)*

Çöp atdıq,
çöp  tapdıq,
Top atdıq,
top tutduq.
Birimiz deyəni o birimiz udduq.
Bu birimiz deyəni bu birimiz udduq.
Gündə bir arpa boyu böyüdü qızlarımız.
Bir buğda boyu artdıq gündə biz,
qayğısız-sayqısız.

…Bir də gördüm,
«Günaya elçi gəlib» dedi qızlar,
yerimdən oldum.

Sabahı eşitdim Aygünü aparıblar,
yatağıma qor doldu.
Olmaya bu dəfə
Sevdama yiyə duran tapılar?
Ürəyimə qar doldu.
Bu hissimi bildirdim,
Qorxma, elə şey olmaz, - dedi, -
güldü.
Heç özü də bilmədi,
başımı yastığa qoydu,
                    güldü.
Bir də gördüm
qızlarımız hamısı qanad taxıb köçüblər,
biz oğlanlardan xəbərsiz-ətərsiz.

ꕥ

Bir dəfə
özü də bilmədən,
qəflətən
qələminin ucunu batırdı barmağıma.
Çaşqınlıqdan,
qızılgültək
xəfif bir qızartı çökdü yanağına.
Məncə bunu –
eşqimin ilk «bəxşişini»
saxlamaq istədim ömrüm uzunu…

● ● ●

Böyüdüm,
yaşa doldum.
iz itdi barmağımdan.
İlk eşqim daşa dəydi –
aldı onu əlimdən
                zaman.

Ancaq barmağımdakı
qələmin qara izi
getməyir gözlərimdən.

*1972-ci il*

ꕤ

Ürəyimi açmaq istədim bir qıza,
bu vaxtadək ürəyimdə
pünhan qalmış yalqıza.
Durdum,
baxdım,
duruxdum.
Özüm də hisslərimin tə`kidindən qorxdum.
Duyumlarım düyün düşdü ürəyimdə.
hisslərimi söyləməyə
qüvvət çatmadı məndə.
Çünki, yalanlar
həqiqəti qiymətdən salıb.
Doğru söz ucuzlaşıb,
«sevirəm» kəlməsi bolluq içində
lüt-üryan qalıb,
çılpaqlaşıb.

*1972-ci il*

## RÜBAİ

Həsrəti sevgiyə ölçü qoydular,
ürək ki, həsrətdən alışıb yanar.
Qorxmuram həsrətdən,
qorxuram ağrım
yorar hisslərimi, ürək soyuyar.

*1973-cü il*

# ŞAMAXIYA GEDƏNDƏ, AVTOBUSDA YANIMDA BİR QIZ ƏYLƏŞMİŞDİ

Qonşu olduq
ömrümüzün hansı anındasa.
Boy-boya durdu bir istək,
sənin də könlündə,
mənim də.
Mənim ürəyimin gözləri səndə,
səninki məndə…
bir də baxdıq
haçandı yetmişik mənzilbaşına.
Az qaldıq dözə də bilməyək
                hisslərimizin savaşına.
Sonra
mən qalxdım ayağa.
Sonra
sən qalxdın ayağa.
Bizimlə bahəm
hisslərimiz də durdu ayağa.
«sağ ol»u da hisslərimiz
                pıçıldadı,
«xudahafis»i də.
Elə
hisslərimizin dodaqları
pıçıldaşa-pıçıldaşa da
                ayrıldıq.
Hərə öz ünvanına yön aldı.
(Mənnən sənə nə qaldı,
sənnən mənə nə qaldı,
bilmədim).

*Yay, 1981-ci il*

Yox, yox,
adi pəncərə şüşəsi deyilmiş bu.
Axı mən səni ordan tapmışdım.
Buz baxışlı şüşələrdən
ılıq istəklərinlə
sən mənə baxmışdın,
mən sənə baxmışdım.
Və beləcə-beləcə…

● ● ●

Külək qırdı pəncərəni.
Qırdı səndən xatirə qalan
son təsəllimi.
Külək qırdı pəncərəni.
Qırdı, lap elə indicə.

*1981-ci il*

༺༻

Elə yuxalanıb ürəyim sənsiz…
İllər bir-birindən çətin olurmuş.
Deyirdim, dözmərəm.
Eh, insan oğlu
əzablar önündə mətin olurmuş.

Getdin.
Həsrət qəlbim tüstü içində
yanır korun-korun, boğulmaqdayam.
Deyirdim, əyilməz, sınmaz vüqarım –
sarsılmaz qayaydım, ovulmaqdayam.

Aldadıb özünlə aparıb getdin,
dön, barı geriyə qaytar yolları.
Səni aparıbdı deyən inləyir,
ağrıdan, əzabdan qurtar yolları.
Köksüm – məzar deyil, ürəyim – tabut,

yoxsa, həsrətini torpaqlayardım.
Həsrətin – eşqimdir, özüməm,
yoxsa,
ayaq altda salıb ayaqlayardım.

• • •

Yaman yuxalanıb ürəyim sənsiz!

*Aprel 1973-cü il*

Bu dünyanın nəyi var, mənimdi.
Yeri də, göyü də,
havası da, suyu da,
göz yaşı da, xoyu da –
hamısı mənimdi.

Torpağında yeriyirəm,
əkirəm, becərirəm, yeyirəm.
Göyündə, gəzirəm öyünə-öyünə,
ulduzlarını öyrənə-öyrənə.
Suyundan içirəm
halal malım kimi,
havasından-uduram
şirin xəyalım kimi,
doydum dediyim olmur.
Kiçicik cismimlə,
nəyi var bu boyda dünyanın
alıram əlindən –
nəfsim yorulmur.

• • •

Bu gün
onun nəyi varsa, mənimdi,
mənim nəyim var, onun.
Gedəndəsə səndən
gizli aparacağım bir şey qalır, dünya!

O da sənin bilmədiklərindi –
mənim sənə vermədiklərimdi.

Məni yandıran da elə budu!

*1981-ci il*

## BİR TELEFON ZƏNGİ

Nə deyim bu səsin hərarətinə,
beş-on il geriyə qaytardı məni.
Öd alovu ilə qarsalandırıb
bir vaxtlar atardı-tutardı məni.

Yaşıllıq içində itmiş bir izin
yönünə çöndərdi bu hənir məni.
Quruyub qalmışam lal qaya kimi –
hələ də bu nəfəs öyrənir məni?

Alov – həmin alov,
ruh – həmin ruhdu,
çaşdırdı bir özgə ad ilə məni.
Ömrümün quzeyli dolaylarından
boylanan bir qız
yandırdı bir özgə dad ilə məni.

Özü – soyuq buz tək,
zəngi – od-alov,
qalmışam od ilə buz arasında.
Ürəyim təzədən qanad açıbdı,
qalxmışam bir şıltaq qız qarasınca.
İtiyi nə idi, gərəyi nədir,
gerçəyi nə idi, kələyi nədir
bu gəlişilə,

Nəməri nə idi, istəyi nədir
kükrəyib bir belə –
bilə bilmirəm!

## TƏZADLI SEVGİM

Qəribədir bu dünyanın işləri.
Mən
göz yaşı üzündə donmüşları,
ağrıları istəklərini yonmuşları
həmdəm bilirəm özümə,
sən üzügüləri.

Sifəti əl qabarı tək
qart-qart olmuşlar
özünə cəlb edir məni,
səni üzügülər, qumaşlar.

Mən
içinin ağrıları
üzündə qovrulanları
tuturam.
Sən
deyib-gülməkdən yorulanları.

Məni
ağrı-əzab özünə çəkirmiş,
səni
sevincdən qəşş edib ölmək.
Bu qəribəlikdən nə bilək.
İşə bir bax,
Mən həm də sənə vurulubmuşam.

Gözünü gözümdən yayındırma gəl,
a mənə uzaqdan baxıb duran qız.
Səssiz-küysüz nədir, de, bu baxışlar,
yollar ayrıcında boyun buran qız?

Ürəyinin səsi qarışbaqarış
dolaşır illəri məni tapmağa.
Gözlərin o qədər söz-söhbət deyir…
Vallah, başlayıram səndən qorxmağa.

Yapışıb günlərin ətəklərindən
dözüb ürəyimin kötəklərinə,
daş atıb ömrümün itiklərinə,
unudub acığı, umu-küsünü
bir gün qayıdaram yanına yenə,
a mənə uzaqdan baxıb duran qız,
yollar ayrıcında boyun buran qız.

## BAYATILAR

Əziziyəm, ötər gün,
ay dolanar, itər gün,
sən çəkmədin qayğımı,
qayğılarım çəkər gün.

Əziziyəm, öldüm gəl,
nahaqca gömüldüm, gəl,
bir yol ziyarət etsən,
eşit ki, dirildim, gəl.

Əziziyəm, getdim, gəl,
harayına yetdim, gəl.

İtmədim gen dünyada,
sənsizlikdə itdim, gəl.

Bu yolda hay olmuşam,
dəryaydım, çay olmuşam.
Eşqi günəş sevgilim,
yolunda ay olmuşam.

Gümanım yanıltsana,
bu qəmi dağıtsana,
yetiş, a mənim baxtım,
hissimi dağıt, sana.

Sənli ikən könlümü
sənsizlik xırdaladı.

*1974-cü il*

Sənindi yerlər, göylər,
neynirsən göyü, yeri.
Uyma yad yerişinə
öz yerişini yeri.
Eh, təki dönməz ol sən.

Qələmini mən verim,
yaz, öyrəş yavaş-yavaş.
Dözümü özündəndi,
döz, öyrəş yavaş-yavaş.
Təki yenilməz ol sən.

Arzular – bulaq yolu
qaynayıb çağlar keçər.
Ürəyim dağlı-dağlı
göynəyib ağlar gedər.

Qafqaz ol, Kəpəz ol sən.
Mənə Dan Ulduzu ol,
Ömrümə ulduz ol sən.

Avqust, 1979-cu il

ꕥ

Səksəndik, durduq
Görüşdü baxışlar.
(İllərin sınağı
bir hiddət qoparar.
Bir az ehtiyatlı,
gözlər dalaşarlar):
**- De, hardan gəlirsən?**
*- Yenə də qısqanclıq?*
**- Cavab olmadı bu.**
*- Nədəndir bu sorğu?*
*Qoruyursan kimi*
*de, kimin üçün sən?*
*Yorulmadınmı bəs*
*illər savaşından?*
*Bəs çağa sahibi*
*görsə, nə deyərsən?*
*Gəl, çıxart başından,*
*gəl, unut məni sən,*
*gəl durma inada.*

Danışmadı daha.
Yanaqda göz yaşı
qucağında qundaq,
qanrıldı baxışlar,
ayrıldı baxışlar.

*1973-cü il*

ꕥ

## BARIŞDILAR

Görüşdülər.
Dillər qıfıllandı.
Danışdı sözlü baxışlar.
Qız «günahkar».
Oğlan «günahkar».
Dözəmmədi,
ayaqlar altda əzildi
utandığından baxışlar.

Dil açdılar.
Oğlan: «-bağışla, mən…»
« – Yox, sus bir,
bu söz nəyə gərəkdir».
Susdular.
Pıçıldaşdı ləpələr,
qırçın-qırçın,
oğrun-oğrun
axışaraq.
Gilavar da dəcəlləşib dilə gəldi.
Sığallanmış o şux tellər
gəncin boyun-boğazına qıraşaraq
dincəldi.

…Küsmüşdülər,
barışdılar.
Ömrün sevdalı yoluna
küsülü gələn addımlar
qaranlıqda qovuşdular.

*17.12.1972-ci il*

Necə doğmaydıqsa, elə də yadıq,
bizləri yad etdi talelərimiz.
Həyatın çalpaşıq dolaylarında
ayrı düşdük biz.

Neçə il gözümdə gəzdi surətin,
neçə il  gözündə gəzdirdin məni.
Bağrının ağrısı gözünə dolub
düyümlənəndə,
gözlərindən salıb itirdin məni.

Neçə bahar qışı yollarda yordu,
bircə düşündünmi günahkar kimdi.
İçimin küləyi saçımı yoldu,
qəlbimdə yerini görürəm indi.

Sona övladına «Baxşı» adını,
Baxşı da «Sona»nı yadigar qoydu.
Belə edərsənmi?
Taleyə bir bax,
məni öz eşqimə gunahkar qoydu.

Ürəyimdə həsrətinin şirinliyi,
gözlərimdə
gözlərinin şö`ləleri qalıbdı.
Ayrılalı gündən addımlarımız
hissim  ürəyimdə qundaqlanıbdı.

…Necə doğmaydıqsa, elə yadıq,
bizləri yad etdi talelərimiz.
Həyatın  çalpaşıq dolaylarında
ayrı düşdük biz.

*1972-ci il*

## SƏN DEYİLMİSƏN?

Sevdalı gəncliyim, ömür dayağım,
saralmaz baharım, sən deyilmisən?
Əbədi dincliyim, narahatlığım,
əyilməz vüqarım, sən deyilmisən?

Dənizlər görmüşəm ucsuz-bucaqsız,
hamısından şıltaq sən deyilmisən?
Yananlar görmüşəm odsuz-ocaqsız,
hamısından  növraq, sən deyilmisən?
Səninlə yad olmuş qəlbim həsrətə,
qovuşdur eşqimi əbədiyyətə.

*1973-cü il*

ꕥ

Nadinc ürəyimdən bir istək qopub.
Ən məhrəm hisslərim sənə qalıbmış.
Ruhuma bir şirin nəğmə tək hopub
Güldün ürəyimcə… Nə gözəl naxış.
İcazə-filan nə… Baxdım ki, bir də
zarafat-zarafat,  ürəyimdəsən.

*06.11.1976-cı il*

ꕥ

Yaman olar bu görüşün axırı,
Allah bilir inciyərsən, küsərsən.
Salıb məni əzabların içinə
Əl yerimi qamçılarsan, biçərsən –
Mənzil-mənzil istəklərim daşlanar.
Əl çəkməyib həsrətinə düyülləm
Nədən belə həsrətinlə döyülləm?

*25.12.1982-ci il*

ꕥ

# MƏNİM MƏHƏBBƏTİM

Mənim kar məhəbbətim,
Mənim kor məhəbbətim,
Avamlığın timsalı,
Dili yox, lal misallı.
Qorxacaq, həm də titrək,
Qüdrətli, qəlbə dirək,
Mənim məhəbbətim!

*1972-ci il*

Kötük olmaq istəmədən
yoluna  kötük çıxdım.
Bu kötüyü də`f eləmək
sənə çətinmi, asan?
Həyatına  düyün salar,
bir kiçik zərbə ilə
istəyirəm ürəyindən
onu kənar qovasan.

*1973-cü il*

De, niyə çırpınır, niyə sustalır,
sıxılır, usanır, səbri daralır,
sənin xəyalınla xəyala dalır
ürəyim sənsiz.

Kiçicik bir cığır çağırır məni,
qorxudur, yol üstdən qaytarır məni,
Görən nə vaxt Sizə aparar məni
görünən bu iz.

*Yanvar  1973-cü il*

Məhəbbətmi söyləyim bu dəlisov hissinə?
Ən məhrəm istəklərim adına bağlanıbdı.
Dəcəllik də deyil bu, ötüb dəcəl yaşımdan
inanmaq da çətin ki, könlüm xəyallanıbdı.
Necə oldusa bilməm, adını kəlmə-kəlmə
Ən şirin nəğmə kimi köçürdüm ürəyimə.

*6 noyabr, 1976-cı il*

Ağlımla hissimin cənginə bir bax!
Nə vaxtdır bir istək yorur qəlbimi.
Mən dəniz qoynuna düşmüş qov kimi
tapa bilməyirəm öz sahilimi.

Kövrək ürəyimə vüqar bəxş edib,
saxta məhəbbətə qaladın məni.
Gözlərim içəndə baxışlarını,
dondurub qəlbimi, taladın məni.

Yumruq boyda ürək nə qədər dözər
sevgi hicranından doğan əzaba?
Görəsən nə qədər yer saxlanıbdı,
ürəkdə sevinci boğan əzaba?

Həsrətin iztirab, görüşün əzab.
Yorur ürəyimi bu üzüntülər.
İllər məlhəm qoyar yaralarıma,
ağrılarım bir-bir sovrulub gedər.

…Həyat nur dənizi,
insan bir damla.
Damla dəryalarda əriyəcəkdir.
Ürəyim kövrəkdir yaranışından
həyat döyüşündə bərkiyəcəkdir.

*1972-ci il*

꧁꧂

Sinəmdə iki ürək –
biri sənin, biri mənim.
Arabir səndə döyünür,
arabir məndə.
Girincəm əlində.
Bilmirəm səndədi, ya məndə.

꧁꧂

Ürəyim sariban olubmu mənim?
Yolları  nə qədər çapır, yorulmur.
Gözlərim karivan olubmu mənim?
Bizdən Sizin evə qaçır, yorulmur.

Ürək qol götürüb haraylar səni
durub yol ağzında bayaqdan bəri.
Döyər baxışlarım astananızı,
girər qapınızdan, girər içəri.

Bəs niyə çəkinir, getmir qıçlarım?
Bayaqdan o, Sizə tələsmirdimi?
Atanı, ananı xatırlayanda,
utancaq bir qorxu kəsir səbrimi.

*Yanvar  1973-cü il*

꧁꧂

Ürəyin dolansa məni görməyə,
ən uca zirvədə axtar, sevgilim.
Yanına yönəlsəm enişaşağı,
sapdır bu yolumdan, qaytar, sevgilim.

*1973-cü il*

## GÖRÜŞ

Dedim, dayan.
Baxdın, durdun.
Neyçün, bilməm,
Baxışların gözlərimdə
qucaqlyıb öz çağanı
bağrına sıxdın.
Mənə baxdın,
niyə susdun?

Biz danışdıq kəlmə-kəlmə,
qırıq-qırıq.
Çözələndi bağrımızda
o günlərin o qubarı.
Ötənlərin o qorxacaq
kövrək, əziz duyğuları.
Döyülərmiş,
düyülərmiş,
düzülərmiş ilmələrə
qarıyan bir sinə ağrı –
o illərin o qubarı.
Birgə dedik, birgə güldük.
Acı dedik, şirin dedik.
Yenə sancdıq bir-birimizi.
(Deyən axı, xatırladıq keçimişimizi).
Öpüşlərə qərq elədin öz körpəni,
gülüşlərə qərq elədin sən körpəni.
Yox, gülmədin mənə, gülüm,
ötənləri daşlayaraq
güldün xoşbəxt günlərini.
Hansı hissə taleyimlə
barışdırdı o gün məni.

*1974-cü il*

# SON GÖRÜŞ

Bu görüş çaş saldı istəyimizi.
Bu görüş ömürlük göynətdi bizi.

Ayrılıb uzaşdın gözüm önündən
ömrün  vüsalına ilk döngə kimi.
Sənli günlərimdən
sənsizliyimə
bir kölgə kimi.

Getdin,
ətəyindən kəsib əlimi.
həsrətin yaprıxdı kipriklərimdə
son dilək, son istək, nəsibim kimi.

Ayrıldıq,
tək qaldı görüş yerimiz.
Hicran, umu-küsü, deyişməyimiz.
Və bir də,
sənli-mənli – ayrı düşən ömrümüz.

*1972-ci il*

Bir öpüş nədi ki, qıymadın mənə;
gözüm  gözlərinin gözündə qaldı,
sözüm sözlərinin sözündə qaldı,
odum ürəyimin özündə qaldı.
Bir öpüş nədi ki, qıymadın mənə,
ay qıyımsız!

Necə əzazilmiş sərtliyin sənin,
sənin qəddarlığın qorxuncmuş necə.
Düşdüm sənsizliyin həsrət toruna,
əl götürmür məndən fikir, düşüncə.

Üzün bozarası bu neçə gündə
bir ürək sevincim avazıyıbdır.
Yollardan qırılan addım səslərin,
tə`nəli gözlərin mənə qıyıbdır.
Görüş yerimizə buz sükut hakim…
Bu nədir,
yoxsa bu, addım səsindi?
Söyüd ağacımız elə dolub ki,
deyirsən gözünü sıxacaq indi.

…Bir mənəm, bir də
Eşqimizə şahid bu ağlar söyüd.

Tanrıya qovuşmuş hissimə heyif…

• • •

Gəlləm, darıxmasın görüş yerimiz.
Gəlləm, göyərməsin görüş izimiz.

ᏕᏋ

Gözlərimdə qəzəbdən ildırım çaxan zaman
istəklim baxışıyla arayardı torpağı.
Qaşlarım çatıldımı,
bilib orda min güman
xəfificə islanardı  gözlərinin bulağı.

*1972-ci il*

ᏕᏋ

# DOSTUM SEVİNCİ SEVDİ, O SEVİNC YOX, QƏM YEDİ

*(H. Əşrəfə)*

Dedin ki, «sevmirəm»,
güldü gözlərin,
söylə, bu təzadlı müəmman nədir?
«Könlüm dilimdədir», - bildi gözlərim,
bəs sənin gözlərin nəyi gizlədir?

Tələsdim,
görüşə tələsənlər tək.
Görüşüm gözləmək oldu yolları.
İşə bax, sən özün yanaşdın mənə.
Yanaşdın ki,
«məndən yanamı gəldin?»
Görüşüm izləmək oldu yolları.

Bu əməlin nədi,
«sevmirəm» nədi?
Təzadlar bağrımı yardı,
bilmədin.
Hisslərim ağlımı yordu,
bilmədin.
Dayan bir,
yığışdır əl-ayağını belə günlərin.
Zaman elə gələr,
elə gülər ki,
çırpılar üzünə təbəssümlərin.

Neynək, tapdamaram daha izini,
yolumuz yolunu dəyişər bu gün.
Əgər bir zaman,
qayıtmaq istəsən bu günümüzə,
bil, qəbul etmərəm səni çox güman.

Axı, məhəbbətim səhv düşər o gün.
Axı, məhəbbətim qəlp düşər o gün.

ꕥ

Bilmirəm görüşdük harda, necə biz?
Nə zaman isnişdi bizdəki duyğu?
Niyə pıçıldaşdı ürəklərimiz?
Gözlərdən nə zaman boylandı qayğı?

Qırılmış budaq tək köksümə sindin,
həyəcan doğradı kəlmələrini.
Məndən öz ömrünə həyat istədin,
isti bir şaxtamı titrətdi səni?
Təbəssüm geyindin o gündən bəri.

ꕥ

Öldün ürəyimdə.
Düşündüm ki, mən
daha son qoyular iztirablara.
Hardan biləydim ki, yaralı sevda.
dönür göz dağına, dönür qubara?

Dedim, unutdurar fəsillər səni,
ovunar ağrılar hey zaman-zaman.
Yalanmış bu sözlər.
Qəlb ağrısından
göynərmiş kösöv tək, yanarmış insan.

Öldün ürəyimdə.
Bu dəfnin ilə
meylimi saldırdın duzlu həsrətə.
Vüsal yüklü sevda hardan biləydim
qovuşur ürəkdə əbədiyyətə?

*Aprel 1973-cü il*

# ÖZÜNÜ QAYTAR

Dedin: «gəl ayrılaq,
vida keçmişə.
Elə bil həyatda görüşməmişik».
De,  necə aldadım özümü özüm,
bir izdən, ləpirdən biz keçməmişik?

De, mən nələr gördüm qövsi qaşında,
gözlərim gözündə axtardı, nələr?
Duyğular tufanı qopub başımda,
mehriban qayğını gözlər, inləyər.

Məhəbbətim səndən od alan zaman,
yağdırdın könlümə hicran yağışın,
Eşqin badəsini içirdin mənə,
yoxsa göz yaşın?

• • •

Qara saçlarında əlimin odu,
odlu dodağında öpüşlərim var.
Bağrında gül açıb dediyim sözlər –
sözümü qaytar.
Neçə il odumla alovlanıbsan.
Soyuyaram sənsiz, donaram sənsiz –
közümü  qaytar.
Sən ki, özün deyil, mənim olubsan –
özünü qaytar,
özünü qaytar.

*01.11.1976*

## E`TİRAF

Ah! Necə ağırdır o görüş, o dəm,
çulğadı qəlbimdə güman-gümanı.
Buludlar ağlaşdı, qarışdı aləm
çağırdı gözlərdə aman-amanı.

Baxdım gözlərinin dərinliyinə,
gördüm ürəyinin iniltisini.
Vüsal dünyamızın astanasında
çaldıq ayrılığın qəm nəğməsini.

Neçə il gözümdə gəzdi surətin,
neçə il gözündə gəzdirdin məni.

Qəlbinin ağrısı gözünə dolub
düyümlənəndə,
gözlərindən salıb itirdin məni.

Neçə bahar qışı yollarda yordu.
Bircə düşündünmü günahkar kimdi?
Bağrımın küləyi saçımı yoldu
qəlbimdə yerini görürəm indi.

*«Lenin tərbiyəsi uğrunda» qəzeti*
*(ADU-nun nəşri), 12.07.1972-ci il*

ꕥ

Gözlərə dolanda yuxu həsrəti,
gözlərin gözümdə yuxuya daldım.
Erkən qalxmalıydım bu səhər çağı,
yatıb gözlərinlə yuxuya qaldım.

*08.01.1975-ci il*

ꕥ

…Eşqim qırov tutur qəlbimdə hərdən,
oğrun busələrin donuxub qalır.
Vicdanın hakimə bənzər hədəsi,
hissmi enişə, yoxuşa salır.
Yürüyür üstümə fikirlər dağ-dağ,
qor olub gözümə doluşur onlar.
Ağlımı, hissimi qamçılayaraq
təntiyir, yorulub sust düşür onlar.

Qorxuram qar ala sevda yolunu
odlu yanağına buz əllər qona.
Qorxuram duyanlar bu hissimizi
kimdənsə, kimdənsə oğurluq sana.

*«İqtisadçı» qəzeti.*
*03.11.1973*

## TƏNHALIQ, MƏHƏBBƏT

Nədəndir ömrümün vüsal dünyası,
qovrulan qəlbimi ovuda bilmir?
Görən, nədən səni unudan könül
bircə yol sevgini unuda bilmir?

Gözün gözlərimdən, əlim əlimdən,
özün görüşümdən uzaq olsan da,
Ürəyim inləyər yanıq kamantək,
xəyalın gözümdən uzaqlaşanda.

Ayrıldın…
Sevgi nə, tənhalıq hara,
ayrılıq vüsala yaddır əzəldən.
Vüqar ürəyimin sədası idi
sındırdın nədən?

## ƏSDİ AYRILIQ YELİ

Bürüyür eşqimi həsrət dumanı,
Qovur hisslərimi ayrılıq yeli.
Çağırır qəlbimdə güman-gümanı,
gah vüsal dünyalı, hicran hədəli.

Sevgi dənizində qol atmaq çətin
ürək qayıqmıdır oynada dalğa?
Mən bu sayaq ömrü yaşaya bilməm,
üz tutum hara?

Məhəbbətim səndən od alan zaman
Yağdırdın qəlbimə hicran yağışın
Eşqin badəsin içindin mənə,
yoxsa göz yaşın?

Kəsif ətri ilə məst edib məni,
qoşdun nəfəsinə yad nəfəsini.
Alovlu eşqimin vüsal dəmində,
çaldın ayrılığın son nəğməsini.

Tutub bu dünyanın əl-ətəyindən,
tutub bu dünyanın qəm tütəyindən,
baş alıb gedirik hayana, bilməm?

Qalıb öz içimin hay-harayında,
qalıb öz içimin yol qolayında,
durmuşam ömrümün hansı tayında?
Bilə bilmirəm

Hər gözəl görəndə könlünü vermə,
tapdanmış kağız tək görünər ürək.
Qoru ilk eşqinin ülviliyini,
Qoru, öz toruna bürünər ürək!

*1973-cü il*

Ꮺ

De, bir yadındamı,
incədən-incə
izlərim  izində dolaşdı, gəzdi.
Atamız, anamız xəbər bilincə
görüşdü baxışlar xəfif, gizlicə.

Yadındamı,
burdan nəfəs-nəfəsə,
burdan ötdük əl-ələ.
Axıb şəlalə kimi
döndük xoş kəlmələrə.
Burda yaman şəndik,
yaman qayğısız.
Şıltaq uşaq təki gəlib həvəsə
qaçdıq da yolların axarınca biz.

Bəs nədən aldatdı qara gözlərin,
illərin sevgisi gümana döndü.
Sevgi ürəkləri oxşayır,
amma,
küsgün taleyimçün yamana döndü.

*1970-ci il*

Kim deyir ki, çaylar coşub-daşanda,
mən səni düşünüb, səni anmadım?
Dam üstdə sülh quşu quruldaşanda,
səni qəlb evimə yaxın sanmadım?

ꕥ

Çox uyma qadının naz-qəmzəsinə,
axır bir gün salar pis hala səni.
Aldanma əhdinə, uyma eşqinə,
həsrət  qoyar şirin vüsala səni.
Tumar sevər, xumarlanar söz altda,
hüzn saxlar hər an qara göz altda
Milyon-milyon üz gizləyər üz altda
hicr ilə yandırar hilala səni.

Əhdini ayaqlar xoş sifət görsə,
yalançı, yabançı sədaqət görsə,
Üzə gülümsəyən məhəbbət görsə,
həsrət qoyar o gül, xəyala səni.

Ayətxan sözlərin deyir müxtəsər,
qadında ilqardan axtarma əsər,
yaman ilbiz kimi üzə gülümsər,
həsrət qoyar o, gül camala səni.

*1970-ci il*

ꕥ

## QISQANCLIQ

Qara tellərini ağ kəlağayın
de niyə bürüdü?
Qısqanıram mən.
Ağ örtük üzündən, al yanağından,
gülüm, niyə öpdü?
Qısqanıram mən.

Axşamüstü çıxdıq Xəzər seyrinə,
sevgim qanad çaldı, yandım ürəkdən.
Elə ki, bircə kəs baxdı üzünə,

qovdum yad baxışı, qısqanıram mən.

Öpüb xumar-xumar əsən gilavar
şıltaq saçlarını,
aldı əlimdən.
Dağınıq telləri yığıb birtəhər,
oxşadı darağın.
Qısqanıram mən.

Sevgimiz dodaqdan ürəyə axdı.
Eşqimlə, hissimlə cilovlandım mən.
Anamın xatirə boyunbağısı
boynuna qol saldı, qısqanıram mən.
*1970-ci il*

## GÖRÜŞÜNÜN YADİGARI

Heyf ürəyimin ağrılarına
səni düşünərək inildəmişdir.
Heyf gəncliyimin duyğularına
canımda boğulub can istəmişdir.
«Gecdir, gedək», - deyə ayrıldı əlin
titrək əllərimdən.
Öldü bir anda
göyləri dolaşan qəlb ehtizazı.
Ayrıldıq sabahın ayrılığına,
ayağım narazı, ürək narazı.

De, mən nələr gördüm qövsi qaşında,
gözlərim gözündə axtardı nələr?
Duyğular tufanı qopub başımda,
mehriban qayğını gözlər, inləyər.
*1970-ci il*

ꕥ

Gəlir ayrılığın susqun dalğası,
əsir eşqimizə həsrət yelləri.
Qoynunda bir vüsal uyudan könlüm,
indi min həsrətlə boylanır geri.

Ayrılıq oxudu öz qərarını,
ürək qırıq sim tək inlədi dəm-dəm.
Habil kamanımı, Əhsən tarımı,
Qədir naləsimi məhəbbət naləm?

Bir yandan içimdə hicran nəğməsi,
bir yandan içimdə sevgi tonqalı.
Bu necə ömürdü, bu necə gündü?
Necə nizamlayım bu qeylü-qalı?

Sevgi sərhədində sual yığını,
müəmmalar qucub məni çaşdırır.
Qəlbin kövrək dili «gəl» deyir sənə,
ağlın vüqar dili uzaqlaşdırır.

*1970-ci il*

ꕥ

Taleyim nə «gözəl» sığal veribmiş –
ömrümün yolları çala-çökəkdir.
Məcrasız könlümün şirin anları
sevgi qarğışıdı, harın kötəkdi.
Tutub bu kötəyi, bu qarğışları,
tutub saxlamışam xoş xəbər kimi.
Dayanıb haçalı yollar boyunda
baxıram ömrümün bu anlarına
bir nəmər kimi.

*1972-ci il*

ꕥ

Dedin, «gəl ayrılaq».
Ağırlıqdan torpağa
endi göz qapaqların
xəyaldan ayrılan düşüncə kimi.
Ayrılıb uzaşdın gözüm önündən
ömrün vüsalına ilk döngə kimi.
Ayrıldıq,
ayrıldı birləşən yollar.
Birində sən getdin, birindəsə mən.
Ayrıldıq,
illərlə coşub-çağlayan,
dalğın-dalğın axan
çay qollları tək.
Uzun bir gedişdən cığıra düşən
həyatın yolları tək.

Əbədi sürəcək bu ayrılığın
həsrəti yaprıxdı kirpiklərimdə.
Domuşub lal oldu, ayrıldı bizdən,
şirin xatirəli görüş yeri də.

Bir odlu gülüşdü dodağındakı
Bir baxış təbəssüm gözlərindədi.
Gözünü qaldırıb yanakı baxdın,
yoxsa ki, gözlərim gözünə dəydi? –
Mən baxdım,
sən baxdın.

Dondum bu hikmətə, təbəssümləndim,
incəldi baxışlar, güldü baxışlar.
Dil açdı gözlərin,
bu mübhəm dünyamı gördü baxışlar –

Mən baxdım,
sən baxdın.

Əbədi dünyaymış gözlərin mənə,
gözümü qaldırıb gördüm ordayam
Köçdüm o gülüşə, o təbəssümə
bildim ki, səadət sorağındayam –
Mən baxdım,
sən baxdın.

*Aprel 1976-cı il*

## GİLEY

Bu dünya günaha bələnməliymiş.
dünya göy əskiyə düyülməliymiş,
ayağım altında əskilməliymiş
sənin üzündən.

Bir kəlmə söz nədi – demək olmurmuş,
bir ürək nədi ki - bilmək olmurmuş,
bu istək – ağrımı?
Göz yaşlarını silmək olmurmuş
sənin üzündən.

Bir hay harayladım haylar içində.
Dənizlər, ormanlar, çaylar içində
bir pay itirmişəm.
Payımı gəzirəm paylar içində
sənin üzündən.

*19.01.1981-ci il.*
*Gecə, saat 3.$^{00}$*

Ürəyim,
Lap vasvasıymışsan.
Nə olub yenə?
Qoca qarılartək nə deyinirsən?
Canıma küy salıb deyingənliyin,
gözümün içinə nə dürtünürsən?

Uşaq ha deyilsən,
hövsələn olsun.
Bu od-alovundan bir azacıq al.
Belə qarsalanma, külə dönərsən,
Bir az səbrini bas,
salma qalmaqal.
…Sənin istəyincə oturub dursam,
gərək özbaşına buraxam səni.
Sən ki, bəs bu qədər dəlisovmuşsan,
qorxuram edəsən hər istəyini.

## BU HİKMƏT QORXUDUR MƏNİ

Qəribə hal alıb görüşlərimiz.
Öpüb gözlərimdən
doymaq bilmədən
uzaq bir həsrətə qovuşanlartək
«Mənim gözlərimsən»
söyləyirsən sən.
Arzun elə əziz, elə şirin ki…
Arzunun ziddinə getmək çətindi.
«Ayrılıq» deyirlər gözdən öpməyə,
onların izində bitmək çətindi.

*18.01.1975-ci il*

## ÇAŞDIM, VURULDUM SƏNƏ

Kaman oldu, oxun çaldı gözlərin?
Qan-qadayla canım aldı gözlərin?
bilməm niyə məndə qaldı gözlərin?
Nə ad verim bu şıltaqcıq hissimə?
Bilməm necə vuruldum gözlərinə.

Deyirsən ki, «get, hissini cilovla,
yaş tök gözlərindən, sən qubar ağla,
bu sevdana bir qara yaylıq bağla».
Nə ad verim bəxtiqara hissimə?
Bilməm necə vuruldum gözlərinə.

Bir gülümsə, çöhrən gülsün, alışsın,
baxışların baxışıma qarışsın,
istəyimlə qoy istəyin barışsın,
tale gülsün bu dəlisov hissimə –
bilməm necə vuruldum gözlərinə?

Nə şıltaqdır gözlərində təbəssüm,
bir yol gülsən, cuşə gələr həvəsim,
bir ovsunmu, cadukunmu gözlərin?
Çaşdım vuruldum sənə,
vuruldum gözlərinə.

Sevgim bir dənizmi,
sevgilim qaya?
Qayalar doğrayıb dalğalarımı
əbədi həsrətə qaytardı məni.
De, nədən gümana bələndi hissin,
ya, bəlkə mənsizlik apardı səni?

ꕥ

Qarsıb qısqanclığın od-alovunda
yenə görüşdük.
Sevgi dünyamızın qütblərində
biz «ayrı» düşdük.
Ağlımla hissimin çəkişməsindən
Yalnız qaldım, çaş düşdüm mən.
Bu dünya sükuta qapanıb, niyə?
yollar qəribsəyib, yalqızlaşıbdı.
Vəhmədən adamın bağrı üşənir,
bu hisslər nə yaman quduzlaşıbdı?

Ürəyimin səsimi
yollarına tökülən?
Gəzirəm,
soraqçındı
mənimlə bahəm  o da,
içimin  qəm odunda.

ꕥ

# MƏN, SƏN, BİR DƏ GECƏ

## BİR GECƏNİN YUXUSUZLUĞU

*(Yuxumdan hövlnak qalxdım.*
*Və  o gecə sabahı dirigözlü açdım)*

**1. Bu nə qorxu idi, ara tap**

Bu gecə sən
nə şirinsən.
Bu gecə ilk dəfə
əllərim əlinə dəyəcək sənin.
Bu gecə ilk dəfə
nəfəsim nəfsini döyəcək sənin.
Bu gecə ilk dəfə
insan övladı
insan olan kəsin etibarsızlığın biləcək.

Bu gecə ilk dəfə
dodaqların gömgöy göyərəcək
bir naqəfil haldan.
Bu gecə ilk dəfə
min tərəddüd içində
sən mənim olacaqsan.

Bu gecə ilk dəfə
sən mənim oldun…
…Bu nə qorxuydu?
Hövlnak

başımı qaldırıb yataqdan
içimdən qovuldum.
Baxdım dodaqlarıma,
göyərtisi-zadı yoxuydu.
Baxdım ovcuma,
barmaqlarımın ucuna
uçuna-uçuna.
Əllərin əlimdə deyildi.
Baxdım
səksənə-səksənə qucağıma
özün qucağımda deyildin.
Arxayın köks ötürdüm:
«İlahi, sənə min şükür!»

**2**. Bu gecə sabahı dirigözlü açacam,
Bu gecə çimir nədi, bilməyəcəm.
Bu gecə baş götürüb
özüm-özümdən qaçacam.
Təntiyə-təntiyə, udquna-udquna
ruhumu söykəyib istinə-soyuğuna,
min şükür deyəcəm
ömrümün bu gününə doğulan sabahına.
Bu gecə sabahı dirigözlü açacam,
səndən ötrü yana-yana.

**3. Məni qüsurlu sanma.**

Hardan gəldi bu duyğu
doldu içimə,
içimdəkiləri qıra-qıra
keçdi oturdu
bir bölük ləşkər üstə tacidar.
Qaldım
mən yazıq, mən bədbəxt

dizimə vura-vura,
başıma döyə-döyə.
Axtardım özümə bir havadar,
tapammadım.

***

İndi,
gecənin bu vaxtı
diz çöküb ruhunun önündə,
qalmışam əsir-yesir
əllərim ətəyində.

**4.** Bu gecə ətəkləmişəm
bu dəli-dolu qovğamı.
Ürəyimin üstünə qoyummu,
ayağımın altına salımmı
hissimdəki bu havamı? –
Bilmirəm.
Qalmışam orda, burda.
Qalmışam adda-budda
fikirlərin əlində.

Bu gecəmin sirri nə boydaymış?
Bu gecə sən boyda dünyamı kəşf elədim.
Bu gecəmin taleyimə yazısı varmış,
Bu gecəmi ürəyimə vəsf elədim.

**5.** Bu davadı, ya dalaş,
bu istəkdi, ya təlaş,
bu diləkdi, ya qarğış? –
Özün sonala!

Bu od hardan gəldi? Bilə bilmirəm
Ocağı görünmür, yeri görünmür.

Əriş-arğac olub fikirlərimdə
ha yol arayıram geri, görünmür.
Təmkinin dağları dağıdar sənin,
vüqarın bağrıma bir qara daşdı.
Dindirrəm, susursan lal qaya kimi,
dil açan gözündü, sözsüz baxışdı.
Könlümdə bir dəli istək yaranır,
ürəkdə «hə!» deyir, dilimdə danır.
Bu, hayandan gəlir, hardan boylanır –
bilə bilmirəm.

Sehrini ki dedim dəli qovğamın…
Bəlkə də içində nəsə qırıldı.
Tələsmə,
tez dönüb getməyə nə var.
Gəl, birgə arayaq.
Bəlkə qəlbində
bu dəli qovğamdan bircəsi qaldı?
Yoxsa, yorar səni,
dözə bilməzsən.
Ha vaxtsa bağrını dələr daş kimi.
Köksün bu sevdamın qəbir daşını
illərlə gəzdirər bir qarğış kimi.

Bəlkə göz çevirib göylərə, yerə,
biri-birimizin gözündən tutub,
biri-birimizin dizindən tutub,
biri-birimizin üzündən tutub
beləcə qalaq?
Hər kəs öz gününə ağlayır güman,
biz də ağlayaq?
Taleyə qarışaq, günə qarışaq.
Hökmü tale verir insan ömründə,
bu yazı ilə biz də barışaq?

…Nəyim vardı, dedim,
götür.
Hökm sənin, qərar sənin.
İçimdəki dəli-dolum –
nə var sənin.
Bu taleyin öz hökmüdü,
ya dava bil, ya dalaş bil…
Bu taleyin öz hökmüdü,
ya ömrünə gizli-oğrun
bir dilək bil,
ya qarğış bil.
Özün sonala.

**Sonluq**

Bu, nə qəribə gecə idi, Allah!

*Biləsuvar rayonu,*
*14.01.1987-ci il*

## İNANMAZSAN SƏNİ SEVDİYİMƏ

*(Bu gecəmi dirigözlü açdım səninlə)*

Dodaqlarım yüz ildi
öpüşlərinin həsrətindən
çatdaq-çatdaq.
Gülmə, sən Allah!

Hardan gəldin?
Yatmış,
ölmüş duyğularımın yoluna
hardan çıxdın?!
Nədən bildin,
yüz ildi yoluna duaçı
səni gözləyirəm.

Yüz ildi yollarına soraqçı
səni izləyirəm.
Sənsiz necə yaşayıbmışam
bu illəri, Allah!
Çöçün gəlir mənə,
düzü, bilməyirəm!
...Dodaqlarım yüz ildi
öpüşlərinin həsrətindən
çatdaq-çatdaq.
Gülmə, sən Allah!

Əllərini ver əlimə,
qollarını dola boynuma,
yüzillik həsrətin
amanını qıra-qıra,
alaq bu dünyadan qisasımızı –
gir qoynuma.
Yana-yana
buzlamış,
buzlaqlamış hisslərimi
al ovcuna,
sal qoynuna.
Buxovlayaq əl-ayağın
xiffətin də,
həsrətin də –
sən məndə
mən səndə.
...Dodaqlarım yüz ildi
öpüşlərinin həsrətindən
çatdaq-çatdaq.
Gülmə, sən Allah!

Çaşma
bu sərgərdan duyğularımın
azğınlığından,

nagahanlığından.
Donma,
əllərin üzümdə,
dizlərin dizimdə,
gözlərin gözümdə.
Mənə bir istək bağışla.
Baş götürüb qaçaq
dünyanın yalquzaq gözlərindən.
Ovunduraq hisslərimizi bu naxışla.
Ömrümün bundan sonrası
sənin adına bağlı,
nigarım,ürəyimin su sonası.
Bilmirəm, bu duyğularım döyüləsimi,
ya alqışlanasımı?..
...Yana-yana,
ayırma nəfsimi nəfsindən.
İnanmıram,
sənsiz yaşanacaq günlərimin
bu dadda,
bu naxışda olacağına.
...Dodaqlarım yüz ildi
öpüşlərinin həsrətindən
çatdaq-çatdaq.
Gülmə, sən Allah!

Əllərini üzübsən yerdən, göydən.
Əllərinə dayaq olum,
ver mənə.
Ayrıl dünəninin ağrılarından,
dön,
sənə «gəl» deyənə.
Bədənin bədənimdə,
için içimdə,
nəfsin nəfəsimi döyə-döyə

daşlayaq ömrümüzün dünənini.
Qıraq
ömrümüzə yük olmuş bu kəfənin
                    caynaqlarını,
                    kəsək kələyini.
Əllərini ver əlimə.
Baş götürüb bu dünyadan
  gedək bizim olan
    bir özgə qalaktikaya.
Dünənimizi daşlaya-daşlaya,
qınaq yağışında döyə-döyə,
                  söyə-söyə,
başlayaq bu günümüzü yaşamağa.
...Dodaqlarım yüz ildi
öpüşlərinin həsrətindən
çatdaq-çatdaq.
Gülmə,sən Allah!
Ömrüm sənsizliyin əlindən
param-parça,
qıça, qıça.
Gülmə, sən Allah,
gülmə!

*20 noyabr 2008-ci il*

Ömrünün bir günü mənim olan qız,
Ömrünün bir ili mənim olan qız,
Bir gecə nədi ki, qıymadın mənə,
A məni «anlayan», məni «bilən» qız.

## BU UZUNLUQDA ÖMRÜ YAŞAMAQMI OLAR?

**1. Bu gecəm nə uzun**

Yapışıb
bir qız bakirəliyinin ətəyindən,
əlindən,
fitnəsindən,
feilindən
bu gecəmi dirigözlü açacam.
Öpüb,
hovxurub dodaqlarından,
döşlərinin giləsindən,
Yanğıdan
puçur-puçur
puçurlamış
sinəsindən...
hisslərini içimə çəkəcəm
tamarzı-tamarzı,
xudpəsənd,
özümdən razı.
Sabahı
baxacam ki,
süst, gərəksiz bir ömür yiyəsitək
yaşamışam...

...Bu gecə
mən o qızın yuxusun qatmışam.

**2.** Özünü alma yalquzaq çılğınlığımdan.
Sənə sığallı ömür xoş,
mənə dəli-dolu.
Sən göylərdə ün tutan Sahibi-əzzaman,
mən qandallı əli, qolu...

**3.** Sən bunumu istəyirdin –
divanəsiz yaşanan bir ömür?!
Tut əllərimdən
apar məni,
apar,
o ömrün sərsəriliyində gömür.
Ürəyi dinc,
qulağı dinc,
bir ömür yaşayırdım sənsiz
bir gör ha vaxtdı...
Bu nə soltanlıqdı,
bu nə taxt-tacdı
gətirdin ömrümə
sinə-sinə.
Bu ömür mənəmi xoş,
ya sənə?

**4.** Sən kimsən?
Dilsiz-ağızsız yaşanan
lal ömrümün lal açarı?
Axı mən
Bu «lal-dinməz açarı»
qolum boyu tolazdamışdım
ömrümün bu gününün
gedər-gəlməzdiyinə...
Harda itmişdin
bu neçə «yüz ildə?..»
Hardan yetişdin,
hardan gəldin ömrümə?!

**5.** Bu gecəmin
bu sərsəri düşüncələrindən
yoruldum.
Daş idim,
qaya idim,

dünyanın keçilməz layımı idim?–
bilməm.
Bu daşın,
bu qayanın,
dünyanın bu
ən əndişəli layının
qabağında lal durdum.
Bu gecəm nə idi, bilməm.
Bu gecə ömrümə sən doğuldun.
Bu gecəm nə şirinmiş, Allah!

*17.06.2008*

Bu gecəm
yiyəsiz-yeliksiz it kimi
küçələrdə sərsəri,
sərgərdan.
Göz yaşlarım
göz yaşı tökə-tökə,
hönkürtülərim
hönkürtü çala-çala,
xiffətim
qubardan xal-xal ola-ola
yeyir içimi –
sənsizlikdən boğulmada
zaman-zaman, an-an.

Sənə ləleyk hissimin içindən
bir həsrət göyərib,
qaçırıb sənli ömrümün
dadını-duzunu –
qaçaq salıb səni məndən.
Xəbərin yox xəbərdən,
içimdə
"Həsrət" adında bir körpəcik doğulmada.

Belə yaşayımmı ömrüm uzunu
sənsiz,
tənha?
Bu gecəm sənin qoynunda.
Sən özün hardasan,
de,
harda?

*30.11.2008*

Bu gecəmin ayrılığı nədi başqalarından.
Bu gecəmi
döş axtaran uşaq kimi qamarlamışam mən.
Gücüm çatdı-çatmadı
açıb bələyini bu gecənin
girəcəyəm içinə.
Olsun lap çəkinə-çəkinə.
Baxıb dim-dik gözlərinə,
istədiklərimi
tutub alacağam bir-bir əlindən.

*30 iyun 1986-cı il*

## MƏNƏ BİR ŞİRİN YALAN DE

Demə ki, sevmirsən
ağ yalan gəlməyibsə də dilinə.
Sən mənə
bir şirin yalan de bu gecə yarısı,
al könlüm tanrısı,
sevgimin qarısı.

Daş duza təşnə kimi yala hisslərimi,
bürünüm duyğumun dumanına, çəninə.

Bir şirin yalan de
bu gecə yarısı sən mənə,
sən mənim xətrimə.

Beləcə, ağarsın sinəm,
bükülsün dizim.
Beləcə, sökülsün izim
sən gedən yollardan.
Ömrümün acısın da, şirinin də
mən belə görüm.
Bir şirin yalan de bu gecə yarısı,
qoy bu şirinliklə də mən ölüm.

*30.06.1986*

*23 yaşında bir ana 51 yaşında kişiyə ərə getmək istədiyini söyləyəndə, çaşdım. Sən demə, bu gənc qadın özü öz otağının işığını keçirməkdən cana doyubmuş*

Allahsız-tanrısız bir qənim kimi
əlində Ərəbzəngi qılıncı
iki yol kəsib qənşərini.
Bilmirsən neçə yerdən
qılıncdan keçirəsən.
Biri gur işıq,
biri
gecələr işığı söndürülməyə yaraşıq.
Sən
ürəyini daş edib,
qoyub ayağının altına
təntiyə-təntiyə, tapqına-tapqına
qaçmaq istəyirsən
sənə yad bir dünyanın işartısına.

Ürəyin bir hovur dinclik üçün,
nəfsin bir hovur girinclik üçün,
«nə bilim»,
«neyləyim»,
«necə» üçün,
gecən
hind filmindəkitək
şamı söndürüləcək
bir gecə üçün
ovuna-ovuna,
qovur səni qovrulduğuna.
Taleyin min oyunu var,
gözləyirəm sonunu mən də
                    ağrına-ağrına.

• • •

İnandığım bircə budur ki,
sən hara gedirsən,
kimin qucağına girirsən, gir,
mənim nəfəsim ovudacaq səni.
Hər gecəyarı sən yataqda ikən
işığını söndürən əlin
mənim olduğuna inanacaqsan.
Gecəli, gündüzlü hər an
sən mənim olacaqsan,
sən mənimlə qalacaqsan.

Taleyin min oyunu var.
Bilmək olmaz.

*23.05.1987-ci il*

## SƏNDƏN VƏFALI SEVGİLİM

Eh, ürəyimə nə deyim,
ürəyimə gələn başıma gəlir.
Fikirləşirdim;
bu duruş ki, səndə var,
bu tutuş ki, məndə var –
bizimki tutmaz yəqin.
Ayrıldıq bir gün,
günün günorta çağında.
Qaldıq günün, günortanın qınağında.
Eh, nə deyim ürəyimə,
ürəyimə gələn başıma gəldi.

Aman Allah!
Adamın nəyi var,
qoymurlar qala əlində.
Dartıb, dartışdırıb alırlar
nəyin var ürəyində, dilində.
Bu gen dünyada
bir həsrətim vardı,
ürəyimi söykəyib sağrısına,
qalıb göynəyə-göynəyə ağrısına,
könəlgiyə-könəlgiyə yanğısına –
yaşayırdım özümçün.
Onu da çox gördülər mənə.

Və günlərin birində,
bir də gördüm telefon səs saldı.
Dəstəyi aldım.
Sən idin…
O gecəni, ha illah elədim getmədin,
mənimlə qaldın.
Mənimlə idi o gecə «davan».

Yadımda qalanı bircə bu oldu ki,
gəlibsən, ömrümə həyan olasan.

Bəxtimə nə deyim.
Bir həsrətim vardı gen dünyada,
onu da mənə qıymadın,
əlimdən aldın.
Getmədin o gecəni,
sübhədək mənimlə qaldın.

ജ്ഞ

## "MƏNƏ HƏYAT VER", DEDİN

*Bu gecə sənə həyat verməmi istədin,*
*bu gecə sənə verəcəyim*
*həyata təşnə kimi*

Hardan bildin
arzularımın içindəkini.
Hardan bildin
yalquzaq,
sənə təşnə hisslərimin
odunu, alovunu,
sənin üçün alışan naməhrəm qırovunu?..

***

Gəl bir olaq
yalquzaq duyğularımızın
yalquzaq azğınlığında.
Bu gecəmizin hayıfın alaq
yalquzaq duyğularımızdan.

Nə olar.

*18.06.2013-cü il*

ജ്ഞ

Söz açdın taleyinin kəmliyindən,
ömrünün, gününün nəmliyindən,
söz açdın özünün kimliyindən –
ürəyim göynədi.
Bir dedik, bir söyləndik
gecədən xeyli ötənəcən.
Axırda söz verdim.
Dedim, filan işində kömək elərəm
                                yerinə yetənəcən.
Sonra sənə uğur diləyib yatağıma girdim.

…Obaşdannan gözümü açıb
səni qucağımda gördüm.
Bu nə deməkdi, İlahi,
düzü, bilmədim.

*10.11.1981-ci il*

ꕥ

Bu həzin gecəni al qoynuna sən,
Bu qərib gecəni sal qoynuna sən,
Kimsəsiz qəribi çal qoynunda sən -
O kimsəsiz mən olum.

Sən qopar, gəl qopar yolların üstdən,
Sən apar, gəl apar qolların üstdə,
Sən çıxart, gəl çıxart illərin üstə,
O yolda,
      o qolda
     qalan mən olum,
ölümdən bac almış bir cəsəd kimi.

*30.06.1986*

ꕥ

# YANLIŞ TELEFON ZƏNGİNİN İŞIĞI

Bir «dəli» qız,
bir şux qız,
kimsəsizlik ağuşunda qalan qız,
hisslərinin əlində talan qız,
Qalıb bir «dəli» gecənin
sərsəri yalqızlığına qovula-qovula.
Bir erkək nəfsinin
təmasından qovrula-qovrula.

Bir yanlış telefon zəngindən gələn səs
xışmaladı o qızın
vücudunda yatan ağrılarının dadını.
Küsmüş duyğularının fəryadını.

İki döş arasındakı
həzin nəmlikdən xoşhallana-xoşhallana,
dodaqları dodağında,
bədəni bətnində,
nəfsi qızın nəfsində
yana-yana,
işlətdilər Allah bağışlayan günahı.

Bir qərib gecənin tənhalığında
yanlış telefon zəngindən gəlmiş kişinin
ağuşunda qalan qız,
yalquzaq ağrıları
gizildəyə-gizildəyə,
dolmuş hissləri
ustuf-ustuf boşalan qız
ruhu şəhvət dolu ağrıdan ovuna-ovuna
təslim etdi cismini
öz nəfsinin qınaqlarına.
Beləcə, naməhrəm yatağında

dirigözlü açdı sabahı.

…Gör havaxtdı
hisslərimiz ac-yalavac,
qalmışıq yalquzaq duyumların
şipşirin ağrılı gecələrinə möhtac.
Göynərtimiz cismimizdən
Allahacan
sərkərdan.

ᘓᘐ

Bilə bilmirəm,
harda görmüşəm
bu gecə otağıma gələn qızı.
Kim idi
yadıma sala bilmədim
dünən yatağıma girən qızı.
Görən xatırlayacağammı,
sabah qucağıma alacağım qızı?..

Bu ömür niyə belədi görən?
Mənə elə gəlir ki, hərdən
atam da unudar güman bir gün məni,
anam da,
qardaşım da.
Yaxşı ki, bacım yoxdu,
o da unudardı yəqin…
Görəsən göynəyim qalacaqmı
qadınımın ürəyində,
oğlumun ürəyində,
qızımın ürəyində?
Kim bilir?..

*Naftalan, yay, 1984-cü il*

ᘓᘐ

Bu gecə sən
nə şirinsən.
Bütün gecələrindən şirin.
Çatlayıb bu gecə öpüş həsrətindən
dodaqların, dilin.
Boğazın quruyub.
Gözlərin,
Allah, gözlərin elə durulub,
deyirsən nədi.
Ürəyimdə səksəkə cilvələndi.
Nə qorxuluymuşsan bu anında,
təzədən o gözlərin
dərinliyinə düşmək
çaşqınlığı çapdı canımda…
…Bu gecə təzədən sevmək
qorxusu var damarlarımda.

…Bu gecə mən yıxılıb ölmək istəyirdim…
Bu gecəm nə yaman şirinmiş.

*May 1987-ci il*

Bu qərib gecənin
kimsəsi varmı görəsən
məndən savayı.
Bu qərib gecə
bənzəmir özgə gecələrə,
                    yoxdu tayı.
Əlimi qoyub ürəyimin üstünə
allah-allah
sabahı dirigözlü açacam.
Bu gecəmin başqa gecələrdən fərqini
qaldırıb başımın üstünə
qızqaçırırmıştək qaçıracam.
Qoruyacam gözbəbəyitək.

Bu gecəmi
başqalarından gözləyəm gərək.
Bu gecə sən mənim olacaqsan.

ꕥ

Bu gecə nə yaman uzundu.
Bu gecənin caynaqları
keçəcək şaqqa-şaqqa
bir gözəlin gözəlliyinə.
Açacaq ürəyini.
Ovcunu doldurub
kəhiltiylə içəcək o gözəlin qanından.
Hələ ovcu doluykən,
bir də görəcək
bir cəsəd düşdü
ayaqlarının altına gerçək.
Ovcundakını içib
gözləri hövlündən qızara-qızara
alacaq o cəsədi qucağına.
Qaldırıb başının üstünə.
bir dəli qəhqəhəylə
hayqıracaq yer üzünə
xoflu-xoflu,
suçlu-suçlu.
Özü öz əməlinin qulu.

Ah, nə xoşbəxtdi o cəsəd.

*May, 1987-ci il*

ꕥ

Bu gecə mən yıxılıb öləcəm.
Gözlərin gözlərimin içində,
əllərin əllərimin içində,
ürəyin ürəyimdə
yıxılıb öləcəyəm mən bu gecə.
Bu gecəm nə şirinmiş…

Əl atıb göydə axan
ulduzlardan birin tutacam,
daha sənin ətəyindən yox.
Başımı qoyacam
bu anda qu döşəyindən də yumşaq
nəmbə-nəmbə daşların üstə.
Daha qarsalanmayacağam,
od almayacağam,
odlanmayacağam
dizindən,
      üzündən,
            nəfəsindən,
                  nəfsindən.
Yox!
Əlimdə o axan ulduz,
düşüb ruhumun əlinə-ayağına
gözlərimi yumacam…
…Bu gecəm gör nə şirindi…

*May 1987-ci il*

Gecə ötür yarıdan.
Budur məni ağrıdan,
oturmuşam bayaqdan
boş-bekar.
Qandallanıb elə bil
içimdəki sevinclər,
içimdəki yağışlar.
Fikrim,
hissim,
düşüncəm
elə bil mənim deyil.
Ha illah eləyirəm,
çıxa bilmirəm bir yol

ömrün bu məhvərindən.
Tutulmuş kimiyəm mən.

Yuxum çəkilib ərşə,
qorxum çəkilib ərşə.
heyrətim korşalıbdı,
nifrətim çaş qalıbdı.
Qalmışam bir quş kimi
«gecə» adlı qəfəsdə.
«Necə edim axı mən,
necə»
adlı qəfəsdə
qalmışam çırpına-çırpına.
Talanmışam,
çapılmışam.
Yoğrulmuşam,
yapılmışam.
Bir çəməndim –
qırpılmışam.
bir istəkdim çırpılmışam.
dağılmışam,
tökülmüşəm,
sökülmüşəm…
Qalmışam çarpışmada,
bir dadıma çatan yox.
İçimin tufanları batırıb boğur məni,
göz çevirib baxan yox.
Bir uzaq yox,
yaxın yox.
- Sabaha necə çıxacam,
bilmirəm!

*27.10.1982-ci il*

Kəlmələr nə pərən-pərən düşübdü
əl atıb bircəsin tuta bilmirəm.
Özümdən xəbərsiz, səndən gizlicə
əl atıb birini tuta bilincə,
nəfəsim qaralır,
köksüm daralır.
Tapdığım kəlmələr
söyləyə bilməyir qəlbim deyəni.
Sözlər qızırğanır biri-birini.

Bu gecəm fəhmimin xəyalı kimi
yüz ildi içimdə dolaşmaqdadı.
Bu gecəm dönüşdü.
Yüzillik bir nəğmə notundan çıxıb
gəldin ömrümə.
Töhmətin – bir ılıq baxışdı mənə,
danlağın – bir məhrəm giley-güzardı.
Söz tapıb söyləyə bilmirəm sənə.

Yüzillik bir yola səfərdən sonra
bütün zəhmin ilə,
bütün fəhminlə
döndün ömrümə.

Bu gecə güzardı.

*27 mart 1988-ci il*

Sənin
göz-görəti soyuqluğun,
içinin istiliyi qədər güclüymiş.
Yuxularımda – yandırırsan,
telefon dəstəyində –
cızdağımı çıxarırsan

həsrətinlə.

Üz-üzə gəlirik.
Bu istiliyə xumarlana-xumarlana,
bu istiliyə yana-yana
yaxınlaşıram sənə.
Dondurursan
sözünlə, söhbətinlə,
kim bilir «necə» məhəbbətinlə.

Gəl belə danışaq.
Gəl sarışaq
biri-birimizə.
Caynaqlar,
qırmaqlar,
qopara bilməsin bizi
biri-birimizdən.
Öpüşünə qızdır məni.
Öpüşümlə yandırım səni.
Bu ömürdən
təsəlli tapaq
ta sübhədək.
Heç olmazsa bircə gecə
adam ömrü yaşayaq
hənək, ya dəyənək.
Beləcə qalaq
ta sübhədək.

*Yanvar 1985-ci il*

# BU GECƏ YAMAN SOYUQDU

Bu gecə yaman soyuqdu mənə.
İçimdə duyğularım, duyumlarım
qalaqlanıb təpə-təpə.
İçimdə duyğularım, duyumlarım
sahilini tapa bilməyən bir ləpə.
Niyyətlərim qalıb giley-güzar tökə-tökə.
Düşmüşəm hisslərimin əlində əsir:
Biri çox dayazdı,
biri qaranlıq,
biri kəmkəsir.
Biri boş divardı,
döysən səda verəcək: – bum-bum…
Biri sısqa bir təlatüm.
İçimdə özümə də sirri-xuda bir dünya.
Qalmışam ürəyimi ovxarlaya-ovxarlaya.
Duyumlarımı haraylaya-haraylaya.
Bircəciyininsə ətəyindən
yapışmağı arzulaya-arzulaya.
Qulaq asanı tapılmır mən deyənə.

…Bu gecə yaman soyuqdu mənə.
Eyvana çıxıram,
göy üzü pəmbə-pəmbə buludlu.
Dünya sakit, dünya təmiz,
qüsursuz.
Dünya insanların dünyasından xəbərsiz.
Dünya qeydsiz-şərtsiz.
İçimdə duyğularımı döyə-döyə
bir özümə baxıram,
bir də qarşımda ağappaq qalmış səhifəyə.
Nə oldu,
misralarım atlanıb

buludların yalınamı çıxdı, – deyirəm.
Yerdən-göydən,
Allahdan-bəndədən
yuxarıyamı qalxdı, – deyirəm.
Əlim yetmir, ünüm çatmır.
Bircəciyi qulaq asmır
mən deyənə.

Bu gecə yaman soyuqdu mənə –
Bu gecə bir misra da yaza bilməmişəm.

*Noyabr 1981-ci il*

Məni xatırlama bu gecəyarı.
Keçirib işığı, yum gözlərini,
çıxart ürəyindən nə ki var ağrı.
Məni xatırlama bu gecəyarı.

Birdən mən hoylanıb yerimdən olsam,
birdən pəncərəni, qapını qırsam,
isti yatağından səni çağırsam,
qulaq asma mənə,
eşitmə məni.
Sənə ürəyimi açıq saxlasam,
görmə ürəyimin istəklərini.

Məni xatırlama bu gecəyarı.
Yaxşıyam, ya pisəm sənə, bilmirəm.
Ömrüm qırov olub, ömrüm qar olub,
Özüm də donuram şıltaqlığından.
Bir qəlibə düşmür, cilovu tutmur,
bircə gün astaca, arxayın yortmur.
Bəlkə yorulacaq,
yolda qalacaq –

qorxmur ki, qorxmur.
Bir elə də mənə gəl baş qatma sən,
sözümün başına çox ip atma sən.
Sənin öz dünyan var – şirin, işıqlı.
Mənimsə öz dünyam – leysan yağışlı.
Hərəmiz yaşayaq öz ömrümüzü.
Birimiz leysanlı yağış altında,
birimiz şipşirin həyat ağzında –
Sən – Arazın o tayında,
mən – bu tayında.

Məni xatırlama bu gecəyarı.
Xatırlama.
Necəyiksə, eləcə də qalaq.

## GECƏ, SƏN, BİR DƏ MƏN

Gecə.
Qulaq çəkilir qurşun sükut əlindən.
Göz qapaqlarım niyə ağırlaşıb daş kimi.
Xəyallar aləmində əsir düşmüşəmmi mən?
Sustalmış fikirlərim çaş salır düşüncəmi.

Hamını yuxuya verib görüşür
bir cüt qoşa xəyal, bir aylı gecə…
Əriyir ümidlər mənzilindəcə
iztirab gizlicə, həsrət gizlicə.

Sükut ürəyimdə yol alıb gedir,
bu görüş son qoyur bizdə həsrətə.
Gecə yuxulayır…
Qovuşuruq biz
nisgilli gözümdə əbədiyyətə.

*Mart 1973-cü il*

# NƏĞMƏ

## AZƏRBAYCAN TORPAĞI

Odlar yurdunun gözü
Bakım tək gur işıqlı.
Qarabağ, gözəl Şirvan,
Mil, Muğan yaraşıqlı –
Azərbaycan torpağı.

Dədəm Qorqud şərqili,
Nəsimi «yamanlıdır».
Üzeyirli, Müslümlü,
Füzuli ümmanlıdır.
Azərbaycan torpağı.

Nərimanı, Vurğunu,
Sabirləri yetirən.
Hər dağında, daşında
min gül-çiçək bitirən
Azərbaycan torpağı.

Səttarxan sorağında
Savalan haraylıdır.
Dəli Kürlü, Arazlı,
O taylı, bu taylıdır
Azərbaycan torpağı.

Sazlı-sözlü dodağı
«Sülh», «Azadlıq» kəlməli.
Gözəl günlər soraqlı,
«Azərbaycan» nəğməli
Azərbaycan torpağı.

*Aprel 1972*

# AZƏRBAYCANIMDA GÖR

*(Süleyman Rüstəmə)*

Müqəddəs məbədimdir,
doğma vətən torpağı.
Sönməz ata ocağı,
isti ana qucağı.
Elimdən öyrənmişəm
mən ellərçün yanmağı.
Torpağa məhəbbəti
Azərbaycanımda gör!
Sarsılmayan vüqarı,
təmiz eşqi, ilqarı,
ömrə doğan baharı
Azərbaycanımda gör!

Qarlı Baba dağından
alıb mətanətini.
Qadınında, qızında
kişi dəyanətini.
Leyli məhəbbətini,
Həcər şücaətini,
tükənməz sədaqəti
Azərbaycanımda gör!
Ay ellər, nə xoşbəxtəm
Nərimanım, Həzim var,
Füzulim, Rəsul Rzam,
Sevilim var, Bəstim var.
Yüz min millət içində
mənim də öz səsim var –
sabaha xoş niyyəti
Azərbaycanımda gör!

ꕤ

# BAYRAMINIZ MÜBARƏK

Təbəssüm qaynaşsın
gülüzlü yanaqda.
Arzular da çaşsın
Bu şadyanalıqdan.
Bir deyək, bir gülək,
ay ellər, bu yurda şadlığa gələk –
Bayramınız mübarək!

Qol açıb şadlansın,
könüllər atlansın,
qoy daşıb çağlasın
bu həvəs, bu istək.
Bir deyək, bir gülək.
Ay, ellər, bu yurda şadlığa gələk –
Bayramınız mübarək!

Sərhədi bilinməz,
istəyi yenilməz,
Ömürdən silinməz
bu sevinc, bu hənək.
Ay ellər, bu yurda şadlığa gələk –
Bayramınız mübarək!

## ÖMRÜM SƏNSƏN, GÜNÜM SƏN

«Sabah» adlı bu dünyamçün
doğuldun sən.
al qanımdan yoğruldun sən.
Ağ günlərçün xoş soraqlı bir səhərsən.
Dünənimsən, bu günümsən,
hələ günlər görəcəksən,
vüqarlı dayağım,
könül həyanım –
Azərbaycanım!

Dağ vüqarlı ellərimin vüqarısan.
Dəli Kürlü, Xan Arazlı
Od yurdumun nübarısan.
hələ günlər görəcəksən,
vüqarlı dayağım,
könül həyanım –
Azərbaycanım!

## ÖMRÜM-GÜNÜM

Həyat yolu dolay-dolay,
sən olaydın mənə haray,
ömrüm, günüm bircə qolay
qala, dönmərəm səndən.

Sənli könlüm bir dəm sənsiz
ola, dönmərəm səndən.
Saçlarımı qara yellər
yola, dönmərəm səndən.

Qovub gözümdən yuxumu,
alıb canımdan qorxumu,
gözlərin hər var-yoxumu
ala, dönmərəm səndən.

## SƏNİN BİRCƏ TƏBƏSSÜMÜN

Qanadlımı, o quşdurmu,
ürəyimdən qopmuşdurmu,
dodağına hopmuşdurmu,
sənin təbəssümün?

Qəribədir, coşanda da,
səbr kasan daşanda da,
əskik olmur dodağından
sənin təbəssümün.

Ürəyimdə tufan varsa,
könlümü qəm qanadarsa,
ovundurar ovundursa
sənin təbəssümün.
Xəzər kimi ləpələnər,
dodağından qəlpələnər,
ürəyimə səpələnər
sənin təbəssümün.

*«İqtisadçı» qəzeti, 03.11.1973.*
*Azərbaycan Dövlət İqtisad*
*universitetinin nəşri*

# NƏ BELƏ FİKİRLİSƏN

Nə belə fikirlisən,
belə dayanma, gülüm!
Bağrına qor dolar ki…
Könlünə qar yağar ki…
Fikir səni boğar ki…
Nə belə fikirlisən?

Əl ver, əlini tutum,
mənim günüm, buludum.
Quruyar matım-qutum –
nə belə fikirlisən?

Ömrün bahar çağı ki…
Məkkəm, Kəbəm, Dağım ki…
Dillən, yaddan çıxdım ki…
Nə belə fikirlisən?

Yaddan çıxart hər şeyi,
könül bir nur istəyi,
dünya gözəllik neyi –
nə belə fikirlisən?

## QƏZƏL

Yarəb,……………………………….
……………………………………….
Bir özgə mənadan zövq almaz idim,
incidir tənəli məhəbbət məni.

Bağrım hay salsa da sınmış kaman tək,
döyəclər bir sevda dəyanət məni.
Taleyə baxın ki, bu haqlı sevdam
edib öz yanımda xəcalət məni.

Ayətxan, heç sorma nə günə qaldım,
qovur öz-özümdən bu hikmət məni.

1970-ci il

## QƏZƏL

Zülfünü yay üzünə, zülfü pərişanlara bax,
köksünü pay-püşt elə, ürəyi şan-şanlara bax!

Neyləsin bəni-adəm çəkdiyi can zülmü üçün
Sevdana məcnun olan bəri-biyabanlara bax!

Mətləbin bəs nə üçün aləmə sən car elədin
Eşqi cününə nisbət aləmi-bəyanlara bax!

Qəriblik çəksən əgər bircə para xilqət üçün
Hissinə təşnə qalan məftun Ayətxanlara bax!

*1970-ci il*

# YARIMÇIQ ŞEİRLƏR

Üz tutmuşam bu yazının dalınca,
hara gedir?
Yolun, izin bilmirəm.
İstəkləri istəyimə yapışıq,
Nədir qəsdi,
sözün düzü, bilmirəm.

Biz gəldi-gedərik, əməl yadigar,
sevənlər sevgiylə yaşar, ucalar,
Od-odun gücündən hərarət alar,
könlümün odunun közü qaraldı.

Yüyrək olub qabağımca
bir səs qaçır ha vaxtdı.
Bu səsi tutub gedəcəm,
Ömrümün axırınacan.

Gəl «ah!» çəkmə bir belə,
canın-cəsədin hanı?!
Vücuddan qopan «ah!»
qovurur adamı.

*1987-ci il*

Gözlərə aldanıb, gülüm,
Gözlərdən salma özünü.

Yenə də görüşdük o gözəl qızla,
gözləri ağlımın gözündə qaldı.
Yaman dəyişmişdi bu neçə gündə
gözlərim dəyişmiş üzündə qaldı.

Yalanla riyaya gəlmədi dilim,
açıldım, töküldüm mən kələf kimi.
Qınağım bir acı həqiqət oldu,
önündə kiçildim naxələf kimi.

Necə bağışlayım
söylə səni mən?
Sən ki, məni məndən oğurlamısan.

Dedim ki, «əllərin soyuqdu yaman».
«Ürəyim istidir, ürəyim» dedin.
Dedim, «içindəki o inam hardan?»
«Özümə, həyata diləyim» dedin.

Qovruldum illəri mən qaça-qaça,
böyüdü bağrımda qəm yata-yata.
Ayətxan, nə üçün gəldin həyata?
Hay verən tapılmır hayıma, anam!

*1976-cı il*

Əgər sevmirsənsə…
Nə deyim buna,
yer ilə göy qatı qovuşa bilməz.

Yumruq boyda ürək nə qədər dözər,
sevgi hicranından doğan əzaba?
Görəsən, nə qədər yer saxlanıbdı
ürəkdə sevinci boğan əzaba?
Titrək ürəyimə vüqar bəxş edib,
saxta məhəbbətə qaladın məni.
Gözlərim içəndə baxışlarını,
dondurub qəlbimi, taladın məni.

Dilin «hə» söyləyir, gözlərin sevgi,
ancaq əməllərin sual yığını.

Qəlbin üşütməsindən
alnımın qırışlarında
puçur-puçur göründü tər.

Qəlbim alovlanıb
arzularının
tüstüsünə büründü.

Ürək sığmır məcrasına.
Mənmi qaldım ürəyimin alovuna
yana-yana?!

İstədim eşidəm hər an «sevirəm,
sevirəm, sevirəm!..».
Sevgi sözlərin.
Dilin lal sükutdan bac-xərac aldı,
müəmmalı qaldı qara gözlərin.

# III Bölüm

•••

# SEVDA, BABƏK VƏ DOSTLARI



7 yaşlı İmran
və 3 yaşlı Ziyad (Ziko)

# QƏND BALAM, ŞƏKƏR BALAM

Bal tökülür dodağından,
təzə dil açır Sevdam.
Əl çəkmir öz inadından,
dolaşır, çaşır Sevdam.

Dil-boğaza qoymaz bir an,
«danışar» axşamacan.
Hər kəlməsi nəğmə olan
şirin dilinə qurban.

Addımlayır dıppır-dıppır,
divardan tuta-tuta.
Qucaqlayıb qapdım yerdən,
«Balam ode, dağ boyda!»

*1972-ci il*

Götürüb qayçını,
qısaltdı saçını.
…Obaşdan
əlini apardı saçına
darasın.
İndi o
saçının
harasın
darasın.
Necoldu?
Saçları
bəs niyə
yoxaldı?
Sevdamın
əlləri

havada
boş qaldı.
hörüyü dolanıb
dizinə çatardı.
Ərköyün
uşaqtək
başını
qatardı.
Axıtdı qızcığaz,
axıtdı
gözünün qorasın.
İndi o
saçının
harasın
darasın?

*1972-ci il*

ꕥ

## SADƏLÖVHLÜK
*(Könülə)*

«Oy, qorxdum, ana,
ürəyim düşdü».

«Harda, a quzum?»
Uşaq büzüşdü.

«Get, axtar quzum».
Söylədi ana
zarafatyana.

*1972-ci il*

ꕥ

Dolaşdı qıçı,
dəydi üz üstə
balaca Sevdam.
hay-həşir saldı,
əsdi dodağı
ağladı yaman.
«Ağlama, dayan,
«ax!» edəcəyəm
indi torpağı».
Döydü anası,
«döydü» torpağı.
Öpdü üzündən,
öpdü dizindən.
Səsini kəsdi,
dayandı haman.
Sağaldı guya,
sağaldı Sevdam.

*1972-ci il*

## SEVDA VƏ BABƏK

Babək dedi:
– Mənəm qoçaq.
Sevda dedi:
– Mənəm qoçaq.
Tutuşdular,
kəc düşdülər.
Dünən Babək
bir oğlanla
dartışanda,
gəldi Sevda.
Köməkləşib
o oğlanı

qorxutdular.
Babək dedi:
– Gəl barışaq,
ikimizik elə qoçaq.

*1972-ci il*

ꕤ

– Ata, ay ata, –
soruşdu Sevda.
Niyə deyirlər
ala qarğaya
«sən xeyir söylə!»
Qara qarğaya
heç deməyirlər,
dindirməyirlər?

*1972-ci il*

ꕤ

## QAR YAĞIŞI

Bir qar başladı
çöldə quşbaşı,
lap qar şabaşı.
Yer-göy qarışdı…
Az vaxtda keçdi
düz bir qarışı.
Nağıl diliynən,
bircə andaca
dərələr aşdı,
təpələr aşdı
qar dənələri.
Bəndi, bərəni,
düzü, dərəni,
kəndi, şəhəri,

gəzdi, dolaşdı
qar dənələri

• • •

Lap qanad açdı.
Ürəyi coşdu,
sevinci aşdı,
sevinci daşdı.
Tələsdiyindən
qılçaları da
dolaşdı,
çaşdı.
Bu sevinc ilə
balaca Babək
düz evə qaçdı:
– Ata, ay ata,
hamı çöldədi,
doludu həyət.
Bir qar gəlir ki…
Üzə gülür ki…
Bu qar deyir ki,
gəl, məni oynat!
Ata, ay ata,
burax məni də
sən oynamağa.
Qoy, mən də gedim
öz-özü ilə
oynayan qarı
tutmağa.

*1985-ci il*

# BÜTÖV DÜNYA MƏNİMDİ

Əl atdım,
əlim çatdı
bu Günəşin
oduna.
Əl atdım,
əlim çatdı
bu Günəşin
ətəyinə,
çölünə,
çəməninə,
çiçəyinə,
gülünə.

Haraylayıb
çağırdım ki,
mənimkidi,
mənimdi bu dünya!

ᘓᘐ

Bir ala qarğa
qonub budağa
qarıldadı: «qarr».
Durdu uşaqlar,
döndü uşaqlar,
Sevda və Babək
qışqırışdılar:
«Xeyir söylə, a qarğa!
Xeyir söylə, a qarğa!»

ᘓᘐ

## KÜSƏYƏN CEYHUN

Mızmızıymış
bu oğlan.
Söz deməyə
peşmansan.
Tezcə küsər,
yaş tökər.
Nə var, nə var,
anası,
söyləyib ki,
adının
göz yaşıymış
mənası.

ꕤ

## XƏZƏRİN SAHİLİNDƏ

Qaçdı sahil boyunca
qaynaşan,
qağayı topasının
üstə kiçik Arazxan.
Quşlar qanad açdılar,
quşlar qorxub qaçdılar.
Quşlar bir «pırr» eləyib
sahildən uzaşdılar.
…Sabahı yenə gəldi.
Qağayılar tərəfə
çörək atdı Arazxan.
O gecəni sübhədək
rahat yatdı Arazxan.

ꕤ

## ARAZXAN EVCİK TİKİR

Bir gün Arazxan
evcik tikirdi
dominolardan.
Qurdu,
qalmadı
axırıncı daş.
Evcik olmadı
axırıncı daş.
Köməyə gəldi
bacısı Sevda.
…Ancaq dönməyib
öz inadından,
uçurub evi,
bir də binadan
tikdi Arazxan.

## ÇAPAR OĞLAN

Qılıncı var taxtadan,
Qıratı qarğıdandı.
Hərdən dəstə toplayıb
o meydan sulayandı.
«Ehe…y, qoç igidlərim,
gedək düşmən üstünə.
Görüm, kim çıxa bilər
misri qılınc döşünə».

• • •

Deyən Koroğlu bilir
özünü bizim oğlan,
ay səni şeytan.

## KÖNÜL

Könül də bir baladı,
əl-ayağı çiçək tək.
Bircə himə bənddi ki…
Şaqqıldayıb güləcək.

ฏ໑ଓ

## NEFTÇİ OLACAĞAM

Yuxusu düşüb qaçaq.
Durub Günəşdən qabaq,
hər səhər atasını
işə ötürür Mehman.
«Neftçi olacam», – deyir, -
onun kimi bir zaman».

ฏ໑ଓ

## ATAM DEYİR Kİ...

Hələ uşaqdım onda.
Ötərdi günlərimiz
o oyun, bu oyunda.
Atam tamaşa edib
dava oyunumuza,
gahdan köks ötürərdi.
Gahdan üzümə baxıb
mənə belə deyərdi:
– Oğul, zaman vardı ki,
ikiyə bölünərdik
biz də elə sizin tək.
Öldürərdik düşməni,

biz də «dağğ-dağğ» edərək.
Sonra bulud tək gəldi,
doğruçu müharibə.
Qırdı ürəyimizi,
qırdı bu müharibə.
O gündən gözümüzdə
gömüldü oyunumuz.
Bir daha oynamadıq
dava oyununu biz.

*1974-cü il*

# AQONİYA

## (ölümdən qabaqkı vəziyyət)

Hər kəsin ömründə, taleyində bir "nə isə" var. Çətini bu "nə isə"ni görmək, dərk etmək, mənimsəməkdi. Ondan sonra həyat, onun ən məşəqqətli anları belə insan üçün yeni məna kəsb edir, cazibədarlaşır. Qapamağa hazırlaşdığınız bu kitabda bu yerə qədər gördüyüm, dərk etdiyim "nə isə"ləri Sizlər üçün çözələdim, onların həyatımdakı rolu ilə tanışlıq yaratdım, təqribən 50 il qələmə sarılı ömrümdən saxlancların az bir qismini Sizlərə təqdim etdim.

***

…Həyat heç vaxt sözünü deyib qurtarmır. Bəlkə elə bu fəlsəfənin mühakiməsidir ki, həyat eşqi, yaşamaq - hətta zülmlə yaşayanlar və hətta ölümə məhkum edildiyini dərk etdiyi məqamda da hər bir canlı üçün şirindir.

İnsan var bir-birilə aylarla, hətta bəzən illərlə ünsiyyətdə olmur. Amma daxilən elə hal formalaşa bilir ki, o kəsləri daim öz yan-yörəndə, məclisinin, süfrənin başında, qürurunun fövqündə görürsən.

70-in astanasını döyməyə hazırlaşdığım saldığım bu günə qədərki ömrümə bu sayaq daxil olmuş böyük hərflərlə yazılı bir neçə varlıq mövcuddur: mənə həyat bəxş etmiş atam Ziyadxanla anam Qızxanım, yeganə qardaşım Rəfayıl, ömrünü 16 yaşından hər ağrı-acıma bələyib mənə "gözlərimsən" söyləyən həyat yoldaşım Zərnişan (Akifə), Allah-taalanın mənə başucalığı bəxş etdiyi Sevdamla Babəkim, tələbəlik illərimin ikicə saxlancı Əşrəf Hümmətovla İnqilab Həsənov (Həsənli), bütün varlıqları yox yerdən var edən gözəgörünməz Yaradanımız və bir də dünya ucalıqda, dünyamızın fövqündə dayanan Azərbaycanımız. Barmaq hesabı apardınızmı? Cəmi 10 nəfər. Mənim dünyam bu gün bu ON-luqdan ibarətdir. Hansı ki, bəzən aylarla nə səsləri mənə çatır, nə ünlərini eşidirəm. Bəzən ilnən xiffətlərini çəkdiyim məqamlar da olub. Am-

ma onların hər biri hər an mənimlədir, mənimdir. Onların hər biri mənim onları gördüyüm ucalıqdadır.

Bəlkə də mən onlar üçün bu dediyim tərzdə dünya deyiləm. Bəlkə adidən də adi ola bilərəm onlar üçün. Bəlkə də görüşəndən-görüşənə onlar üçün "doğuluram", yadlarına düşürəm? Bilmirəm.

İnsan üçün kifayət qədər UZUN qəbul ediləcək ömür yaşantımın bu zaman kəsiyində bir daha yəqin etdim ki, həyatımın ən məşəqqətli məqamlarında mənimlə olası kəslər özüm üçün saxlanc edib özümünküləşdirdiyim bu 10-luqdur.

Hərdən mənə elə gəlir ki, Allah-taala tərəfindən mənə bəxş edilən ömür payımı özüm qəbul etdiyim mənaca, məzmunca, qarşıma qoyduğum məqsədlər dəyərincə yaşamaq cəhdində olmuşam. Belə olmasaydı həyat girdabına qədəm qoyduğum ilk gündən Azərbaycan dövləti, Azərbaycan xalqı və azərbaycançılıq uğrunda yorulub-usanmaq bilməyən ömür dəst-xətti yaşamazdım.

***

...Həyat - xeyirlə şərin mübarizəsidir. Yarandığı, formalaşmalaşdığı ilk gündən planetimizin mövcud olacağı bütün zamanlara qədər belə olaraq da qalacaq. Güman, bu qanunauyğunluğun nəticəsidir ki, insan ömür həddinin bütün məqamlarında zəkasının dərk edə biləcəyi qədərincə həyatın dərinliyinə nüfuz etməyə çalışır. Ancaq nail ola bilirlmi? Yaxud nail olduqları onun özünü qane edirmi? Təbii ki, heç də yox! Bu, mümkünsüzdür.

Yaşımın bugünki cəng-cidalında vücumdumda məni qürurlandıran, başımı Qarlı Baba dağı qədərincə ucalıqlara çatdıran bir ucalıq var ki, bu, mənim hər ağrı-əzabına dözüb illərlə uğrunda çarpışdığım "Mən Azərbaycanlıyam!" kəlməsidir.

Bu kəlmələrə uca prizmadan yanaşanlar əsasən daxilən böyük, zəngin olanlardır. Belələri üçün "Mən Azərbaycanlıyam" anlayışı xüsusi vurğu ilə, vüqarlı səslənir. İnanıram ki, bu ucalıqdan övladlarım da elə mənim qədərincə qürurlanırlar. Nəvələrim, nəticələrim, kötükcələrim də beləcə, il-il, zaman-zaman qürurlanacaqlar. Axı, bu övladların damarlarında mənim qanım

dövran edir. Nəvələrimin, nəticələrimin, kötükcələrimin vücudunda dolaşan mənim ruhum olacaq. Dünyanın hansı məkanında, ömürlərinin hansı məqamında olursa-olsun, onlar özləri üçün *Ayətxan Ziyad (İsgəndərov)* dünyalı bir AZƏRBAYCAN tapacaqlar. Və qayələri böyük hərflərlə yazdığım AZƏRBAYCAN dünyasını yer üzünə, bəşərə görk etmək olacaq.

Mən buna inanıram.

Özümə inandığım qədərincə.

***

Bu kitab mənim yazıçı olaraq bədii yaradıcılıq qismində qələmə sarıldığım zaman kəsiyində yazdıqlarımdan salamat qalan az bir qismdir ki, Sizlərə təqdim etdim.

Qapamağa hazırlaşdığınız kitabda Ayətxan Ziyad (İsgəndərov) dünyasından Sizlərə nə isə töhfə edə bildimmi? Qismən də olsa istəyimə nail olmuşammı?..

***

…Həyat sözünü heç vaxt deyib qurtarmır. Son səhifə heç də vida anı deyil, biz yenə görüşəcəyik. Axı sonluq, eyni zamanda başlanğıcdır.

# KİTABIN İÇİNDƏKİLƏR

## I Fəsil
## HƏR HÖKMÜ ZAMAN VERİR
## (nəsr)

*Hekayələr*

İtirilmiş bəyazlıq .......... 4
Kişilər ağlamaz, ağlayanda da… .......... 18
Bir novruz axşamı .......... 26
Ay səni, dünya! .......... 34
Mənim nağıllı dünyam .......... 38
Onlar Səməd Vurğunu görmüşlər
a) "Muğana ceyran" .......... 44
b) Yadigar .......... 46

*Kiçik povestlər*

Ata qarğışı .......... 48
Alın yazımız .......... 96

*Kino-ssenari*

Ata qarğışı .......... 121

## II Fəsil
## QARA, MƏXMƏR GECƏLƏRİM
## (poeziya)

Poeziya heyrətdən doğulur .......... 206

## I bölüm
### İLMƏ-İLMƏ TOXUNAN MİSRALAR

Oxucuma .......... 208
Bu, yeganə ölümdü yer üzündə (*Anara*) .......... 209
Fikrət Qocaya .......... 210
Eyni qapını döyür, eyni taleli adamlar (*V.Cəbrayılzadəyə*) .......... 211

## BU NƏ CƏNG, BU NƏ CİDAL

Bu yol hara gedir belə? ........ 213
Hara qaçım? ........ 213
Dünyanın rəngləri (*bir oturumluq şeirlər*) ........ 214
İçimin ağrıları çoxalır ........ 226
Ömrü yaşamağa nə var? ........ 226
Bu dünya çalın-çarpaşıq ........ 227
İnsan içinin çənə düşən günü də var ........ 227
Eh, yiyəsiz-yeliksiz fikirlərim ........ 228
Bir dəcəllik sorağında ........ 229
Nankor övlad (*hadisə*) ........ 237
Eh, nə uzun imiş dünyanın işi ........ 241
Eh, duyğularım, duyumlarım ........ 246
Ölçü vahidi – ömür deyil ........ 248
Arzu ........ 249
«Vətən üçün nəğmələr» silsiləsindən ........ 249
Mənə bir ömür ver, babam! ........ 250
Gözdən iraq olanlar... ........ 252
Babam kirpiklərin sıxdı ........ 254
İlmələrə toxunan ömür ........ 255
Anam yola salır məni ........ 256
Bu necə gediş idi? ........ 257
Qorxu ........ 258
Mənim də öz dünyam var ........ 260
Özümü gəzirəm öz keçmişimdə ........ 261
Elektrik qatarında ........ 262
Payızda ........ 263
İçimdə böyüyür bir ağrı, itim ........ 264
İstəkləri daşdan keçən adamın ........ 264
Mənim bu dünyadan əmanətim var ........ 265
Biri ağacın yaralı köksünə baxır... ........ 266
Eh, nə qəribə olub dünyanın işi ........ 266
Nə əlimə dəmir əsa götürdüm... ........ 267
Bu nə dəli istəkdi ........ 268
Sayqısız, diqqətsiz yaşaya bilmirəm... ........ 268
Bir dəcəl qoymur yatam... ........ 270
İki ömür ........ 271

Bəzən belə də olur ........ 272
Torpaq oğluyam ........ 273
Haçansa görsəm ki... ........ 274
Atadan xatirə istədi oğul ........ 274
İstək ........ 275
Adam özündən də bezə bilər... ........ 275
Adsız əsgər qəbri ........ 276
Nə yaxşı ki, Sizlər varsız, ınsanlar! ........ 277
Ömrün 30 ilindən sonra ........ 278
Kəcdiyimi lap əzəldən deyirlər ........ 279
Hər ömrün öz nisgili var ........ 280
Mən dünyaya göz açanda... ........ 282
Evimizə gedən yol ........ 283
Göz yaşları ürəyində... ........ 284
Bir "yemirəm" deyəndən qorx... ........ 284
Şeir necə yazılır ........ 285
O səfər bir şair dostum... ........ 286
Bir gənc dostuma ........ 287
Tələbə yoldaşlarıma ........ 288
Bəzi qələm dostlarıma ........ 289
Araz haqqında şeirlər ........ 290
Hacıqabulda, mülklərimizin arxasında... ........ 292
Tələbəydim, bir gün atam qonaq gəldi... ........ 293
«Mənəm-mənəm»liyi bilinsin deyə ........ 293
Bir kirəkeşin dilindən ........ 294
Ürəyimlə söhbət ........ 295
Mənə demə bu nə cəngdi-cidaldı… ........ 295
Ömür yölu ........ 297
Yaman şeydi bu vəzifə… ........ 297
Oxuyub sızıltımı….. ........ 297
Dözmürəm ........ 298
Bu dünyadan... ........ 299
Odumu ulu Zərdüşt... ........ 299
Burdan Vurğun keçib ........ 300
Sən bu cahana sığmadın ........ 301
Kür nəğməli ömür ........ 302
Dağlar ........ 304

Bizim dağlar ....... 305
Sumqayıt ....... 305
Məşələ dönmüş ömürlər ....... 306
Buzovnada bir heykəl var ....... 307

# II bölüm
## MƏHƏBBƏTİMİN DODAQLARI ÇATDAQ-ÇATDAQ

Salam dost, gəl əl tutaq... ....... 312
Məhəbbətimin dodaqları çatdaq-çatdaqdı ....... 312
Sevgim bir yaşıl yarpaq, rəngi məndən ....... 313
İkinci ömür ....... 315
Ömrüm bir susuz səhra ....... 316
Balıncı tərsinə çevrilmiş dünyam ....... 319
Sən ömrümə neyçün gəldin ....... 326
Bir gör ha vaxtdı... ....... 327
Deyirsən ki, mənimlə yola getmək çətin olubdu ....... 328
Deyirsən “hə” deyəcəyəm ....... 328
Deyirsən ki... ....... 329
Səni deyə bilmərəm ....... 329
Deyirsən ki, baxaram ....... 330
Mənim ömrüm elə sənlə gözəldi ....... 330
Mənim umacağım nədi səndən ....... 331
Səninçün nəğmə ....... 332
Nədir səndə bu laübalı hal... ....... 333
Mənimlə bir ömür yaşayaydın kaş ....... 335
Dünyanın hər işi yaman ....... 335
Ömür-gün yoldaşıma ....... 337
İstəyimiz Sevdam olub ....... 338
Qızım Sevdaya ....... 338
Ürəyimin içində bir qız ağlayır ....... 339
Bir ürək nədi ki, əsirik ona… ....... 340
Bu yolların yazısıdı – özündən... ....... 341
Qoy bu da sənin olsun ....... 342
Belə günah olmaz, belə gün olmaz ....... 342
Sən məndən gileylisən, mən səndən ....... 343
Sizin evdən gedən yollar ....... 344

Mənə qıyımsız demə ........ 345
Ömrümü əlimdən alan qız ........ 346
Niyə yalan danışaq ........ 346
Bu necə duyğudu ........ 347
Sənə söz lazımmış ........ 347
Ömrüm nəğməliykən mənlə yaşamağa nə var ........ 348
Sənə niyə elə gəlir ki, bəzən... ........ 349
Əlini ver mənə ........ 350
Bu vida görüşümü?! ........ 351
Milyon illərlə səni qorudum ........ 352
Gör ha... ........ 353
Hər şeyin bir doyumu var ........ 353
Sevsən 30-dan sonra... ........ 354
Sənin üçün ........ 355
Başlayaqmı ömrümüzü təzədən ........ 356
Alovundan yanmaq olmur ........ 357
Mənim dünyam, sənin dünyan........ 358
Mənə nəğmə de ........ 359
Yaşat məhəbbətimi ........ 360
Dözmürəm sənsizliyə ........ 361
Çilikləmə bu sevdamı ........ 362
Mənə bir söz bağışla, dedim… ........ 362
Qızlarımız mənə deyir ki… ........ 364
Yaşıdım oğlan, gözlə, qızımı verrəm sənə ........ 365
Bir dəfə özü də bilmədən ........ 366
Ürəyimi açmaq istədim bir qıza ........ 367
Rübai ........ 367
Şamaxıya gedəndə, avtobusda... ........ 368
Adi pəncərə şüşəsi deyilmiş bu ........ 369
Elə yuxalanıb ürəyim sənsiz… ........ 369
Bu dünyanın nəyi var, mənimdi…. ........ 370
Bir telefon zəngi… ........ 371
Təzadlı sevgim…. ........ 372
Gözünü gözümdən yayındırma gəl… ........ 373
Bayatılar ........ 373
Səndi yerlər, göylər… ........ 374
Səksəndik, durduq… ........ 375

Barışdılar ........................................ 376
Necə doğmaydıqsa, elə də yadıq… ........................................ 377
Sən deyilmisən?.. ........................................ 378
Nadinc ürəyimdən… ........................................ 378
Yaman olar bu görüşün axırı ........................................ 378
Mənim məhəbbətim ........................................ 379
Kötük olmaq istəmədən ........................................ 379
De, niyə çırpınır… ........................................ 379
Məhəbbətmi söyləyim... ........................................ 380
Ağlımla hissimin cənginə bir bax… ........................................ 380
Sinəmdə iki ürək... ........................................ 381
Ürəyim sariban olubmu mənim… ........................................ 381
Ürəyin dolansa məni görməyə ........................................ 381
Görüş ........................................ 382
Son görüş ........................................ 383
Bir öpüş nədi ki… ........................................ 383
Necə əzazilmiş sərtliyin səni ........................................ 384
Gözlərimdə qəzəbdən… ........................................ 384
Dostum Sevinci sevdi ........................................ 385
Bilmirəm görüşdük harda … ........................................ 386
Öldün ürəyimdə ........................................ 386
Özünü qaytar ........................................ 387
Etiraf ........................................ 388
Gözlərə dolanda yuxu həsrəti ........................................ 388
Eşqim qırov tutur ........................................ 389
Tənhalıq, məhəbbət ........................................ 389
Əsdi ayrılıq yeli… ........................................ 390
Tutub bu dünyanın əl-ətəyindən... ........................................ 390
Hər gözəl görəndə… ........................................ 391
De, bir yadındamı ........................................ 391
Kim deyir ki, çaylar coşub-daşanda … ........................................ 391
Çox uyma qadının naz-qəmzəsinə ........................................ 392
Qısqanclıq ........................................ 392
Görüşünün yadigarı ........................................ 393
Gəlir ayrılığın susqun dalğası ........................................ 394
Taleyim nə «gözəl» sığal veribmiş… ........................................ 394
Dedin, “gəl, ayrılaq” ........................................ 395

Bir odlu gülüşdü dodağındakı ......395
Giley ......396
Ürəyim, lap vasvasıymışsan ......397
Bu hikmət qorxudur məni......397
Çaşdlm vuruldum sənə ......398
Sevgim bir dənizmi ......398
Qarsıb qısqanclığın od-alovunda… ......399

## MƏN, SƏN, BİR DƏ GECƏ

Bir gecənin yuxusuzluğu ......400
İnanmazsan səni sevdiyimə ......404
Ömrünün bir günü mənim olan qız ......407
Bu uzunluqda ömrü yaşamaqmı olar ......408
Bu gecəm yiyəsiz-yeliksiz it kimi... ......410
Bu gecənin ayrılığı nədi başqalarından ......411
Mənə bir şirin yalan de ......411
Allahsız-Tanrısız bir qənim kimi... ......412
Səndən vəfalı sevgilim ......414
Mənə həyat ver, dedin ......415
Söz açdın taleyinin kəmliyindən ......416
Bu həzin gecəni al qoynuna sən ......416
Yanlış telefon zənginin işığı ......417
Bilə bilmirəm harda görmüşəm... ......418
Bu gecə sən nə şirinsən ......419
Bu qərib gecənin kimsəsi varmı görəsən ......419
Bu gecə nə yaman uzundu ......420
Bu gecə mən yıxılıb öləcəm ......420
Gecə ötür yarıdan ......421
Kəlmələr nə pərən-pərən düşübdü......423
Sənin göz-görəti buz soyuqluğun ......423
Bu gecə yaman soyuqdu ......425
Məni xatırlama bu gecəyarı ......426
Gecə, sən, bir də mən......427

## NƏĞMƏ

Azərbaycan torpağı ......428
Azərbaycanımda gör ......429

Bayramınız mübarək ........................................................................ 430
Ömrüm sənsən, günüm sən ................................................................ 431
Ömrüm-günüm ..................................................................................... 431
Sənin bircə təbəssümün ..................................................................... 432
Nə belə fikirlisən .................................................................................. 433
Qəzəl ...................................................................................................... 434
Qəzəl ...................................................................................................... 434

**YARIMÇIQ ŞEİRLƏR** ..................................................................... 435

## III bölüm
## SEVDA, BABƏK VƏ DOSTLARI

Qənd balam, şəkər balam.................................................................. 439
Götürüb qayçını... ................................................................................ 439
Sadəlövhlük .......................................................................................... 440
Dolaşdı qıçı… ...................................................................................... 441
Sevda və Babək .................................................................................... 441
«Ata, ay ata!..» ...................................................................................... 442
Qar yağışı .............................................................................................. 442
Bütöv dünya mənimdi ......................................................................... 444
Bir ala qarğa... ...................................................................................... 444
Küşəyən Ceyhun .................................................................................. 445
Xəzərin sahilində .................................................................................. 445
Arazxan evcik tikir .............................................................................. 446
Çapar oğlan .......................................................................................... 446
Könül ..................................................................................................... 447
Neftçi olacağam ................................................................................... 447
Atam deyir ki… ................................................................................... 447

**AQONİYA** ......................................................................................... 449

Ayətxan Ziyad (İsgəndərov)
Məndən sonra...XII kitab
Ömrüm bir yaşıl yarpaq, rəngləri mənimki

**Himayədarı:**
**A.Azad Əhədzadə.** Fəlsəfə üzrə fəlsəfə doktoru, Fəxri Ədəbiyyat doktoru

**Dizayn:**
**Əlvan Cəfərov,** ADPU-nun elmi işçisi.

Kağız formatı 60x84 1/16.
Çap vərəqi 28,75.
Sayı 200.

## NƏŞR EDİLMİŞ KİTABLARI

✓ "Sənsiz, yaxud Arifsizlikdə ötən ömür". Bakı-2001, 400 səh.
✓ "Məndən sonra... (I kitab)". Şeir, hekayə, publisistika.
Bakı-"ULU"-2010, 616 səh.
✓ "Qazyanlı Mirhəbi ağa. ADPU-2010, 132 səh.
✓ "Qazyanlı Mirhəbi ağa" (təkrar nəşr). Bakı-"ULU"-2010, 149 səh.
✓ "Hər hökmü zaman verir". Kiçik povestlər. Bakı-2010, 100 səh.
✓ "Şamaxının Kürdəmic kəndi. Tarix, publisistika, rəvayət".
Bakı-2014, 70x100 1/16, 536 səh. Monoqrafiya.
✓ "ADPU-da qalan izim". Bakı-2014, 400 səh.
✓ "Dədə Qorqud" ünvanında sözüm" (kitaba müəllifin mart 2015-2017-ci illərdə qələmə aldığı elmi məqalələrdən müəyyən qismi daxil edilmişdir).
Bakı-"ULU"-2018. 268 səh.
✓ "Heydər Əliyev - xalqının, dövlətinin qürur ünvanı".
Bakı-2018. 168 səh. Monoqrafiya.
✓ "Heydər Əliyev və ədəbiyyat məsələləri: Azərbaycan ədəbiyyatının, mədəniyyətinin... – dövlətinin hamisi". Dərs vəsaiti. Bakı-2018. 104 səh.
✓ "Heydər Əliyev və ədəbiyyat məsələləri: Azərbaycan ədəbiyyatının, mədəniyyətinin... – dövlətinin hamisi". Dərs vəsaiti.
"LAMBERT Akademic Publishing" nəşriyyatı – 2018, 92 səh.
(İSBN-13: 978-613-9-88091-1); İSBN-10: 613-98800912).
✓ Zahid Xəlil həqiqətləri ədəbi tənqid müstəvisində.
Məqalələr. Bakı-2019, 132 səh.
✓ Bu mənəm – Ayətxan Ziyad. Bakı-2019, 520 səh
✓ "Ömrüm bir yaşıl yarpaq, rəngləri mənimkidi
(hekayə, povest, kino-ssenari, şeir)". Ankara, 2019, 460 səh.

İKSAD
Publishing House

978-605-80227-6-8